AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# TOVUZ FOLKLOR ÖRNƏKLƏRİ

## II KİTAB

BAKI – 2020

**AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**LAYİHƏ RƏHBƏRİ:** **Akademik Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYANLAR:** **fil.ü.f.d. Səyyarə QASIMOVA**
**fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**TƏRTİBÇİ:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**ELMİ REDAKTOR:** **fil.ü.f.d. Nigar HƏSƏNOVA**

**Tovuz folklor örnəkləri. II kitab.** Bakı, "Elm və təhsil", 2020, 328 səh.

folklor.az

T $\frac{4603000000}{N-098-2020}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2020

## TƏRTİBÇİDƏN

Əzizim ovun ovlar,
Ovçular ovun ovlar.
Murquzdan qalxan tərlan
Əlvizdə ovun ovlar.

"Tovuz folklor örnəkləri" seriyasından təqdim olunan bu kitab həmin rayonun folkloruna həsr olunmuş ikinci kitabdır. Bu bölgədən ilk kitab 2017-ci ildə nəşr olunub. Həmin kitaba rayondan toplanmış nağıl və lətifələr daxil edilib. Növbəti kitabda isə bölgədən toplanmış digər janrlar – əfsanələr, rəvayətlər, bayatılar, uşaq şeirləri, atalar sözləri, aşıq rəvayətləri, az miqdarda da nağıl və lətifə yer alıb.

Birinci kitabda da qeyd etdiymiz kimi, Tovuz Azərbaycanın folklor cəhətdən ən zəngin bölgələrindən biridir və bu zənginliyə görə tovuzlular vaxtilə bölgədə geniş yayılmış aşıq sənətinə borcludur. Təsadüfü deyil ki, Tovuz aşıq sənətinin konservatorityası hesab olunur. Bölgədə Aşıq Hüseyn Bozalqanlı, Aşı Əsəd, Mirzə Bayramov, Mikayıl Azaflı, Aşıq Qədir, Aşıq Səməd, Aşıq Qəhrəman, Şair Vəli, Əkbər Cəfərov, İmran Həsənov, Mahmud Məmmədov, Əhliman Niftəliyev və adını çəkmədiyimiz onlarla digər aşıqlar yetişmişdir. Təbii ki, bu qədər aşığın olması aşıq məclislərinin son dövlərə qədər davam etməsinə səbəb olmuşdur. Aşıq məclisləri, əsasən, sünnət toyları, oğlan toyu zamanı təşkil olunurdu. Sünnət toyu olanda aşıq toyu yola verdikdən sonra kənd sakinləri onu evlərinə aparardı, səhər tezdən həmin evdə "döyran" qurulardı. Yaxud oğlan toyunda gündüz zurna-nağaranın ifası ilə toy çalınırdısa, axşam evdə döyran keçirilirdi. Söyləyicilərin dediyinə görə, vaxtilə aşıqları toylara çağıranda onlarla kəsmət kəsilməzdi, yəni qiymət danışılmazdı. Toyda yığılan nəmər, verilən sifarişlərin pulu aşıqlara çatardı. Döyranlar geniş bir otaqda təşkil olunurdu. Döyrana gələnlər bardaş quraraq divar boyu dairəvi əyləşərdilər, orta isə boş qalardı. Yaşlı adamlar mütəkkələrə söykənərdilər. Baş tərəfdə aşıq üçün xüsusi stol qoyulardı. Stolun üstü bəzə-

nər, ora yemək, içmək qoyulardı. Aşıq həmin stolun ətrafında otu-rar, dincələn zaman sazını həmin stolun üstünə qoyardı.

Ortaya aşıq meydanı deyərdilər. Oraya kilim, gəvə sərərdilər. Ev yiyəsi aşığa naxışlı toxunma corab verərdi, aşıq həmin corabı ayağına geyinib məclisin ortasında durub havacat oxuyar və ya dastan ifa edərdi. Söyləyicilərin dediyinə görə, bəzən aşıq dasta-nı bir gecəyə tamamlaya bilmirdi, onun ardını növbəti gecə söy-ləyirdi. Kişi olan məclisdə qadınlar iştiak etməzdi. Qadınlar ayrı otağa yığışar, aşığı dinləmək istədikdə ustad aşıq da öz şəyird-lərdindən birini qadınlar olan məclisə göndərərdi.

Aşıq Məhəmməd Qasımoğlunun dediyinə görə, aşıq, məclisi ustadnamə ilə açardı. Üç ustadnamə dedikdən sonra divani, daha sonra təcnis ifa edərdi. Söyləyicinin dediyinə görə, divani, təcnis aşığın səsini açmağa, səs tonunu müəyyən etməyə imkan verirdi. Aşıq səs tonunu müəyyən edib ona görə sazını kökləyirdi. Diva-ni, təcnis ifa etdikdən sonra aşıq sifariş qəbul edərdi. Üzünü məclisə tutaraq deyərdi ki, ay camaat, indi siz deyin, sifariş qə-bul edək, yoxsa nağıl (el arasında “dastan” yerinə “nağıl” sözü işlənir) söyləyək? Sifariş vermək istəyən sifariş verərdi, aşıq onun sifarişini oxuyar, ondan sonra nağıla başlayardı. Nağıl söy-ləmək istədikdə də yenə bildiyi nağılların adını deyər, dinləyici-lər onların arasından hansını istəsə, aşıq da onu ifa edərdi. Adə-tən çoxluq hansı nağılı istəyirdisə, onu da ifa edirdi.

Yemək məclisə söhbətdən sonra verilərdi. Yemək qazanları məclis olan evin qapısının ağzına gətirilər, elə oradaca çömçə ilə boşqablara tökülüb məclisə paylanardı. Yemək paylanmazdan əvvəl aşıqlar döyrə gəzdirərdilər. Ustad aşıq yanındakı şəyirdlə-rindən birinə tapşırar, o da əlinə bir təpsi alıb məclisi gəzər, ki-min nəyə gücü çatardısa, təpsiyə nəmər atardı. Təpsini gəzdirən aşıq da onlara “Allah bərəkət versin”, “cibin dolu olsun” deyə alqış edərdi. Alakollu Aşıq İdrisin dediyinə görə, əvəllər belə bir ənənə var idi ki, birinci adam təpsiyə hansı məbləği atardısa, o biri adamlar da həmin məbləği atardı. Yığılan pul da aşığın özü-nə və şəyirdlərinə çatardı.

Belə məclislərdə dastandan əlavə qaravəllilər, lətifələr də ifa olunurdu. Qaravəllini aşıq özü ifa etməzdi, çox vaxt ya balabançı, ya da xüsusi danışıq qabiliyyəti olan şəxslər ifa edərdi. Qaravəllilər dastan ortasında ifa olunardı. Aşıq yorulduqda, dastana bir az ara verdikdə o zaman meydan qaravəlli ifaçılarına verilir, onlar öz bamәzә ifaları ilə məclisi güldürür, əyləndirirdi. Tovuzda məşhur qaravəlli ifaçılarından biri də Aşıq Qədir idi. Ünsiyyət qurduğumuz, söhbət etdiyimiz adamlar Aşıq Qədirin qaravəlli ifasından ağız dolusu danışırdılar. Onların dediyinə görə, Aşıq Qədirin xüsusi bir danışıq tərzi var idi. O qədər şirin, o qədər canlı ifa edərdi ki, məclisdə çibinin (milçəyin) belə vızıltısı eşidilərdi. Bəlağətli bir nitqi var idi. Məsələn, Şah İsmayılın çəmənzarə gəlib çıxmasını belə təsvir edərdi: "Şah İsmayıl gəldi bir çəmənzarə çıxdı. Çəmən nə çəmən? Süsən-sünbül, lalə-reyhan, nərgiz-bənövşə, qulançar elə də yatmışdı, belə də. Gül gülü çağırırdı, bülbül bülbülü". Yaxud, Koroğlunun plov yeməyindən danışanda deyirdi: "Koroğlu aş qazanının birini qabağına çəkdi, Xıdır Əlləz şapalağına qoyma dedi, düyünün vızıltısı daldakı adamın gözünü çıxarırdı". Yaxud, "Novruz Qəndab" dastanında Novruzun gəmisinin dəryada qərq olmasını o qədər canlı təsvir edərdi ki, camaat o səhnəyə laqeyd qala bilməzdi, "Allah sən saxla" deyə o hissləri öz içlərində yaşayardı. Yeri gələndə Aşıq Qədər roldan rola girər, qarı rolunu elə canlandırardı ki, camaat uğunub gedərdi.

Ünsiyyətdə olduğumuz şəxslərin xatirində Aşıq Qədir aşıqdan daha çox qaravəlli ustası kimi qalmışdır. Belə xatirələrdən birini Aşıq Əlixandan yazıya aldıq. Aşıq Əlixan özü vaxtilə Aşıq Qədir, Aşıq Əkbər Cəfərovla bir dəstədə çalışıb. Onun dediyinə görə, bir gün onları Gədəbəyin Qızıltorpaq kəndinə toya çağırıblar. Aşıq dəstəsi də Aşıq Əkbər, Aşıq Qədir, Balabançı Müseyib və Aşıq Əlixandan ibarət olub. Söhbətin ardını aşıq belə nağıl edir: "Camaat bizi çox yaxşı qarşıladı. Bir qismət çörək yedik, toyu başladıq. Ustad Əkbər mənə dedi ki, sazları bir az zilləşdirək, zil havalardan oxuyaq, camaatın xoşu gəlsin. Sazı bir-iki pərdə zilləşdirdik, köklərini qaldırdıq, başladıq zil havalardan oxumağa. Gördük, camaat heç diqqətlə qulaq asmır, amma yaxşı da çalıb-oxuyuruq. Bir-iki

saat məclis belə davam elədi. Baxdıq ki, məclis öz axarında getmir, camaat elə bil yorğun tərzdə seyr eləyir. Əkbər əmi oturdu. Biz də oturduq, bir istəkan çay içdikdən sonra Əkbər əmi dedi ki, ay Qədir, bəlkə bu məclisi canlandırasan? Qədir kişi dedi, bu saat. Aşıq Qədir sazı əlinə alıb qoltuğuna vurdu, yerindən elə sıçradı ki, düz məclisin ortasına düşdü. Üzünü məclis əhlinə tutub dedi ki, xuşi-guşinizi mənə verin. Orda bir qaravəlli danışdı ki, camaat gülməkdən uğunub getdi. Qaravəllini qurtarandan sonra bir qoca arvad yerindən qalxdı ki, ay sana qurban olum, bunu savaxdan belə eləsən, bu gedələri niyə qışqırdersan?"

Yaşlı adamların söylədiyinə görə, Aşıq Qədir deyərdi ki, on cür keçəl var: daz keçəl, qavlama keçəl, noxudu keçəl və s. Bunların hər biri haqqında da qaravəlli danışardı. Deyilənə görə, Aşıq Qədir Gürcüstanın Kəpənəkçi kəndində toyda keçəl haqqında qaravəllilərdən birini danışanda bəyin gülməkdən ürəyi dayanır. Bu hadisədən sonra Aşıq Qədir həmin qaravəllini bir daha söyləməyə tövbə edir. Deyilənə görə, hətta Qaraçöpdə həmin qaravəllini söyləməsi üçün ona bir bağlama pul da təklif edirlər. Aşıq Qədirin cavabı bu olur ki, tapancanı çıxart məni vur, amma o nağılı danışmaram.

Vaxtilə aşıq dəstələrində müəyyən baməzə adamlar olardı, məclisin müəyyən məqamında aşıq meydanı ona verərdi, həmin adam da öz lətifələri, hərəkətləri ilə camatı güldürüb eynini açardı. Tovuzun Öysüzlü kəndindən olan Əyyar İsrafil də belə adamlardan biridir. Əsl sənəti çayçı olsa da, baməzə, lətifə söyləyən adam kimi tanınırdı. Söyləyicilərin dediyinə görə, Əyyar İsrafil saçı-saqqalı dümağ nurani bir kişi idi. Aşıqlar onu öz yanlarında məclisə aparardılar. Məclisdə müəyyən məzhəkələr çıxardıb camaatı güldürərdi. Gah əyninə qadın paltarı geyinib məclisə girər, qadın səsi ilə danışıb camaatı güldürər, gah da yerə yıxılıb özünü ölülüyə vurardı və s.

Aşıq Qədir, Əyyar İsrafil kimi insanlar artıq çoxdan dünyalarını dəyişiblər, amma onların sözü-söhbəti, danışdığı, qaravəllilər bu gün də bölgədə yaşlı nəslin hafizəsində yaşayır. Bölgədə qaravəlli üslubunun güclü olmasının əsas səbəblərindən biri də budur.

# I. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. KƏKLİYİN AYAĞI NİYƏ QIRMIZIDIR?

Bir gün bir oğlan öylənermiş. Atın belində gəlin gəler. O vaxdı da gəlini üzüörtülü gətirellər, öyə gələnnən sora üzü açıler. Bu gəlinin üzüörtülü gələn mamentində bir şah oğlu da başında beş-altı adam oya çıxıbmış. Görör, yolnan gəlin aparellar. Toy çalıner, zurna çalıner. İstər-istəməz adamın ürəyi toy görəndə açıler, şaddaner. Bu da gəler bulara çater. Bular buna yaxınnaşanda birdən qüvvətdi külək əsir, bu gəlinin başınnan örpəyi götürör. Gəlinin başınnan örpəyi götürəndə şah oğlu baxer ki, ilahi pərvardigarə, bu dünya gözəli bir xanımdı. Deyir:

– Vəzir, vəkil, öldüm, bu qızı mana alın.

Deyillər:

– Ə, nə danışırsan? Xalxın toy üstə gəlinini... Camaat çönər, bizi qırar, filan-pesməkan.

Deyir:

– Olmaz.

Bu görör kü, yox, bular tərpənmiyəjək. Şah oğlu qılıncı qınınnan çıxarer, əlinə aler, bularin dalınnan. Gəlin belə baxanda görör kü, şah oğlu bulara çataçatdı. Atın başını çəkən adamın əlinnən qantarğeyi belə dartdığınnan əyağı üzəngidə ata bir mahmız vurur, iki mahmız, at götürülör. Burda-orda, burda-orda, burda-orda, gəlin atın belində, atı səyirdir, şah oğlu da munun dalınnan. Az gəler, çox gəler, təpədən belə aşanda görör kü, bir sıldırım qaya var. Qız fikrində tutor kü, qayanın başına çatar-çatmaz özümü o qayadan təpəsi üstə qıfçıjam[1]. Mən nişannıma sadiq olmalıyam. Mən şaha getmijəm, nolsun şah oğludu. Qayıya çataçatda şah buna yetirer. Şah buna yetirif əlini qıza uzadanda qızın əlacı kəsiler, deyir:

– Ey pərvərdigarə, insanı yaradan sənsən, öldürən də sənsən, yetirən də, itirən də. İlahi pərvərdigarə, məni öz yarıma yetirməsən, bu kişiyə də yetirmə. Məni bir quş elə, uçum gedim burdan, bu kişinin əlinnən qutarım.

---

[1] Qıfçımaq – atmaq

Bu qız olor bir dənə kəhlik, əlləri, əyaxları xınalı. Çıxer qayanın başına, başdıyır burda qakqıldıyıf cəh-cəh vurmağa. Şah oğlu da qaler qayanın əyağında. Da munu ala bilmer. Əlləri xınalı kəklik, telləri xınalı kəklik bax onnan qalıf.

## 2. GƏLİNBOĞAN

Gəlinboğanın da qəribə bir əhvalatı var. Evdə heyvan kəsilmişdi. Qaynənənin buyruğu bu olur ki, a bala, apar çayda bu qarın-qarteyi təmizdə, gətir. Təzə gəlindi. Özünün təmiz-tarahlığına inandırmax, həm də əllərinin şümşad kimi olmasına inandırmax üçün bağırsağı çöyürdü, qarını boşaltdı, hamısını yudu, təmizdədi, qat-qata gəldi. Qat-qat təmizdənəsidimi? Təmizdiyir, açer, carrıyır, bir də təmizdiyir. Başı qarışıf... Çirmənif dağ çayına girif. Bu yazıx o qədər əlləşdi, vuruşdu, qəflətən başının üstünü sel aldı. Yazıx gəlini sel apardı. Gəlin suda boğuldu. Yəni, gəlin qarınnan o qədər əlləşer ki, selin gəldiyini hiss eləmədi, sel onu apardı. Bax, o mədəciyin adı ona görə gəlinboğan qaldı.

## 3. QIZI UDAN ƏJDAHA

Bir oğlannan bir qızın bir-birinə meyli qonur. Köhnələr demiş, quşu bir-birinə qonur. Ancax qəzadan nə oğlanın, nə də qızın ata-anası bu izdivaca razı döyüllər. Gejənin birində oğlannan qız bir-birinə qoşulur, nə bilim, Tiflis tərəfdənmi gəler, Gəncə tərəfdənmi gəler, həmən bu karvan yolunnan gedillər. Gejənin bir aləmində karvansarıya rast gəlillər. O vaxt da bilirsiz ki, karvan yolunun üstündə bir mənzildən bir, iki mənzildən bir karvansaralar var idi. Topdağdağanın[2] da quruluşu onu göstərir ki, ora karvansara tipli bir qala oluf. Gejənin bir vədəsində nə qədər qapıyi döölIər, açan olmur. Həm də ehtiyat edirlər ki, buları tanıyan olar. İsti yayımış. Bular da ilk dəfədi tək qalıllar bir yerdə. Elə bir-birinə qol-boyun oluf o daşın birinin üstündə uzanıllar. Rahatcana burda qol-boyun oldular, üzr istirəm, yatdılar.

---

[2] Topdağdağan – yer adı

Gejənin bir aləmi qız canına sirayət eliyən soyuğluxdan dihsindi. Gördü bir əjdaha onu ayaxdan kamına çəkməhdədi. Oğlanı dümsühlüyüv oyadır ki, dur, məni əjdahanın cənginnən xilas elə. Oğlan bu ilmi ölüfsən, bildirmi. Həqiqətən, bu qurdun da, əjdahanın da, ilanın da çox zəhmi olur. İnsan nə qədər qurd ürəyi yimiş adam olsa da, elə bil ki, tilsimə tüşür, nitqi batır. Nə qədər dümsühlüyür, oğlan biilmi ölüfsən, bildirmi. Qızı qurşağa qədər əjdaha kamına çəkif. Görür kü, oğlannan hay yoxdu. Deyir ki, ay namərd, sənin kimi ölüvayın, ağzını qatıx kəsməzin birinə baş yoldaşı olmaxdansa, elə əjdahaya yem olmax daha yeydi[3]. Qollarını da yana açıpbış kı, əjdaha daha udmasın. Güman eliyirdi ki, bunun sevgilisi, bunun yarı duruf əjdahanı qılıncdıyasıdı. Deyir, yana aşdığı qollarını yuxarı qaldırır. Qızı əjdaha udur. Orda daşdar var idi, yeddi-səkgiz daşıydı. Deyillər ki, əjdaha, ilan ovunu udanda həzmə getməy üçün onun sümühlərini qırmalıdı. O daşa dolananda qızın sümühləri elə şakqıldıyır ki, karvansaranın gözətçisi şakqıltıyı eşider. Oğlannan soruşollar, noluf? Oğlan da dili tutar-tutmaz, olan-keçənnərdən xəbərdarrığ eler. Onnan sora oğlanın öldüsü, qaldısı bilinmir.

Xalq yaşatdığı bu folklor nümunəsi ilə deməк istiyir ki, ailə quranda, atadan, anadan xeyir-dua almax lazımdı. Sənin üstündə haqqı olanlardan, elə nənədən, bavadan, lap yaxın qonşudan, münasibətdə olduğun insannardan xeyir-dua alınmalıdı.

## 4. HAL

Mənim nənəm irəhmətdih söhbət eliyirdi ki, səkgiz yaşında idim. Kürün o tayında yaşıyırdıx. Alt yanımız meşəlihdi, yemişənnih iydi. Bir arvat varıdı. Maa dedi, gedəh yemişən yığax. Yemişən yığmağa gedəndə bu uxarı çıxdı – ağacın başına, mən divində qaldım. Bu qırer tullor, mən də dənnerəm. Bir də ördüm, şıkqıltı gəler. Dedim, bu nə şıkqıltıdı? Dedi, ağrın alem, sən işində ol. Mallardı, buralarda otdeellər. Bir də baxanda ördüm, iki metr hündürlüydə, döşü də belə sallaner, çiyninnən atıfdı. Eləsi də var, dizinə dəyer.

[3] Yeydi – yaxşıdır, uyğundur

“Gəldilər”, – dedim, qaşdım. Öyə girən kimi yıxıldım. Su töhdülər, məni ayıltdılar. Dedilər, ağız, nooldu saa? Dedim, bir şey gördüm, qaşdım. Bular töküldülər, getdilər. Gördülər, ağaca çıxan arvat da yıxılıf – ağacın divindədi. Munu ayıltdılar. Həmin arvat dedi, dört-beş dənə hal arvadı idi, məni ağaşdan tüşürdülər. Dedilər, döşümüzü əmejehsən. Mən əmmədihcə döydülər məni, güjnən ağzıma sağdılar. Məəm də ağlım başımnan getdi.

## 5-7. CİN

Sona addı arvat varımış, hadıxçıymış. Onda da doxdur hardaymış qadınnarın uşağını tuta, hadıxçı uşağı tutordu. Yatdığı yerdə arvat görör ki, munu gəlif çağırellar. “Ha, nədi?” – dəəndə, deer, ay Sona xala, bir dur. Duranda örör, bunnar ayrı cür adamdı.

– Ay bala, kimsiniz, nəçisiniz?

Deer:

– Hər kimik, gəlnimizin uşağı oluf, səni aparajeyıx. Oğlu oldu, səni qızıla bəliyif gətirif burya qoyjuyux. Qızı oldu, onda bil ki, səni boğuv öldüröjöyüh.

Deer, vay, mən öldüm. Sən demə, bunnar cinnəriymiş – cin dəsiymiş. Arvat deer: “Allah, mən nağeyrim?” Arvadın bir də yadına tüşör kü, bıy, məəm jiletimin civində mum var. Duror, mumun elə topunu götürör, cibinə qoyor, geder.

Gedəndə örör, hə, gəlinin hayındadılar. Deer, doğulanda ördüm uşax qızdı. Mumu belə vəzdədim[4], deer, muna yapışdırdım. – “Ağız, oğlandı, oğlandı”. Hə, arvada əllərinə ələnnən, qollarına ələnnən verellər. Cinin biri deer: “Ağız, filankəsin ələyi unun üsdədi. Gedin, bir qırnıx un ələyin, gətirin”. – Mənim kimisin birinin ələyi unun üsdə qalıf dana. – Un apartdırellar. – “Ağız, filankəsin qarını dolu yağdı. Edin, yağ da ətirin”. Burda, deer, bir qazan halva çaldılar, yeməh, içməh. İndi, deer, qorxuram ki, qurdalıyıv mumu qopardallar. Fürsət axtarıram ki, görüm qaça bilerəmmi? Arvadı gətirellər, öyünə qoollar, gedellər. Arvat deer, mən durom harya qaçem, dalımnan gələllər bullar. Duror, üsdünə iynədən, sancaxdan sancer ki, buna yaxın gələn olmasın.

[4] Vəzdədim – yumuşaltdım

## 6.

Bir Xanəhməd ağacı varıdı kəndin əyağında. Köhnə ağaşdı, Niqalay vaxdının ağacı. Xanəhməd kişi varıymış, munun ağacıymış bu ağac – cöyüz ağacı. Bööh ağaşdı, neçə yüz yaşı var. Munun bu tərəfində kişinin öyü varımış. Munun arvatdarı günüz yığılellarmış, köməhçili hana, gəvə toxuyullarmış, gün yaxanda durollar, dağılellarmış dana öyə. Öy yəəsi öyündə qaler, bu əməlöməcilər geder. Bular gedənnən sora cinnər oturollarmış, mahnı çala-çala bu hanıyı sökör, tököllərmiş. Bir belə, beş belə. Belə-belə kişi zinhar olor. Deyer, ağız, güjdü odun yığın burya. Axşam olar gələndə ojax qaleyjam, gözdüjəm.

Ocağı qaleer, bu gözdüyür. Bir də göröllər, cinnər gəlellər mahnı oxuya-oxuya. Cərgələnəndə Xanəhməd kişi nöyüt tököf, tonqalı baser. Kösöyü əlinə aler, bulların dalınnan döşəner. Birinin muncuğu var imiş, oturanda muncuğu çıxarder, hanadan aser. Asanda Xanəhməd kişi deer ki, qıreyjam, oddojam sizi. Dağlıyır buları. Bir əz anrı gedəndə gəlin ordan çağırer ki:

Ay Xanəhməd, ay Xanəhməd,
Hanada qaldı muncuğum, ay Xanəhməd.
Yandı yanım-yançağım, ay Xanəhməd!

Kişi gəlif baxanda örör, bir eylə muncuxdu ki, bax bu yekəlihdə, asılı qalıf hanada.

## 7.

Telli Əsədin qardaşı Aşıx Alas idi. Aşıx Hüsöynün birinci şəyirdi Aşıx Alas olmuşdu. O, zurna da çalmağı başarerdı. Bir hava çalerdı, deerdi, bu, cin havasıdı. Deerdilər, munu hardan örgəndin? Deer, Ceyran çölünə ederdim, bir də ördüm dört yanımı adam kəsdi. Məni götürdülər, apardılar o birsi dərəyə. Maa təzəhdən-zaddan qoydular ki, yiginən. Yimədim, döydülər. Amma zurna çalellar bullar. Haveyı da olardan örgəndim.

## 8. OVÇU PİRİM

Oyçu Pirim bütün cannı-cinninin dilini bilermiş. Bir gün görör, bir canavar güneyin bu başında, biri də o dağın başında ulo-

yor. Biri deyir ki, filan yerdə bir at var, o maa qısmatdı. Biri də deyir ki, beyjə Oyçu Pirim maa qısmatdı. Beyjə mən yeyəjəm onu, Oyçu Pirimi.

Hə... Axşam Oyçu Pirim gəler, qohum-əqrəbəsinə deyir ki, ay qohum, ay qardaş, məni bu gejə canavar yeyəjək. Deyillər, ə, sən dəlisən, nəsən? Səni otağa qoyarıx, filan eliyərik, nağayrarıx.

Gəlellər, bir iyirmi metrə quyu qazellər, Oyçu Pirimi kəndirnən sallıyıllar quyunun içinə. Sabah gələndə görüllər ki, canavar yerin altınnan dələ-dələ gəlif Oyçu Pirimi yeyif. Oyçu Pirim də vəhşi heyvannarın hamısının dilini bilermiş. Onun da qısmatı o oluf.

## 9. KOROĞLU

Belə söhbət eliyillər ki, guya Koroğlu əvvəlcə Kür çayının qırağında – Ceyrançöl sahilində məskən salıf. Koroğlu ürəyinnən keçirif ki, birdən düşmən üstün gələr, mən bu Kürü keçəsi olaram. Görəy keçə bilərəm, keçə bilmərəm. Qıratı səyirdir, Kürün üstünnən atı tullandırer. Kürün də eni çoxdu axı. Bu təbii ki, rəvayətdi. Kür də qəzəbli çaydı də. Onun elə adınnan məlumdu. Dəli Kür qəzəbləner ki, bu nədi, mən Kür olam, mənim üstümnən gələ bir uşax at tullandıra. Kür ajıxlaner. Qıratın qavağ ayaxları sahilə çatanda, dal ayaxlarınnan çəker suya saler. Koroğlu baxer, Kürə tərəf üz tutor, deyir:

– Ay Kür, sən dəli, mən dəli. İki qoçun başı bir qazanda qaynamaz. Mən getdim dağlara tərəf. Sən salamat qal!

Bunnan sora Koroğlu atını süror, geder Çənlibeldə məskən saler.

## 10-11. HAQQ QAN

Abbas kişi söhbət eliyirdi ki, Ağstafanın Eynallı tərəf kəndlərində Hajı Tağı adında nüfuzlu bir ağa oluf. Bunnan sovet hökümətinə şikaatdar gedirmiş. Gəncə-Qazax GEPO-nun rəisi Alsöyün, bir də Qaçax Kərəmin bajısı oğlu Hajan –bular ikisi gedir Hajı Tağıyı həbs eləməyə. Hajı Tağı o qədər zəhmli kişi olub ki, evində əlində silah gəvənin üsdündə bardaş qurub oturub, buların gəlişini gözdüyürmüş. Bular içəri girəndə bulara xoş gəldin eliyir. Deyir, gəldinizmi? Bular da deyif, gəldik. Deyif, icazə versəniz

sizə bir söhbət eliyərdim, onnan sora siz qərar verərdiniz. Razılaşıllar, oturullar süfrəyə.

Hajı Tağı söhbət eliyir ki, qojalığında Koroğlu yoldaşı Nigar xanımnan səfərə çıxıbbış. Birinin əlində ağaşqundaxlı alət görör. Soruşur ki, bu nədi? Deyir, bu tüfəngdi. Deyir, bunu necə istifadə eliyillər? Deyir, bunu aralıdan atırsan, adamı öldürür. Deyir, o öküzün birini öldürə bilərsən? Deyir, öküz qiymətdidi. Korğlu çıxardır buna öküzün pulunu verir ki, öldür, əvəzində bir öküz alarsan. Bu atır öküzü öldürür. Onnan sora Koroğlu deyir ki, daha qılış zamanası keşdi. Qılıncını atır, Nigar xanım da qılıncı görtürür, gizdiyir.

Bir müddət gedənnən sora buların qabağına üç atdı çıxır. Ona qədər bular söhbət eliyir. Nigar xanım deyir, a Koroğlu, sən ki tüfəngdən qorxdun, sənin indiyə qədər qılışnan tökdüyün qannar nahax qandı. Bu da Koroğlunun bərk ajığına gəlir. Üç qoluzorru adam Nigar xanımı görür. Biri deyir ki, mənimdi, o biri deyir mənimdi. Koroğlunu saya saymıllar. Deyillər, gəlin at çapağın, kim tez çatsa, o götürsün. Hamısı eyni vaxda çatır, bir də çapıllar. Nigar xanım deyir, a Koroğlu, bəs sənin adın var, sanın var, bular belə iş görür, məni aparıllar. Deyir, yox, mən nahax qan tökmüşəm, sənə kömək durmaram. Bir dəfə, iki dəfə, Nigar bir də deyir, ə sənin heç adın yox imiş, mən özüm özümü müdafiə eliyərəm. Qılıncı çıxardır. Koroğlu qılıncı Nigarın əlinnən alır, buların üçün də məğlub eliyir. Sora deyir, ay Nigar xanım, mənim indiyə qədər tökdüyüm qannar hax qanı oluf, ona görə mənim adım həmişə yaşıyajax. Amma bular günaha batdığına görə mən buları məhv elədim.

Bu söhbəti danışannan sora Hajı Tağı deyir ki, ay Alsöyün kişi, mənim də gördüyüm işlərin hamısı bu cür hax işi olufdu, siz də gəlifsiniz məni tutmağa. Bu söhbətdən sora o kişiyə dəymirlər.

Mən bir az qısa danışdım. Babam bunu şeirnən deyirdi.

## 11.

Bizim kəntdə Gülməmməd oğlu Qara oluf, Qazaxda milisoner işdiyirmiş. Orda işdiyən vaxdı bir gün rəis buna deyir ki, atdanın, bir yerə gedəjeyih. Bu da deyir, bizim ixdiyarımız yoxuy-

du ki, rəisə deyək hara gedirik. Atdandıx, gəldik Göycəliyə[5] çıxdıx. Gördük otdan hasar çəkiflər, üsdünə də tikan vuruflar. Bilmerik kimin evidi. Gördüm rəis çağırır ki, ay Hajı Tağı, ay Tağı. Arvad çölə çıxanda dedi:

– Hajı Tağı öydədimi?

Bu dillənən kimi Hajı Tağı çölə çıxdı, əlində də onaçılan. Dedi ki, nədi, xeyir ola? Amma əli onaçılanda tətihdədi. Deyəndə dedi ki, içəri gəlin. İçəri girən adamı buraxellar, çölə çıxan adamı buraxmellar. Uzun söhbətdən sora Hajı Tağı dedi ki, ay rəis, bir gün Koroğlu evlənmişdi, Niyarı almışdı. Aradan bir az keçir, bir gün Niyar deyir:

– A Koroğlu, mən daşdan, ağacdan ha yaranmamışam, mənim də atam-anam var. İcazə ver, atamın, anamın yanına dəyim, nolar, dünya dağılmaz.

Dəlilərdən Dəmirçioğlunu, İsabaleyi, Eyvazı çağırer, deyir ki, bunu aparın. Soruşor, havaxt gələjəhsən? Söz gəlişi, üç aydan sora.

Bular gedillər. Üç aydan sora Koroğlu buları göndərir ki, gedin Niyarı gətirin. – Bunu Hajı Tağı söhbət eliyir rəisə. – Bular gələndə Niyar buların qarşısına çıxer, deyir:

– Xeyir ola?

Deyir:

– Vədəmiz var da, sən üç aydan sora gəlməliydin.

Deyir:

– Yox, mən getmerəm.

Deyir:

– Niyə getmersən?

Deyir:

– Koroğlu quldurdu, adam öldürəndi, mən helə adama getmerəm.

Nə qədər eliyillər, gəlmer. Kor-peşman geri qayıdıllar. Koroğlu da, deyir, Ağ qayada oturub dürbitnən baxırdı. Baxanda görör kü, dəliləri gəler, amma Niyar yoxdu. Gəlib çatanda soruşor ki, noldu? Deyillər, Niyar gəlmədi.

– Niyə gəlmədi?

---

[5] Ağstafanın Göycəli kəndi

– Dedi ki, Koroğlu quldurdu, başkəsəndi, mən ona getmerəm.

Koroğlu deyir, bu səfər özüm təkcə gedəjəm dalınnan. Koroğlu Qıratı miner, geder çıxer oroya.

– Ay Niyar, niyə gələmersən?

Niyar bulara dediyini buna da deyir. Deyir, ay Niyar, olarmı and içim oların hamısına, tööbə deyim. Deyir deynən, gedim sənnən. Deyir, and bu, Quran bu, buların hamısının üsdünnən xətt çəkdim. İndi gəl gedək.

Atdaner, gəlellər. Yolnan gəldikləri yerdə qavaxlarına iki atdı gəler. Gələndə göröllər ki, bir gözəl-göyçək gəlindi, yanında da bir yekəpər adamdı. Deyillər, bu gəlini bunun əlinnən alax. Niyarı Koroğlunun əlinnən alellar. Koroğlu and içif da, andını basmer, bulara müqavimət göstərmer. Bu quldurlar bir-biriynən dava döyör ki, bu mənimdi, o deyir mənimdi. Koroğlu deyir ki, niyə özüzü biyavır eliyirsiz. Atdarızı bir mənzil sürün, gəlin görün hansızı bəyənəjəhdi. Belə də eliyillər. Bir dəfə gedellər, iki dəfə gedellər. Niyar deyir, ay Koroğlu, öyün yıxılsın, nağayrersan sən? Deyir, nağarım, mana and işdirmisən. Deyir, olarmı mən deyim. Deyir, nədi? Deyir, nə qədər and içifsən onun hamısı mənim atama, qardaşıma gəlsin, amma burda namus əldən gedir. Amandı, gör nağayrersan. Aannan gəlellər. Gələndə deyillər, hansımızı bəyəndin? Koroğlu deyir, məni bəyəndi. Koroğlu buları yıxır, əl-qolun bağlayır.

Hajı Tağı deyir, ay nəçəlnik, varımı-dövlətimiz apardınız, qızılımı apardınız, indi mənnən nə isdiyirsiniz? Bular and-aman eliyir ki, ay Hajı Tağı, and bu, Quran bu, eləjə səni yoluxmağa gəmişik. Çörəhdən zaddan yeyif çıxıf gedifļər.

## 12. SÜLEYMAN PEYĞƏMBƏR

Süleyman peyğəmbər pütün quşdarın, heyvannarın, dünyada nə qədər canı-cinni, həşarət-məşarət var, onun dilini bilerdi. Bir gün Süleyman peyğəmbər çuxası əynində bir düzəngahnan gedəndə görör kü, düzəngahın ortasında su var. Su elədi dumduru. Elə bilersən durna gözüdü, balaca göl kimi. Burda bir ördəy, yanında da dörd-beş balası çırpınıf çimellər, suda üzüllər. Amma ördək dilə gəlif deer ki, gəlməliydi gəlmədi, gəlməliydi gəlmədi.

Süleyman peyğəmbər muna yaxınnaşer, bir az duror baxer. Deyir ki, qıraxda duruf buna baxajam göröm bu nə sirrdi, bu nə seyrangahdı. Kimdi gəlməliydi, gəlmiyən? Mən quşdar padşahı olam, dil biləm, bunu bilmiyəm. Bu nədi? Bir də baxanda göröllər ki, uzaxdan bir qaraltı gəler. Muna çox diqqət eliyif baxanda görör ki, bu qaraltı bir atdı. Atın üstündə bir cavan oğlan bu atı sürüf həncəri gəler, Xudavəndi-aləm, ley kimi, badeyi-sərsər, abiyi-kövsər kimi. Gəler bu bulağın yanına çatanda atdan tüşör. Atın qantarğasını üzəngisinə bağler, atı buraxer otdamağa. Özü tez su götürör, burda əlini yuur, üzünü yuur. Dəstəmaz aler, yönünü çöörör, namazını qıler. Namazdan fariq olan kimi oğlan bircə dəfə deyir:

– Ah!

Vəssalam. Getdi. Süleyman peyğəmbər muna baxer, baxer, baxer, deyir:

– İlahi pərvərdiyara, sana qurvan olum. Bu nə sirriydi?

İndi görör ördəy deyir ki, gəlməliydi gəldi, getməliydi getdi. Gəlməliydi gəldi, getməliydi getdi. İndi də ördəy burda belə ötör.

Peyğəmbər deyir:

– Görən nədi bu?

Tez fikirrəşer, yadına tüşör, barmağını tişder.

Deyir:

– Ha! Bu, bu oğlanın alın yazısıydı. Bu ördək də mələykələrdən idi. Ördək donunda gəlmişdi. Deyir ki, gəlməliydi, vaxtı tamamıydı, əjalı çəkilmişdi, gəlmədi. İndi vaxtı tamam oldu, əjalı çəkdi, oğlan gəldi, getməliydi getdi. Bax bu da belə rəhmətə getdi.

Hər kəsin alın yazısı var. Dünyada alın yazısından qaçmaq olmaz. Həbibə təbib olmaz. İlahi-pərvərdigarın verdiyi qismətdən qaçmaq olmaz. Harıya getsən, o qismət sənnəndi. Nə verib onu da görəjəhsən.

## 13. PEYĞƏMBƏR AĞ GÜNÜ KİMƏ VERDİ?

Məhəmməd əleyhsalam bir gün gəzməyə çıxmışdı. O qədər yol getdi ki, möhkəm yoruldu, susuzdadı. Bir yolun qırağınnan gedəndə çinarın divinnən bir yaxşı bulax çıxerdı. Dedi, gedim o bulaxdan bir su içim. Burya gələndə gördü, burda bir qız var.

Sən deyən gözəl də döy, çirkin də döy, ortavari bir qızdı. Qavağına bir qab töküf, hamısı mis qavlar, başdıyıf burda sürtməyə. Qavları sürtör yuyur, sürtör yuyur, ağ, sarı mis qavlar. Qız başını qaldırmadan qavları sürtör. Peyğənbər muna baxdı, baxdı, heş nə demədi. Baxdı ki, o tərəfdə də bir dəstə oğlan uşağı döyrə vuruf, ortalarında da bir qız. Burda lakqırtı təpellər. O deyir bu gülür, bu deyir o gülür. Lağlağı deyillər, nəvilim, kəsmət kəsellər, bir-birinə atmacalı söz deyillər, gülüşüllər. Uje peyğənbər susuzluxdan təntidi. Bu qıza dedi ki, a qızım, a qızım, gəl o bulaxdan mana bir qav su gəti, içim. Qız belə baxdı, dedi:

– A kişi, sən kimsən mən sana su gətirim? Nəyşə, get suyu iç. Mən sana su gətirənəmmi? Görörsən ki, biz burda söhbət eliyirik, deyif gülürük.

Kişi kirimişcə heş nə demədi. Bir nəfər də Allah adamı qıraxdan buları müşayət eliyirdi ki, görüm peyğənbər haraya gedəjək, ağ günü kimə verəjək, qara günü kimə verəjək, mən də munun arxasıncan gedəjəm. Qız bunu dedi, başdadı bularnan öz işini görüf, söhbətini eliyif, deyif gülməyə. Qav sürtən qız munu eşitdi. Qavın birini götdü, möhkəm-möhkəm sürtdü, yüdü, salavatdadı, carradı, doldurdu bulax suyunnan. İki əlinnən patnus kimi belə götdü, gəldi dedi:

– Ay baba, buyur, suyu iç, halalın olsun.

Kişi götdü suyu işdi, içənnən sora cəmi qaytarıf verəndə yönünü bu qıza çöyürmədi. Oğlannarın ortasında duran qıza dedi ki, a qızım, Allah sana ağ gün versin. – İndi bilmerəm peyğənbər bunu hirsnən deyirdi, yoxsa həqiqi ürəkdən deyirdi. – Bu birsi kişi də qıraxda duruf. Su verən qız da qavını apardı getdi. Kişi dedi:

– Ya peyğənbər, fida olum sana. Sana o qız belə cavab verdi, o biri qız da su gətdi. Sən niyə o qıza ağ gün verdin, o qıza da heş nə demədin, cavab vermədin?

Dedi:

– Ona görə o qıza mən ağ gün verdim ki, onun dili zəhər, özü də bədgüman. Qoy o ağ günə düşsün kü, ağ gündə dolana bilsin. O biri də zəhmətkeş, cafakeş, özü də qoçax bir qızdı. Gör o qavları helə sürtən öyü nətər yığar, işi nətər görər? O, öz əməyinnən, qoçaxlığınnan harda olsa çörək tapıf yijək.

## 14. “ƏRRAHMAN” SURƏSİNİN YARANMASI

Bir yaxşı kadın, ərinə sadiq gəlin bir çobana gedifmiş. Bu çoban da qoyun otarermış. Səhər qoyunu aparer, axşam gətirer. Bu gəlin deyir:

– A kişi, sana ürəyim ağreer, yazığım gəler. Sən günün ağzına geder, bütün günü yanersan, yapışersan.

Deyir:

– Arvad, qismətimiz belədi, nağayrağ. Uşaxlarımızı, balalarımızı yekələndirməliyik.

Deyir:

– Yaxşı.

Bu kişi gedənnən sora arvad duror xamır yoğuror, kündöyü tökör, sajı aser, başdıyır günün altında çörəyi bişirməyə. Amma yoldaşının adı Ərrəhman imiş, gəlinin adı da Sura. Fida olduğum peyğəmbər də yolnan gedermiş. Gəlib belə keçəndə bu deyir ki, a qızım, çörəyin bərəkətdi olsun. Bu da deyir ki, ay baba, çox sağ ol. Xoş gəlifsən, gəlin oturun, əyləşin, bir kısmat isti çörək kəsin. Deyir:

– Çox sağ ol, çörəyin bol olsun, süfrən açıx olsun. Elə yemişə əvəzik. A qızım, icazə verərsənmi sənnən bir söz soruşam?

Deyir:

– Əmi, soruş, ayıf döymü?

Deyir:

– Sən niyə bu günün ağzında bişirirsən o çörəyi, gedif o kölgədə bişirmirsən? – deyəndə deyir ki, ona görə günün ağzında bişirirəm ki, məni bu evə gətirif bu uşaqların anası eliyif, bu evdə saxlıyıf çörək qazanan kişi çobandı. Bütün günü günün ağzında o çöldə yanıf yapışer. O həncəri günün ağzında yansın yapışsın, otusun, mən də kölgədə çörək pişirim, kölgədə oturum, kölgədə yiyim? Ona görə mən günün ağzında bişirirəm. Bu belə deyəndə peyğəmbər deyir ki, halal olsun sana qızım. Adın nədi? Deyir:

– Adım Sura.

– Yoldaşıyın adı nədi?

– Ərrəhman.

“ Ərrəhman” surası elə onnan qalıf.

## 15. PEYĞƏMBƏRİN MÖCÜZƏSİ

Günlərin bir günü peyğəmbər dini qüvvəyə mindirməy üçün camaata dedi: “Ay camaat, yığışın qəbirsannığa”. Qəbirsannıxdan ölü qaldırajam, danışdırajam. – Bu saadın özündə də bir ilahiyyətçi desə ki, qəbirsannıxdan adam qaldırajam, heş kim ona inanmaz. O vaxdı da peyğəmbərə inanmırdılar. – Nəysə, yığışdılar getdilər. Peyğəmbərə dedilər ki, biz hası qəbri dijeyihsə, onu qaldırajaxsan. Bəlkə sən beyjə gətirif orıya diri adam qoyufsan. Peyğəmbər dedi, hansı qəbrin üstünə əlinizi qoyursunuz, onu qaldırajam.

Camaat yığışdı. Peyğəmbər üş dəfə bular göstərdiyi adamı çağırdı. Bir dəfə çağırdı. Hardadı ə, adam? Hərə bir tərəfə yığışdı, rişxəng eləyən, ələ salan. İki dəfə. Üçüncü dəfə qəbir yarıldı, boynunda kəfən qəbirdən bir adam çıxdı. Peyğəmbər dedi:

– Ana bətninə tüşənnən bu qəbirə gələnə kimi başına nə hekayət gəlifsə söylə, camaat qulaq assın.

Bəyağları buna inanmıyanların kiminin gözü kəlləsinə çıxdı, kiminin ürəyi yatdı, kimi özünnən getdi. Bu dedi:

– Mən anadan doğuldum, yeridim, yüyürdüm, yortdum, çatdı məytəbxana vaxtı. Getdim mollaxanıya, oxudum. Bir sinif, iki sinif... Bir gün məni, deyir, məktəbdə ağrı tutdu. Azarımnan od kimi yaneram. Gəldim öyə. Anam mana yer saldı, çay qaynatdı. Bu məytəfdə indiki müəllimlər kimi o vaxtı da mollalar dərs deyirmiş. Bir molla bu uşağın dalınnan geder ki, görsün bunun vəziyyəti-zadı… Gedəndə görör ki, bu, qızdırmanın içində yaner. Anası əlini uzader əyağına. Əyağına uzadanda görör ki, əyağı soyuyuf. Saçını yolor, ağlamağa başdıyır. İnsan öləndə, bu kişilər yaxşı bilir, əyaxdan başdıyır soumağa. Bu dedi: “Ana, yeni irahatdaşeram yoaş-yoaş. Sən niyə ağlıyırsan, niyə özünü öldürörsən?” Ha, ha, gəldi ürəyə çatanda bu rəhmətə gedəsi oldu. Gəldi mollalar, mənim sinif yoldaşdarım. – Bu uşax peyğəmbərə söylür ha... – Cənazə quruldu. Namaz vaxtı mən də o uşaxların içindeydim. İstədim mən də mərsiyəmi deyəm, onnan sora söhbət eliyəm. Buların hamısı maa dedi: “Sən sus, sakit otur”. Getdih, deyir, qəbirsannığa. Qəbirsannığa gələndə, – bu saatın özündə də, adətdi, molla deyir ki, əyağını belə qoy, başını belə çək – maa dedilər ki, tüş

onun bir əzcə əyağını belə çəh, başını belə çəh. Bir vaxtı mən başımı qaldıranda, gördüm, vay-hay, ölən mənəm. Başım əhlət daşına dəydi. O günnən bu günə mən məleykələrin saçına selyan[6] düzörəm. Düzörəm, axıra çatanda selyan tökülör, bir də düzörəm, selyan tökülör, bir də düzörəm. Canım sana fida olsun, sənə üş dəfə eziyyat verdim. Sən birinci dəfə, ikinci dəfə çağıranda iki dənə selyan qalmışdı, oları taxırdım, üçüncü dəfə çağıranda gəldim.

Munnan da inam yarandı camaatda. Həqiqi peyğəmbərə inam gətdilər, tabe oldular.

Allah da var, "Quran" da var, kitab da var. Kim ona qail döysə, o, deməli, müsəlman döy. O, yezitdən də beş-betərdi.

## 16. PEYĞƏMBƏR VƏ AVDAL

Fida olduğum peyğəmbərimiz yolnan gedermiş bir gün. Bir də baxer kı, Şümrü bunun arxasınnan gəler. Şümrü də elə fırsat gəzermiş ki, peyğəmbər hardasa munun əlinə keçər, təhlihdə-tənhalıxda bunu öldürə. Peyğəmbər bunu başa tüşör, qaçer. Qaçer kı, Şümrü munun dalınnan gəlib çatmasın. Qaçhaqaç, bir təpə varıymış, bu təpiyi aşanda örör kü, Avdal qavaxnan geder, çiynində də xurcun. Qaçer Avdala çater, deyir ki, Avdal, bəs, Şümrü gəler arxamcan, məni öldöröjəh, mən nağayrem? Mana bir köməh elə. Deyəndə bu xurcunu çiyninnən tüşürör, deyir ki, xurcuna girginən. İri xurcunu varıymış. Xurcuna girer, xurcunun tez ağzını çəker, çiyninə aler. Çiyninə aler, geder.

Şümrü gəler Avdala çatanda deyir ki, Avdal, peyğəmbər buroynan gederdi, nejoldu, görmədinmi onu? Əlimə tüşsə, onu tutuv öldöröjəm. Deyir, peyğəmbər odurana, çiynimdə. Şümrü buna baxer, deyir ki, bunun axmaxlığına bax bircə. Məni yoyudor[7] ku, mən gedif peyğəmbərə çatmıyam. Yoyudor ku, mənim başım bunnan qarışsın, peyğəmbər qaçsın aradan çıxsın. Ə, sənin başın xarafdı? Peyğəmbər nəzer sənin çiynində?

---

[6] Seylan – xırda, rəngarəng muncuqlar

[7] Yoyudor – ləngidir

Çönüf baxmer, yolu əlinə aler, qaça-qaça geder. Gözdən itənnən sora Avdal peyğəmbəri çiyninnən yerə qoyur. Deyir ki, ya peyğəmbər, fida olom sana, bəs mən öldüm, nəfəsim kəsildi axı. Tüş yerə, getdi, itdi gözdən. Peyğəmbər çıxer xurcunnan. Deyir ki, ayə, Avdal, mən sana dedim məni gizdət, soruşan olanda denən ki, görmədim. Şümrü gəlif deyəndə, niyə deyirsən ki, dalımdadı? Deyir, peyğəmbər sağ olsun, indi bir peyğəmbər öləcək deyə Avdal yalanmı danışmalıdır? Mən niyə yalan danışmalıyam kı, peyğəmbəri görməmişəm? Axı çiynimdəsən, mən niyə yalan danışeram?

## 17. HƏZRƏT ƏLİ VƏ XIZIR PEYĞƏMBƏR

Rəhmətdik Vəli əmim Cənab Əmirin Xızırnan əhvalatını danışırdı. Xızır xudavənd-aləmin sirri peyqəmbəri idi.

Bir günnəri Cənabi Əmir uşax şiklində Xızırnan görüşdü. Əli dedi, sən kimsən? Dedi, mən Xızıram. Xızır bundan xəbər aldı, bəs sən kimsən? Dedi, mən Əliyəm. Əli dedi, sənin çox möcüzələrini danışıllar. Gəl möcüzələrimizi sınıyax. Xızır dedi, nə möcüzə? Sən uşağ, mən də yaşdı adam. Sənin nə möcüzən olajax? Dedi, uşağın uşağ möcüzəsi olar da. Sən böyük möcüzəni göstər, mən də uşağ möcüzəmi göstərim. Dedi:

– Nətər?

– Bax bu bulağın başında su içirih, əlimizi yuyurux. Mən gözümü yumum, sən gizdən. Bir saatdan, iki saatdan sonra mən gözümü açım, harda gizdənsən gəlib səni tapajam, – Əli dedi Xızıra.

Dedi:

– Yaxşı.

Xızır oxudu, üfürdü, keşdi Zülmətə. Zülmətə keçəndə gördü Əlinin üzünün nuru zülməti işıxlandırıf. Məətdəl qaldı. Əli dedi:

– Xızır, bə niyə gizdənmədin?

Dedi:

– Öyün yıxılsın, mən Zülmətə keşmişəm, Zülmətdə qabağıma işığ salırsan. Mənim day burdan pünhan yerim yoxdu. Ən pünhan yerim buradı.

Əli dedi, indi yaxşı mən gizdənim, sən tap. Əli Xızırın çiyninin üstündə bərqərar oldu. Xızır dünyanı gəzdi, bunu tapamma-

dı. Gəldi bir bulağın başına çıxdı. Bulağın başına çıxanda gördü uşağın şikli suya düşüb.

– Ayə, tapbışam, – dedi, – səni.

Əlin atanda su bulandı, şikil yoxa çıxdı. Əli dedi:

– Xızır, sən Allahın peyqəmbərisən, mən Allahın şiri-yəzdanıyam, Allahın şiriyəm. Xudavənd-aləm məni özü xəlq eliyif, mənim möcüzələrimi verifdi. Mənim möcüzələrimnən sənin heç xavarın yoxdu.

Cənab Əli çox möcüzəli olub.

## 18. HATƏM

Bir qoca qarı varıydı, bir də bir qızı varıydı. Heş kimi yoxuydu. Payız ayıydı, qış düşmüşdü. Qarı dedi, a bala, bu kənddərə gedib pay yığmaxdan üzümüzün suyu tökülüb. Deyillər, Hatəmin bir binası var, binanın qırx qapısı var. – O qırx qapıyı nəyçün qoydurufdu? Yanı bir adam bir qapıdan pay alıf, bir də qayıdıf o qapıdan pay alammaz, utanar. Qoy iki qapıdan, üş qapıdan yox, qırx qapıdan da alsın getsin, ehtiyacın ödəsin. Özü də küləfirəngidə oturuf həzz alardı ki, camahat gəlif mənim qapımda yemək yeyir. Allah da var-dövlətini getgedə artırırdı. – Hər qapıdan bir pay alsax, bir illik ehtiyacımızı ödüyər.

Gəldilər, qırx qapının qırxınnan da bulara qızıl piyalələrdə sikkə verdilər, pul verdilər. Aldılar, qarı dedi:

– A bala, gedəh. Ta bir il bizə bəsdi bu.

Qız belə baxdı, dedi:

– Bu bina kimindi, ana?

Dedi:

– Bu bina Hatəmindi. Bax özü də o küləfirəngidə oturan adamdı.

Dedi:

– Bir belə işi özümü eliyif, yoxsa Allahmı eliyif?

Dedi:

– Allah eliyif.

Dedi:

– Aldığını buruya töh, çıxax gedəh.

Dedi:
– Ay bala, Allaha bax, tanrıya bax, mən tumanımın balağını dəsdəliyə-dəsdəliyə gedif kəndlərdə yemək dilənirəm.
Dedi:
– Yox, bax onu töküf getməsən özümü öldürəjəm.
Üzün tutuf dedi xudavənd-aləm, bakirə bir qızam, Allah verəndisə, qoy elə mənə var-dövlət versin, bir bina yapajam, qırx da qapı qoydurajam, qülləsin də qızıldan qoydurajam.
Qarı dedi:
– Allah diləyini eşitsin, dur gedək.
Dedi:
– Yox, yığdığını tök, gedək.
Arvad neynəsin, qız dedi özümü öldürrəm da. Qızılları yerə tökdülər, qayıtdılar getdilər. Qız gejə yatmadı ki, anam darıxır. Ey Allah, mən sənə ixlas bağlamışam (Allaha gərək ixlas bağlayasan. İxlas bağlamasan, Allah sənin dadına çatmır. Təkcə dara düşəndə "Allah, dadıma çat" demək kifayət deyil. Gejə də, gündüz də, yolnan yeriyəndə də həmişə Allaha ixlas bağlayasan, varlığına inansan). Gejə yatmadı qız. Qara dam idi, işıq yox idi. Amma qız baxdı gördü öyün ortasında bir pərvanə var, bir işıq var, nəsə parıldıyır, evə işıq salır. Baxanda gördü ağ ilandı, ağzında ləl oynadır, onun parıltısınnan həzz alır. Aşıq Alı deyir ki:

Bir kəsə Allah verməsə, çalışdığı becadı,
Bir kəsə Allah versə, onun bəxti ucadı.
Bir kəsə Allah verməsə, gündüz ona gecədi,
Bir kəsə Allah versə, görərsən ki, hər yan verir.

Allah verəndə hərtərəfli verir. Axıl da verir, pulu xaşdamağa imkan da verir. Qız dedi:
– Allah eşitdi.
Hava işxılanana yaxın ilan ləli ağzıynan tutdu, getdi girdi tifarın deşiyinə. Qız gəldi tifarın deşiyinnən üş-dört dənə daş çəkdi, baxdı gördü bir küpə dolu ləldi. Allah verif dedi. Ləldən bir dənəsin götdü, küpənin yerin dəyişdi. Savax tezdən dedi:
– Ana.
Dedi:

– Hə.

Dedi:

– Bir sumka ver, gedim bazarrığ eliyim də.

Dedi:

– Anan ölsün, eləmişdim dana dünən, qoymadın.

Dedi:

– Allah verəndə verir, ay ana.

Getdi şəhərə. Qızıl tükənnərinin qabağınnan belə gedir, bilərzikdi, daş-qaşdı, filan. Soruşdu, bu neçiyədi, bu neçiyədi? Axırsı soruşdu, bu ləl neçiyədi? Dedi, o ləli almağa bizim gücümüz çatmır. O başda bir tükan var, ləlin qiymətini o verə bilər. O tükənin büdcəsində neçə padşahın dəyəri var. Belə deyəndə qız gəldi həmin tükana.

– Əmi, salam məleykü.

– Əleyki salam.

Baxdı gördü, bir cavan qızdı. Dedi:

– Qızım, nə istiyirsən?

Dedi:

– Əmi, gəlsən mənnən bir Əli soodası eliyəh.

Kişi qıza baxdı, yaşına baxdı. Bu Əli soodası nə deməhdi? Dedi:

– A qızım, Əli soodası nədi, nətər olur?

Dedi:

– Əli soodası odu ki, bir mal satanda bəlkə o satanın heç ağlı kəsmir, malını ucuz deyir, onu ucuz almıyasan. Satan da, alan da öz qiymətinə ala. Onda alan da xeyir görər, satan da. Ona deyillər, Əli soodası. O bərəkətdi olur.

– Əhsən, bərəkallah. Nədi, a qızım?

Dedi:

– Mənim ləlim var, məni allatmıyasan, ləlimi xırdalıyasan.

Dedi:

– Qızım, bilirsən nə var? Mən bu ticarətə gələndə cavan uşağıydım, saqqız satırdım, iynə-sancax satırdım. Halallıxnan mən gəlmişəm. Bu tükənin neçə padşahın xəzinəsinnən artıx büdcəsi var. Mən hallalıxnan qazanmışam, sənin o ləlinnən ötrü mən ma-

yama haram qatmaram axı. Dedi, bir döy, bir neçə ləlim var. Mənim bu ləlimi pula dəyiş, bina yapdırajam. Gətdi pulunu dəyişdi. Pul hər şeyi görür. İnjineri kimdi, tikəni kimdi, layihəsin çəkən kimdi. Gətirdi şəhərin kənarında torpağ aldı, hasar çəhdirdi, binanı yapdırdı, qülləsin qızıldan qoydurdu. Qırx qapı qoydurdu. Qızın adı nə idi? Qızın adı Tey idi.

Aləmə yayıldı. Hatəmə də çatdı bu xəbər ki, bir qız filan şəhərdə bina yapdırıf, sənin binan kimi qırx qapı qoyduruf. Hatəm dərvişlibas gəldi bırda bir qəsidə oxutdu. Qız dedi, dərvişə yaxşı sikkə verin, pul verin.

– Dərviş, – dedi, – çox xoşum gəldi. Çıx yuxarı qəsidənin birin də mənim küləfirəngimdə oxu.

Hatəm çıxdı, qəsidəni oxudu. Qız dedi:

– Hatəm, mənim bu binama xoş gəlifsən.

Dedi:

– Ay qız, Hatəm kimdi?

Dedi:

– Sən Hatəmsən də. De görüm niyə evlənmirsən?

Dedi:

– Ay qız, sən nə danışırsan, nə bilirsən evlənməmişəm?

Dedi:

– Sən evlənmirsən. O varın, cahi-cəlalın sahibisən. Niyə evlənmirsən?

Hatəm dana bilmədi. Dedi ki, mən inanmıram ki, elə bir qadın tapam, mən elədiyim o savaba onun da qəlbi mənim kimi şad ola. Qəlbindən keçirər ki, niyə varın dağıdır, talan eliyir, qədrin bilmir. Onda mənim verdiyim ofsanatdan çıxar. İnanmıram elə bir qadın tapım mənim kimi səxavət əhli ola. Dedi:

– Sən Hatəmsən, mən də Teyəm. Molla çağır kəvinimizi kəssin, mən sənnən də səxavətdiyəm.

İndi tarixdə Hatəm Tey deyillər. Elə bilillər ki, bu bir adamın adıdır. Tey qızın adıdır. Səxavətdə ikisi də eyni qalıf. Nə Tey artıx döy, nə Hatəm artıx döyül.

## 19. BOZALQANLI

Birinci məlumat onnan ibarətdir ki, guya Bozalqanlı kəndində Boz Alı adında cəsarətdi, iri gövdəli bir kişi yaşıyırdı. Həmin dövrdə bir ləzgi kənd adamlarını ikidə-bir, üçdə-bir gecə saatdarında oğurruyurmuş. Köhnə kişilər həmişə gejə vaxtı evdən çıxanda axırıncı paltarlarına qədər əyinnərinə geyinərmişdər, yaraq-əsləhələrini də özdərinnən götürərmişdər. Boz Alı gejənin bir aləmində çölə çıxanda ləzgiynən üzbəüz gəlir. Olar başdıyıllar vuruşmağa. Bu məqamda Boz Alı xançalnan ləzgini ağır yaralıyır. Ləzgi o yaranın dəhşətinnən, ağrısınnan dözə bilmer, bağıra-bağıra qaçer. Bunnan sora Boz Alı həmişə ehtiyatda dayaner ki, ləzgiynən bir də üz-üzə gələcək olsa, ləzgini məğlub eləsin, camaatın canını kutarsın. Ona görə də kənd arasında deyillər ki, Boz Alı qanlıdı, yəni, düşmənlidi. Bozalqanlı sözü guya burdan qaynaxlanıfdı. Bu birinci versiyadı.

İkinci versiya belədi ki, cəsur, igid oğlannara boz oğlan deyərmişdər. Bu kəntdə də belə boz oğlannarın sayı çox olduğunnan kəndə guya Bozoğlannı deyiflər. Bozoğlannı sözü də fonetik dəyişikliyə uğrayıf, indiki hala gəlif çatıfdı, Bozalqanlı kimi oluf. Bu ikinci versiyadı.

Üçüncü versiya da, guya kəntdə Boz adında bir nəfər igid oğlan olub. Onun sevgilisini qonşu kəntdən başqa birisi qaçırdıb. Bozun tay-tuşdarı, dostdarı deyiflər ki, gəlin hamımız bir yerdə gedək, o qonşu kəntdən Bozun sevgilisini qaytarax gətirəh. Boz razı olmuyufdu, deyif, mən öz sevgilimin dalınnan özüm gedəjəm. Boz sevgilisini qaytarmağa özü tək gedib. Günün şər vaxtına çatanda, görüflər ki, üfüqdən iki nəfər gəlir: biri hündür boylu, biri alçax boylu. Yaxınnaşanda görüllər ki, bunun biri Bozdu, biri də onun sevgilisidi, amma Bozun əlləri dirsəhdən bir qədər aşağı qanın içindədi. Deyiflər ki, Boz əli qanlıdı, Boz əli qanlıdı.

## 20. HƏTƏMALILAR

Allahyar bəy Rusiyada təhsil aldığına görə rus dilini, alman dilini bilif. Bacısı da rus dilini bilif. Bacısı həm də qoçax, zirəh

qadın oluf: at minmək, tüfəng gəzdirməh. Ona görə bacısına hər adam cürət eliyif elçi düşə bilmirmiş. Tiflisdə yaşıyan Alı adında şəxs gəlir çıxır Qovlar stansiyasına. İndi Alı haqqında da məlumat verim. Alı qazaxlı oluf. Tiflisdə dayısının yanında təhsil alırmış. Dağıstannan bir nəfər tacir həmməşə bunun dayısının evində düşərgə eliyirmiş. Bir gün həmin ləzgi Alının dayısına deyir ki, mənim dilmancım qocalıbdı, bir nəfər maa dilmanc tap cavan. Bu da söz verir, çox fikirrəşənnən sora birdən yadına düşür ki, bajısı oğlu Azərbaycan dilini biler, ərəbi biler, rus dilini biler, gürcü dilini biler. Növbəti dəfə gələndə təqdim eliyif, deyif bajım oğludu, dediyin kimi. Bu, özünnən götürüf gedif Dağıstana. Qayıdıf gələndə çox razılıx eliyifdi ki, bu məni əvəz eliyə bilər. Bunnan sora Alı həmən ləzgiynən get-gəl, nəhayət onun qızınan evlənir, onun iki oğlu olur.

Ləzgi tacir rəhəmətə gedəndə qayınnarı görür ki, Alı çox qabiliyyətdi, çox bacarıxlıdı, bütün mülkə yiyə çıxajaxdı. Ona görə bajılarını əlinnən alıllar, iki uşağı da bunun qoltuğuna vurullar ki, gedə bilərsən. Gəlir Tiflisə ki, burda heş kim yoxdu. Malyariya xəstəliyi düşüf, heş kim yoxdu. Xəstəlihdən kutarmax üçün gəlir Tovuza – Qovlar dəmiryolu stansiyasına, qışı burda keçirir. Yaz açılanda eşidir ki, yuxarıda belə bir səxavətdi bəy var, o, köməh eliyir insannara. Alı da bir az təhsilli olduğuna görə, bir neçə dil bildiyinə görə Allahyar bəy bunu çox yüksək səviyyədə qəbul eliyir və lazımi köməhlih eliyir. Payız gələndə görür ki, alınan məhsulu elə Allahyar bəyinkinə bərabər gəlib çıxıbdı. Onnan sora Xınna dərəsinin yuxarı hissəsində Alıya torpax sahəsi verir. Və qoçax, zirəh, qabiliyyətdi olduğuna görə öz bajsını ona ərə verir. Hətəmallar kəndi həmin Alının adınnan çağırılır. Alı o qədər səxavətdi oluf ki, Hətəm ləqəbini veriblər. El dilində, yerri dildə ona Hətəmallar deyillər.

## 21. YEKALLAR

Seyid Mirəlinin iki oğlu oluf. Kənd arasında belə bir misal var: “Alı Dədənin cavan ölən oğlannarının goru haqqı”. Onun iki qızı oluf. Böyük qızının adı Mahpeykardı, kiçik qızının adını

bilmerəm. Yekə Alı buların nökəri oluf. Yekə Alı Seyid Mirəlidən xayiş eleef ki, mən atamın, anamın yanına getməh isterəm. Uzun müddət sana qulluğ elədim, çörəyini maa halal elə, mən çıxem gedem. Axşam Seyid Mirəli arvada deyif ki, ay arvad, bu çıxıf gedənnən sora sən qoja, mən qoja, bizi kim saxlıjax, malımızı kim saxlıjax, atımızı kim saxlıjax? Mən kişi xaylağıyam, deyə bilmərəm. Sən təhlif elə, denən, qızımızın birini al, həm oğlumuz ol, həm də kürəkənimiz.

Axşam Cənnət nənə təklif eleer ki, ay Alı, ay oğul, uzun müddətdi üzümüz-gözümüz sana örgəşif, malımızı saxlefsan, bizə qullux eleefsən. Gəl, getmə. Bax, o balaja qızım göyçəhdi, onu al, qal burda. Alı deyif ki, yox! Şəriyətnən böyük qız dura-dura, mən kiçik qızı ala bilmərəm. Razılaşıflar, Seyid Mirəlinin qızı Mahpeykərnən Yekə Alı evlənif, burda qalıf. Yekə Alının dörd oğlu oluf. Böyük oğlunun adı Seyitdi, ikinci oğlunun adı Molla Qurvandı, üçüncü oğlunun adı Miravdıldı, dördüncü oğlunun adı Əlidi. Əlinin heş nəyi yoxdu. Miravdıldan törüyən Mirməsimdi. Məşədi Seyitdən törəyən də dört tayfadı. Molla Qurvanın törəmələri də Touz rayonunun Qonaxlı kəndində yaşıyır. Olara Dağ Yekalları deyillər.

## 22. ƏLİBƏYLİ

O vaxtı Əli bəy gəlif Təkarmud deyilən bir talıya düşüf. Orda həyvəsini çıxardıf çörəh yiyif, sora da qalxıv oturanda buralara baxıf deyir, nə yaxşı yaşayış yeridi. Mən burda məskən salmağ istiyirəm. Onnan da Əli bəy burda məskən salıb. Məskən salannan sora yavaş-yavaş adamlar gəlif onun başına yığılıflar. Oranın camaatı, bizim Köhnə Qışlax deyillər, bax ordan getmədir. Olar orda yaşıyannan sora Öysüzdüdən tək öküzdü, iki təkərri, bir yedəhli bir aylə gəlif. Gəlif Əlibəyin yanına. Söz-söhbətdən sora deyif, Əli bəy, xayiş eliyirik, yerin genişdi, bizə də bir yer göstər, gedəh biz də orda məskunnaşax. Ta bu harabıynan köş salmıyax, heç harıya getmiyəh. Öysüzdü də bax onnan yaranıf.

Əhməd ağanın dediyinə görə, bu kənddə elə bir yatalğa xəstəliyi düşür ki, qonşu-qonşuya gedəmmirmiş. Keçici bir xəstəlik

imiş. Bir sabah qalxanda görüllər ki, Əli bəyin hayatında səda-soraq yoxdu. Bir həftədən sora kişilər yığılıflar, sarımsağı palazın arasında döyüf ağızlarına bağlıyıflar. Gedif içəri girəndə görüflər ki, beşi də rəhmətə gedif: Əli bəy, yoldaşı, bir də oğlanları.

## 23. ÖYSÜZLÜ

Öysüzlü kəndinin adıyla bağlı iki versiya var. Yaşlı bir qadın söhbət eliyirdi ki, bizim evimiz orda idi. Orta ojax deyirdilər o vaxtkı evlərə. Orta ojax evin həmi sobasıydı, həmi işığıydı, həmi də nəfəsliyiydi. Onun üstündə də baja olurdu. Bir gecənin içində ata-anam ayılanda görüf orta ojağın yerinnən bir şiv çıxıf. Bu şivi iki dəfə, üş dəfə qırıflar, şiv çıxmaxda davam eliyif. Axırda bular ayılıflar ki, bu özbaşına çıxmıyıf, bir vasitəynən çıxıf, ilahi qüvvənin vasitəsiynən çıxıf, Allahın iradəsiynən çıxıf. Burdan köçüf getmişih, biz evsiz qalmışığ. Evin sakinnəri evsiz qaldığıyçun Öysüzdü ocağı deyilməyə başladı. Öysüzdü adı bax bir versiyaya görə ordan əmələ gəlif.

İkinci bir versiya da var. Gəncəli Cavad xannan Şəmşəddin sultanı Nəsib sultan arasında ədavət olub. Bu, yaşdı insannarın yaddaşında bir az qalıb. Mən də eşitdiyim budu ki, orda Gəncəli Cavad xandan narazı qalan bir qrup insan Nəsib sultana pənah gətirif. Bular indi o Ocax bağı dediyimiz yerdə alaçıq qurub yaşıyıblar bir müddət, onnan sora kət-kəsəy düşənə qədər bax bulara "evsizdər" deyiflər.

## 24. XINNALI

Nadir şah öz qoşununnan gəlib bu yerrərdən keçirmiş Tiflis tərəfə. Burda yazbaşıymış, çöldə dağın divində daşdarın üstündə sarı irəng olur. Uşax vaxtı biz də onu suynan isdadıf xına qayırıb dırnaxlarımıza yaxırdıx. Nadir şah gəlib qoşununnan burdan keçəndə camahat o xınadan dırnaxlarına vuruf qoşunun qavağında oynuyullar, onu qarşılıyıllar. Bu Nadir şahın o qədər xoşuna gəlir ki, soruşur bu camahat bir belə xınanı hardan alıf. Deyillər ki, xan sağ olsun, bu yerrərin təbiyəti elədi ki, elə daşı da, torpağı

da, özü də xınadı. Onatan noluf bilmirəm, onnan sora xınalı yer sözü el arasında təkmilləşir, Xınna olufdu.

Bir də deyillər ki, vaxtilə türk höküməti burya gələndə bu yer-rəri qamriyə götürüllərmiş, yəni siyahıya alıllarmış. Əsrik dərəsi aşağı gəlillər. Əsrik dərəsinə ona görə Əsrik deyillər ki, Salsalın devrində Əsrik-Cırdaxanın yerində əsirxana olufdu. Əsirləri orda saxlıyallarmış. Azaflı kəndinin yeri isə Əzabxana, orda ağır cəza çəkən məhbusdar olarmış. Azaflı Əzabxana sözünnən olub. Bu namələri yazannan sora bələdçi türk zabiti yoldaşına deyir ki, əfəndim, xeyli xanə də bu dərədə bulunuyor. Yəni, Əsrik dağın o üzünü göstərir ki, gedib oruyu da yazax. Gəlillər, bax, indi Xınna dediyimiz yer ki var, burdan baxıllar, görüllər ki, çayın gündoğan tərəfində də, çayın gündoğan tərəfində də xeyli yaşayan var. Deyillər ki, hə, nə çox öylər var? Əfəndim, xeyli xanə bulunuyor burda. Buranın adını yazır xeyli xanəli dərə. Xeyli xanə sora təkmilləşib oluf Xınna. Bax, mana belə çatıf, belə eşitmişəm.

## 25-26. ÇOBAN DAĞI

Bir cavan oğlan varrı-hallı qoyun sərkərinə yan çobanı ol-max istiyir. Sərkər buna deyir ki, a bala, bax, bir toğulluğa get-mersənmi? Gəl belə şərt kəsəh. Bu sürüdə bu il sənin baxtına ne-çə ala quzu olajaxsa, hamısı sənin olsun. Bu da cavan oğlandı: bir anası var, bir özü var. Həm də biler ki, bu adam kimdi, hər tərəfli örgənif. Sərkər deyir:

– A bala, ilinə bir toğullux, ya yarım toğullux versəm, bor-cun-xarcın çıxannan sora heç anana bir dizdiy belə çıxmaz. Am-ma sürüdü, üş yüz, beş yüz qoyundu, bəlkə bəxtin gətirdi, üç yüz ala quzu oldu. Əlinə var salarsan.

Allah kəssin kasıflığı, kasıflığ oğlanın əhdini kəsif. Razılaş-dı. Eşidən-bilən ona ismarıc yolladı ki, a bala, sürüdə beş ala qu-zu olsun, üç ala quzu olsun, on beş ala quzu olsun, sən nağardın, haqqını niyə... Kimi də deyir ki, Allah kərimdi, Allah böyühdü. Deyəndə ki, sürüdə beş ala quzu olar, uşağın daha da illacı kəsi-leer. Deyəndə ki, Allah kərimdi, uşağın soluğu geniyir[8]. O vaxt

[8] Soluğu geniyir – əhvalı düzəlir, ürəyi açılır

da Ceyran çölündə su-zad yoxuydu. Sürü çəhlimdən[9] ya Kürə işdiyərdi, ya da Qavır çayına işdiyərdi. Qavır çayı Kürə nisbətən iki dəfə daha yaxındı. Orda da Sonauçan varıydı, Haçaqaya varıydı, Çölədə varıydı. Oğlan sürünü Kürə töhmüşdü. Vaxt-vədə yaxınnaşer, bir müddət də keçir. Oğlan heç özündə-sözündə döyül. O Kürün ləpədöyənində, şıldırında[10] bir qarı nənə vardı. Gördü kü, bu uşax özündə-sözündə döy. Dedi:

– A bala, nooluf?

Onsuz da dərtdidi, elə həmdərd axtarer ki, dərdini danışsın. Dedi ki, ay nənə, başıma belə bir iş gəlif. Dedi:

– Ay oğul, qayıdış vaxtı mana bir yorğannıx yun verərsənmi bu nənən sənin dərdinə əlac eləsin?

Dedi:

– Ay ana, mənim qoyunum hardadı kı, saa bir qayıdış yunu[11] da verim.

Dedi:

– Bu nənənin əlində o heş nəmənədi.

Qarı nənə dedi ki, a bala, gedərsən, sağsağan yumurtalarınnan çoxlu yığarsan, onu qırarsan, sağsağanın yumurtasının sarısını qurudarsan. Sağsağan yumurtalarını un kimi eliyif duza qatarsan. Sora qoşdara yaladarsan və dalısınnan işin yoxdu. Ancax heş kim bilməsin ha.

Oğlan qarı nənənin dediyi kimi eliyir. Hamı baxır görür kü, xazeynin sürüsündə əvvəllər üç-beş ala quzu olordusa, sürünün yarıdan çoxu ala quzu doğuf. Pah, Əli gözünüzə işıq versin. Allahtaala böyükdü, köməyə ehtiyacı olanı, imdada ehtiyacı olanı darda qoymur. Qarını oğlana ürcah elədi, o da ona kömək elədi. Bəy də bəydi, indiki kimi döyüldü. Söz ağızdan çıxıf. Az qala bir sürü quzu oğlana qaldı.

İndi yaylağ vaxtı gəlif. Hamının yaylağı var, bu sərkərin də yaylağı var, bu oğlan hareya getsin, bunun yaylax yeri yoxdu. Vaxtında olsaydı, bu oğlan gedər birinnən indiki dilnən desək

---

[9] Çəhlim – çığır

[10] Şıldır – axmaz

[11] Qayıdış yunu – küzəm, payız yunu

icariyə götürər, deyər ki, ya ot başı verim bu sahəni otarım. Bu bilmədi axı, birdən-birə Allahtaala gətirdi buna bu ruzuyu verdi. Hamı sürüsünü hayladı, oğlan harıya haylıyasıdı. Qaldı həmən o Şirəyin düzündə, Ceyran çölündə təkəmtək.

Xazeyn peşqurta gəlmişdi. (Yaylağa gedən şəxslər ağır əşyalarını, daşınmaz əmlakını qorumağ üçün aranda ağırrıxçı saxlerdı. Hər bir adam da öz mərifətinə uyğun yaylaxdan gələndə olara yuannıx – qurut, yağ, motal, kimi də səxavətinə uyğun bir toğlu və ya bir çəpiş gətirib verərdi. O ağırrıxçı yaylağa getməsə də, il uzunu bəlkə də yaylağa gedən kasıv adamdan daha çox var-dövlət əldə eliyirdi. Biz tərəfdə taxılı çox vaxtı dəmyədə əkərdilər. Taxıl biçini yaxınnaşan vaxdı biçinçilər gəlirdi. Onda da Güney Azərbaycannan tat biçinçilər gələrdilər. Qarabağ bölgəsində də, erməni icması yaşıyan yerlərdə də erməni biçinçilər gələrdi. Deyərdi ki, gəl hesaba oturax, gündə neçə fətir yiyəjəhsən? Söz misalı deyir, üş fətir. Yuannıx nə qədər olajax? Bir belə yağ, bir belə qatıx, bir belə şor, buna cirə deyillər. Onçun xalqımız bir şeyi qədərində verəndə deyir ki, sağ olmuş hər şeyi cireynən verer. Hesaba otdular, baxdılar ki, bir gün ərzində bir biçinçinin azığı[12] bir belə eliyir. Mənim də bir xalvar, ya iki xalvar yerim var, söz misalı, bu çəkəjəh üç həftə. Üç həftəlik sənin taxılın bu, yağın bu, ətdiyin bu, ayranın bu, bir inəh də ayrılıf, sənin südün, qatığın da bu. Bax, bunu cireynən müəyyənləşdirdi və taxılın alasütül vaxtıdı. Taxılın qırax-bucax yerlərini sünbülünü əlnən oydu, bir dağarcıx – təxminən səkkiz kilo aparır nüvər taxılınnan dəyirmənə. O vaxt su dəyirmannarıydı, novat olardı. Biri də bir dağarcıx taxıl gətirif. Dərhal dağarcığı olanı yola salardılar. Bu peşqurda gələn də bir dağarcığ unu üyüdüf, aranda bitən merdən-meyvədən, azuqədən, aran sooqatınnan aparardı uşağının yanına. Yanı bu əhvalat kütləvi biçinnən təxminən bir həftə, beş gün qavağ olardı). Bəli, peşqurda gəlir. Ürəyi durmur, hər şeyin rahatdıyır, biçinçiynən danışıf biçinçilərini müəyyənləşdirif bütün qayğıdan xilas oluf. Yadına düşdü kü, görən o çovanın axırı nooldu? Zınqıroolu faytonu qoşdu. Kürdə iki keçid vardı. Keçidin biri Girzanın yanında, biri Qədirri

[12] Azığ – ərzaq

tərəfdə, biri də Qaranüydə idi. Bəriyə mindi keşdi, burda axtarer. Gəldi öz yerinə, gördü yoxdu burda. Bir də baxanda görür kü, həndəvərdə iki sürü otduyur. Dedi, görüm bu nə olan şeydi. Yaxınnaşanda gördü həmən çovandı. Çovan koğasını hərrədi, bir dənə erkəyi sürütdədi, gətdi bəyin əyağının altında kəsdi. İç yağını çıxartdı bəyə bir dənə köynəh bişdi. Köynəyin qırağınnan ikicə barmax çatmadı. Bu deyir, mana əyan idi, bu iç piyinnən sana köynəh bişməliydim mən. O faytonun zınqırounun səsinnən sürü hürkdü, yağını töhdü. Bax, ikicə barmağ bunnan çatmadı. Deyir, yaxşı, bax, bu erkəh nədi, bu sürülər nədi? Deyir, a bəy, quzu yetimliyini bilməsin, qoorulmasın deyə quzunu iki yerə böldüm, birini bələnin[13] bu tayına ötürdüm, birini də o tayına. Əmiş vaxtı bunları bir-birinə qatdım, quzunun o biri bu birini dürtmələdi ki, guya bu bunun anasıdı, bu da balasıdı. Quzu da ürəhli böyüdü və hərriyə-hərriyə isti təntitdihcə bu divə sarı gətirdim, gətirdim, gördüm burda əməlli-başlı şirəli otdar – quzuqulax, qulançar, kəkotu var. Ceyrançöldə bitmiyən otdar var. Şirəli otdardan yedi, cülyənin[14] suyunnan da işdi, hərəsi bir erkəyə çöyrüldü. Bəy dedi ki, həə, Allahın verdiyi ruzu qarşısında hamı acizdi. Allahtaala da bax sənin payını belə verdi. O vaxtdan bu vaxta o yerin adı Çovan dağı qaldı.

## 26.

Çoban dağı Çeyran çölündədi. Keşmişdə bir varrı xazeyin olur, həddinnən artıq varrı. Çovan saxlıyır, naxırçı saxlıyır, var saxlıyır, geniş torpaxları da olur. Amma bunun bir pis xəsiyyəti olur ki, fəhlənin, çovanın, naxırçının hakqını verməzmiş. Deyillər ki, o, hakka gedərdi. Yanı on manata danışıfsa, beş manatını vermirdi. Bir də elə olur ku, çovannarın bir-ikisinnən acışır, haqqını vermir. Bu çovannar hamısı biri-birinə deyir ki, heç kim getməsin onun qoyununa. Qoyunu buraxma qalır. Qoyun buraxma qalanda, bu, orya yüyürür, burya yüyürür, heç kəs bunun qoyununa çovan olmur. Bir nəfər deyir ki, əyə, filan yerdə bir oğlan var, yaxşı çovan olar onnan. Özü də boşdu. Gedir bunu tapır. Deyir:

[13] Bələ – təpə, hündür yer

[14] Cülyə – çökək yerə yığılan yağış suyu

– A bala, sən qoyuna edərsənmi? Çovan olarsanmı? – deyəndə deyir:

– Olaram, niyə olmuram!

– Mənim qoynuma gedərsənmi?

Deyir:

– Gedərəm, ancaq deyillər sən çovana haqq vermirsən! Haqqın kəssirsən. Məni aparıv işdədif haqq vermijəhsən, mən nəyşə gedirəm sənin qoyununa!

Deyir:

– Yox, a bala. Qələt eliyillər! Danışıxdan asılı döyülmü? Nə istəsən onu verəjəm.

Oğlanı tovluyur. Deyir ki, ildə toğlulluğuna nə istiyəjəhsən? Qoyunçuların da belə bir qanunu var, iyirmi beş baş qoyun bir toğlulux sayılır, on beş başı bir çəpişdiy sayılır. Bir ilmi, altı aymı iyirmi beş baş qoyunu otarsan, bir toğlullux eliyir, onun birini haqq verəjəhsən otarana. Buna razılaşıllar, amma bu şərtlə ki, mənim sürümdə neçə ala quzu doğsa, o sənin hakqın olajax. Deyəndə çovan bir az duruxur. Deyir ki, a kişi, nə bilim, bəlkə qoyun heç ala doğmuyajax. Deyir, yox, doğajaxdı. Uzun sözün kəsəsi, sürüdə on qoyunsa da, yüz qoyunsa da, iki yüz qoyunsa da, neçə ala quzu doğulsa, o çovanın haqqıdı. Deyir, bəlkə hamısı ala doğajax, onda hamsı sənindi. Bu qaydada bir daqavor yazır, razılaşıllar. Çovan çomağını götürör də tüşör qoyun sürüsünün dalınca. Otarır, otarır, il tamam olur. Qoyun doğannan sora baxıllar ki, quzu sürüsünün içində üçcə dənə ala quzu var. İndi bu bunun bir illiy haqqıdı. Çovan bir az fikirrəşir. Deyir, danışıxdan asılıdı, biz belə danışmışıx. Daqavorun biri səndə, biri də məndə. Deyir, yaxşı.

Çovan bir ili dala vurannan sora, ikinci ilə başdıyır. İkinci il gəlif, qoyun doğuf quzudan təmizdənəndə, baxır ki, ikicə dənə ala quzu var qoyunun içində. Çovan yazıx fikirrəşir: "Ə, bu nə işiydi mənim başıma əldi". İki ildə beş quzu haqq alıf. Ceyran çölündə Çoban dağı indi durur orda. Xazeynin yeri də həmən dağın ətəyindəymiş, orda yatağı varıymış. Hər gün qoyunu haylıya-haylıya, otara-otara, gətirər, Kürdə suluyar, otara-otara axşam qayıdarmış oraya. Bir gün qoyunu, quzuyu suya gətirəndə – bizdə ençi deyil-

lər, misalçün, hündür bir dağdı, – ençidən yol enərmiş Kürə. Yuxarıdan aşağıya Kür qırağına enəjəh, qayıdanda da ençinin başına çıxajax, qaşın başına. Çoban qoyunu otara-otara gətirir, ençiyə yaxınnaşanda, bəri enipbiş, enmiyipbmiş, bir qarıynan qavaxlaşır.

– Salam, ay nənə.

O da deyir:

– Salam oğul, qoyunun da bərəkətdi olsun!

Qarı da uzunqulağın üstündə bir xeyləh yundu gətirif Kürdə yüyüf, eşşəyin üstünə sarıyıf qayıdıf gedir. İndi onun da orda yatağı var, yeri var.

– Oğul, nağayrırsan? Ə kimsən, nəçisən, kimin çovanısan?

Bir az söhpətdən sora qarı görür ki, çovan yaman bikefdi.

– A qadan alım, niyə bikefsən? Olmaya ajsan, olmaya susuzsan?

Deyir:

– Yox, ay nənə.

Deyir:

– Bə nədi?

Deyir:

– Bu sürüyü görürsən?

Deyir:

– Hə.

Deyir:

– Mana munun yiyəsi iki ildə beşcə ala quzu verif.

– Əyə, nəyşə, a bala?

Deyir:

– Məni allatdı. Belə danışdıx ki, sürüdə neçə ala quzu doğulsa, o mənim haqqımdı.

Deyəndə qarı gülür. Deyir:

– Nənən qadan alsın, gəlsənə bir resept yazam hamısı ala doğa, – deyəndə çovan gülür. Deyir:

– Ay nənə, imanına qurban olum! Nədi bu dərdin dərmanı?

– Nənən bu payız toy eliyif qızını gəlin köçürəjəh. Mana yun lazımdı qızıma cehiz düzəltməyə. Nənənə ikijə yorğan-döşəhlih yun verginən, ona elə resept yazım onun hamısı ala doğsun, – deyəndə çoban yapışır bunnan ki, ay sana qurban olum, yuna qorux

yoxdu. Bax, bu sürünün yarısının yununu sana verim, bir kəndin barxanasını düzəlt, yorğan-döşəyini düzəlt. Razılaşıllar. Deyir:

– Ay nənə, nağayrım?

Deyir:

– Oğul, bu saat yazbaşıdı, quşun balalıyan vaxtıdı. Yernən göyün arasında nə qədər quş var hamısı Şavadının kolunda[15] balalıyır. Qırqoul, meşə xoruzu, saxsağan, qarğa, nə var hamısı. Bu ağaşdarın başı dolu yuvadı. Sana saxsağan yuvası lazımdı. Saxsağanın yuvasında da onun yumurtası lazımdı. Bu yumurtalar üçün çıxırsan ağaşdara, yuva olan yerə. Ağacın başına çıxdın, gördün saxsağan yuvasıdı. Saxsağan ordan təzə qaşdı. Əlini belə qoydun, yumurta istisə, ona dəymə. Çünki o kürtdü, onun üstündə yatır orda. Onnan bir şey çıxmaz. Bala çıxajax qırsan. Hansı saxsağan üşdü, əlini qoydun, yumurta sərindisə, deməк, on dəqiqə bunnan qavax yumurtuyufdu. İkijə dənə saxsağan yumurtası tapırsan. Bu şərtlə ki, çalxanmamış olsun. Endirirsən yerə, bir yastı daşın üstündə qırırsan. Gənə deyirəm, orda içinnən cücə çıxsa, dəymə, onnan olmaz. Yox, gördün bu adi yumurtadı də, sarısı da var, ağı da var. Daşın üstündə onun qavığını da, sarısını da, ağını da əzirsən daşnan, yaxma çəkən kimi yaxırsan yastı daşın üstə. Səhər, savax ertə qoyunu Kürə gətirəndə bu işi görürsən. Qoynunu suluyuf geri qayıdanatan heç olmasa iki saat çəkəjəh. May ayının axırıdı, çöldə ən azı otuz beş dərəcə temperatur var, günəş onu orda qupquru eliyəjəhdi, un kimi olajaxdı. Onu bir əz əzif, yaylığına püküf civinə qoyursan. Gedirsən yaylağa, onu saxlıyırsan. Yaylağı keçirirsən, otarırsan, gəlirsən. (Bizdərdə kəntçi dilində avqust ayının beşinnən altısına keçən gejəyə "quyrux donan" deyillər. O vaxtı yaylaxda quyrux yağını əridillər, qava tökəndə gejə orda qalanda, səhərəcən donur. Amma onnan qavax hava isti olur, donmur. Ona quyrux doğan da deyillər, quyrux donan da deyillər. Quyrux doğan ona görə deyillər ki, beşinnən altısına keçən gejə belə baxırsan, altı-yeddi ulduz çıxıfdı, ayaxda da bir iri ulduz quyrux kimi sallanır. Ona deyillər ki, sarı ulduz doğdu, yanı quyrux doğdu). Həmən bax onu deyir ki,

[15] Şavadının kolu

daşın üstündə saxsağanın yumurtası quruyajax. Əzəndə olajax un kimi. Onu yaylığa püküf civinə qoyursan, yaylağa edirsən. Qayıdıf gələndə, quyrux doğanda, qoyun qoça qatışır, yanı mayalanma gedir. O vaxtı görəjəhsən ki, iki günnən sora qoç-qoyun bir-birinə sıçrıyır, vaxtdı. Həmin unu qoçun duzuna qatırsan, daşdarın üzünə səpirsən. O qoşdar saxsağan yumurtasını duz qarışığ yalıjax. Bir həftədən sora qatırsan qoyuna, qoyunda mayalanma gedir. Beş aydan sora qoyun doğanda quzunun hamısı ala olajax. Bax, onu qarı örgədir, yunu da qarıya verir. Saxsağanın da yumurtasını qurudur, əzif civinə qoyur, gedir yaylağa.

Dediyi kimi, quyrux doğan vaxtı qoça duz verəndə, qoçun duzuna qatır, qoç yalıyır. Üç günnən sora qoyunnar mayalanır. Beş aydan sora qoyunnar doğur. Qış yatağa gedəndə görür, ayə, qoyunun yarısı doğub, quzular hamısı ala-buladı. Qarının sözü yerini tutdu. Çoban bulara da yaxşı baxır, əmizdirir, qoyun quzudan çıxır, başdıyır otuxmağa[16] çöldə, yazdı uje, aradan bir-iki ay keçib. Göyün üstə buraxır, quzuyu bu tərəfə eliyif, qoyunu da bu tərəfə eliyif. Birdən xazeyin burya gəlir ki, gedim-görüm qoyun nağayrır, yaylax vaxtı yaxınnaşır. Çobanın köçməh fikri varmı? Faytonun içində gəlir sürünün yanına. Belə baxanda örür, əyə, çoban orda ağaca sökənif durur, amma sürü iki yerdədi: qoyun bir tərəfdə, aanda da bir ala sürü var. Yaxınnaşır.

– Salam, a çoban. Ə, bərəkətdi olsun! Nə var, nə yox? Nağayrırsan?

Deyir:

– Sağlığın.

Deyir:

– Əyə, bu quzu niyə belədi?

Deyir:

– Hancarıdı, quzudu dana?

– Ayə, öyün yıxılsın, buna nağardın bu qoyun belə oldu?

Deyir:

---

[16] Otuxmaq – otlamaq

– Xazeyin sağ olsun, söz danışıxdan keçər. Bə mən iki il sənə çobannığ elədim, heç demədin bu niyə ala doğmur. İndi də Allah verif, mənim payımı doğuf.

Burda dalaşmax istiyəndə deyir, gedək qazının yanına. Xazeyin görür kü, uduzuf. Deyir, sənin kimi çovan mana lazım döyül. O da deyir, heç sənin kimi xazeyin də mana lazım döyül. Ala quzuların hamısı çovana qaler. Ajığ eliyir xazeyin. İki çoban tapır, deyir:

– Ə, bu qoyunu haylayın getsin.

Bular gedillər yaylağa, çovan qalır burda – Çovan dağı deyilən yerdə. Haşa burdan, bir uzunqulax, bir də bir iti. Günüz olanda quzuyu çoban otarır, suluyur gətirir, kölgöyün dərdindən yatağın içinə salır. Gejəsə yatağın qavağındamı, üstündəmi tütək çalır, çörəy yiyir, ordaja quzusunu otarır.

Xazeyin gedir yaylağa. Yaylağa gedəndə orda qonşuları, dost-tanışdarı deyir:

– Əyə, çovanın hanı, quzun hanı? Bu nədi? – deyəndə, deyir:

– Çovan qaldı dağda.

– Harda?

Deyir:

– Canına azarda. O nə bilir yaylağın qədrini. Qoy o ala quzular da onun olsun, o dağ da onun olsun.

Çovanın dağı bax burdan qalıf. Həmən vaxtı çoban orda tək olanda, tütəyini çalarmış. Gejənin birində, aydınnıx gejədi, yıxılıf yapıncıyı salıf üstünə, deyir:

– Olar getdi yaylağa, mən burda qaldım. Allahın altında, noloydu mən də evləneydim, mənim də ayləm oloydu, sürüm oloydu, qoyun dağa, yaylağa edeydi.

Belə fikirrəşə-fikirrəşə özünnən asılı olmuyarax Çovan bayatısı çalır tütəydə.

Əzizinəm sana dağlar,
Yol gedir sana, dağlar.
Tutaydım yar əlindən,
Çıxaydım sana, dağlar.

O Çoban dağı sözü ordan qalıfdı. Çoban bayatısı sözü də ordan qalıfdı.

## 27. TƏK SAQQIZ

Bizim Yekallar kəndi, Ağa Mirəlinin böyük qızı, Mahpeykərlə Yekə Alı adlanan bir şəxsin, çox igid, çox mərd, alicənab, səxavətli bir kişinin törəməsidi. Tovuzdan Ağdama gedən yolun üstündə Tay Saqqız deyilən bir cüt Saqqız ağacı var. Bu Saqqız ağacı haqqında çox qəribə bir rəvayət dillərdə dolaşır. Rəvayətə görə, evin kişiləri yaylağa gediflər. İnəyləri, qoyun sürüsünü qavaxca aparıflar. Dağda yerləşdirif Yekə Alı babam qayıdıf ilxıyı da aparmalıymış, həmi də arvad-uşağı dağa götürməliymiş. Burda ilxıyı otaran nökərlər qalır, bir də Mahpeykər nənəm. Bir axşamçağı bular görüllər ki, qapıda iki atlı dayandı. İki cavan adam, hər ikisinin çiynində tüfəng, bellərində xəncər. Təpədən dırnağa kimi ikisi də silahlı. Mahpeykər nənəm şüphəyə düşör. Deyir, yəqin Yekə Alının dostdarınnan, tanışlarınnandı. Ürəyində fikirrəşir ki, görən Allah, nə xəbərnən gəlmiş olar? Xeyir ola, şər vaxtı. Üzünü bunlara tutuf deyir:

– Ay bala, kimsiniz? Bu şər vaxtında nə əcəb gəlifsiniz, nə axtarırsınız?

Bu zaman həmin adamlardan biri dillənif deyir:

– Ay nənə, yol adamıyıx. Bir kismət çörəyiniz, yeməyiniz, nə varsa bizə verin, yeyəh, yolumuza davam eliyəh, gedəh.

Mahpeykər nənəm bu zaman üzünü tutuf deyir:

– Ay bala, Allah qonağına qapımız açıxdı, süfrəmiz açıxdı. Buyurun, gəlin, oturun, nə deyrəm ki.

Bunların hər ikisi atdan düşür. Atdarını həyətə bağlıyır, girillər içəri. Gəvənin üstə yeməyə oturullar hər ikisi. Nökərlər də dərhal lazım olan nə varsa, hazır eliyir, gətirir bunların qarşısına qoyullar. Şər vaxtıymış. Mahpeykər nənəm də o biri otaxda namaz qılmağa hazırlaşırmış. Deməli, nökərlərdən biri gələn qonaxların qırımınnan çox şüphələner. Onların durumunnan, söhpətinnən, tez-tez bir-birinnən pıçıldaşmağınnan, bir-birinə baxıf şüphəli-şüphəli danışmağlarınnan çox şüphələner. Nökər o biri otağa keçer. Üzünü Mahpeykər nənəmə tutuf deyir ki, ay Mahpeykər bajı, mən gələn adamlardan çox şübhələnmişəm. Mənə heç yaxşı adam görünmür bunların ikisi də. Deyir:

– Nəyə görə deyirsən, nə bilirsən?

Deyir:

– Ona görə ki, oturuf yeməylərinnən məşğul olmax əvəzinə, bir-biriynən pıçıldaşıllar. Yol adamı tez yiyər də, xudafizdəşər, yoluna davam eliyər. Vallah, mən bulardan şüphələnmişəm, – deyəndə deyir:

– Ay qardaş, mənim özüm də şüphələnmişəm. Düz deyirsən. İntaası, bular təpədən-dırnağa kimi silahlıdılar. Evin kişiləri də evdə yoxdu, sizin də silahınız yoxdu. Qalxarlar, bizi öldürəllər, ara yerdə qanımız batar. Qoyun rahat otsunnar, yeməhlərini yesinnər. Nə vaxt qalxırlar, qalxsınnar. Yola salın, getsinnər. Allaha pənah, Allahı çağıreram, cəddim Cənab Əliyi çağıreram. Nə olajax, olsun. Allah alnımıza nə yazıb, odu.

Beləliklə, gələn qonaxlar yeməhlərini yeyillər. Həmi də nökər təklif eleer ki, qohumdan, qardaşdan kimi istersən əl altdan xəbərdar eliyək ki, belədi vəziyyət. Deyəndə Mahpeykər nənəm deyir ki, a bala, bu saat kim var? Hamı köçün üstündə yaylağa gedif. Heç kimə demək lazım döyül. Gözdüyün, Allaha pənah, cəddimə pənah.

Deməli, həmin adamlar yeməyi yeyillər, qalxıb atdarı minənəcən, buların başı yemək yeməyə qarışdığı zaman Mahpeykər nənəm də başdıyır namaz qılmağa. Namazını bitirənnən sora təhnədən bir təndir çörəyi götürür. Çörəyi öpür, gözünün üstünə qoyur. Üzünü qibləyə tərəf tutuf deyir:

– Ey bu qiblənin sahibi! Ey bu halal çörəyim! Əgər bu gələnnər, mənə qonax olan adamlar mənim malıma, mülkümə, adamıma ziyannıx verəjəhlərsə, sizə tapşırmışam oları. Olar evlərinə salamat gedif çıxmasın. Oların niyyəti gözlərində qalsın.

Həmin qonaxlar yeyib durannan sora Mahpeykər nənəm namaz üstə əlinə götürdüyü çörəyi gətirif gələnnərdən birinə verir. Həmin adam çörəyi alıf çuxasının altında gizlədir. Çuxasının yaxasını möhkəm-möhkəm düyməliyir. Hər ikisi at belinə qalxır və yola rəvan olurlar. Bular gedənnən sora Mahpeykər nənəm bir qədər rahatdaşır. Nökərlər də qayıdır, hərə öz yerinə. Mahpeykər nənəm də öz otağına gedir. Amma aradan bir qədər keç-

məmiş həmin cavannar qayıdıf atdar yerləşən xalxalın ağzını açıllar, ilxıyı qabaxlarına qatıf aparellar. Hava tutuluf, bulutdar sıxlaşıf, göy bərk gurulduyur, yağış başdıyır. Bunlar elə atdarı qabaxlarına qatanda yağış başdıyır. Bunların hər ikisi atları qova-qova həmin Tay Saqqızın divinə gəlib çatanda ildırım çaxır, ildırımın gülü Mahpeykər nənə verən çörəyin ortasından deşif, gedif oğrunun kürəyinin ardınnan çıxır. İldırım hər ikisini yandırıf külə döndərif. İlxının qabağını çəkən at ilxıyı döndərif geriyə. Bir də görüflər ki, ilxı özü gəldi, qapıya çıxdı. Çox seviniflər.

Bir dəfə, anamnan Ağdam kəndinə gederdik. Anam yerdən bir daş götürdü Tay Saqqızın divinə atdı. Balaca bir daş tulladı. Dedi, Allah oğruya-əyriyə lənət eləsin. Mən anamnan soruşanda ki, ana, niyə elə deyirsən? O daşı nəyşə atdın? Bax, anam o zaman bu rəvayəti mənə danışdı. Dedi, a bala, burdan keçəndə həmişə yerdən bir daş götür, Tay Saqqızın divinə at və denən, Allah oğruya-əyriyə lənət eləsin. Bax, o əhvalatı mənə anam söylədi.

## 28. BAŞMAQÇIXAN

Sultan körpüsünnən üzü Kürə doğru çayın axarınca gəlsəh, Axıncının sağ sahilində Dondarquşçu kəndi ərazisində bir Başmaxçıxan yer var. Onun qəribə bir əhvalatı var. Xan bir gün qoşunun çəker gəler buraya – bizim sultannığımızn üstünə. Söz vaxtına çəkər, bax, belə isti vaxdıymış. Tovuz çayınnan Axınca çayının qovşağında – iki çayın arasında bizim qala yerimiz varıydı. Qalanın həndəvərində xanın qoşunu ordugah salır, əsgərlər suya tökülür. Bizim sultanın da dar vaxdıymış. Qoşunun bir hissəsi sərhədin qırağındaymış. Çar-naçar qaler, bilmir ki, rəqibinin qarşısına necə çıxsın. Bizim adamların içində bir dənə qoçax adam varıymış, adı Qırdı Hasanıymış. Qırdı Hasan gəlir deyir ki, mənə nə verərsən, tək başına mən burdan xanın qoşununu qaytarım? Deyir, ayə, sən nə qayıra bilərsən? Deyir, sən bəxşişini hazırla, o mənim işimdi. Deyir, sən mana bir namə ver, bir dənə də qoratan[17] ver. Bu çuxasını elə nizamlıyır, çuxasının altında qoratanı

[17] Qoratan – lülədən doldurulan tapanca

saxlıyır. Gəlir düz ordugaha. Deyir, mən sultannan xana bir namə gətirmişəm, barışıx naməsi. Dərhal qaroulçular xana xabar yolluyur. Xan deyir, buraxın, gəlsin. Xanın da mühasirədən canı boğazına yığılıf. Deyir, bir halda ki elçi gəlif, buraxın. Naməni çıxardır, Hasan xana təqdim eliyir. Qoratanı çıxardır namənin üstünnən qorruyur. Atəş açanda xanın sakqalı qarsalanır, namə hamısı bir-birinə qarışır. Bu da cəld adamdı da, tez aradan çıxır. Aləm qarışır, xanın sakqalı, bığı oddaner. Deyir, ə, qoy rədd olsun, sultannıx da cəhənnəm olsun, bunun torpağı da. Öz canının hayındadı ha. Elə bilir ki, gözü kor oldu. Qoşununu da yığışdırır. Dondar Quşçunun üstünnən Ojaxlıya aşan yerə Başmaxçıxan deyillər. Yanı xan qaçanda başmağı da ayağınnan çıxdı, orda qaldı.

## 29. MUTU DƏRƏ

Ləzgilər Dağıstannan bu kəndlərə çox hücum eliyif, insanları aparıf qul kimi işlədirmişdər. Bir dəfə də hücum eliyəndə... Bizim kənddə bu dəyqə sərhəddə üş dənə ləzgi qabrı var. Bu ləzgilər bir dəfə də gəlif bizim kənddən bir balaca oğlan uşağı aparır. Bu oğlan uşağının adı da Mutu olor. Bu orda yekələnir, döyüşkən oğlan olor. Bu uşağa deyillər ki, sən Azərbaycandan gəlmisən, özü də filan zonadan.

Bir gün toyda at səyirdirmişdər. Bu, bir qara atı minir səyirdir, səyirdir, hamının atını keçir. At belində aradan çıxır, atı sürür Dağıstannan bura gəlir. Mutu bağı, Mutu dərə həmin oğlanın adıynan bağlıdı.

## 30. SOFU DAĞDAĞAN

Əlibəylidə Güllü arvad vardı. O dedi ki, mənim bir nənəm vardı, yüz iyirmi il yaşadı. O mana deyirdi ki, Sofu dağdağanın divində iki qəbir var. Onun böyründə də bir qara dam oluf. O qara damda olan adam həmişə o qəbirrəri ziyarət eliyirdi. O qəbirə də "seyid qəbri" deyirdilər. Hətta o, damın yerini də mana göstərdi, kalafa yeri durordu. Dedi, həmin adam da öldü, onu da həmin qəbirlərin əyağı altına basdırdılar.

## 31. TORPAQQALA

Torpaxqalanın arxı bizim kəndin içinnən gedif. Köhnə kişilər Torpaxqaladan böyük küplər gətirirdi, içinə taxıl doldorordolar. Kirkirə gətirirdilər. Saxsı qablar, qırmızı kərpiş çıxerdi. Torpaxqalanın da rəvayəti belədi. Yaşlı kişilər danışırdı ki, buranın padşahının yoldaşı ölür. Arvad öləndə vəsiyyət eliyif ki, bu ayakqabı kimin ayağına olsa, a kişi, sən onu al. Kişi də dünyöyü gəzer, bu ayakqabı heş kimin ayağına olmor. Özünün bir qızı vardı. Qız ayakqabını ayağına taxır, ayakqabı ayağına olor. Padşah fikirrəşir ki, a bala, məni nə dağa-daşa salmısan. Hazır ayakqabı sənin ayağına oluf, elə səni də alajam. Qız deyir:

– Ay ata, sən mənim atamsan, belə şey olmaz.

Deyir:

– Yox, olsa da olajax, olmasa da.

Qız belə bir tövsiyə verir. Torpaxqalanın bir tərəfi də Kürdü. Deyir:

– Gedersən Kürün o tayında düz yer var, bizim yataq yerləridi. Gedərsən orda bostan əkərsən. Orda məhsul olsa, sən deyəndi.

Kürün suyu da ora çıxmer, susuz yerdi. Padşah böyük noy tikdirir, yumurta sarısıynan onu bütün suyuyur ki, su dammasın. Suyu bu noya bağlıyır, suyu çəkib gətirer. Suluyannan sora bostan əmələ gəler. Qız deyir:

– Dədə, bostan əmələ gəlibmi?

Deyir:

– Hə.

Deyir:

– Get bir yemiş, bir qarpız gətir.

Deyir, qarpızı kəsəndə qan çıxer, yemişi kəsəndə irin çıxer. Deyir:

– Dədə, bizim dolanmağımız budu.

Torpaqqalaynan bağlı bu rəvayətdi. Kimi deyir, padşah qızı aldı, onunçün bura alt-üst oldu. Kimi də deyir, almadı.

## 32. VƏLAYAQ ÖYSÜZLÜ

Bu kəndə Vəlayax Öysüzdü, Qızılgöz Öysüzdü deyiflər. Vəlayax Öysüzdü ona görə deyiflər ki, bu zonanın kişiləri boyca iki metrdən yuxarı, böyük, şəxsiyyətli, qulaxları iri, simaları ağ, ətdicannı... Mənim nənəm öləndə, o dəfn olunanda iki dənə əl xalçası saldılar altına. Minimum bir yüz altmış kilo olardı. Boyu da olardı bir doxsannan yuxarı. Bir qılçasının üstündə ikimiz oturardıx. İnsanın ayağı da onun bədəninin ölçüsünə uyğundur. İki metr boya otuz beş razmer ayax verməz axı Allahtaala. Qırx altı razmer verməlidi ki, onu saxlasın.

Qızılgöz – bu mahalın kişilərinin leksikologiyasında yalan adında söz olmuyuv. Ona görə bulara deyiflər Qızılgöz Öysüzdü. Ən dəqiq tərəzi qızıl tərəzisidi. Yəni, deyiflər ki, bu mahalın kişilərinin dediyi söz qızıl tərəzisinnən ölçülör. Sözə ölçü qouvlar.

## 33. İT YALAĞI

İt yalağı deyilən yer büyün Aşağı Öysüzdüdə yerləşir. Aşağı Öysüzdü, Yuxarı Öysüzdü deyilən söz yoxdu. Bir dənə söz var, Öysüzdü. Bir az da geniş danışsax, Öysüzdü Bəyliyi. Öysüzdü Bəyliyinin coğrafiyasında bu gün yüzdən çox kənd var. Elə iyirmi neçəsi Gədəbəyin Şınığındadı. Heç olmasa bir üç o qədər də burdadı. İt yalağı sözü hardan yaranıf? Bilirik ki, Bəylik sürüynən yaşerdı, mal-davarnan yaşerdı. Tülkü Təpəsi deyilən yer oluf, – indi orda su anbarı tikilif, – o ərazidə sal qayalar oluf. Yağış, külək nəticəsində o qayalar korroziyaya uğrayıb, çökəkliklər olub. Sürü yaylaxdan enəndə, qışdığını burda keçirərmiş. Və orda, o daşların çökəkliklərində sürüyü mühafizə edən itdərə yal tökərmişdər. İt Yalağı da ordan qalmadı.

## 34-35. MURĞUZ OCAĞI

Mənim atam Murğuz ojağına yeddi qurvan aparıf. İkisini böyüh qardaşım olanda aparıf, yəni niyət eliyif aparıf. Mən gözümnən gördüyüm möcüzəni danışım. Mən ona kimi Murğuzu da

görməmişdim. Getdih Başkəndin əyağına – Murğuzun ətəyinə. Başkəntdən çıxannan sora bizim binələr Murğuzun ətəyində dayanerdı o vaxt. Murğuzun o üzü də Çənbərəkdi dana. Çənbərəkdən keşdih. Murğuzun ətəyində Xatınnı binələrinə iras gəldih. Xatınnı binələrinnən qağam at götürdü. Beş-altı at yühləndi. Erkəh də tüşdü bu atın dalına. Gethaget, bir günün günortasınatan, gün əyilənətən yol getdih dağın başına. Bax, bir belə daşdı, daşın üzünnən elə bil yağ damer. Onun ətəyi bulaxdı. Bulağın dörd tərəfi daş olmuş qoyun-quzudu. Keçi də daşdı, it də daşdı, çovanın köynəyi orda daşdı, çomağı burda daşdı. Kişinin özü də daşdı. Mən qağama sual verdim, ağsakqallara – binədən qoşulannara ki, bu nə möcüzədi. Deer ki, bu gördüyün çovanın sürüsü, həm özü burda susuzdan batermiş. Bu çovan qanına bələmmiş də köynəyi isdidən soyunuf. Hərrəner, firraner, axdarer, su yoxdu. Deer, fida olum səə, məəm özümün də, bu dilsiz-ağızsız heyvannarın da susunnan dili ağzında bater, yaner. Bax, bu sürünün içinnən bir erkəh kəseyjəm. Möcüzəni gösdər, burdan bir bulax çıxsın. Ya Rəbbim, ya Allahım! Daşın divinnən – o ki çovanın daş olduğu yerdən su qaynıyır. İt də içer, qoyun-keçi də. Çovan da yuyunur, sağ olmasın çovanı. Oturor, başdıyer köynəyindəki pitdəri qırmağa. Hə, əvvəlcə deyir, bir ağ qoç, bir qara qoç burda qurvan kəsəjəm. Bu – tikə-tikə olmuş, bir ağ pit taper, bir qara pit. Köynəhdən çıxer, doludu. Çovan adam, dağın başında. Bulları öldürəndə deer, biri ağ qoçdu, biri qara qoç. Fida olum, Allah, saa! Sürü də daşdı, özü də daşdı, iti də. Bu, möcüzədi. Sürü də eləsi var baş-başadı, eləsi var ayrı-ayrıdı. Hamısı daşdı. Heç olmasa, beş yüz heyvan daş oluf. Biz heyvanı kəsənnən sora orya – həmin ojağa ermənilər gəldi. Ermənilər töyux-cücə, xoruz-beçə gətdi. Xoruzu kəsdilər. Mən dedim, bə bu nə olan şeydi? Bu, bizim ojaxdı. Dedilər, bu el ojağıdı. Fida olduğumun tərəfinnən suyu erməni də içer, müsəlman da. Ordan biz tüşdüh aşağı. İnan, Murğuz dağının düz başındadı ojax. Biz altıda – ala toranda yola çıxdıx. İkinin yarısında çatdıx ojağa. Aşağı Çənbərəyə tüşəndə, binədən aralı gördüh dolu yer-yurdu dağıdıf. Ağacı da aparıf, şiferi də qırıf, ama Murğuzun başına yağmamışdı. Möcüzəydi.

## 35.

Murğuz dağı Keçəl dağın böyründə yerləşən ən hündür dağdır. Öysüzdü eli, Əlibəyli eli vaxtinən həmin yerə yaylağa çıxarmış. Rəvayətə görə, Nəsib bəyin Murğuz adın bir çovanı yaylağa çıxanda qurvan deyərmiş ki, mən bu sürüynən yaylağa salamat gedim, salamat qayıdıf gəlim. Qayıdanda həmin dağda bir ağ qoç, bir qara qoç qurvan kəsəjəm. Bir neçə dəfə belə vaxt keçer, qurvanı kəsmer. Bir də boynu-başı giyişer. Giyişən vaxdı əlini çalanda əlinə iki dənə pit gəler: biri ağ pit, biri qara pit. Dırnağlarının arasına qoyarağ pitdəri öldürüf deyir: "Aha, bax bu ağ qoç, bu da qara qoç, kəsdim. Bu da munun qurvanı". Həmin vaxdı çovanın ətrafındakı qoyunlar da daş oluf, rəvayətə görə, özü də daş oluf. Həmin günnən həmin dağın adı oluf Murğuz dağı, Murğuz ocağı. Həmin yerdən bir bulax çıxer. Həmin bulağın üstə çox qurbannar kəsilif, nəzir-niyazdar deyilif.

## 36-37. HAÇAQAYA

Eşitdiyimə görə, Salsal oluf, doqquz evladı oluf. Doqquzu da padşah oluf, hərəsi bir diyara padşahlıx eliyif. Bir günnəri, deyir, Cənab Əlinin dəvəsi iter. Dəvə itəndə qullar axtarışa çıxer. Biri də gəler, deyir, Kiçik Qafqaz dağlarında belə bir Haça qaya var, ora. Hə, buruya çıxanda Salsalın adamları buları tutor. İki nəfər olullar. Deyir:

– Siz kimsiniz?

Deyir:

– Biz ərəb millətiyik.

Ərəbik deyəndə gətirif buların qabağına şərab qoyur. Nə qədər döyör, şərabı işmellər. İşmiyəndə, deyir, bu ərəblər ağası Canab Əliyi çağırer ki, sən mana köməh ol. Onda gəler orda Salsalın evlatdarınnan bir nəfərini həlak eliyir. Salsal ordan qaçıf gəler bax bu Haçaqayıya. Bu Haçaqayaya gələndə Əli qılıncı çəker ki, Salsalı kəssin, qılınc kəsmer. Salsal qaçer aradan çıxır. İbrahim Hajılının başında köhnə qala oluf. Salsalın qalası deyillər, bu saat duror, iri gümbəz idi. İndi oroya su gəler, hardan gəldiyini hələ tapammellər.

Cənab Əlinin atı olof. Düldülün sahibi, Qəmbər ağası, Nuhun gəmisində yatana yetir. Belə bir şeir də var. Həzrət Əli oroya geder, isdiyir bunu vursun, vuranda Allahtaaladan səda gəler ki, ya Əli, onun başı duadı, bədəni tilsimdi, onu qılış kəsmiyəjəh. Qəzəflənər daşa çəker. Qılış daşı kəsəndə Salsal qaçer, geder həmin o köhnə qalaya. Köhnə qalaya gedəndə, Cənab Əli bunun izinən düşör. Tatara enəndə orda Tək dağdağan ağacı var, oroya ojağa gedellər, o atın izi orda da var. Salsalın izinnən gedir, oroya çatanda, səhər-səhər Salsalın evladı eşiyə çıxer, deyir ki, sənnən qılışnan vuruşan ərəb gəlif, bulağın başında namaz qıler. Salsal, deyir, qəzəflənər. Çölə çıxer ki, sən kimsən, sən nəyə əlifsən bura? Onu deyə bilərsənmi? Deyir yox. Mən kim olduğumu saa demişdim, sən nətər mana inanmadın? Deyir, indi səən güjünü sınamağ üçün mənim idman daşdarım var, oları qaldır yerinə qoy. Sana deyəjəm. Həzrət Əli özü götürmör. Həzrət Usubnan Abbas Əlinin evlatdarı idi. Oları çağırer ki, bala, bu daşı götür at oana. Daşı götürüf atırlar. Salsal qəzəflənər. Deyir, olar mənim idman daşlarımdı, daşdarı qoyun yerinə. Uşaxlar gətirer daşdarı qoyannan sora bunu kəsmək isdiyəndə Allahtaaladan səda gəler ki, ya Əli, onun başı tilsim, bədəni duadı. Onu qılış kəsmiyəjəh. Həzrət Əli Salsalı başının üsdünə qaldırıb fırlayır, səni Allahın lənətinə gəl deyib atır. (Bu gün də deyirlər hansısa devlətdə Salsal yaşıyır, qurşaxdan aşağı torpaxdadı, qurşaxdan yuxarı açıxda. Ora ziyarətə gedellər. Özü də ora ziyarətə gedənnərin kəsdiyi qurban ətinnən o yemir. Deyir, orda müsəlman əli var). Qılışı Salsala çəker, qılış Salsalı kəsmiyəndə qəzəflənif daşa çəker, daş onnan haça qaler.

Öz gözümün şaadıyam. Burda seyid var idi, Seyid Miri. Sınaxlı seyid idi. Seyid Miri oturmuşdu orda, onda mən də uşax idim, atnan getmişdih ojağa. Yaz idi, gülün, çiçəyin açan vaxtı idi. Bir qadın baş yaylığını öz başınnan açıf qızının başına bağlıyanda yaylıx əlinən çıxdı, burula-burula qalxdı havaya, hamı da gözünü ona dikif, endi kəsiyin başına düşdü. Rəhmətdik Seyid Miri dedi, a bajı, bu nə sirdi? Dedi, ağa, sirri budu ki, kasıb idim. Qızım xəsteydi, yaylığı bura nəzir demişdim. İndi tamahım güj gəldi, başıma bağlıyıf aparerdim.

Orda neçə qurvannar başı kəsik qaçıf. Aparıf kəsif ilihliyini vurmuyuf, əldən çıxıf qaçıf. Oğurruh oluf.

Gədəbəydən Xəlil kişi var idi, and içirdi ki, yaz günüdü, iki atdı gəler hərəsinin qujağında bir quzu, ojağa gedillər. Bular, deyir, ziyarətə çatanda bir topa bulud qalxdı, külək qalxdı, şimşək çaxdı, qiyamət qopdu, gedəmmədilər. Çardağın altına daldeylandılar. Yağış kəsdi, duruf getmək isdiyəndə bir də başdadı. İki-üş dəfə belə olanda dedim, a bala, sizi and verirəm o Allahın adına. Düzünü deyin görüm bu nə sirridi? Deyir and işdilər ki, quzuyu yoldan oğurramışıx, atın da biri oğurruxdu. Ona görə ojağ oları yaxın buraxmayıf.

Deyilənən görə, Həzrət Əli Haçaqayada namaz qılanda dizinin yeri, möhür yeri, əllərinin izi hamısı ora düşmüşdü. İndi hamısını qırıf aparıflar, qalan bir düldülün izidi.

**37.**

İslamın şiri, pənahı Cənabi Əli islamı yaymağ üçün bu torpaxlara gəler. Cənab Əli gəldi, Tovuz ərazisindəki Mamırtı dağında surfa aşdı. Surfa aşdı, burda dirsəhlənəndə dirsəyinin yerinnən su çıxdı. Mamırtı dağının başında su-zad olan döyül. Bunnan sirab elədi, nuşi-cannan işdi, qalxanda surfasını silhdi[18]. Doğurdan da, Mamırtının həndəvərindəki kəntdərimiz var – Alakol, Köhnə qala, Məşədilər, İbrəhimhajılı, Qoyların bir hissəsi, Aşağı Ayıflının, Düz Qıraxlının üst hissələri çox bərəkətdi, verimli torpaxlardı. Nə qədər ajdığ olub, nə qədər quraxlığ olub, nə qədər çətinnih olub, o ərazi, o torpağın insannarı heç vaxt ajdığ, səfalət görmüyüb. Ona görə deyirdilər ki, burya Cənab Əlinin ətəyi dəyif, burya cənab Əlinin surfasının qırıntıları tökülüf.

Cənab Əlinin ayağının basdığı ətrafda köhnə qala oluf. Orda Salsal pəhlivanın gəmisi işdiyif. Böyük bir nehr oluf. Salsal pəhlivan da yerli tayfanın başçısıdı. – İndiki Haçaqaya deyilən müqəddəs yerdə, ora ziyarətgahdı. Tovuz rayonunun Sarıtala inzibati ərazi dairəsinnən Qərifli inzibati ərazi dairəsinin müştərək yeridi, azacıq bir hissə də Gədəbəy ərazisinə qonşudu. Ancaq zi-

[18] Silhdi – çırpdı

yarətgah olan yer Tovuz ərazisindədi. – Bu ərazilərdə Salsal pəhlivannan Cənab Əli qarşılaşası olor. Neçə gün güştü tutollar. Heş biri o birinə güc eliyə bilmir. Köhnə kişilər danışırdılar ki, dizdəri yerə gəldi, bir-birini elə çəhdilər ki, elə bil neçə ağızdı kotannan yer şumluyufsan. Daşa əllərini vurdular, daş toza döndü. Bir-birinə güj eliyə bilmillər. Salsal pəlivanın qadınının Cənab Əliyə, islama meyli vardı. Neçə gündü bir-birinnən güştü tutollar, heş biri o birinə güj eliyəmmer. Cənab Əli də nə qədər qılıncı, zülfüqarı endirir, kəsmir. Zülfüqar da hakdan nazil olan bir qılıncdı. Cənab Əli qeyzləndi, Zülfüqarı qayıya belə çəkəndə üç yüz metr hündürrüyündə qaya paralandı, pendir kimi iki yerə bölündü. Amma nə qədər Salsal pəhlivana vurur, kar eləmir. Elə bil həmən Zülfüqar döyül. Salsalın yoldaşı xəlvətcə Cənab Əliyə ismarış yolladı ki, onun köynəyi sehirridi, yırtsın. Cənab Əli əlini atdı, köynəyi yırtanda Salsal pəhlivan basıldı. Cənab Əli əl saxladı. Basılmış pəhlivan onsuz da yaşıyası döyül. Salsal Cənab Əlidən xayiş elədi ki, məni apar, parçalanmış qayanın yanında başımı kəs. Əlinin qabağına düşüb bir xeyli getmişdi, birdən Salsal pəhlivanın ayağı getmədi. Dedi, bax, mənim torpağım burda qurtardı. Mənim atamın, babamın qəbirrəri burdadı. – Day elə bil ki, qüvvəsini itirir. – Mənim başımı öz torpağımda kəs.

Haçaqayaya çatmamış Düldülün ayağının izi var, Cənab Əlinin əllərinin izi var.

Cənab Əli süfrəni açdığı yerdə Cinarrı ocağı var. Həmən yerdə su peyda olur. Süfrə açdığı yerdə dirsəyinin yeri var. Sudan sora orda nəhəng çinarrar əmələ gəlir. Şeytanın yoldan azdırdığı kəsdər həmməşə oluf. Nəsə, o ocağa yaraşmıyan bir hərəkət eliyiflər, o çinarı murdarrıyıflar. Çinar quruyuf, amma ad qalıb Çinarrı piri. İslamın əlamətdar günlərində, xüsusən aşura günü, Məhəmməd peyğəmbərin mövludu günü, Cənab Əlinin mövludu günü orda çox böyük izdiham olur.

## 38-39. SOLTAN KÖRPÜSÜ

Soltan körpüsü Şəmsəddin Sultannığının dövrünə təsadüf eliyir. O zaman Yekallar kəndinin rayonun qərb tərəfinnən əla-

qəsi çox çətiniydi. Aradan axan Axıncı çayının üstünnən keçid yolu yoxuydu. Üstəlik Axıncı çayınnan o tərəfdə Tovuz çayı axırdı. Hər iki çay bolsulu çaylarıydı. Əlaxüsus da, Axıncı çayı. Bəzən ona Dəli Axıncı da deyirdilər. Ona görə ki, suyu o qədər coşqun və iti axımlı olordu ki, insannar hətta onun yaxınınnan getməyə çətinnih çəkerdilər. Bu nöqteyi-nəzərdən, camaat soltannığa müraciət eliyir ki, bəs bizə belə bir köməydarrıx lazımdı. Bizim heç yerə çıxışımız yoxdu. Bizə bir körpü. Nəsib Sultan bunlara razılıx verir və körpünü inşa etdirir. Deyilənnərə görə, o körpü yumurta sarısınnan və bişmiş gəjdən hazırlanmış iki tağlı körpüdü. Deyilənə görə, körpünün açılışında Nəsib Sultan faytonnan gəler, özü o körpünün üstünnən keçir. Orda da camaata elan eliyir ki, ay camaat, bu körpünün adını mən qoyuram Soltan körpüsü. Körpünün bünöyrəsi qoyulanda, el adəti idi, ora nəsə bir külçə qoyulur. Deyilənə görə, Nəsib Soltan da bir parç qızıl qoyur körpünün bünöyrəsinə.

**39.**

Çay var burda. Yaz ağzı daşqınnar olordu. Karvan gələndə çay daşqınını gözdüyərmiş, çayın suyu enəndə vuruf çaydan keçərmiş. Bu da çox ləngimələrə səbəb olordu. Ona görə Nəsib sultan yumurtadan, qoyun südünnən və əhəng daşınnan o körpüyü tikdirir. Öz adamını da qoyur oraya, körpüdən keçəndən haqqını aler.

Nəsib Sultan körpüyü tikdirif. Deyəllər ki, körpünün tikilişində öz qoyun sürüsünə tapşırıfmış, qoyun sağılırmış, qumu, torpağı qoyun südünnən yoğrullarmış. Örülüf qutarannan sora malı hayladır, naxır sürüynən keçir körpüdən, göröllər uçmadı. Bir ala inək kəsdirir, öz əliynən orada işdiyənlərə qurban əti paylıyır. Bizim kəntdə Maşa seyit olufdu. Maşa seyit buna deyər ki, a sultan, əlini-ayağını niyə qana bəliyirsən? Qoysan uşaxlar paylıya. Deyir, a maşadı, mən nəzir eləmişəm, əhdim yerinə yetif qurubanı özüm paylıyıram. Ala inəyin də var, ala saplı pıçağın da var. Sən də bir iş gördür, sənin də əhdin başa çatanda kəsib uşaxlara payladarsan.

## 40-44. NƏSİB SULTAN

Şəmsəddin sultanı Nəsib sultanın mən eşitdiyimə görə yeddi oğlu oluf. Yeddi oğulnan bəravər bunun bir nökəri də olub, onu da oğulluğa götürüf. Rusdar bura daxil olanda Nəsib sultan rus təbəliyini qəbul eliyif. Bir müddətdən sora bunun imtiyazdarı tədricən ləğv olunanda sultannığın ərazisini yeddi oğlu və nökərin arasında bölüşdürüb. Bax o Cücəmbəyə də Gədəbəy rayonunun ərazisi düşüf. Bu Gədəbəyin adı ordan əmələ gəlif. Sora ki bu ailə təqib olunub, özü Həştərxanda sürgündə ölüf, evlatdarı hərəsi bir tərəfə dağılıb gedif. Soralar vəziyyət bir balaca sakitdəşəndə Öysüzdü ağsakqalları eşidiflər ki, Nəsib sultanın nəvələrinnən cənubda – Sulduz şəhərində məsgən salannar var. Sultanın nəvələrini gedif dəvət eliyiflər, gətiriflər bura. Bax bu Öysüzdü kəndində bəylik belə bina oluf yenidən. Sultannıx da Çar Rusiyası təbəliyinə daxil olanda bular sənəddərini saxlıyıbbışdar, bəylihləri tanınıbbış. Onnan sora bular burda çox haxnan, ədalətnən bəyliy eliyiflər. Mən yaşlı insannardan eşitdiyimə görə bular çox ədalətdi, haqqı nahaqqa verməyən bəylər olub.

Söhbət eliyillər ki, bir kasıb gəlib bəyə müraciət eliyəndə ki, bəy, mən kasıb düşmüşəm dolana bilmirəm. Bəy adamlarını çağırıb buyurardı ki, get sürüdən bu adama əlli dənə qoyun ver. Sözü də bu olarmış ki, oğul, bu əlli qoyunu verdim sana, beş ildən sora mənim əlli qoyunumu qaytar özümə ver, artıx heş nə istəmirəm. Yaz vaxtı, köhnənin tükənən, təzənin hələ çıxmayan vaxtı gəlib müraciət eliyən olanda kı, bəy, mənim evimdə uşağımı saxlamağa bir bişimlik unum qalmıyıb, təhnəm tükənifdi, bəy buna istədiyi qədər borc taxıl verərmiş. Əvəzini qaytaranda bir dən belə olsun artıx götürməzmiş. Bu gün də bəylərin mülkləri durur. Nəsib bəy, Usub bəy və buların üçüncü bir qardaşı da oluf – Əli bəy. Rəvayətə görə, Əli bəy də Peterburqda darülfünunu bitiribbiş. O, hadisələrin gedişatını bildiyi üçün aylə qurmuyubbuş. Usub bəyin övladı olmuyuf, Nəsib bəyin övlatdarı oluf. Soralar bular sürgün olunanda oların mən sorağını Yevlaxdan almışam.

## 41.

Usub bəyin, Nəsib bəyin altı dənə erməni ustası olub. İş qutarannan sora gətirif kef stolu düzəldif. Oturuf yiyib-içəndə Usub bəy soruşur kun, ay ustalar, olar da, həyatdı. Yiməyinnəmmi, yatacağınammı, ayləmnənmi narazılığınız olar. Mən sizdən xayiş eliyirəm ki, halallıx verin. Orda erməni ustası deyif kin, ay Nəsib bəy, Allah işivi avand eləsin, hər şey nizamdı, düzdü. Ancax bircə şeyə hayıf. Deyəndə deyir ki, ayə, erməni, ay usta, o nə sözdü dedin? Deyir ki, mən bir söz dedim, xayiş də eliyirəm bənd olma, heç onu soruşma. Bəy bunu sıxışdırır, sıxışdıranda qayıdıf deyif ki, "hayıf" sözü odu ku, mən deyirəm bu binaları tikdin, yaratdın, burda kim yaşıjax. Buna hayıf deyirəm.

## 42.

Cəvahir xanım Nəsif bəyin kənizdərinin biridi və nənə-babalarımızın dediynə görə, mənim ulu babalarımın biri Avdı Katta, Nəsif bəyin yox, bəyliyin qızının birinin yoldaşı oluf. Yəni, biz – Köhlülər həmin Bəyliyin qız törəmələriyik. Qılışdı həmin bəyliyin qız törəmələridi. Cəvahir xanım da Nəsif bəyin kənizdərinin biri olub. Cəvahir xanım zamanında Şərq gözəli titulu alıb. Nəsif bəyin razılığınnan onun portretini çəkib karvansaralarda satıflar. Cavad xan bir neçə dəfə bunnan xahiş eliyif ki, sənin kənizinmi yoxdu? (Cavad xan da bunnan o satılan portret vasitəsinnən tanış olub). Cəvahir xanımı mana sat. Bu da ona çox mədəni şəkildə cavab verib ki, ay qağa, hansı qeyrətdəndi ki, mən kənizimi sana verəm. Həmin məsələdən sora bunnarın arasında ziddiyət yaranıb. Və bunnar müəyyən mənada bir-birinnən tüşmən oluflar. Bir vədə Yusif bəynən Nəsif bəy hardasa səfərdə olanda, Cavad xan basqın eliyif və Cəvahir xanımı oğurruyuf. Cəvahir xanımın barmağında zəhər qaşlı üzüyü oluf. Xana deyib ki, xan, mana qırx gün möhlət ver. Sən məni oğurradıfsan gətirifsən, bax mən bu Gəncə qalasındayam, mana qırx gün möhlət ver, mən səninəm. Amma xayiş eliyirəm, icazə ver mən qırx gün özümü bir toxduyum. Qırx günnən sonra mən səninəm. Bu, ürəyində fikirrəşif ki, qırx günə yəqin ki, Bəylih hardasa bunun dalınnan gələr. Bu bilirmiş ki, Bəylik çox qüdrətlidi, güjdü atıcıları var, filannarı var. Xan buna icazə verif.

Və Cəvahir xanım ürəyində fikirrəşif ki, qırx günə Bəylih gəlməzsə, üzüyümün qaşındakı zəhəri içif intihar eləməliyəm.

Bəylih beş gün, üç gün, fikir içində, xəyal içində qalıf. Mənim babam Avdı Katta əlini belə bəyin çiyninə qoyuf deyif, bəy, bu sən öl, Cəvahir xanımı gətirəjəm. Deyif, nə cür? Deyif, qoy fikirrəşem!

Bu gəlif evə, deyir, qalıf ağzı üstə. İki gün yataxdan qalxa bilmiyif. Deyiflər, a kişi, sən iki gündü getmersən, bəy səni axtarer. Deyif, mən elə bir səhv eləmişəm, iki gejədi ağzı üstə fikirrəşerəm, yerimdən dura bilmerəm. Mən əlimi bəyin başına qoymuşam, mən ya ölməliyəm, ya onu gətirməliyəm, mənim ikinci çıxış yolum yoxdu. Səhvi də özüm eləmişəm. Bu məqamda buna deyillər ki, səni Qırdı Hasan çağırer. (Qırdı Hasan da Yuxarı Öysüzdü kəndinin lap yuxarı başında yaşıyıb, boyca çox xırda adam oluf. Bizim kəntdə Hasan adında ikinci bir kişi də oluf. O uşaq ikən Bəyliyin binasında məktəbdə oxuyarkən orda çinarrar vardı, o çinarrarın döşündə sığırçınnar yuva salıfmış, raqatqaynan sığırçın vurormuş. Orda olan bəylər deyiflər, ayə, bu ömrü kəsilmiş raqatqanı elə ater ki, elə bil Qırdı Hasan beşatılan ater. Onnan bunun adı qalır Qırdı Hasan. Adamlar bu Qırdı Hasanla onu qarışdırellar, amma bizim haqqında söhbət etdiyimiz Qırdı Hasan qavaxlar oluf. Qırdı Hasan deyilənə görə, uçan quşu göydə gözündən beşatılannan vurormuş. O qədər balaca adam oluf ki, atın yəhərinin qaşında gizdənermiş güllədən). Avdı katda deyir ki, dəvət eliyin Qırdı Hasanı, gəlsin içəri. Gəler deyir, katta, gedəh də bəy nə deyir, nə qoyur, nə məsləhət eliyir...

Bu başına gələn hadiseyi Qırdı Hasana danışer. Qırdı Hasan deyir, narahat olma, gedəjeyih də, gətirejeyih də Cəvahir xanımı. Deyir, ə, kimnən, nəynən, hansı orduynan? Deyir, sənnən mən! Deyir, ə kişi, nə danışersan? Deyir, ə kişi, sən bəydən icazə al, sənnən gedim Cəvahir xanımı gətirem, sənin nə işinə qalıf. Deyir, oldu.

Gəlillər Bəyin yanına. Bəy deyir, Avdı Katta, sırağagün dediyin söz yadındadımı? Deyir, bəli, bəy, bizə icazə ver səfər tədarükünü görək. Deyir, gedin hazırraşın. Deyir, kimnən? Sərkərə denən atdıları, beşatılanları, nəvilem filannara, camahata de-

sin, orduyu hazırrasın. Deyir, heç kim lazım deyil. Deyir, bəs kimnən gedersən? Deyir, Qırdı Hasannan. Deyir, ə kişi, nə danışersan? Deyir, a qardaş, bir dənə Qırdı Hasannan mana icazə ver səfər tədarükünü görək və Cəvahir xanımı gətirək. Deyir, oldu.

Bunnar bəyin razılığınnan səfər tədarükünü görüllər. Qırdı Hasan atdaner, bir az yol azuqəsi, filan. Bir də Qırdı Hasan buna deyir ki, Avdı Katta, sən bəydən nişanə al. Sən nişanə almasan, xanım bizə inanmaz. Deyir, nə nişanə? Deyir, nə alassan? Üzükdən yaxşı nişanə yoxdu, bəyin üzüyünü al.

O vaxtı bəylərin üzüklərinin hamsının ştampı olarmış, yazıları olarmış. Məsələn, Süleyman şahın pütün üzüklərində Süleyman şah yazılıpbış hamısında. Nəsif bəyin də üzüyündə yazılmışmış söz gəlişi Nəsif bəy.

Bir rəvayət var. Deyir, bir vaxt Süleyman şah səfərə çıxermış. Gəler bir qarışqa yuvasının ağzına. Deyir, qarışqanın ağsaqqalını çağırer. Deyir, buyur, şah sağ olsun, eşiderəm! Deyir, ala, mənim bu üzüyümü saxla. Mən uzax səfərə gederəm, birdən ola bilər mənim başıma bir iş gələr qoy üzüyüm itməsin də, tarixdə qalsın. Deyir, baş üsdə, şah!

Qarışqa üzüyü aler, çıxer geder. Şah da geder səfərə, qayıder gəler. Gəler qarışqanın yuvasının üstünə, çağırer: "Ay qağa, mənim üzüyümü gətir". Qarışqa, deyir, bir cəm üzüy gətirer qoyur bunun qabağına. Deyir, a kişi, mən öz üzüyümü isterəm. Deyir, göt də öz üzüyünü ordan. Deyir, mənim üzüyümün qaşında Süleyman şah yazılıb. Deyir, ordakı üzüklərin hamsının qaşında Süleyman şah yazılıf. Çox sənin kimi Süleymannar gəlib bu dünyaya, gəlif də əli boş gedif. Kəfənin götürüf gedif.

İndi, bu sözü danışmaxda məqsədim nədi? Bu bəyliy şahlığın, sülalənin davamı idi. Bunnarın üzükləri maqazinnən alınmerdı, zərgər döör, addarını da ora həkk elerdi. Der, üzükdən yaxşı göstərici yoxdu, üzüyü al, çıxax gedək.

Nəysə, üzüyün birini verir bunlara. Bunlar da üzüyü götürör civinə qoyur, çıxıf gedellər. Gedillər Gəncə qalasının ətrafında düşərgələnellər. Düşərgələnəndə, təkrar elerəm, Qırdı Hasan o qədər xırda adam oluf ki, su gilifinnən keçer qalıya. Baxır görör Cə-

vahir xanım çarhovuzun başında qızlarnan gəzer. Cəvahir xanım bunu görən kimi daldalaner. Çünki Cəvahir xanım xanımıydı, adi qadın döyüldü. Deyir, burda nəsə bir əmma var. Deyir, ayə, Qırdı Hasan xeyir olsun, hardan gəldin, nə cür keşdin? Bəyin mana bir sözü, gapı, filanı olmadımı? Deyir, oldu. Deyir, nə söz dedi bəy? Deyir, bəy dedi ki, əgər təmizsə gəlsin, təmiz döyülsə ona çəkdiyim zəhməti ona halal elirəm, bildiyi kimi yaşasın. Xanım and-aman eliyif ki, mən təmizəm. Xannan qırx gün möhlət almışam. Məni aparmağın yolunu mana izah eliyin, vədələşək, elə də gedək. Deyif, oldu. Onda savaxları axşam hava qaralan vədəsində, bax bu su gilifinin qabağına gəl qala tərəfə. Deyir, yaxşı, bunnarı da bildim, bəyin təhlifini də anladım, bəs bəyin nişanəsi? Mən hardan bilim, nədən bilim sizi bəy göndərif. Deyəndə, deyir, üzüyü civinnən çıxarder görsəter. Deyir, oldu, anladım, söhpət bitdi.

Bu qayıder, çıxer gəler. Bunnar orda bir kəndə yönəlellər. Bir yanda yiillər-içillər, dincəlellər. Savax axşam hava toran çalanda yenə də Qırdı Hasan bu oyuxdan keçer Qalıya. Özünnən kəndir gətirmişdi. Kəndiri bağler munun belinə, kəndiri ater zaborun üstünnən belə. Nəysə, uzun çətinniknən bunun çiyninə çıxer, munu aşırellar zabordan. Gəlellər təqribən Şəmkir ərazisində bir yerdə – atdar yorulmuşmuş – bunlar dincələsi olor. Bunnar gejə yatanda üzüyü itirellər. Gejə hardasa bir saat, iki saat dincəlellər. Qalxellar ki, atdanalar Avdı Katta əlini civinə saler ki, üzüh yoxdu. Axtarellar, üzüyü tapa bilmellər. Buların əlacı kəsiler, havanın işıxlaşmasını gözləməli olullar. Hava işıxlaşanda üzüyü tapellar. Üzüyü taper, atdanellar bular. Bular gəlif İt yalağının ərazisini keçəndə, görüllər ki, xanın qoşunu yetirhayetirdədi. Bular Tik daşı aşan kimi görüllər, ayə, bəyin beşatılannarı elə düzülüf ki, elə bil ki, sığırçın dəsidi. İki gün, üç gün burda atışma olor, xanı geri oturdollar.

Bunnarı mənə ata nənəm, sonra əmim Şair Mehralı danışıf.

### 43.

Nəsib sultan Yuxarı Öysüzlü kəndində bir qoca arvadın oğlu oluf. O vaxtı Nədir şah qoşunnan burya gələndə Nəsib sultanın anasına qonağ olor. Nəsib sultanın anası gətirer bir az qatıx-zad qoyur muna. Nədir şah deyir ki, ay nənə, Nədir şahdan nə biler-

sən? Deyir, papağı boş qalsın, məğlub olajağ, üstün gələ bilmiyjəh. Nədir ordan qayıder, ikinci dəfə gələndə bir də həmən evə qonax gəlir. Qazax tərəflərə vuruşmağa gəlif də bu. Deyif, indi o qalib gələjəh. Deyir, nəyin var? Deyir, bir oğlum var. – Adı nədi? Deyir Nəsib. Deyir, ay nənə, o Nədir şah mənəm. Sənin oğlunu burya sultan qoyuram. Burya sultan qoyur, çıxır gəlir.

Vaxt belə olur ki, bu Nəsib sultan çox varranır, ad qazanır, hörmət qazanır. Cavad xan deyir, ay Nədir şah, gedəh bir Touz mahalına, Öysüzlü kəndində Nəsib sultana qonax olax. Gəlillər. Nəsib Sultanın da yoldaşı Qazax rayonunun Musakol kəndinnəndi, adı da Cavahir oluf. Çox göyçəh olub. Cavad xanın buna gözü düşür. Qayıdır Gəncəyə, Nəsib Sultanı Dağıstana göndərir bir iş dalınnan. Nəsib Sultanın dilinnən yazır ki, ay Cavahir, mən ağır xəstəyəm, özünü mana çatdır. Bunu faytonnan aparellar Gənciyə. Nəsib Sultan da qayıdanda örör ki, lələ köçüf, yurdu boşdu. Arvadı aparıflar. Bu başdıyır fikirrəşməyə. Yuxarı Öysüzlüdə Qırdı Həsən oluf, bir də Yekallarda İmanqulu oluf, əzan çəkən. Bular deyif ki, ə kişi, fikirrəşmə, gedif biz gətirrih.

Bular atnan gedillər Gənciyə. Bir arvat tapellar, qoca arvat. Deyir, ay nənə, bax bu üzüyü ona çatdır. Saraya gedəndə arvatdar bu qarıyı döyüf burdan qoalıyıllar. Sora dilənçi sifatında gəlir. Bu işaraynan başa salıf ki, sənin dalınnan adamlar gəlif, səni hardan apara biləllər. Deyir, filan bağda su gilifi[19] var, filan saatda ora gələrəm, ordan məni aparallar. Gəlir su gilifinnən, həmən yerə çatanda orda ipi saler, bunu çıxardellar. Qırdı Hasan ata qızı mindirer, qızın tərkinə özü minir. (Səliqəsiz olduğuna görə ona Qırdı Hasan deyirdilər). Bu arvad görür ki, arxadan bir şey munu narahat eliyir. Əlini atanda görür kü, bunu narahat edən tapançadı. Tapançeyi tullor. Qoylara çatanda Qırdı Hasan baxır, tapança yoxdu. Deyir, anam qurban, burda məni gözdüyün, mənim silahım düşüf. Deyir, ayə, qayıtma, o silahı mən tullamışam. Gedəndə sana əllisin verərəm. Deyir, yox! Mən Qırdı Hasan olam, silahımı tulluyam? Ordan qayıder atın izinnən, tapançeyi götürür. Kəndə çatanda başdellar qurvan kəsməyə, camaat yığıler. Deməli, Nəsib Sul-

[19] Gilif – keşqal

tan baxır ki, Cavad xan munu yer üzünnən siləjəh. Qaçıf gedir Moskvaya, qoşun gətirir. Bax o qoşunu bura gətirən Nəsib sultan oluf, rus qoşununu. Bununla da söz tamama yetir.

Nəsib Sultanın da oğlannarı Əsəd bəy oluf, bir də Usub bəy. Usub bəyin uşağı olub, Əsəd bəyin yox. Bu Öysüzlü məytəbin tihdirənnər də həmən bəylər oluf. Əmbə oların əsli Dərəçiçəkdən olufdu. Əsəd bəynən Usuf bəy Cavahir xanımdan oluf.

### 44.

Allah rəhmət eləsin, Nəsib bəyə də, Usub bəyə də. Bular iki qardaş oluf. Bu camaata, Əlibəyliyə, Öysüzdüyə bəyliy eliyiblər. Çox insaflı, çox yaxşı bəylər oluflar. Hər bayramda, hər əziz gündə Əlibəyli camaatı yığışar, Nəsib bəyin öyünə bayram payı apararmış.

Bir günnəri Əlibəylidən bir nəfərin kalı[20] iter, oğurraner. Kalın bir tayı var, bir tayı yoxdu. Əkin əhməh lazımdı. Əkin vaxtı gələndə bəyin yanına eder ki, ay bəy, mənim kalımı oğurruyuflar. İmkanım da yoxdu kal almağa, kalı da tapammeram. Burya-oroya sorağ elədim, əmələ gəlmədi. Bəy əlaltı strajniklərdən göndərir ki, bütün Əlibəyli camaatını gətiynən burya. Camaatı yığellar, apparellar. Burda bəy nə qədər danışer, təbliğat-təşviqat aparersa, ortuya çıxan olmur ki, ay bəy, kalı mən aparmışam. Kalı qaytareram, ya onun əvəzində pul vereyrəm, filan… Bəy görör, yox, əmələ gəlmer. Əmələ gəlmiyəndə deyir ki, çıxın gedin. Camaat yönünü çöyürüf kəndə gəlməy istiyəndə, bəy ikinci mərtəbədən deyir:

– Ə, kal oğurruyan, sən haraya edersən?

Deyəndə burdan bir nəfər qanrılıf belə baxan kimi, bəy deyir ki, ə, gətirin onu burya. Munnan da kal oğrusunu bəy taper. Kal yiyəsinin oğurranan kalını da taper özünə verer.

## 45-47. ALLAHYAR BƏY

Tovuz haqqında dəəndə, birinci növbədə Allahyar bəyi qeyd eləmək lazımdı. Ona görə ki, bəlkə də ilk ali təhsilli Tovuzdu olufdu. Onun təhsili haqqında, Sankt-Peterburqa – Nikalayın yanına

---

[20] Kal – kəl

getməyi haqqında mən belə eşitmişəm ki, Nikalay Azərbaycana gələndə, Tatlı stansiyası deyilən dəmiryolu stansiyasında əhaliynən görüş keçirifdi. Qazax-Gəncəbasar arasında olan əhali hamısı padşahı görməh üçün oraya axın eliyif. Allahyar bəyin atası da öz oğlunun əlinnən tutuf gətirif həmən görüşə. Bəylər, xannar, başqa imkannı adamlar, hərəsi Nikalaya bir hədiyyə eliyifdi. Allahyar bəyin atası da oğlunun əlinnən tutuf ki, bax, mənim də hədiyyəm budu. Bu oğlumu sizə hədiyyə eliyirəm. Nikalay onu çox məmuniyətnən qəbul eliyif, özünnən götürüf aparıf və ona orda təhsil verənnən sora Almaniyada meşə təsərrüfatı akademiyasına göndərif. Təhsil alıf gələnnən sora onnan Nikalay nə istədiyini, nə arzusunda olduğunu soruşuf. O da Xınna dərəsinin bəyliyini istiyif, onu da verifdi Nikalay ona. Gəlif Xınna dərəsində çox böyüh işdər görüfdü. Şahzadə bulağının üstündə şam meşəsi saldırıfdı. Özü üçün qırmızı kərpişdən gözəl, iki mərtəbəli imarət tihdirifdi. Süd emalı müəsissəsi yaradıfdı, yaylaxdan südü saxsı boru kəməriynən birbaşa müəssisəyə gətirif. Tovuz, Qazax, Gədəbəy dağlarında bir çox meyvə sortdarını bu zonuya Allahyar bəy gətirifdi.

Zaqatalanın bəyinnən dost oluf. Zaqatalanın bəyinə gözəl bir at bağışdıyıfdı. Zaqatalanın bəyi Allahyar bəyə bildirif ki, bunun əvəzində mənim heş bir şeyim yoxdu qaytarmağa. O at o qədər gözəl oluf ki, deyif: "Mən mülkümü də versəm, bunu əvəz eliyəsi döyül. Özünüz nə təmanna eliyirsiz, mən də sizin bir xayişinizi yerinə yetirim, boşdu qalmıyım". Allahyar bəy deyib, maa bir bağban göndər, bir də o meyvə sortdarınnan ver. Zaqatalalı bəy bağban göndərif Allahyar bəyə. İki ilmi, üç ilmi qalıp, alma, armud sortdarını burda yetişdirif. Onnan sora bütün Qazax-Gəncə ərazisinə yayılıf sortdar.

Allahyar bəy Dumanın üzvü olufdu. İnqilab dövrü onun evi yandırılıf. Ailə üzvləri, özdəri qaşmax istiyib, ancax qızının biri... Nə qədər əhali qışqırıf ki, özünü at, o, yatax paltarında olduğuna görə, ismətinə görə özünü atmıyıfdı, qayıdıf odun içinə, özünü yandırıf məhv oluf. Bir oğlu, bir qızı həmin dövrdə Fransada təhsil aldığına görə elə orda da qalıflar. Müharibə dövrü Almaniyada Azərbaycan Azadlıx Ordusu yarananda Allahyar bəyin oğlu orda

kapitan rütbəsində olufdu. Azərbaycan azadlıx ordusu dağılanda Allahyar bəyin oğlu Tovuzdan, Gədəbəydən olan azərbaycanlıları, on yeddi nəfəri yığıf öz evinə aparıfdı. Orda buların paltarını dəyişib, mülki paltar verib, yüksək səviyyədə öz evində qonax edifdi. Olara orda qalmağı təklif eliyir, ancax yerlilərimiz etibarsızdıx eliyif hamısı çıxıf gəlifdi.

**46.**

Söyün kişi deyirdi ki, ruslar gələndə Allahyar bəyin evini mühasirəyə alıllar. İndi, bu rusların tərkibi, qarışıx olur da. Yəqin ki, bunun içərsində, müxtəlif millətlər olur də. Allahyar bəyin deyəsən ikinci qadını oluf. Kişinin dediyini deyirəm. Nisə xanım, deyir, əlində "Quran" çıxdı ki, ay camaat, sizi and verirəm bu "Quran"a! Nəyimiz var sizin olsun, amma bizi qırmeyin. Yerdən, deyir, atəş aşdılar, "Quran"ı gülləynən vurdular. Söyün kişi deyirdi ki, "Quran"ı vuranın aqibəti elə oldu ki, Allah onun cəzasını verdi.

**47.**

Anamın anası Bulqeys arvadın atasının adı Mirzə Yusufdu. Mirzə Yusuf dörd sinifli rus-tatar məktəbini kutarıf, eyni zamanda ruhani təhsili var. Vaxtilə bizim rayonda mədrəsəni Mirzə Yusuf təşkil eleef, dindən dərs deyif. On qızı oluf, iki oğlu.

Mirzə Yusuf bir məclisdə Allahyar bəylə qavaxlaşıf. Allahyar bəy Xınna dərəsinin bəyidi. Üç qardaşdılar: Mehralı bəy, Allahyar bəy, Həmid bəy. Qovlar torpağının yiyələridi. Allahyar bəy Mirzə Yusufa deyif ki, a Mirzə Yusuf, sən, bir coğasan[21], Nikolaya deyərəm – Nikolayın öyünə gedəndə iki ay orda qalermış, hər gedəndə də patşaha bir at aparermış, – bir vaqon gətizdirərəm, sizi dolduraram içinə, sürdürərəm Sibirə, kököüzü kəsərəm. Deyir, Allahyar bəy, sürdürərsən, amma bir şeyi başa düşginən ki, Mirzə Yusuf Sibirə gedəndə çontal[22] barmaxlarının üstündə gedəjəh. Orda da Nikolaya müraciət etmək hüququ olajax. Onnan sora

[21] Coğa – tayfa
[22] Çontal – əyri-üyrü

qardaşı Həmid bəy deyif ki, ay Allahyar bəy, sən seyidə sataşersan. Sən yadında saxla ki, gej-tez bu rəiyyət bizim damlarımızı oddoof külümüzü göyə sourajax. Elə də oluf. Allahyar bəyi rəiyyət damda güllələyif. Allahyar bəyi də, arvadı Seyid Nisə xanımı da öldürüflər. Qardaşı Həmid bəy də qaçıf Türküyəyə gedif.

## 48-52. KALVA ƏSƏD

Çar hökümətinin vaxdında Touzda otuz nemes ailəsi oluf. Otuz ailənin də başçısı Kal adında bir kişi oluf. Kür qırağınnan iki nəfər Kalın üzüm bağına basdırmax üçün payalar gətirirmişdər, birini iki şahıdan buna verirmişdər. Həmin kişinin birinin adı Ələsgər idi, biri Zaman. Deyir, hərəmiz öz arabamızda haylıyıf gəlirik. Əlimərdanlının içində yolayrıcında Kalbay Əsəd durur, tüfəngi, qatarı da çiynində. Haravalar gələndə əlini atdı öküzün cilovundan tutdu, öküzü yedəkliyif gedir. Biz qorxumuzdan səsimizi çıxartmırıx ki, bizi vurajax. Dinməz-söyləməz biz də gedirik. Bu kişi, deyir, öküzü yedəklədi, haravanı çəkdi gətdi qapısına. Qapıya gələnnən sora deyir, ə, düşün. Payanı yığdırır həyətə. Məjbur eliyir, ikisin də çörəyə qonağ eliyir. Deyir, elə ki biz çörək yidik, çay işdik, zəhirmar yesək onnan yaxşıdır. Deyirdik, indicə bizi gülləynən vurajax. Çörək yedirdənnən sora deyir, oğul, o payanı kimə aparırdınız? Dedik, filanksə. Birini neçəyə aparırsınız? Dedik, iki şahıya. Arvadına deyir, Aftab xanıma. İki şahıdan payaların qiyməti on manat eliyirsə, bu dörd şahıdan hesablıyıf verir. Arvad gətirif verir. Kalva Əsəd deyir, mən evdə oldum, olmadım, nə qədər pula ehtiyacız var gətirin. Mən evdə olmasam da payanı sayın orya yığın, Aftab xanım da sizə çay verəjək, çörək verəjək, yeyin için, pulunuzu alın gedin.

Beləliklə, bir neçə reys paya gətirmişik. Günnərin bir günü Kal eşider ki, bunun müşdərilərinin qabağını Kalbayı Əsəd kəsib. Gedib deyir, a kalbayı, o payaları nağarjaxsan oraya yığıf? Deyir, nağarajam, a Kal? Çərçənbə bayramında tonqal basdıracam. Deyir, yox, məqsədin nədi ki, mənim adamımın qabağını kəsirsən? Deyir, ay Kal, mənim payaya ehtiyacım yoxdu. Mənim vijdanım qəbul eləmir ki, mənim millətim xristiana fəhləlik eləsin. Deyirəm, fəhlə-

lik eliyif xristiannan pul aldığına, gəl pulunu mən verim get dolan. Deyir, Kalvay, sən fikirrəşmə ki, 400 inəyim var. Sabah elə bir xəsdəlik tutar ki, görərsən biri də yerindən qalxmır, hamısı qırılıf. Bizim dövlətdə dəyirməniynən bağı olmuyanı kişi saymırlar. Mən heş kəsə tənəyin çubuğunu vermirəm, amma tapşıraram sənə verəllər. İmkanın varsa, özünü gələcəkdə tanıtmaq isdiyirsənsə, bajar bağ saldır, bir də dəyirmən tikdir. O qoyun, mal var döyül.

**49.**

Əsəd Koxa atası Sarı Paşadan sora koxalığı təhvil aldı. Koxalığı təhvil alannan sora kəndin iyiddərinin arxasında durur, kəndin varsızdarına yol göstərif varrandırmağa çalışır. Əlli öy saxlerdi Kalvay Əsəd öz himayəsi altında. Tacir kimi ticaratnan məşğul olordu. Misalçün, Göyçə mahalına gedəndə Göyçə mahalında nə qədər quzu, nə qədər dayça, nə qədər dana olsa, hamısına pul vererdi alerdı. Birdən iki min, üç min quzu alerdı. Neçə yüz dayça, onnan sora dana alerdı. Yaz onun hamısı cöngə olordu, düyə olordu. Bəbət Məhəmmət varıydı, Kalvay Əsədin yeznəsiydi. Çovanoğlu Əşrəf deyirdilər, Kalvay Əsədin arxasında durardı, onun qarşısına heş kəs çıxa bilməzdi. Çovanoğlu Əşrəfin adı gələn yerə heş kəs girə bilməzdi. Telli Əsədin özü uzun müddət Kalvay Əsədin yanında olmuşdu. Bozalqanlının adı gələn yerə heç kəs Kalvay Əsədin qorxusunnan yön çöörə bilməzdi. Bilerdilər ki, Bozalqanlıda bir adam öldürülsə, bunun qisası böyük olajaxdı.

Bir dəfə almərdannılarnan buların hesavı olmuşdu. Kalvay Əsəd beş-on, iyirmi atdı gəlerdi bazara. Bazara ələndə Kalvay Əsədnən Bəbət Məhəmmədin qabağını almərdannılardan bir neçə adam kəser. Keçələrin başına çıxar-çıxmaz bunun biri tüfəngi ater Kalvay Əsədə. Kalvay Əsəddən keçer, Bəbət Məhəmmədin qolunu yaralıyır. Kalvay Əsədin də Hayqaz addı atı varıydı. Tüfəng atılan kimi bu at elə sıçrer ki, düz almərdannıların yanına tüşör. Kalvay Əsəd onaçılanı çıxarder, bu tərəfdən də bular, atışma geder. Atışma gedəndə iki nəfər adam öldürmüşdülər Almərdənnidən. Biri Molla Söyünün bajısı oğluydu. Molla Söyün Almərdənnidə Kalvay Əsəd baravarı bir adamıydı. Bizdən də biri yaralaner.

Bu atışmeyi görüf Qovlyardan Maşa Qədir – Maşa Qədir Kalvay Əsədnən bajanağ idi, – atışmanın səsinə tökülüf gəlmişdilər ki, bozalqannıları qırıllar, gedəh köməh eliyəh. Kalvay Əsədgil qayıdanda deyillər ki, Kalvay Əsəd, gəlmişih ki, kəndə girəh, nə qədər adam var qırax. Deyir, yox, qətiyyən olmaz. Mən özüm oların öhdəsinnən gələjəm. Xayiş edirəm, siz bu işi eləmiyin. Bular – Maşa Qədirgil qayıder geder. Kalvay Əsəd öyə qaydanda Molla Söyün başqa yerdən gəler. Gələndə görör kün, yığıncağ var. Deyir, nə yığıncaxdı? Deyir, bajın oğlunu bozalqannılar öldürüf. – "Niyə?" Əhvalatı soruşor. Əhvalatı soruşannan sora deyir, mən gedif aranı səngitməsəm bunun dalı uzun gedəjəh. Kalvay Əsədnən Bozalqannının məsələsini bu Molla Söyün yaxşı biler. Burdan deyillər, ə, getmə bu hayda səni öldürəjəh Kalvay Əsəd. Deyir, məni öldürməz.

Geder düz Kalvay Əsədin qapısına. Salam-kalamnan sora Kalvay Əsəd içəri dəvət eler Molla Söyünü. Gedellər, söhbət elellər. Deyir, bu hadisə nətər baş verdi? Deyir, belə-belə, qavağımızı kəsdilər bizi qırmağa. Deyir, burda başqa əl var, yaqın sizin kəntdən də barmax var. Deyir, a Kalvay Əsəd, mən gəlmişəm ki, bu iş burda kəsilsin, böyüməsin. Deyəndə, kəndin içində onun iki adamı varıymış, Bozalqannıdan köçüf gəlibmişdər. Deyir, gedən kimi oları köçürt. Gələn kimi köçürtmüşdü Molla Söyün. Kalvay Əsəd onnan sora heç bir şey eləməmişdi. Məsələ beleydi ki, almərdənnilər Gürcüstannan oğurruğ elerdilər. Gələndə bizim yataxların içinnən gətirerdilər, heyvanın izi qalerdı. Bizim adamlar da deyir, ay almərdənnilər, bizim yatağın içinnən gətirersiniz, gürcü gəler izinnən Bozalqannıdan adam öldürör. Siz ayrı yernən gedin-gəlin, bizim yernən yox. Bular, deyir, yox! Siz bizə paxıllığ eliyirsiz.

**50.**

Çox oğurrux olormuş kəntdən: mal gedermiş, at gedermiş. Kalvay Əsədə şikatdanellar ki, Kalvay Əsəd, belə şey olmaz. Bu oğruları tapbax lazımdı. Bizim kəndin malını, qoyununu aparellar, olmaz belə. Deyəndə, deyir, göröm, tapa bilərəmmi. Kalvay Əsəd eleydi ki, Bakıynan Tiflis arası onun dostu varıydı. İyit adamların hamısı onu tanıyırdı bir nəfər kimi ki, Kalvay Əsəd

Kalvay Əsəddi. Elə olor ku, bu Kalvay Əsəd örgəner ki, Tiflis tərəfdə Uzunca deyilən meşə var. Meşənin başında bir Tat var. Tat ulançıdı[23]. Eləjə bir yerdə məskən salıf, oğruları qəbul eliyir. Oğrulardan mal aler, Tiflisdə sater. İrannan gələn tatdardandı. Örgəner kin, bu Tat bu işnən məşğuldu. Bunun da Aftandiloğlu Əsgər addı bir pitiricisi[24] varıydı. Deyir, Əsgər, gedək görəh o Tat nəçidi, nə kəraçıdı? Görəh Tatı salamat gətirif burda danışdıra bilərihmi ki, Tata bu malları, bu atdarı kim aparer verer burdan, bunu aydınnaşdırax. Gedellər burdan Ağstafanın, o böyük meşənin başında Tatı tapellar.

Tata deyillər, sən bu işnən məşğulsan, elə şey varmı? Deyir, bəli, mən qəbul eliyirəm. Deyir, bizim əlli malımız var Şavağının kolunda. İndi onu sana verməyə əlmişik, yaxşı maldı. Deyəndə deyir ki, yaxşı, gətirin, götüröm. Deyəndə, deyir ki, yox! Gətirəmmərih, gələsi döyül. Sən özün gəl, mala bax, qiymat qoy, azdan-çoxdan bizə verginən. Deyəndə deyir, mən malı nətər gətirim? Deyir, sana beş nəfər, üş nəfər adam verəjəm. (O vaxtı malı haylamaxtan ötrü çuvuxçu tuturdular). Sana çuvuxçu verəjəm, o çuvuxçu malı gətirəjəh burya. Deyir, yaxşı! Deyir, bir az da pul götürgünən. Tat razılaşer. Tatı götürör, gəlellər.

Qaraxannının o toyunda böyüh bir dərə var. Bu dəriyə gələndə Tat deyir, ə, biz sərhəddən keşdik, harıya edirih? Harya aparersan məni? Deyəndə, Kalvay Əsəd deyir, əşi, gəl, yaxınnaşmışıx, burdadı. Deyəndə, sən demə, civində tapança varıymış Tatın. Üçü də atdıdı. Kalvay Əsəd qavaxnan geder, Tat ortuynan gəler, Aftəndiloğlu Əsgər də tüfəng qucağında bunun dalınnan gəler. Elə bu dəriyə enellər, təpiyə çıxmaq istiyəndə Tat əlini uzader tapançeyi burdan götürməh istiyəndə Aftəndiloğlu Əsgər görör, tapançeyi çıxartmax isteer, kürəyinin arasınnan qalıyır, Tat yıxıler. Tat yıxılan kimi tapança oana düşör. Tapança açıler yerdə. Kalvay Əsəd, deyir, Allah öyünü yıxsın, niyə öldürdün bunu? Bunu salamat aparajeydıx kəndə. Deyir, Allah sənin öyünü yıxsın. Bu açılan güllə sana açılajeydi, sənnən də sora mana açılajeydi.

---

[23] Ulançı – söz aparıb-gətirən, ara qarışdıran
[24] Pitirici – yaxın köməkçisi

Hə… Tatı orda qoollar. Qayıder gəler Kalvay Əsəd. Onnan sora Qaraxannının bu saat da o toyunda, böyüh dərənin adı Tat ölən qalıf. Tat da ölənnən sora bu işdərin arası kəsilif.

**51.**

Kalva Əsət sovet gələn vaxtları yaşıyıf. Onun varının əyəğı Kürdə oluf, başı Gözəl Dərədə, yaylaxda. Sovet onun malını, qızıllarını əlinnən alıb. Arvad-uşağını döyüf qabıxdan çıxardıf, qızılların yerini onlara dedirdiflər, qızılı yığıflar. Özü də qorxusunnan qaçağ oluf. Qaçaxlıxda da sovet hökümәti güllələdi. On sürü qoyununu Samuğa veriflər, üç yüz inəyini veriflər Touzun Böyük Qışlaq kəndinə, yüz dənə maydan atını Çatağa veriflər. Qızıllarını da hökümət alıf, uşaxlarını da sürüflər Özbəkistana. Üç ildən sora qayıdıf gəliflər.

O, belə bir insan oluf. Yoldaşına deyif, ay Səhnə. Deyif, ha. Deyif, o südü sağdırırsan qarabaşdara. Gətirif töküllər bojkalara, vedarı[25] da boş verirsən əlinə. Dedi, ay Hajı, ay Kalbayı, sənsən buların yiyəsi. Sən de, mən də eliyim. Neylim? Dedi, onun hərəsinə üç inəy ver. Qoy sağsın öyündə, vedarınnan süd aparsın. Qurvan kəsiləndə də, üstən il ötmüş erkəhləri yığarmış yatağın birinin yanına. Yüz əlli çovanı oluf, yüz iyirmi beş iti. Deyirmiş, gedin ordan üstünnən il keçmiş erkəhlərdən gətirin, öz qapınızda qurvan kəsin, mənim qapıma göz tikmiyin.

**52.**

Bir gün Kalva Əsədin varı geder yaylağa. Kal deyir, ay Kəlbəlayı, uğur olsun! Deyir, sağ ol, a Kal! Da köçürsən də? Dedi, hə. Dedi, gə bir çay iç də bizdə? Dedi, ə, sən çay içən ha döyülsən, sən ağ çaxır içersən.

– Ə, sənin üçün bir simavar qoyarıx da.

– Onda Qoşa dərmənnən ötürüm malı-qoyunu, axşamüstü qayıdanda gələrəm.

Malı ötürür, gəlir oturor, çay içir. Bu da çaxır içer (Mən gördüm Kalı, bizim dili təmiz bilerdi). Dedi, Kəlbəlayı, sən varrı-

---

[25] Vedar – vedrə

san, mən? Deyir, a Kal, insaf elə, Allahı yadına sal. Ə, mənim köçümün başı Gözəl Dərədədi, əyağı Kürdədi. Sən nəynən hesaflaşırsan? Sən haası tərəziyə minirsən? Dedi, yox, Kəlbəlayı, mən sənnən varrıyam. Dedi, nətər, de görüm?

– Ə, sən gözdürsən ki, qoyun qoça ələjəh, beş aydan sora mana bir quzu verəjəh. Əmmə mənim otuz hektar üzümüm var, divini əhdirmişəm, hərəsinin divinə bir vedrə püş töhmüşəm. Orda doğur, mayalıyır, özü əmizdirir, mən də burda çaxır içerəm. Yaz gedəndə görrəm hərəsində üç pud üzüm var. Onu da çaxıra verəndə, gəl hesaflıyax görəh nədi.

Dedi:

– Mana nədi sözün? Yaxşı sən varrı ol!

Dedi:

– Sən ki deyirsən varım var. Sənin varın bir harava dəridi. Qış bərk gələr, qoyunu xəstəlih tutar, əlində bir harava dərisi qalar. Haravaya vurdur, gəl orda otur. Amma bu üzüm orda özüözünü mayalıyır, doğur (yeddi para kəndin koxası oluf Kalva Əsət). Səfərbərriy elə, get Ağ dağdan daşı gətir, töhdür, usta da məndə var, verim, sana bir ev tihsin. Bu var var döyül.

Gör, nə ağıllıdı nemes. Elə də eliyir. İndi o öy durur, iki mərtəbə, ağ daşdan. Hə, o övü tikdirif, gəlif içində şaddıq eliyif. Onun üst tərəfində 10 hektar da üzüm əkir. Haası sort yaxşıdı gətirif. Özü deyir, fəhliyə pul vermə, mən fəhləlih elijəm. Bağı salır. Birinci ili az gətirir. İkinci ili üzüm o qədər şəllənif ki, həddən artıx. Deyif, indi nağayrajam mən? Üzüm satanammı mən, a Kal? Deyir, yox! Çaxır zavodu Kalınıydı. Verəjəm çaxırı zavoda, çaxır olajax, urus gəlif daşıyajax. Pulunu da hesaflıyajam, görəh səən qoyunun çoxdu, yoxsa üzümdən gələn pul. Kalva Əsəddə qızılmı yoxuydu. Fəhlənin pulunu verir, fəhlə gəlir dərer, aparer zavoda verir. Çənlərə qoyullar. Çaxır dünyöyü götürür. Satır. Kal, Kalva Əsədi çağırır. Deyir, a Kalva Əsət, burya əl! Gəti hesaflıyax! On min qoyunu, malı-filanı, hamısını hesaflıyıllar, şotkuya vuranda görüllər ki, üzümnən alınan pulun yarısı eləmir. Deyir, görürsənmi, mən varrıyam!

## 53-56. KAL

Tarixdən bizə məlumdu ki, II Nikolayın həyat yoldaşı alman olubdu. Buna görə də almanların Rusiyaya ilhaq olunmuş ərazilərdə yerləşdirilməsi planlı şəkildə həyata keçirilibdi. O dövrdə bizim ərazilərimizdə də almanlar məskunlaşırdılar, “Kardiya” adlı böyük şirkət olubdu. Tovuz rayonunun indiki Kəhriz küçəsində... İndiki Mərdan Musayev adına küçədə yerrəşən “Şərab” zavoduna tarixən bizim adamlarımız “Kankordiya” deyiflər. Kankordiya sözü isə kankardiyanın təhrif olunmuş formasıdı. Bizim adamlar ona “Kankordiya” deyiflər, amma onun əsl adı oluf “Kankardiya”.

Almanlar necə məskunlaşıblar? Almanları Kremfil – Ağstafa rayonunda yerləşir, – deyilən ərazidən başdamış ta Xanlar rayonuna qədər bir zolaq şəklində məskunlaşdırıblar. Onların xüsusi məşğuliyyəti üzümçülük, şərabçılıq olub. Almanlar Tovuzda indi Sement zavodu deyilən ərazidə məskunlaşıblar. Almanların klub binası orda bu gün də qalmaxdadı. Sora Almanların futbol komandası olub, Rotefane deyiflər onun adına. Yəni, Almanlar bu mədəniyyəti gətiriblər bizə. Almanların mahnı və rəqs ansambılları olubdu. Buların təsərrüfatı üzümçülük, şərabçılıq olub. Bayaxları adını çəhdiyim “Kankordiya” deyilən zavod həddinnən çox böyük zavoduydu. Burya rəhbərlih eliyən adamın adına kənd camaatı və ya rayon camaatı Kal deyərdi. Onun ola bilər əsl adı ya Karl olub və yaxud da Kol olubdu. Almanlar bu əraziyə bağçılıx mədəniyyətini gətiriblər özdərinnən. Böyük bağlar salıblar. Nemsə bağı, Tətuz bağı deyilən yeri onlar salıbdı. Baxmıyarax ki, artıx orda bağ yoxdu, amma o yerin adı eləcə də qalmaxdadı.

Günlərin birində həmin Kal yolnan getdiyi yerdə görüb bir kişi söyüd ağacı əkir. Baxır, baxır, deyir ki, neynirsən onu əkib? Kişi fəxrnən deyir, yaxşı kölgəsi olur. Kal ona heç nə demir, gəlir. Üstünnən bir müddət keçənnən sora söyüd ağacı əkən kişi xəstələnir və oğlunu göndərir Kalın yanına ki, get de ki, atam deyir, mənə üç-dörd armud versin. Kal isə ona deyir, get, atana de ki, əhdiyi ağacın meyvəsinnən yisin.

## 54.

Günnərin bir günündə Almaniyadan Kala sökülmüş şəkildə furqon gətirillər. Bu arabanın laydırrarı[26] sökülüdü, təkəri sökülüdü, amma burda yığmax olur da. Burda yığdırıllar, arabanın da bütün o görünən hissələrinin hamısını qırmızı rəngnən rəngliyillər. O vaxtın söhbətini eliyənnər deyillər ki, elə gözəl araba alınmışdı ki, elə bil jiquliydi. Cins atdarı varıydı. İki dənə at qoşulmuş arabaydı. Mülkülüdən bir nəfər deyir ki, a Kal, bu arabadan sən gənə gətizdirə bilərsən. Olarmı bu arabıyı maa bağışdıyasan? O da deyir ki, yox, verməməm, bu mənim özümə lazımdı. Deyir, a Kal, bizə oğru Mülkülü deyillər. Mən onu oğurrujam, özü də bilginən bəri başdan, oğurransa, mən oğurramışam. Başqası oğurramıyajax. Kal deyir, onu oğurrasan, saa bağışdıyajam. Deyir, yaxşı!

Kalın qapsında iki alman avçarkası olufdu. Üstünnən, təxminən, bir həftə, on gün keçənnən sora Kal səhər-səhər yuxudan duranda baxır ki, həyətdə nə araba var, nə atdar var, nə itdər var. Kal dərhal adamlarını çağırır, deyir ki, filankəs deyirdi oları mən oğurrujam. Mən də demişdim, oğurrasan sənindi. Öyrənin oğurruyub, yoxsa yox. Onu gətirin burya. Gətirillər. Kal soruşur ki, sənmi aparıbsan arabanı? Deyir, bəli, mən aparmışam! Saa demişdim ki, aparajam. Deyir, yaxşı, arabanı aparıbsan, bə itdər hanı? Deyir, itdər odu e çardaxda! Kal başını qaldırır görür ki, böyük səbətdərdi, qarğı səbətdər. Mülkülü kişisi hər səbətin içinə qoyunun bir qolunu bağlıyıb. Səbətdər o qədər yekədi ki, kənarınnan durub o ətdən götürmək mümkün döy. Onu götürməy üçün it səbətin içinə girməlidi. Səbətdəri uzun kəndirnən bağlıyıblar, kəndirin ucunu saxlıyıblar əllərində. İt səbətin içinə girəndə kəndiri dartıblar, səbətin ağzı çardağa yapışıb. İtin ikisini də əsir eliyənnən sora arabanı da, atdarı da hasarın üstünnən aşırıblar yola tərəf və götürüb gediblər. Kal deyir ki, sizin çox gözəl başınız var, heyif ki, onu oğurruğa işdədirsiz.

---

[26] Laydır – nərdivan. Burada xərək mənasında işlədilib.

## 55.

Günnərin bir günü el yaylağa köçən zaman Kal, – yaxınnığındaydı da, elə yol ordan keçirdi, – yola çıxdı, baxdı ki, sürü gedir. Hardasa, on dəyqə, on beş dəyqə dayandı baxdı, sürünün ardı kəsilmədi. Evə qayıtdı, işinnən məşğul oldu. Bir-neçə saat keçənnən sora bir də yola çıxdı, gördü sürü gedir. Birinci dəfə soruşmuşdu ki, bu heyvan kiminkidi. Demişdilər ki, Kalvay Əsədin. İndi ikinci dəfə soruşdu, sürü kimindi? Dedilər, Kalvay Əsədin.

Qayıtdı gəldi. Bir xeyli keçəndən sora, bir də çıxdı, gördü indi naxır gedir. Soruşdu:

– Bə bu naxır kimindi?

Dedilər:

– Kalvay Əsədin.

Bir xeyli keçəndən sora baxdı ki, ilxı gedir.

– Bu kimindi?

– Kalvay Əsədin.

Kal sürüyə mənalı-mənalı baxdı və qımışıb geri qayıtdı.

Sora bir nəfər öz işçilərinnən göndərdi ki, get o çobannarın birinə de ki, Kalvay Əsədə desinnər, Kal onu çağırır. Getdilər, çatdırdılar xəbəri. Kalvay Əsəd gəldi. Baxmıyarax ki, bu qədər böyük var-dövləti varıydı, zənginiydi, geyimində elə bir fərq yoxuydu. Çobandan, deməh olar ki, fərqlənmirdi. Kalvay Əsəd gəldi Kalın yanına. Soruşdu ki, Kal, eşitmişəm məni çağırmısan. Dedi ki, gəl, çağırmışam. Əvvəlcə ayaqüstü dayandılar, söhbət elədilər. Kal soruşdu ki, sən varrısan, yoxsa mən? Kalvay Əsəd dedi ki, bu qədər gedən sürünü görmürsənmi? Dedi, görörəm, görə-görə soruşuram. Sən harda yaşıyırsan? Kalvay Əsəd dedi ki, yataxda. Yəni, mal-heyvan saxlandığı yerdə ayrıca bir hissə ayrılardı. Bular Almaniyadan gəlib, alman mədəniyyətini gətimişdilər. Kal dedi ki, gəl tanış ol! Bax bu gördüyün bina mənim evimdi. Gəl indi içəri gedəy. Bura mənim iş otağımdı, bura istirahət otağımdı, bura yatağ otağımdı, bura qonağ otağımdı, bura yeməh otağımdı, bura hamamımdı, bura ziyafət zalımdı... Sənin isə cəmisi bir olacağın var, yatağın var. Onnan başqa heç nəyin yoxdu. Kal onu

iş otağındakı bir sandığın yanına gətirdi. Adi, bizim tanıdığımız, ata-baba sandıxlarına bənziyən bir sandığıydı. Sandığın ağzını açdı və sandığın içində qızıl külçələr varıydı, belə iri-iri qəliblənmiş qızıl. Dedi, görürsən buları? Buların birisinin qiyməti sənin ümumi mal-dövlətinin qiymətinnən dəfələrnən çoxdu. Sabah bir şey olar, sənin var-dövlətinnən dəri qalar. Mənim isə var-dövlətim, görürsən, qalır. Mən saa məsləhət eliyirəm. Birincisi, sən məni qonax qəbul eliyəsi olsan, harda qəbul eliyəjəhsən? Yəni, sənin qonağın olası olanda, onu qəbul eliyəjək yerin yoxdu. Ev tihdir, evin olsun (Bəyaxlar mən haqqında danışırdım, Nikolayev troykası o binanın həyətində yeddi nəfər Bozalqanlı qaçağını gülləl13ədi, həmin bina Kalvay Əsədin evidi. İndi də Kalvay Əsədin damı deyillər ora. Kalvay Əsəd çox böyük təsərrüfat başçısıydı). Bu söhbətdən sora onun hamısını qızıla çevirməyə başdamışdı. Soradan Kalvay Əsədnən Kalın arasında xeyli oxşarrıx əmələ gəlmişdi. Bu da Kaldan irəli gələn bir cəhətiydi. Onu da deyim ki, belə məlumat veriflər ki, hətta Almaniyadan Kalın qonaxları olanda, xüsusi dəvətnən Kalvay Əsədi çağırarmış.

**56.**

Qədimdə çayxanıya draxtın deyiflər. Çayxanada oturuf söhpət eliyirmişdər. Kala deyiflər ki, ə, Kal, sən çox qürrələnmə ki, üzüm plantasiyam belə, zavodum belə. Mənim 100 dənə qaramalım var, 500 dənə qoyunum var, filanım var, pəşmanım var. Deyəndə bu Kal civinnən çıxardıb bir xışma stolun üstə qızıl töküb. Deyif, varınsa, bir xışma da o qızıldan sən tök. Demirsən dövlətim var, çıxart bura bir xışma qızıl tök. Qabaxkı adamın boğazı quruyub, yoxdu axı qızılı. On dənə qoyunu olmax qızılı olmax döyül axı. Amma bunlar deyiflər, Kal, səndən bu hayıfı çıxajeyıx.

Büyünkü voyenkomatın binası Kalın binasıdı. Kalın qapıda iki dənə iti oluf. Elə bir it ki, göydən bir dənə quş bunun qapısınnan keçə bilmirmiş. Bu dediyim adam əslən bax bu mahaldandı. Səhv eləmirəmsə adı Süleyman oluf. Çox qüvvətli adam oluf. Bu, iki şaqqa ət alıf. Bunun qapısının kənarında böyük bir tut ağacı varıymış. Gejiynən gəlib çıxıf tut ağacının başına. Ətdərə qarmax batırıf sallıyıf. İtin biri əti ağzına alanda, balıx tutan kimi qarmaxnan

bir yerdə iti qaldırıv ağaşdan asıf. Sonra o birini qaldırıf ağaşdan asıf. Onnan sora çiynini verif darvazanın bir tayını çıxardıf qoyufdu kənara. Sonra girif dama. Kalın damda iki dənə yaxşı atı varıymış, qiymətdi və dəyərri. Həmin atdarı götürüf, darvazıyı sallıyıf yerinə, sonra çıxıf ağaca itdəri buraxıb yerinə. Atdarı aparıf gedif.

Savax gəlif draxtına. Gəlif oturuf, görür ki, Kal oturuf çox fikirri. Deyif, Kal noluf, nə məsələdi? Niyə əhvalın yoxdu? Deyif, ə, qardaş, deyiləsi döyül, dünən sənnən mübahisə eləmişəm, amma deyəjəm. Mənim qapımda əjdaha kimi iki dənə it var, quş mənim qapımdan keçə bilməz. Damnan mənim atdarımı bu axşam aparıflar. Deyif, Kal, get, bu günnən sonra bir özünnən deyəndə, beş də bu mahalın igitdərinnən de. İndi sən gör ki, bu mahalda nə cür igitdər var, nə cür oğlannar var. Onu mən aparmışam. Deyif, sana on dənə qızıl verərəm. Çıxarder qızılları sayer stolun üstünə. Atdarı da istəmerəm halalındı, apar sat atdarı. Nə cür apardığını mana de. Yəni bunu aparmaq qeyri-mümkündü, axı bunu nə cür apara bilərsən sən. Əhvalatı danışer ki, atdarı bu yolnan aparmışam. Deyif bu qızıllar da sənin halalındı, atdar da sənin halalındı. Süleyman kişi gətiriv Kalın atdarını təhvil verer özünə, amma qızılları götürüf.

## 57. CAHANGİR AĞA

Qırağ Kəsəmən kəndində Cahangir ağa var idi. Bu tacir idi. Bir kəndin iyirmi yeddi tükanı var idi. Tükanın biri də həmən Cahangir ağanın idi. Novruz bayramı qavağı işi elə tərəqqi eləmişdi ki, alver aşıf-daşmışdı. İşi o qədər tərəqqi eliyif ki, bir xurcun alver pulunu götürüf bayram süfrəsinə evinə tələsiyir. Qoja, yaşlı kişidi, yolda su başına çıxer. Unudur, xurcun elə orda qaler, gedir öyünə. Allahın işidi, dabanbasaraq bunun dalınnan da lütün biri gəlermiş. Görür ə, yolun ortasında bir xurcun. Xurcunu da götdü, vardı getdi.

Cahangir kişi heş üstünü vurmur. Eləjənə yaxın adamlarına deyir ki, gözdə-qulaxda olun, görün nə xavar var. İşdi, usta adamdısa, üstünü vurmojax, puldan əlimizi üzəh. Görməmişdisə, bildirəjəh özün. Eləjə siz gözdə-qulaxda olun.

Novruz bayramınnan da üç ay keçif, dörd ay keçif, heş bir xavar-ətər yoxdu. Bu da əlini üzüf, hamı puldan əlini üzüf. Mehman başında camaat doğra duruf[27] baxermışdar o tərəfə. Yazın lap axırlarıymış, camaatın köçü yaylağa hazırlaşermış. Göröllər, yarğanın qaşınnan bir qoyun sürüsü töküldü suata. Bu camaatın içinnən biri dilləndi ki, ay camaat, görən o sürüyü itdi-pişihli neçəyə almağ olar? Cahangir ağanın da adamları burdadı. – "Ayə, bu lüt, bu kasıf, bunda hardandı bu qədər pul?" Dərhal Cahangir ağaya çatdırellar ki, belə-belə. Filan kasıf dedi ki, o sürüyü itdi-pişihli neçəyə almağ olar. Bu kəndin də bir koxası var, Kavı koxa. Kavı koxuya Cahangir ağa deyir ki, belə-belə. İtirdiyim pul filan yerdədi, bir qızıl onnux da səninkidi, pulu çıxart. Koxa həmin o kasıvı, lütü çağırtdırer.

– Pul səndədimi?

– Nə pul, nə filan.

Nə qədər dansa da, Kavı koxa da pəhlivan adam, bir-iki zoxma[28] vurannan sora, deyir:

– Atam-anam saa qurvan, pulu gətirirəm.

Kasıv, öyün yıxılsın, üstünnən dörd ay keçif, bircə abbasını da tərpətmiyif. Bir xurcun pulu gətirer. Halal mal belə şeydi. Halal mal da halal adam əlinə düşüf, bircə abbasını da tərpətmiyif.

## 58. HACI BAĞIR

Bəli, bu Axınca dəli-dolu dağ çayıdı. Hajı Bağır da yaxşı var-mülk sahibidi. Bir rəvayətə görə, iyirmi bir dəfə Haja gedif-gəlif. Əslində Haja gedif-gələn Hajı Əhmətdi, Hajı Bağır ancaq Hajda olmuyuf. Nə isə insannar bunu çaşdırıllar. Onun da qəribə bir əhvalatı var. Əhvalat nədi?

Hajı Bağırın varı-halı var, həm də icma başçısıdı. Sorağ elədi ki, mən Axıncanın üstündə bir kənd saldırmax istirəm. Hajı Bağır xavar salladı (Berzan da deyillər, Berzen də deyillər. Gürcüstanın dağlıx zonasında yaşıyan adamlardı. Gürcüstandakı bi-

---

[27] Doğra durmaq – mat-məəttəl qalmaq

[28] Zoxma – yumruq

zim camaat deyir ki, bir oturuma iki berzenin yeməyini yeyir. Yəni, işlək insanlardı. Ağır işdərdə, daş çıxardanda, hörgü hördürəndə qapımızda işdətmişih). Bir gün iki berzen usta Hajı Bağırın yanına əler. Bizim adamlar insaflı adamlardı. Qəlbini sındırmax istəmer. Deyir, yaxşı, mən razıyam. Gəlin qurutdan hərəniz bir dənə körpü tikin stolun üstə. Hası xoşumuza əlsə, körpünü o tikər. Bir-iki də ağsakqal yığıler. Elə olor ki, cavan ustanın tihdiyi körpü bircə aşırımlıdı, özü də möhkəmdi. Əllərinnən də yoxluyullar, uçmur. Bu körpü xoşdarına əler. Qoja ustanı da əliboş qaytarmer. Həmən Bağır buzoylu bir inəh verer ki, ordan yol basa-basa əlifsən. Bir az da paydan-puşdan, qurutdan-murutdan, yuannıxdan uşağın üstünə əlidolu yola saler.

Bəli, danışıxları belə olor ki, Bağır heç nəyə qarışmer. Eləjə bulara pul verer. Bir aymı keçer, üç aymı keçer, – yanında ha olmamışıx, – usta özü hər şeyi eliyir. Bəli, körpü hazır olor. Hesava oturası olollar. Bir belə mədən pulu, bir belə daşımax pulu, bir belə yumurta pulu, bir belə süt pulu, bir belə kirəj pulu, bir belə keçi qəzili gətirdim, xarcım bu oluf. Baxellar ki, Bağır ustuya verməhdənsə, usta Bağıra verəsi oldu. Körpü də hazırdı, bir belə də pul xaşdanıf. Danışıf barışmışdılar. Üstünnən də bəyaxdan arabalar keçer, sürü haylaner, naxır keçer. Gətirif cöngə kəsellər, kavaflellar.

Bağır üzünü tutor deyir, ay camaat, gördünüz ki, mən buna verməhdənsə, bunun mana borcu qalıf. Ancax bizə mülk tikif bu. Yanı kalçalı bir camışı mən bağışdadım. Kimin qulpunnan nə çıxer özü biler. Biri bir dana verdi, biri bir inəy verdi, biri bir toğlu, böyük bir sürü yığıldı. Baxmıyarax ki, buna heç nə verəsi döydü, bir sürü mal-heyvannan öyünə yola saler. O ili bizim adamlar Haca ziyarata gedillər. Çarvadar da həməşə Hajı Əhməd olardı. Camaatı apardılar, orda təvab eliyəndə, qara daşa dolananda (buların da içində Hajı Bağır yoxdu), camaat gördü ki, Bağır o biri dəstənin içində dolaner, olardan qavax qara daşı öpör. Özü də əli də etdi Hajın qulpuna. Bu dedi ki, ayə, sən gördünmü? O dedi, sən də gördünmü? Hamısı gördü ki, Bağır dolaner. Bağırı da obada qoyuf gəliflər. Eli dolandırer, nəvlim, elin

ağırrığını verer, camaatı vergidən azad eleer (Getməh hər hajının boynuna tüşmür. Gərəy haj boynuna tüşə ki, gedəsən). Gəler bir müşteyidə xavar verellər, deyillər ki, bax bu nə əhvalatdı, nədi? Müşteyid də bularnan baravar gəler. Deyir, hanı? Göstərillər ki, bax, odu, otana, o adamdı! Müşteyid deyir ki, ay ümmətim, ay camaat, o elə bir iş görüf ki, Allahtaala onu Haja gələnnərin içinə qatıf. Özü burda olmasa da ruhən burdadı, əsl hajı odu. Ona görə, bir rəvayətə görə, Bağır heç Haja getməyif, el o vaxtdan Hajı Bağır, Hajı Bağır deməyə başdayıf.

## 59. MAŞA MURAD

Keçmiş zamanlarda Maşa Murad[29] addı bir kişi olor. Bu Maşa Murad kişi çox dərrakalı, indinin alimləri kimi o vaxtın zəkalısı, onnan sorasına alimi, professoru, yaxşı mollası, yaxşı bilicisi olor. İlahinin yazısıdı, arvadı ölör. Arvadı ölənnən sora, dəfinnən-zaddan sora hamı bunun üstünə tüşör ki, Maşa Murad kişi, uşaxların-zadın var, sən öylənməlisən. Sən arvad al. Bu kişi deyir ki, mən aldığım arvatdarı gərək bir-bir sınaxdan keçirəm, görəm mən axtardığımı taperammı. Bu geder bir arvad aler gətirer. Arvad beş gün, üş gün öydə oturannan sora deyir:

– Arvad, bilersənmi nə var?

Arvad deyir:

– Nə var?

Deyir:

– Arvad, yaz başıdı, hamı yer əkəjəh. Biz də yer əkəjeyih. Gəti cüt dəmirini isdağa qoax. Bir üş-dörd gün cüt dəmiri isdansın, onnan sora yerimizi əkəh, kartofumuzu-qarğıdalımızı səpəh, – deyəndə, arvad deyir:

– Yaxşı.

Geder cütün dəmirini gətirer, vannanın içinə, tavağın içinə (o vaxtı vanna yoxuydu, ağaşdan tavax qayrılerdı) qoyur. Üstünə də bir-iki vedrə qaynar su tökör, tavağın içinə qoyur, burda duror. Bir gün duror, isdanmadımı? İki gün duror, isdanmadımı? Üş gün

[29] Maşa Murad – Tovuzun Qaradaş-seyidlər kəndinin sakini

duror, isdanmadımı? Arvad gəler əlini belə vuror, qaynar su tökör. Deyir, yox, deyir, yox! Deyir ki, arvad, bilersən navar? Deyir:

– Navar?

Deyir:

– Sənnən mana arvad olmaz! Sənin arvatdığın, qandığın qırafa yoxdu! Sən çıxıf getməlisən dədən öyünə!

Bu arvadın parını-paltarını qoltuğuna verer, yola saler. Bu çıxer geder.

Aradan bir qədər keçer. Buna deyillər, a kişi, indi oldu-oldu, o sözünə baxmadı, bu yaxşı olar, indi bir arvad al. Bu kişi geder Gədəbəy tərəfdən bir arvad aler gətirer. Deyir:

– Ay arvad, bilersənmi nə var?

Deyir:

– Navar?

Deyir:

– Camaat yaylağa çıxajax, hamı hazırraşıf, haravasını-zadını hazırrıyıf, yorğan-döşəyini qavqarıf. Gət yorğan-döşəyini qavqar, farmaşını qavqar, onnan sora tooxlarını da qavqar, savax gejdənnən qarannıxlı haravaları qoşuf gedəjeyih, – deyəndə deyir:

– Yaxşı.

Arvad gətirer yorğan-döşəyi də qavqarer, tooxları da axşamnan farmaşa qavqarer, ağzını çəker gözöör, oruya qoor. Savax alaqarannıx duruf bunu haravıya qoanda kişi qəstnən özü farmaşın ağzını açanda örör tooxların hamısı murdar oluf. Deyir:

– Arvad, get, sannan da mana arvad olmaz, havayı şeydi! Sənin arvatdığın yoxdu!

Bunu da yola saler, geder. İndi geder bir ayrı arvad aler gətirer. Arvadı aler gətirer. Bu arvadın adı da Telli olor. Deyir:

– Ay Telli!

Deyir:

– Ha!

Deyir ki, ay Telli, iki çual buğda hazırra. İki çual buğdamı, qarğıdalımı hazırrer. Munu dəyirmənə aparer. Aparer, üyüdör, gətirer. Gəler deyir ki, munnan çörəy pişir. Arvad xamırı yoğuror, çörəyi pişirer. Deyir:

– Ay Telli, yaman iri davana qoyuf dəyirmənin davanını, un iri oluf. Gəti unu sour. Qoy yarması bir tərəfə çıxsın, yumuşaq unu bir tərəfə. Bu çörəyi yiməy olmor, adamın ağzını daler, – deyəndə deyir:

– A kişi, baş üstə!

Gətirer Telli eşdə, nəvilem, çual saler, çadır saler, kilim saler, nağayrer, unu başder sourmağa. Küləy əser vıy-vıy, unu bəax dağıder. İki çual unnan heş bir xışma un qalmer. Arvad, unu sourdunmu? Deyir:

– Öyün yıxılsın, unu sourdum da, küləy apardı da! Küləy eləmi oldu ki!

Deyir:

– Sənnən arvad oluf, öy arvadı olmaz! Sən də get!

Bunu da yola saler, geder. İndi gənə Maşa Muradın üstə tüşöllər ki, ay Maşa Murad kişi, sən öylənməlisən. Əmisi oğlannarı var, bajıları var, əmisi qızdarı var. Kəndi var, eli var, obası var, hamısı deyir. Deyir, yox, ta mən öylənmijəm! Deyir, a kişi, bu uşaxlara baxammazsan, qız uşağıdı, oğlan uşağıdı, sən əppəy pişirən döysən, paltar yuyan döysən, dəli döysən. Olmuş var, olacax var, çarə yoxdu, sən öylənməlisən.

Deyir:

– Bu dəfə də bu arvadı sınaxdan çıxarem. Əyər bu arvat da sınaxdan çıxammasa, ta mənim munnan sora öylənməyim yoxdu.

Geder bir arvat aler gətirer. Arvat alıf gətirənnən sora, bir həftə-zad sora kəntdə bir ölü yeri varıymış. Bu ölü yerinnən bir yaxşı iri püküm halva ətirer. Deyir:

– Arvat, arvat!

Deyir:

– Ha!

– Bir püküm halva ətimişəm, ala bu halveyi saxla, – deyəndə, arvad deyir:

– Mana ver.

Arvat halveyı aler aparer, unun ağzınnan iki vedrə, üş vedrə götürör qırağa qoyur. Unun içinə bu halveyı qour, bu unu üstünə tökör, baser. Unun içində halva qaler. Aradan bir ay keçer, on

beş gün keçer, yarım ay keçer, iki ay keçer, nə keçer, bir də Maşamuradın yadına tüşör kü, muna halva saxlatdırmışam. Deyir:

– Arvat!

Deyir:

– Ha!

Deyir:

– Arvat, o halveyi mana əti.

Deyəndə, deyir:

– Baş üstə!

Geder unun ağzınnan aler, qavlara dolduror arvat. Halveyı çıxarder, çırper ununu, bir sinin içinə qour gətirer qavağına qoyur. Deyəndə belə baxer-baxer, deyir: "Mən axtardığımı tapbışam. Ta innən sora maa arvat lazım döy! Sənnən mana arvat oluf öy saxlıyan olajax!" Onnan sora Maşa Murad kişi o arvadı boşamer, o arvatnan şad-xürrəm öyündə dolanellar. Munu da sınağa saler, həmin arvadı. Deyir, cüt dəmirini istat! Deyir, a kişi, cüt dəmiri istammaz! Deyir, tooğu farmaşa qavqar. Deyir, a kişi, farmaşda tooğ ölər. – Unu sour. Deyir, a kişi, un soyrulmaz! Onda deyir ki, da mən axtadığımı tapbışam, innən sorasına mənə arvat lazım döyül! Mən arvadım elə budu ki, budu!

## 60-63. QARA TANRIVERDİ

Bozalqannıda qaçaxların sayı çox olub. Mənim yaşlı nəsildən aldığım məlumata görə, Bozalqannıda ilk qaçax Qara Tanrıverdi olubdu. Qara Tanrıverdinin qaçax düşməsinin səbəbi nədir? Həmin dövrdə, təbii ki, varrı-imkannı adamlar övlatdarını bu və digər formada təhsil almağa xaricə göndərərdilər. Amma kasıblar imkanları olmadığına görə, övlatdarını kimlərəsə nökər verirdilər. Tanrıverdi hələ gəncliyinnən Gürcü knyazına nökər verilmişdi. Gürcü Knyazı onu ildə bir toğlulux qoyuna işdədirdi. Bu nə deməhdi? Bir toğlulux, yəni min qoyuna iyirmi beş qoyun. İyirmi beş qoyun, bir toğlulux deməhdi. Gürcü knyazının on min qoyunu varıydı. Bu o deməh idi ki, Tanrıverdi bir ildə iki yüz əlli qoyun almalıydı. Artıx Tanrıverdi bir neçə il idi ona nökərçiliy eliyirdi, çovannığ eliyirdi. Bu illər ərzində hər il iki yüz əlli qoyun hesabınnan

Tanrıverdinin xeyli varı olmuş olmalıydı. Tanrıverdi artıx gəlif həddi-buluğa çatmışdı. O, evinə, ayləsinə, kəndinə qayıtmax istiyirdi və ailə qurmax istiyirdi. Belə bir vaxtda, o, gürcü knyazına dəfələrnən demişdi ki, məni azad elə, mən gedim. Gürcü knyazı əvəllər demişdi ki, bir həftə dözginən, səni əvəz eliyən bir adam tapım. Zaman keçdikcə, bu müddət uzana-uzana gedirdi. Ona görə də Tanrıverdi başa düşür ki, gürcü knyazı onu, birincisi, azad eləməh istəmir. İkincisi də, azad eləsə də, haqqını ona verməy istəmir. Tanrıverdi ona dedi ki, məni azad elə, özü də mənim haqqımı kəsmə, mən gedim. Knyaz ona dedi, getməy istiyirsən, çıx get. Neçə ildi mən səni saxlıyıram, yeməyini vermişəm, geyməyini vermişəm, saa nə haqq verməliyəm ki? Onda Tanrıverdi qılıncnan gürcü knyazının boynunu vurdu və qaşdı. Bunnan da qaçax düşdü.

Tanrıverdinin qaçax düşməsinin xəbəri artıx yayılmışdı və çar II Nikolaya da gedif çatmışdı. II Nikolay demişdi ki, həmin adamın ölüsü, ya dirisi, kim tərəfinnən gətirilif verilsə, həmin adama başının ağırlığında qızıl mükafatı verəjeyih. Tanrıverdi Nəsib adında bir nəfərnən – yeznə-qayın idi, – burdan Sulduza getdi – İrana. Çünki Tanrıverdinin bacısının biri orda ərdeydi. Tanrıverdi o evə ki getmişdi, gedəndə gördü ki, burda toy məclisi qurulufdu, amma oğlunu evləndirən kişi yas içindədi. Soruşdu ki, nə məsələdi? Ona cavab verdi ki, buranın xanı belə bir qərar verib ki, toyu olan bəy həmin gün öz xanımını qəbul eləməməlidi. Xanımı əvvəlcə o qəbul eləməlidi. Mən bu əzabı götürə bilmirəm, oğul, – deyib həmin toyun sahibi ağsakqal hönkür-hönkür ağladı. Tanrıverdi Nəsibə dedi ki, Nəsib, get ağaya de ki, bu gün o qanunu, o qaydasını bizə bağışdasın. Bu günnük o qanunu icra eləməsin. Nəsib getdi, gəldi, dedi ki, xan çox bərk qeyzləndi. Dedi ki, köhnə bazara təzə nırx qoymuyun. Bu qanun belədi, belə də gedəjəy. Kimsiz, hardan gəlifsiz bilmirəm. Bunnan sora Tanrıverdi özü getdi. Həyət qapısında dayanan keşikçilərə yaxınnaşanda, onlar istədilər onu buraxmasınlar. Dedi ki, mən çox vacib bir sözü ağaya çatdırmalıyam. Dedilər, sən bizə de, biz çatdırarıx. – "Yox, sözü mən çatdırmalıyam. Gizdi sözdü, özü də ağa üçün vacib sözdü. Onu deməsəm, ağanın başına fəlakət gələ bilər". Dedilər ki, biz səni buraxa

bilmərih. Dedi, onda yaxın gəlin, mən sizə yavaşcadan deyim, eşidən olar kənardan. Olar yaxın gələn kimi, Tanrıverdi oların ikisinin başdarını bir-birinə vurdu. İkisi də yarı huşsuz vəziyyətdə yıxıldılar. İçəri qapıda dayanan keşikçilər gördülər ki, bir nəfər gəlir. Başa düşdülər ki, çöl qapıdan bunu buraxıflarsa, buraxılması lazım imiş ki, buraxıflar. Ona görə bunu da buraxdılar. İçəri girdi. Hardasa təxminən saatdar qalmışdı ki, gəlin ağanın yanına gətirilsin. Ağa isə dirsəhlənif özünün yatağında məqamını gözdüyürdü, xanımın gəlməyini gözdüyürdü. Tanrıverdi girir içəri, deyir ki, mən bayaxları adam göndərmişdim. Biz Əcəm elinnən gəlmişiy, qonağıx. Xayiş eliyirəm, qanununu bu gün üçün bizə bağışda. Ağa yerinnən qalxıb ona hücum eləməh istədiyi an Tanrıverdi qılıncnan onun boynunu vurdu və pəncərədən özünün saxladığı atın belinə tullandı, ordan çaparax gəldi. Kişiyə dedi ki, kişi, arxayın toyunu elə, bu günnən sora o qanun olmuyajax. Nəsibnən bərabər gözdən itdilər.

Bu əhvalatdarın sayı o qədər çox iydi ki, yerrərdə artıx o əfsanələşmişdi. Bu ərazinin qəza rəisi Tanrıverdiyi ələ keçirif çardan böyük ənam almax üçün hiyləyə əl atdı. Belə bir namə göndərdi Tanrıverdiyə ki, Tanrıverdi, sənin öldürdüyün knyaz mənim düşmənim idi. Mənim düşmənimi öldürən adam mənim dostumdu. Knyazın ölümünnən əlaqədar böyük bir şadyanalıq təşkil eləmişəm. İstiyirəm ki, sən – knyazı öldürən dostum mənnən yanbayan otursun. Ona görə də çox xayiş eliyirəm, mənim dəvətimi qəbul elə və Qazağa gəl. Tanrıverdi tək gedirdi. Adətən igitdərdə belə olur, igitdər başqa hiylə bilmillər. İgid igitdih bilir, mərtdih bilir. Dağkəsəmən kəndinin ərazisinnən keçəndə yolun hər iki tərəfində təpəlih var, dağlıx var. Yol dağların, təpələrin arasınnan keçir. Yəni, ən dar yer oradı. Tanrıverdi gəlib ortalığa çatanda, qabaxdan da, arxadan da Tanrıverdiyi mühasirəyə aldılar. Qəza rəisi hökm elədi ki, atdan düş. Atdan düşdü. Silahını da aldılar, atını da aldılar, qollarını da bağladılar. Tanrıverdi əvvəlcə qəh-qəhə çəkif güldü. Qəza rəisi dedi, nəyə gülürsən? Dedi ki, sən məni niyə tutursan? Mən kiməm ki? Dedi, sən Tanrıverdisən! Dedi, nədən bildin Tanrıverdiyəm? At sürməyimi gördün,

qılınc oynatmağımı gördün, tüfəng atmağımı gördün, nəyimi gördün ki, deyirsən mən Tanrıverdiyəm? Savah sənin özünü güllələyəjəhlər. Ona görə ki, sən yazıx bir adamı götürüb Tanrıverdi adınnan kiməsə satmax istirsən. Dedi, yaxşı, bunu sora bilərik.

Ağstafaçayın vadisində, Qazax rayonunun ərazisinnən keçən yerdən böyük bir ərazidə meydan açılmışdı. Bu meydanda dar ağacı qurulmuşdu. Dar ağacının ətrafında əsgərlər hər on metrdən bir əllərində silah dayanmışdılar. Tanrıverdiyi gətirdilər düz dar ağacının divinə qoydular. Bu məqamda, qəza rəisi də bir kresloda oturuf yayxanmışdı, kresloynan biriydi. Ləzzət alırdı ki, qorxulu bir qaçağı dövlətə təhvil verəjək və dövlətdən mükafat alajaxdı. Dedi, Tanrıverdi, sənin bir arzunu yerinə yetirə bilərəm. Son məqamındı, nə istirsən, nə arzun var de, yerinə yetirim. Dedi ki, sənnən heş nə istəmerəm, istədiyim bircə odu ki, sonuncu dəfə atımı, bir də yarağımı mana ver, mən bax bu camaatın içində, bu meydanda atımı bir dəfə cövlana gətirim, onnan sora məni asdır. Dedi, gətirin onun atını. Atını da gətdilər, silahını da gətdilər. Çatan kimi tüfəngin çaxmağını çıxartdılar. Tanrıverdi dedi ki, ə, mən indiyətən elə bilerdim sən təhcə axmaxsan, həm də qorxaxmışsan. Adə, burda yüz nəfər adam əli silahlı dayanıf, mən burdan qaçanammı, silahımı əlimnən alıf çaxmağını da çıxardersan? Heç o tüfəngi istəmirəm, qılıncım mana bəsdi. Qılıncını verdilər. Ata süvar oldu. Atı cövlana gətirdi. Bəlkə dəfələrnən bu cür mühasirlərə düşüf çıxmış at artıx yolunu-izini bilerdi neynəmək, nağarmax lazımdı. Tamamilə coşdurdu atı. Meydanın əks tərəfinnən birbaşa qəza rəisinin üstünə tərəf çapbağa başdadı böyük sürətnən. Ətrafdakı əli silahlı əsgərlər silahdan atəş açmağa ehtiyat elədilər, çünki rəisə dəyə bilərdi. Amma o gəldi rəisin üstünə, at şahana qalxdı tullandı və göydən qılınc endiyinnən rəisin başı ayaxlarının altına düşdü. Beləcə də Qara Tanrıverdi atını çaparax çıxdı getdi.

## 61.

Qara Tanrıverdi çox mühasirələrə düşüfdü və bütün mühasirələrdən çox böyük mərdanəliynən və ustalıxnan çıxıf. Onun dostdarınnan biri, hansı ki, ona dəfələrnən köməh eləmiş, çörəh ver-

miş, paltarını dəyişmiş olan bir nəfər dostu olubdu. Qara Tanrıverdi onun fermasına gedifdi. Sən demə, Tanrıverdini izdiyirmişdər ki, çıxacağı dar olan yerə girəndə, orda tutsunnar. Görüflər ki, Tanrıverdi getdi fermaya girdi. Fermanı mühasirəyə alıflar. Amma fermada çovanın, onun ayləsinin olduğu yernən mal-heyvanın salındığı yerin arasında qapı varıydı. Çöldən dedilər ki, Tanrıverdi, biliriy burdasan. Çıx, onsuz da buroyu dağıdajeyih, səni də tutajeyih. Tanrıverdi dostuna dedi ki, get, ara qapını aç. Mən camışdarın arasına girənnən sora çöl qapını aç. Qarannıx düşmüşdü artıx. Çöl qapını açanda bu camışdarın hamısı çıxdı, başdadı qaçmağa. Heç kim Tanrıverdiyi tapa bilmədi, çünki o camışdardan birinin boynuna sarılmışdı, eləcə də mühasirədən çıxıb getmişdi.

Qara Tanrıverdi qara yaradan öldü, onu öldürə bilmədilər.

**62.**

Bozalqanlı Qara Tanrıverdinin xalası bizim Hajallıda Səddah kişinin anasıdı. Rusdar bir gün Qara Tanrıverdini gəzirmiş. Bunun yerini göstərillər ki, bu Hajallıda olajax. Bunu izdiyə-izdiyə Hajallıya gəlillər. Onun yanında eyni zamanda bizim özümüzünkülərdən də olor. Rus buna deyir kin, sən Tanrıverdinin xalasısanmı? Deyir, bəli, xalasıyam. Bular deyir ki, səndən Tanrıverdi iyi gəlir. Deyir, xalası ölsün, Tanrıverdi burda nəəzer. Mən Tanrıverdinin xalasıyam, onçun Tanrıverdi iysi gəlir.

Tanrıverdi elə bir iyid imiş ki, ömrü boyu kadınnarın üzünə baxmazmış. Bulağa gedəndə gözün sarıyar gedərmiş.

**63.**

Qara Tanrıverdiyi Qazax yatağında Yaranal tutor. Deyir, Qara Tanrıverdi sənsənmi? Deyir, mənəm! Deyir ki, sənin adın dünyəni alıfdı. Deyir, nə Tanrıverdi? Tanrıverdi olanda atın belindeydim, qalxanım, yay-oxum. İndi bir arvadam! Deyir, ə, atını verin ona. Atını miner, bunu okrujut elellər belə. Yaranal deyir, Qara Tanrıverdi kimin üstünnən addasa, onu güllöynən vurajam. Tanrıverdi atı hərriyer, hərriyer, düz yaranalın sinəsinnən yapışdırır, qaçer. Bunu qubernat eşidir. Deyir, Qara Tanrıverdinin kim başını mana gətsə, Qara Tanrıverdinin başı ağırrıxda ona qızıl verəjəm.

Ağdamdan Məmmədalı addı biri eşider. Deyir, gedem hələ bir Tanrıverdini göröm hardadı. Gedəndə görör, Tanrıverdi yaralanıf, Kürün o toyunda buna bir erməni həkim baxer. Deyir, ə, Məmmədalı, hancarı bir şey gətirmiyifsən? Deyir, yönüm Tiflisədi, nə lazımdı de gətirem.

Məmmədalı Tiflisə qubernatın yanına geder. Deyir, ə, deyillər, Tanrıverdinin başını gətirənə onun başı ağırrıxda qızıl vereşsən. Düzdümü? Deyir, düzdü! Tanrıverdi, – deyir, – bir yataxdadı.

Qubernat qoşunu yığır, yola düşör. Məmmədalı deyir, bax, bu yataxda qoyuf getmişəm. Mən içəri girəjəm. Eşiyə çıxıf yönümü gün çıxana tutdum, bilin ki içəridədi. Yönümü kola doğru tutdum, bilin ki içəridə döyül (Allahtaala helmi hansı adamın başına qoysa, ona ölüm yoxdu. Elm məslahatçıdı, əql bələdçidi, səbr isə hamısının başçısıdı). Ayə, baxanda görör ki, Tanrıverdinin atı eşikdə bağlıdı. İçəri girer. İrəng alıf, irəng verir. Nəsib də bunun yeznəsidi. Deyir, ə, Nəsib, bir eşiyə çıx. Deyir, a qaynata, okrujutduyux. Burdan tüfəngə yapışanda, Məmmədalı közə yıxıler. Duror camış yatağına addellar. Erməni həkimi bunu camışın qarnının altına sarıyır. Naxırçıya deyir, camışı döy, çıxsın. Qubernat baxanda görör ki, camışın ortasında Tanrıverdi geder. Qubernatoru, yaranalı – ikisin də öldürör, addıyır meşəyə, Məmmədalı da belə geder.

## 64-70. TELLİ ƏSƏD

Bozalqannı qaçaxlarının sayı çoxdu. Bu qaçaxlardan biri və çox məşhuru Telli Əsəddi. Telli Əsəd daima tək qaçaxlıx eliyif. Yay dövründə yaylax yolu, qış dövründə qışlax yolu, bu yolnan elin varı-dövləti, sərvəti gəlib-gedərmiş yaylağa, ya qışlağa. Gah yolnan, gah kolnan Telli Əsəd də bir növ bu köç karvanını izdiyərmiş. Onun çox böyük qəhrəmanlığınnan biri... Əlmərdanlı kəndində dəyirmançı Ədil kişi olubdu, həmin dəyirmançı Ədil kişinin dostu olufdu Telli Əsəd. Ədil kişi ona hər zaman dəstəy oluf. Hər zaman çalışıf ki, onu dara düşməyə qoymasın. NKVD-nin əməkdaşdarı məlumat alanda ki, Ədil kişi Telli Əsədi korrux çəhməyə qoymur, gedif Ədil kişiyi həbs ediflər. Ədil kişi tutulanda xayiş eliyif ki, maa icazə verin iki dəyqəliyinə yoldaşıma

deyiləsi sözüm var. Onu yoldaşıma deyim, onnan sora məni aparın. Olar da icazə veriblər. Ədil kişi evə girib deyif ki, ay qız, yadında saxla. Telli Əsəd həftədə bir burya gəlir. O, kişi olmuyan evə girmir. Ola bilər ki, görərsən ki, kənarkəsmə gəzer, hərrəner, onda utanıf çəkinmə, mən sana icazə verirəm. Get denən ki, Əsəd qağa, uşaxlar gəldilər xavar elədilər ki, inək doğor. Ona görə Ədil düşdü aşağı, mana da dedi ki, Əsəd gələndə denən otusun, indi gəlirəm. Bir stəkan da çay ver, onatan mən gələjəm. Telli Əsəd çox həssas adam olufdu. Gəlif evdə oturduğu vaxt qadın birinci stəkanı stolun üstə qoyanda Telli Əsəd deyif ki, Ədili havaxt tutuflar. Qadın heyrətə gəlib bu həssasdıxdan. Özün saxlıya bilmiyif, ağlıyır. Ağlıyanda Telli Əsəd deyif ki, ağlama, ağlama, gələr.

Üstən bir-iki gün keçmiş bir nəfər cavan uşax da yanına götürüf... İndi Əlimərdanlı-Girzan yolunun bir hissəsində Saman uçan deyilən yer var. O zaman yol Saman uçannan keçərdi. Bu Saman uçanda bu uşaxnan bir yerdə oturuf. Bir də baxıf ki, uzaxdan toz qalxer yoldan. Uşağa deyir, bax gör o nədi. Uşax baxır, deyir ki, bir nəfər atdı gəlir. Bu atdı gəlif bulara çatana qədər baxellar ki, arxa tərəfdən daha böyük toz qalxer. Atdı gəlif çatanda soruşor, ayə, ay bala, bu nə tozdu elə? Deyir, NKVD-nin sədri Əlmərdanlıdeydi, ordan da Girzana gedəseydilər. Yəqin onun maşının tozudu. Bu da deyir, yaxşı, a bala, get.

Deməli, bu atdı gedənnən sora Telli Əsəd uşağa deyir, get dərədə gizdən, heç haraya çıxma. Özü yolu eninə uzaner. Telli Əsədin həmişə əynində əsgər şineli varmış, çünki onun üstündə gəzdirdiyi silahları adi formada gizdəmək ola bilməzdi. Şinel lazım idi ki, şinelin altda silahları gizdəməh mümkün olsun.

Deməli, burda uzanıf, maşının səsi yaxınlaşır. Müəyyən məsafəyə çatanda, maşının motoru söndürülür və qapısı iki dəfə açılıf örtülür. Bunnan da məlum olur ki, deməli, burdan iki nəfər düşdü. Düşənnərdən biri o birinə deyir ki, deyəsən, vuruflar. Yaxınnaşıf Telli Əsədin elə bil çiyninnən çevirməh istiyəndə, Telli Əsəd yerinnən tullandığınnan həmin NKVD-nin sədrinin gicgahına mauzeri diriyir. Deyir, tərpənmiyin, silahlarınızı qoyun ye-

rə. Buları silahdan xeyli aralıyır, sora deyir, yerdə oturun. Otuzdurannan sora deyir ki, mən Telli Əsədəm, qaçağam, özüm də ajam. Bu dəyqə maa çörəh ver. Deyir, a kişi, sana burdan çörəyi hardan alax verəy, bizim çörəyimizmi var? Deyir, mən bilmerəm, bu dəyqə maa çörəh verin. Verməsəniz, ikinizi də öldürəjəm. Deyir, a kişi, Allah haqqı, bizim ayrı çörəyimiz yoxdu. Maşına bir şordan, çörəydən-zaddan yüngülvari şey qoymuşux, onnan başqa heç nəyimiz yoxdu. Deyir, şoferinə denən getsin onu maa gətsin. Əlini tərpətsə, əvvəlcə səni vurajam, sora da onu vurajam. Rəis də şoferə tapşırer ki, axmaxlığ eləmə, get, nə deyirsə gətir. Bu da gedir şor-çörəyi gətirif qoyanda, söyüş eliyir ona, pis söz deyir. Deyir ki, mən dilimnən dedim ki, mən Telli Əsədəm, özü də çörəh istiyirəm, özüm də qaçağam. Sən də NKVD-nin sədrisən, maa çörəyi niyə verirsən? Ə, bə o dəyirmançıdan da çörəyi belə aleram dana. Elə bilirsən onnan kefnən aleram? Vermə dana. Sən məni tutmalı adamsan, niyə tutmorsan? Maa çörəh verirsən. Bə gedif dəyirmançıya güjün çater? Mən gözüün qavağındayam, məni tut də. Niyə dəyirmançıyı tutorsan? Yadında saxla, dəyirmənçiyi iki günə buraxmasan, quş oluf göyə uçsan, balığ oluf dəryaya girsən, mən səni tutuf öldürəjəm.

Beləliynən, bular burdan qayıtmalı olollar. Qayıtmalı olanda, rəis Telli Əsədə deyir ki, dörd nəfər strajnik göndərəjəm. Olara da maa pişirtdiyin kimi çörəh pişirtdir. Bu deyir, baş üstə! Bular qayıdıf gedellər. Gedənnən sora rəis dörd nəfər göndərer ki, qaçax-quldur dünyoyu başına götürüf. Filan yerdə mənim özümün qavağımı kəsmişdilər. Atışdıx-vuruşdux, belə aralandıx.... O əraziyi gedin axtarın. O qaçax kimdisə, tapın bura gətirin.

Dünənnən danışıflar, şərtdəşiflər ki, savah adam göndərəjəm dörd nəfər. Savağısı gün Telli Əsəd həmin yerdə dayanıb gözdüyür, yanında bir cavan uşax. Bir də baxıllar, uzaxdan dörd atdı gəlir. Telli Əsəd qaçır girir dərəyə. Üstünü-başını, hər yerini sarı torpax eliyir. Bular lap yaxınnaşanda dərədən çıxer deyir, ayə, sizi yetirən Allaha qurvan olum. Özünüzü çatdırın, amanın günüdü. Harava aşıfdı, öküzdər boyunduruxda ölör, amandı maa köməh eliyin. Bu strajniklər atdardan düşüllər. Bütün silahlarını

atın yəhərinin qaşına keçirdellər. Buları aralıyır, xeyli aparannan sora özünün mauzerini çıxarder. Deyir, tərpənmiyin! Bir-birrərinə öz əllərini bağlatdırer. Onnan sora qamçıynan yaxşıca buları döyör. Bu dəyqə maa çörəh verin. Qayıdar:

– A kişi, hardan alax verək?

– Bilmerəm! Çörəh verin!

Axırı mümkün olası olmor, deyir, atdara yaxın getmiyin, silahlara əlinizi uzatmayın. Bura nətəri gəlifsinizsə, eləcə də qayıdın gedin.

Bular qayıdıf gedəndə, indi NKVD-nin rəisi oturuf yola saldıxlarının qayıtmasını gözdüyür. Vaxt keçib, gün axşam olub. Növbətçidən soruşor ki, noldu, gedənnər gəldimi? – “Yox!” Bir də növbətçi məlumat verer ki, gedənnər gəldilər. Deyir, oları çağırın gəlsinnər burya. Xeyli keçir. Noldu, niyə gəlmer? Deyir, rəis, gələsi kimi döyüllər. Deyir, əmr eliyirəm, bu dəyqə buraya gəlsinnər. Bular, üstü-başı toz, silah yox, girillər içəri. – “Ə, bu nə görkəmdi, ə? Siz elə bil piyada gəlifsiniz bu yolu. Atdar hanı?” Biri deyir ki, rəis, atımızı da, silahımızı da Telli Əsəd əlimizdən aldı. – “Ayə, köpəy uşağı, mən sizi göndərdim, gedin onu tutun gətirin, yoxsa gedin silahı, atı verin ona, gəlsin bizi qırsın? Ə, bə nə yaxşı dəyirmançını tutuf gətirə bilersiniz, hasand idi onu tutuf gətirəydiniz də?” Dördünü də KPZ-yə saldırer. Şoferini göndərir, əvvəlcədən hazırradığı sovqat varıydı, içində çöl adamına lazım olan hər şey varıydı. Sabundu, nəvilim mən, spiçkadı, qəntdi, tuman-köynəkdi, ərzaxdı – hər şey var. Bağlamanı gətirer özünün otağında stolun stünə qoyor. Növbətçiyə deyir ki, Ədil kişiyi, tutulan dəyirmançıyı gətirin burya. Gətirer. Deyir, Ədil kişi, bu sovqat Telli Əsədindi. Bu günə qədər Telli Əsədə həftədə bir dəfə çörəh vererdinsə, indi hər gün ver. Bu günə qədər Telli Əsədin çimməsinə imkan yaraderdın ayda bir dəfə, indi hər həftə imkan elə. Bu günnən etibarən sən tərəfə kimsə baxmıjax.

Ədil kişi NKVD-ən çıxannan evinə çatana qədər bir neçə dəfə Telli Əsəd xəbər alıf ki, çatdımı. Çünki artıx bilerdi ki, başqa variantı yoxdu. Hökmən gəlif çatmalıdı.

## 65.

Köç dağa gedəndə, Telli Əsəd gah yolnan, gah kolnan gedərdi. Başqa cür variantı yoxuydu, çünki o dövrdə hər kəsdən ehtiyat eliyirdilər. Niyə? Ona görə ki, həmin dövrdə açistika başdamışdı. Hər kəsdən ehtiyat eliyirdilər ki, birdən bu bandit olar, quldur olar, nə bilim kim olar. Ona görə də o, görünə-görünə gedə bilməzdi, mümkünü yoxuydu. Böyük Qışlax ərazisinə yaxınnaşanda, susadığı üçün, həm də ajmışdı, kol-kosun içinnən çıxıb bulağın başına gəldi. Bir az üzünü yudu, bir az su içdi. Dincini almax üçün oturmuşdu. Bir də gördü ki, bir cavan gəlin gəlir. Qadın bunu görəndə geri qayıtmax istiyəndə, deyif ki, ay qızım, ay bala! Ölənnərinin ehsanı olsun, mana bircə qırıx qatıx-çörəh gəti, yol adamıyam, ajmışam. Bu gəlin olsun ferma müdürünün arvadı. Ferma müdürünün dəyəsində partkomnan zootexnik oturub çörək yeyirmişdər. Gəlin vedrəsinin birinin içinə xamralı qoyur, birinin də içinə bir yekə bayda qatıx qoyur və götürüf getməy istiyəndə partkom deyif ki, haraya aparırsan onu? Deyir, bir qoja kişi var bulağın başında. Dedi ajmışam, bircə qırıx maa çörəh gəti. Deyəndə, deyir, yerə qoy, aaz, oları! Bəlkə elə banditdi. Deyəndə, ferma müdürü deyir: – "Ə, Allaha da xoş gedər, ver, qoja kişidi. Nolar ki, bir kısmat çörəh yijəy dana, onnan haramız əysiləsidi". Zootexnik deyir ki, bu saat mən yoxluyaram, görüm o kimdi. Gəlinə deyillər ki, apar.

Gəlin həmin qatığı-çörəyi aparer. Telli Əsəd də bulağın başında oturuf gözdüyürdü də. Gətirir, bu baydanın içinə birbaşa çörəyi oxalıyır. Doğrama eliyir ki, yisin. Yiməyə təzə başdıyanda buların üçü də yaxınnaşer. Partkom deyir ki, a kişi, kimsən, nəçisən? Hardan gəlif, hara gedirsən? Deyəndə deyir, dərdin alem, dağa, heyvan var, onun dalınnan gedərəm. – Pasportun, vayenni biletin varmı? Deyəndə ferma müdürü deyir, ə, Allahınız olsun, qoy çörəyini yesin, onnan sora nə istirsiniz istiyin dana. Deyəndə zootexnik deyir ki, sənnən döyüllərmi? Pasportun, vayenni biletin. Deyir, qadan alem, hamısı var. Qoy bircə kısmat çörəyimi yiyim, onnan sora. Deyir, bəs nədən bilək ki, sən öküz gətirməyə gedərsən? Deyəndə deyir ki, dərdin alem, kolxoz sədri Qələndər göndərifdi, ka-

ğız da verifdi. Bax, istirsən verim, budana kağız. Onaçılanı çıxartdığınnan hərəsinin qaşının arasına bir güllə qoyur. Ferma müdürünə dəymiyif. Ferma müdürünün dodağı partdıyıf. Deyif ki, oğul, denən heç kimi günahkar bilməsinnər, onları öldürən Telli Əsəddi. Deyir və ordan quş kimi çıxıb gedir. İndi həmin yerin adı da elə o hadisəynən bağlı qalmaxdadı. Oranın adını "Mədət ölən" deyillər.

**66.**

Xınna dərəsində Allahyar bəy deyilən bir bəy olufdu. Allahyar bəyin strajniki olub Bozalqanlı kəndinnən Rus Əsəd deyilən adam. Yekə Əsəd də deyirdilər ona, Patavalı Əsəd də deyirdilər. O, Allahyar bəyin yeganə strajniki olufdu. Mən üzr istiyirəm, bəlkə də Şahniyar bəy oluf. Ola bilsin ki, çaşdırıram. Birinci rus inqilabı dövründə, 1905-07-ci il inqilabınnan geder söhbət. Həmin dövrdə ayrı-ayrı dövlət adamları, yuxarı təbəqənin adamları ətraflarında baş verən hadisələrin nə qədər tünd rəngdə olduğunu adi adamlardan daha tez görürdülər. Bəy görüf ki, Rusiyanın müəyyən əyalətdərində fəhlə üsyannarı genişlənir və gələcəhdə onunçun böyük fəsaddar törənə bilər. Ona görə də Yekə Əsədə deyir ki, Əsəd kişi, bizim strajniklərmizin sayını artırmax lazımdı. Hardasa bir on-on beş nəfər strajnik əlavə eləməh lazımdı. Onda Əsəd kişi Bozalqanlıdan daha iki nəfər aparer. On-on beş nəfərin əvəzinə iki nəfər aparer. Onun biri olubdu Telli Əsəd, biri olufdu Mamoy Tomar oğlu. Bu iki nəfəri aparanda, bəy deyif ki, a kişi, mən saa dedim çox olsun. Deyif, sənə lazımdımı ki, çox adama xərc çəkəsən? Sənin qorunmağın lazımdı, bu adamlarnan qorunajaxsan. Əslinə qalsa həmin dövrdə Telli Əsəd qaçax deyildi. Amma Telli Əsədnən Kalvay Əsədin son dərəcə yaxın münasibətdəri varıydı və Kalvay Əsədin varı-dövləti, sərvəti əlinnən alındığına görə, hökümətə düşmən kəsilmişdi.

Kalvay Əsədin vurulması Çovan dağı ətrafında olmuşdu. Orda mühasirəyə düşmüşdü. Gədəbəydən Yaqub adında bir nəfər də varıydı onun dəstəsində. Telli Əsəd idi, Kalvay Əsəd idi, bir də Telli Əsədin oğlu Məcid idi. Onların səngər seçdikləri yer qayalıx, daşdıx idi. Hətta bəzi yaşdı adamlar söhpət eliyəndə deyillər ki, atriyyatın üzvüləri daşa doldular, yəni hər daşı özünə bir

səngər seçdilər. Həmin daşa dolmuş olduxları vaxt bular mühasirəyə alınmışdılar. Telli Əsədin gülləsi kutardı. Gülləsi kutaranda oğlu Məcidə dedi ki, həyvəni maa tərəf tulla. Bu da dedi, ay qağa, mən burdan çıxan kimi məni vurojaxlar. – "Ayə, bəri tulla həyveyi deyirəm!" Həyvə tullananda yaxınnığına düşməmişdi. Telli Əsədin oğlu onu atasına daha da yaxınnaşdırmax üçün uzandı, tüfəngin ujuynan istədi onu yaxınnaşdırsın, elə orda vurdular. Oğlunun ölümü gözünün qavağında olan bir qaçax, artıx onun gözünə heç nə görükmürdü. Sözün həqiqi mənasında, deyilənnərə görə deyirəm, çox dəhşətdi bir nərə çəkib durdu ayağa. Hansı ki, bəlkə də yüz yerdən güllə atılerdı, o güllələrə məhəl qoymadan durdu ayağa və gülləlləri elə səpələdi ki, nərə çəkə-çəkə yardı mühasirəni, həmin o gədəbəyli kişiynən oğlunu da mühasirədən çıxartdı. Amma həmin mühasirədə Kalvay Əsəd vuruldu.

Telli Əsəd əslinə qalsa, bizim nəslin adamıdı. Bizim nəslə Sadıxlı deyillər. Sadıxlı nəslinnən Xanqulular nəslinin arasında bir nifaq olubdu. Baxmıyarax ki, o düşmənçiliy varıydı, Xanqulular nəslindən olan Rəsul kişi Telli Əsədin oğlu Məcidi vurulduğu yerdən öz dalına götürdü, gətirdi Sadıxlıların binələrinin yanına qoydu. Bu xəbər Telli Əsədə çatanda, o demişdi, bütün Xanqulular qurvan olsun Rəsula.

### 67.

Qaçax Telli Əsəd bəyax dedim ki, heç vaxt yoldaşlı qaçaxlıx eləmiyif, təh qaçaxlıx eliyibdi. Hajı Hüsöynün bacısı oğlu bulara çörəh gətirərdi. Özü də dəqiqləşdirilmiş ünvana qoyardı, heç bir məlumat da vermədən gedərdi. Oların ikisi də bilerdi ki, bu gün saat filanda filan yerə bizim yeməyimiz qoyulajax. Olar da gedif götürüf yeyərdilər. Həmin uşağı atriyadın üzvlərinnən bir neçə nəfər ələ almışdılar, qorxutmuşdular ki, sən bunu qaçağa aparırsan, bilirik. Sən bunu biz dediyimiz yerə qoymalısan. Həmin yer də üzdə olan yerdi. Oroya çıxan kimi qaçağı vurmax ola bilər. Gedib bildirməlisən ki, çörəyi sən filan yerə qoyubsan. Bu uşax da atriyadın üzvlərinin dediyi yerə gətirdi, ağacın haçasına çörəyi qoydu. Getdi dedi ki, ay dayı, çörəyinizi filan yerə qoymuşam. Bu da dedi, sağ ol, dərdin alem! Bu uşax gedənnən sora

Telli Əsəd dedi ki, ay Söyün, bajıoğlun bizi xaşdadı. Bəyax dedim axı, o çox həssas adamıydı. Deyir, elə şeymi olar, ə? Mən onun dayısıyam, gör nə qədər vaxtdı bizə çörəh gətirir. Deyir, özün bilərsən, mən sözümü dedim. Bajıoğlun bizi xarşdadı. Mən o çörəyin dalınnan getmiyəjəm, gedirsən, sən get.

Hajı Söyün çörəyin dalınnan gəlir, amma Telli Əsəd onu izdiyə-izdiyə gəlir. Hajı Söyün gəler, əlini ater ağacın haçasınnan çörəyi götürməy istiyəndə vurollar. Telli Əsəd onu vuranı vuror. Bunnan sora Telli Əsəd tamamilə təh qaçaxlıx eliyir. Özünün heç kimə məlum olmuyan mağarası olubdu. Bu mağarada gizdənibdi, daldeylanıbdı. Onun son illərdə sıx-sıx gedib-gəldiyi bir yatax varıydı. Bu, Bozalqanlı yataxlarınnan biriydi. Həmin yatağa axırıncı dəfə gedəndə, deyir ki, a gədələr, mana su qoyun, mən əynimi dəyişəjəm, mana təmiz tuman-köynək verin, bir də yerimi üzü qıvlıya salın. Doğurdan da, çimer-eleer. Gəlib uzaner. Deyir ki, mən ölürəm. Mən ölməmişdən qavax mana bir güllə vurun, hökümət başıma pul qoyufdu. Hökümətdən bir az puldan-paradan alın, aylənizi, uşağınızı saxlıyın. Elə bilillər ki, buları sınıyır. Ağlıyıllar, eliyillər ki, nə danışersan, elə şeymi olar? Əlimiz quruyar, nə bilim nə... Telli Əsəd ölör. Ölənnən sora bir nəfər, yəqin ki, cavan olubdu, tamahı güj gəlifdi, ölüsünə bir güllə vuror. Telli Əsədin ölüm xəbəri yayıler. Tatlı kəndinnən Bayram deyilən bir nəfər məşhur polis işçisi olub, Tatlı Bayram. Tatlı Bayramnan Telli Əsəd əslində dost olublar. Üzdə Tatlı Bayram guya bunu axtarandı, amma əslinə qalsa, bilerdi ki, Telli Əsəd tutaq ki, burdadı, oranı axtarerdı. Bilerdi ki, ordadı, buranı axtarerdı. Vilisin bortunu açıb Telli Əsədin nəşini oroya uzadıblar, çünki başqa heç nə yoxuydu onda. Gətiriblər NKVD-nin binasının qabağına. Onda da buralar pambığ olub. Telli Əsədin meyidini divara söyküyüblər ki, şəklini çəhsinnər, qazetdə yazı versinnər ki, təhlükəli qaçax Telli Əsəd artıx öldürüldü. Hamı da maraxnan durub baxırmış. Bu məqamda, yəqin ki, ya gün vurub, nolub meyit boşalıf və yaxud da düzgün qoymuflar meyidi divara. Meyit hesab elə sürüşüb yerə yıxılıb. Orda olan adamlar – polisdi, jandarmadı, nə bilim mən, hüquq mühafizə işçisidi, ya

adi baxannardı, hamı qaçıb pambığın içində gizdənib ki, Telli Əsəd ölmüyüb, bizi qırajax. O qədər dəhşətdi, o qədər möcüzəli bir qaçax olubdu Telli Əsəd.

**68.**

Telli Əsəd quşu gözünnən vuran adamıymış. Bir gün vəziyyət elə alıner kı, bizim Touzda o Kürün qırağındakı meşədə adam azermiş. Çox qaranlığıymış. Bu kişi burda günüzlər gəlib meşədə dururormuş, gejələr geder Həzrət Qulu kişi var, onun yatağında qalermış. Orda deyir, elə itdər vareymış ki, bu itdər daje biri də hürmörmüş o kişiyə.

Qarşıdan biri Telli Əsədi görör. Tez gəler polisə xəbər verer ki, belə-belə, qaçax filan yerdədi. Deyir, ə, nə danışersan. Deyir, vallah. Buranın ispalkomunu göndərellər, bir də Abbas adında bir nəfəri göndərellər. O vaxdı da bizim zonada donuz saxlıyırdı ermənilər. Bu da çuxada, başında da tül papağ, üzü tühlü. Meşənin içində belə bir cığırdı deyir, ikinci adam o cığırnan gedə bilməz, bu əlində vedra suya eder. Bu qasid elə dannı verer ki, filan yerdən çıxıf suya ələjey o. Bu Qələndər kişi də Telli Əsədi tanıyır, amma Abbas tanımer. Abbas da, Qələndər kişi də bu gələn cığırın yanında bunu gözdööllər, əllərində də silah. Gəlif yaxınnaşanda bu Abbas ortıya çıxer. Deyir, ə, sən kimsən? Deyəndə, deyir, nenirsən ağrın alem? Deyəndə deyir ki, donquzuna itirmişəm, onu gəzerəm. Qələndər kişi daldeyda idi. Belə deyəndə Qələndər kişi deyir, ayə, Abbas özüdü. Abbas özüdü deyəndə beşaçılanı çıxardır, daranq Abbası yatırdır. Deyir, a Qələndər, sana elə güllə vurojam, nə ölöşsən, nə dirileşsən. Daranq eliyən kimi Qələndər kişinin böyrəyinin birinə ater. Bax Qələndər kişi onnan əlli neçənci ilə kimi yatdı. And olsun Allaha mən gözümnən görmüşəm. Qaçer geder. Abbasın da meyidin camaat töküler aparer.

Telli Əsəd bir müddət yaşeer. Lap qojaler. Bir gün gejə geder yatağa, görör yaman xəstələner. Çovanın adı da Həzrət Quludu. Deyir, ay Həzrət Qulu, dərdin alem, a bala, mənim başıma bu boyda mükafat qoyuflar. Mən də ölörəm, xəstələnmişəm. Gəl boğazıma kəndiri sal, məni boğ. Deyəndə Həzrət Qulu ağlıyır. Deyir, ay qağa, sən nə danışersan. Deyir, ay bala, uşaxlarına gənə bir

şey alarsan dana. Get polisə denən tutmuşam, öldürmüşəm. Deyir, a kişi, sən nə danışersan, nağayrırsan deyəndə, deyir, vallah, səndən ötəri deyirəm, uşağınnan ötəri deyirəm. Mən ölörəm onsuz da. Kişi ağlıyer obşum. Sulu xəngəl bişirellər, qabağına qoyullar, yiyə bilmir. Bir də kişi cannan olor. Day başdarı qarışer, meyit soyuyannan sora kişinin boğazına qatma salellar. Ekspertiza təyin eləmişdi ki, o ölənnən sora olubdu. Harey düşör, deyirlər ki, belə-belə, Telli Əsədi tutmuşuğ. Deyir, hancar tutufsuz? Deyir, hancar olur, tutduğ boğduğ. Ekspert təyin eleer ki, bu ölənnən sora olufdu. Kişiyi gətirerlər bax bizim çaxır zavodunun yanında onda milis ordaydı. Qaçaxların dalınnan düşən general varımış. Bu urus generalı deyir ki, bunun paltarını geydirin, şəklini çəhdirəy ki, belə bir adamı tutmuşux biz. Bunun paltarını geydirellər, silahını əlinə aler belə, divara söyküyöllər. Bütün polisdər, camahat yığıler ki, Telli Əsədi tutoflar, görəy nətəri adamdı. Pütün camahat akrujeniya alıf, birdən kişi, deyir, börü üstə yıxıler. Milisələr qaçer, hamısı qaçer. Təzdən qayıdellar. Deyillər, öyüz yıxılsın, bu meyitdi. Guya ki dirilər birdən.

## 69.

Tatlı Bayram sovet hökümətində milis şöbə rəisi olub. Bizim kəndimizdə Qələndər kişi olubdu. O da milis sistemində işdiyif. Bir günnəri milisyədə yığıncax olur, tapşırıx verillər ki, Telli Əsədi nə olur olsun, aradan götürmək lazımdı. Telli Əsəd Qələndər kişiyə ismarıc göndərib ki, mənim dalımca adam gətirmə. Milis idarəsində bu söhbət olannan sora milis işçilərinnən heş biri getmək isdəmir. Çəkinirlər ki, Telli Əsədi tuta bilmərik. Kürqırağı kəndlərindən Abbas kişi olub, o deyib mən gedərəm. Bə kimnən gedərəm? Deyir, mən Qələndərnən gedəjəm, Qələndər onu tanıyır.

Nəysə, bular gedillər Kürün qırağına. Kürün o üzünə keçellər. Qələndər deyir ki, Abbas, qarşına kim çıxsa vurginən. Deyilməyə görə, borumnan Kürün o üzünə keçellər. Şavadın meşəsi o vaxdı çox qalınnıx oluf. Telli Əsəd də əyninə bir şinel geyinifmiş, qundağını kəsif, şinelinin altında həmişə onaçılan saxlıyırmış. Sail sifətində meşədən çıxdı. Qələndər aralıda durubmuş, Abbas kişi bununla qarşılaşır. Abbas bunu tanımır. Abbas deyir

ki, nəəzersən burada? Bu erməni ləhcəsində deyir, ara, mən donquzumu gəzerəm. Qələndər ha çalışır ki, buna işarə versin ki, vurginnən. Telli Əsəd onaçılanı çıxardıb Abbası vurur. Qələndər qaçanda deyir, a Qələndər, səni elə eliyəjəm sən nə ölmüyəjəhsən, nə də dirilmiyəjəhsən. Böyrünnən vurub böyrəyinin birini salır. Onnan da Qələndər ölənə kimi tay böyrək yaşadı.

Əksərən Ceyran çöldə yataxlarda olurdu. Yatağa gələrmiş, orda çobannar buna hörmət eliyərmiş, paltarını dəyişərmiş, çörəkzad yeyif gedərmiş. Son vaxtlar xəsdələnir, gəler patavalıların yatağına. Su qoyuf bunu çimizdirellər. Deyilməyə görə, öz əcəliynən ölüf. Deyif ki, a bala, mən öləjəm, mənim meyidimi vurarsız, deyərsiz ki, biz öldürmüşük, mükafatı siz alarsız. Telli Əsəd rəhmətə gedənnən sora onun meyidinə güllə vuruflar, onu polis idarəsinə gətirif təhvil verriflər. Burda onu divara söyküyüf şəklini çəkmək isdiyiflər. Meyid boşalmış oluf, fotoqraf bunun şəklini çəkmək isdiyəndə yıxılıf. And içillər ki, bir nəfər qalmıyıf orda, hamısı qorxuf qaçıf.

## 70.

Kürün qırağı vaxtilə qalın meşə idi, Şamxor GES tikiləndə Kürün qabağı kəsildi, onda oranın ağacını qırdılar. Orda yaşıyırdı. Telli Əsəd öz kəndinin ispalkomuna da, kalxoz sədrinə də ismarıc eliyifmiş ki, siz mənim üsdümə adam gətirmiyin. Kəndin ispalkomu Qənbər kişi olub. Bunu çağırıb sıxışdırırlar ki, sənin kəndçindi, şərait yarat bunu tutax. Bir neçə milisonernən bular geder. Telli Əsədin də yaxın adamı varmış, buna deyillər ki, üsdünə atriyad gələjəh. Bu mağaradan çıxıb qırağa. Bizim bir kəndçi milisoner də o hadisənin içində oluf, o danışırdı. Deyirdi, isdi vaxdı, sakqal sinəyə düşüf qalın paltar geyinif, kürkün üsdünnən də tokqa çəkif. Qənbər çəhlimi bilirdi. Deyir, bu çəhlimnən getsək, Kürün yamacında onu tapa bilərik. Bu mament bu arxadan gəler. Bir də baxanda göröllər ki, bir sakqallı kişi gəler. Deyillər, sən kimsən, nəəzersən? Deyir, a dərdin alem, donquzuna gəzerəm. Qəmbər Abbasa him eliyir ki, Telli Əsəd budur. Bu da Qəmbərə ismarıc eliyifmiş ki, Qənbər, sən mənim üsdümə atriyad gətirsən, səni öldürmüyəjəm. Elə eliyəjəm sən ilənəjəhsən.

Telli Əsəd görör ki, buna him elədi. Bilir ki, bunu vurajaxlar. Tez kürkünün altınnan onaçılanı çıxardır Abbası vurur, sonra da Qənbəri vurur. Bozalqannılar danışırdı ki, Qənbəri elə vurmuşdu, böyrəyi parçalanmışdı. Səkkiz ay böyrü üsdündə qaldı, ilәndi, əzab çəkdi. Bizim kəndçi deyir, yanımda Abbası vurannan sora mən ərizə verdim milisonerlikdən çıxdım.

Telli Əsəd öz əjəliynən ölüf. Onu qızdırma tutuf, qoyun yaşıyan yatağın birində ojax qalıyır. Ojağın qırağında da ölür. Onun meyidini gətirillər milisyənin həyətinə. Dalını divara söyküyüb şəklini çəkmək isdiyirlər. Birdən meyid böyrü üsdə yıxılır, yanındakı milisonerlər qorxularından qaçırlar, elə bilirlər dirilib buları qırajax.

## 71-79. QAÇAQ KƏRƏM

Qaçax Kərəmin dədəsi Zaloğlu İsgəndəri İsrafil ağa öldürör. Bu Kərəm çölə tüşör, İsrafil ağaya güjü çatmermış. Deyir, indi gedif İsrafil ağayı öldürəjəm (Bu saat Kürün qırağında öyü duror İsrafil ağanın). Geder tualetin dalına girer. Deyir, indicə İsrafil ağa çıxajax. Çıxan kimi, onu vurojam. Eşiyə çıxanda (Allahtaala helmi İsrəfil ağanın başına yerləşdirir) deyir: "Can-can, a Kərəm, bu qar onamı yağer, Allah?" Kərəm tüfəngi aşağı eliyir, öldürmör, Türkiyəyə adder. Gedir bir öydə qonağ olur. Burda camaat var, şenniy var, amma bu öy yəəsinin heç eyni açılmer. Deyir, əyə, ay qardaş, heç sənin eynin açılmer. Deyir, mənim dərdim deyiləsi dərd döyül. Deyir, nədi? Deyir, burda bir Zalı xan var. Toyu olan qız birinci günü gərəy Zalı xannan yata.

Qız öyünə gedellər. Camaat yığılıf. Kərəm deyir, ay Zalı xan, burda bir ədət eşitmişəm. O ədətə sən toba denən. Birinci, Allahına hörmət elə. İkinci, Allahın şahdı, şaha hörmət elə. Üçüncü, bu camaata hörmət elə. Dördüncü, toyu olan bu kişiyə hörmət elə. Beşinci, mən Azərbaycannan addıyıf gəlmişəm. Qonağam, mana hörmət elə.

– Səsini, – deyir, – batır, elə şey ola bilməz.

Deyəndə, Zalı xanı vuror, aşırer. Zalı xan yıxıler. Bunu şah yanına çağırer. Deyir, ə, sən nə ürəhnən vurdun onu, bizim sözü-

müzü eşitmerdi? Deyir, belə-belə, mənim tüşmanım var, İsrafil Ağanın dərdinnən keçmişəm bəri. Şah bunu qapıçı qoyur. Görör, bir qadın gəldi. Dedi, mənim şahnan işim var. Kərəm girer şahın yanına, Deyir, bir qadın gəlib, sənnən görüşmək isteer. Deyir, burax gəlsin. Görör qadın qalxdı, sol əyağını yox, sağ əyağını atdı. Şık, qadını yıxer.

– Ə, niyə bu qadını vurdun?

Dedi:

– Qadın vurmamışam, kişi vurmuşam.

Sən demə, qadın paltarı geyinif şahı öldürməyə girermiş bu. Deyir, mən öldürdüyüm kişidi. Baxanda göröllər ki, bu kişidi, bunu öldüröjeymiş. Vəzir-vəkalət düz İsrafil Ağanın yanına geder. Deyir, ay İsrəfil ağa, Kərəm sənin əyağınnan qaçıf, eləmi? Deyir, hə! Deyir, on Kərəm olar, mənim birinə gücüm çatası döyül. Kərəmin anasını çağırellar. Deyir, ağız, Kərəm kimi bir oğul doğa bilərsənmi? Deyir, Zaloğlu İsgəndər kimi ərim olsa, Kərəm kimi oğul doğaram. Kərəmi vəzir götürör özünə.

**72.**

Qazaxlı Qaçax Kərəm qaçaxlığ eliyəndə... Qaraqoyunnu dərəsinnən bəri bir yer var, oroya Darrıx deyillər. Dilicannan, Qaraqoyunnu dərəsinnən gələn su orda birrəşir. Oroya Suqarışan da deyillər, Darrıx da deyillər. Kərəm atışmadan çıxıf, gediv ora. Deməh, sabahısı bazardı, burda əyləşif. Deyif, ay uşaxlar, burda camaata qarışax, bizi buralarda kim tanıyır. Camaata qarışax, həm də görəy yağlı adamlardan-zaddan əlimizə keçərmi. Deyir, burda bir bazar açajam, adı da Kərəmbazarı olajax. Burda belə iravayət olanda bular əyləşillər. Xülasə, savah bazar başdıyır. Kərəmbazarı açılır Suqarışanda. Kimi bir inəh gətirir, kimi bir at gətirir, kimi toğlu gətirir. Bir nəfər kasıf adam da bir inəyi var, bunu satmağa aparıv oroya. Bazarda satır, inəyin pulun da civinə qoyur. Bu çıxıb gəlir, indi Çəmbərəh tərəfə gedəjəh. Adamlar da hamısı eşidib, bilillər ki, ayə, Kərəm bu bazardadı. Kərəmbazarı qoyublar buranın adını. – "Ayə, hansı Kərəmdi?" Deyir ki, Qaçax Kərəm, Qazaxlı Qaçax Kərəmin səsi yayılıf dünyaya: Kəsəmənli Molla Zal oğlu İsgəndərin oğlu Qaçaq Kərəm. Bir nəfər boz yo-

lux da tərpənir gedir meşənin içində bu adamın üstün kəsir, tüfəngi çıxardır, deyir:

– Ayə, kopooğlu, inəyin pulunu burya qoy.

– Ə, – deyir, – kasıv adamam, a kişi, vallah, varım-yoxum budu, uşaxlarım çılpaxdı.

– Ə, – deyir, – bu saat vurram səni.

Tüfəngini götürür. Silahın üzü bozdu deyəllər. Çıxardır pulu oroya qoyur, deyir:

– Ə, bəs sən kimsən?

Deyir:

– Maa Qaçax Kərəm deyəllər.

Təsadüfən bu mametdə Kərəmgil də atdanıf o tərəfə gedillər. Görüllər ki, bir adam ağlıya-ağlıya bəri gəlir.

– A kişi, noluf?

– A başına dönüm, öyümü yıxdılar. İnəyimi satmışdım, o Qaçax Kərəm deyillər, nə deyillər, yolumu kəsdi, pulu əlimnən aldı.

– Ə, nejoldu?

Deyir:

– Bu tərəfə getdi.

Tərpənir gedir, buna çatır, bunu atın qavağına qatır, vura-vura gətirir. Kişiyə deyir, burda dur ha. Bu yoldaşdar da kişiyi saxlıyır. Gətirir deyir:

– A kişi, buydumu?

Deyir:

– Hə.

Deyir:

– Ə, ver xalxın pulunu.

Çıxardır verir də, belinnən də xançalı siyirif kişinin qulağını kəsir. Deyir:

– Qaçax Kərəm mənəm, indi sən oldun Kərə Kərəm.

**73.**

Vaxt elə vaxt olur ku, Qaçax Kərəmdən Nikalay hökümətinə xəbər gedir ki, belə bir qaçax dəstəsi var, hökümətə tabe olmur, nə də tutammırıx. Ordan qərar verir sərdara, yanı başçıya. Deyir ki, Qazaxlı Qaçax Kərəmin dəstəsini zərərsizdəşdirin. Vaxt o

vaxt olur ki, Çayqarışan yerdə bazar açılan vaxdı Kərəm öz dəstəsinnən gəlir, indi harayasa gedəjəhlər. Burda bazarda da iştirak eliyillər. Camaat dağılannan sora Kərəmin yoldaşdarı – İsmayıl, İsbəndiyar, Ömər bura yığışıflar. Deyillər, bir az dincələk, çörəh yiyəh, sora duruf gedərih. Adam az olur. Bu məqamda görüllər ki, Dilican tərəfdən bir fayton gəldi, gürcü faytonu, içində bir gürcü generalıdı, arvadı da yanında, bir də faytonçudu. Kərəm deyir ki, bunu saxladın, görək, bu kimdi, nəçidi? Faytonnan düşürdüllər. Deyir ki, mən Gürcüstannanam, gürcüyəm, özüm də generalam. Kərəm deyir kin, ə, bu hökümət adamıdı, qoy onu bir sıxışdırax.

– Hardan gəlib, hara edirsən?

Deyir ki, İrəvannan gəlirəm, varıv Tiflisə edirəm. Arvad kişiyə öz dillərində deyir ki, bular Kərəmgildi, azərbaycannıdılar. Deyillər ki (qadın olan yerdə it hürmür), azərbaycannılar qadına pis baxmazdar. Yaylığını açır bunun əyağının altına tulluyur ki, mənim bu yaylığıma bağışdıyın. Mənim ərim generaldı, indi istefaya çıxmış adamdı, bunun heş bir ziyanı olmaz sizə. Deyir:

– Bə haannan gəlib, haana edirsiz?

Deyir:

– Belə-belə, mən Tiflisə edirəm. Mana dəymiyin, vaxt olar siz gəlsəniz, sizə hörmətim dəyər. Mən sizin haqqınızda, Kərəm haqqında eşitmişəm. Adresimi də sana verim getginən, – deyəndə Kərəm deyir, yaxşı, qadına əl qaldırmağ olmaz, kişinin də günahı nədi, istefaya çıxmış adamdı. Belə məslahatdaşıllar, Kərəm deyir ki, ancax sana bir məytuf yazajam, apar Çafçavadzeyə ver.

Ay general, eşit sana ərzim var,
Gedər olsan Çafçavaza de, gəlsin.
Həm bazar aşmışam, həm də ki meydan,
Yeməh, işməy, söhbət-saza de gəlsin.

Çəkif qoşununu gəlsin bu yana,
Vuruşajam onnan mərdi-mərdana.
Kömək istiyir, yazıb türkə, İrana,
Nikalay da üzbəüzə de gəlsin.

Çafçavaz görübdü Kərəm dağını,
Qırıf tükətmişəm solu-sağını.
Dolasın başına kəfən ağını,
Öz qəbrini qaza-qaza de gəlsin.

Çafçavadze o vaxtı qoşun alayının başçısı olufdu. Ona yazıfdı ki, dalımnan bir-iki dəfə gəlibsən, sənin qoşunu məhv eliyib aradan çıxmışam. İndi də gəlməy istiyirsə, de gəlsin. Arvad məytuvu alıf deyir ki, bu da verməsə, mən özüm aparıv ora çatdırajam.

Bular da çıxır gedir. Vaxt olur ki, Kərəm hərrənir gedir, bir ildən, iki ildən sora həmən gürcünün öyün adresnən tapıllar. Oları çağırır öyündə qonağ eliyir. Deyir, mən azərbaycanlıların bu mərdliyinə heyranam. Nə qədər də olara güllə verir o vaxtı.

Bu burda qalmaxda olsun, İrəvannan bu tərəfdə Araz qırağında bir kənt var, Kərəm gedir ora. İndi bular İrəvannan dönüb hər halda İrana keşməy istiyillər. Beş nəfərmi, altı nəfərmi qaçax oluf atdı, silahlı. Kərəm eşidibbiş ki, bu kəntdə atası Molla Zal oğlu İsgəndərin Seyid Əlixan addı bir dostu var. On il bunnan qabax gördüyüdü ha Seyidi. Kərəm də indi böyüyüf. Qərəz, bu kişini soruşub evini tapır. Kişi çıxır qavağa.

– Salamməlöyk.

– Əlöykətsalam.

– Ay əmi, Allah qonağı istiyirsənmi?

Deyir:

– Oğul, Allaha da qurvan olum, qonağına da, kimsiniz? Xoş gəlifsiniz, düşün. Atdarı bağlıyıllar, gedillər içəri, oturullar, söhbət eliyillər.

– Ay oğul, hardansınız?

Deyir ki, Qazax mahalınnan.

– Harasınnansınız?

Deyir ki, Qırax Kəsəmənnən.

– Ay bala, indi sizin oralı olduğunuzu biləjəm. Orda bir adam desəm, tanıyarsınızmı?

Deyillər ki, kimdi? Deyir:

– Orda Molla Zal oğlu İsgəndər addı bir yaxşı kişi var idi, mənnən dostuydu. Bir-iki dəfə də yaydan yaya getmişəm, orda taxıl biçmişəm, onların öyündə qalmışam. O adam dururmu?

Deyillər ki, bax bu Kərəm onun oğludu. Qalxır Seyid bunu qucaxlıyır, üzünnən öpür:

– Ayə, sən İsgəndərin oğlusanmı?

Deyir:

– Hə.

– Oğul, eşitmişəm ki, Molla Zallarnan sizin aranızda müəddilik[30] düşüf. Kim qırılıf, kim qalıf, nətər oldu?

Deyir, ay dayı, hamısı gerçəhdi, bax belə olub, belə olub. Bə indi nə əcəb, nə xoş gəlib səfa gətirifsiniz? Deyir, əmi, bizim fikrimiz İrana keşməhdi, buruya da ona görə gəlmişəm ki, bizə köməh eliyəsiniz, biz buraları tanımırıx. Deyəndə, deyir ki, mənim gözüm üstə. Siz oturun öydə, mən gedim sərhədçilərin böyüyünnən danışım. Orda mənim yaxın dostum var, görüm sizə nətər köməh eliyə bilər. Kişi buları öydə qoyur, gedir o adamı tapır. Bunnan danışır ki, mənim qonağım var, İrana keşməh istiyir, sana da pul verəh, qızıl verəh, oları keçirt. Deyir kin, ay Seyid əmi, mən smeni dəyişdim. Burda indi ayrı adamdı. Mən gedəjəm, savah yox, bürsüyün mənim smenimdi, onda təşkil eliyərəm keçirərəm, mənim gözüm üstə. Deyir, yaxşı. Qayıdır öyə. Deyir, ay bala, belə oldu, belə oldu. Mənim dostum savah öydədi, bürsüyün tezdənnən gələjəh, gedərih keçirərəm sizi. Atalar deyif ki, çuğulun "məə" deyif keçi başı tutanı qalmasın. Deyir, çuğul nə ölüf, nə öləjəh. Onatan İrəvanda Cəfər xan addı bir xan olufdu. Buna xavar çatdırıllar ki, ayə, bədbaxt oğlu, fil qulağındamı yatıfsan? Qazaxlı Qaçax Kərəmin dəstəsi Şiraz kəndində Seyid Əlixan kişinin öyündə daldeylanıf. Olar buraları dağıdajax. Nikalay hökümləti onu axtarır, xavar ver. – "Əyə, doğrumu?" – "Doğru". Bular gejeynən başında əlli-atmış nəfər atriyad gəlillər kişinin evini qomarıllar[31]. Kişinin evini qomaranda, Seyid Əlixan kişi savah buları aparasıdı ha, eşiyə çıxır, bəri qayıdanda görür ki, evin dörd yanı

[30] Müəddilik – inciklik
[31] Qomarmaq – mühasirəyə almaq

əli tüfəhli. – “Kişi, tərpənmə. Öyündə sənin qaçax dəstəsi varmı?” Deyir, evimdə qonax var, amma qaçax olduğunu bilmirəm. – “Get gör o qazaxlı Qaçax Kərəmin dəsisə[32], çıx bizə deynən”. Çıxardır seyidə bir iyirmi beş manat pul verir. Kişi pul da əlində ağlıya-ağlıya içəri girir.

Atalar deyif ki, qaçax quş ürəhli olar. Yanınnan quş da uçanda sıçrıyır ki, görəm məni qomardılarmı. Kərəm oyağıydı. Gördü kişi eşiyə çıxmışdı, gəlir, özü də ağlıyır. Sıçrıyır güllə kimi. – “Ə, geyinin”. Qalxıllar. – “Ay dayı, nədi, niyə ağlıyırsan?” Deyir, ay Kərəm, evimi qomarıflar. – “Ə kişi, – Kərəm deyir, – canın sağ olsun. Mən də deyirəm görən nolub. – “Ayə, – deyir, – sizi axtarıllar. Bu iyirmi beşdiyə bax”. – “Kimdi?” Deyir, İrəvannı Cəfər xan başının dəstəsinnən evi qomarıf, bu pulu da mana verif ki, o Kərəmsə, gəl bizə de, iyirmi beş də verəjəm sana. Deyir, get denən ki, Kərəmdi, Kərəmin dəstəsidi. – “Ayə, camaat mana deyəjəh ki, Seyid Əlixan qonağını satıfdı, sən nə danışırsan?” – “A kişi, – deyir, – yeri”. Bu, eşiyə çıxanda yoldaşı İsmayıl (uje hazırdılar, geyiniflər) deyir kin, ay Kərəm, olar çöldədi, biz içəridə daldeylanırıx. Qoy bir-ikisin gülləliyim, qalanı varıv gedəjəh. Deyir, yox, Seyidin qapısına qan salmıyax, onun cəddi bizi qurtarar. Seyid gedir, deyir ki, xan sağ olsun, deyillər qazaxlı Qaçax Kərəmin dəstəsiyik. Deyir ki, ala, bu iyirmi beşi də, yeri denən çıxsınnar bizə təslim olsunnar, yoxsa qırajeyih, dağıdajeyih öyünüzü. Gəlir deyir, ay Kərəm, belə dedi. Deyir, ə, gəlin. Atdarınızı çəkin. Atdarı çəkillər, uje bular tətih əlində dörd yanı kəsiv axı. Elan vurulufdu, filan meydanda qazaxlı Qaçax Kərəmin dəstəsi Niqalay hökümətinin göstərişinnən edam edilillər. Ya ağaşdan asajeyih, ya da gülləliyəjeyih.

Qərəz, meydana çəkillər buları. Tribuna qurulur, Cəfər xan, o üzündə, bu üzündə əsabaları əyləşir. Kərəmgilləri gətirillər. Yolda buları aparanda Kərəm bir söz deyir. Deyir, a xan, iyid basdığını kəsməz. Biz tüfəngi də özümüz verdih, atı da özümüz verdih. Bizi atın qavağında piyada, qolu bağlı aparırsınız. Kişisən, adamsan qolumuzu bağlamaynən. Axı biz özümüz təslim

---

[32] Dəsi – dəstəsi

olmuşux sana. Deyir, yox, qaçağa etibar yoxdu, birdən qaçarsan. Deyir, öyün yıxılsın, qaçsam əyağımnan qaçajam, əlimnən ha qaçmıyajam. Əlimi niyə bağlıyırsan? Aparıllar, cərgiyə buları düzüllər, dar ağacları bir yanda, tüfənglilər bir yanda. Camaat da bulud kimi yığışıf ki, qazaxlı Qaçax Kərəmin dəstəsini tutuflar. Kərəmin adını eşidiflər. Xan gənəşir ki, hardan başdıyax? Yoldaşdarınnanmı, yoxsa birinci Kərəmnənmi. Biri deyir ki, xan sağ olsun, deyillər, durnanın gərəh qavaxca qavaxda gedənini vurasan. Kərəmi vurax, o qalanı elə vurulmuş kimidi dana. Biri belə deyəndə o biri deyir, yox. Deyillər ki, Kərəm yoldaşlarını özünnən çox istiyir. Qavaxca onun gözünün qavağında yoldaşdarını güllələyəh, elə diri-diri özünün bağrı yarılajax. Kərəmi qavağa çəkillər. Kərəmi qavağa çəkəndə deyir ki, son sözün. Deyir ki, nə hakda? Deyir ki, sizi güllələyəjeyih. Deyir, niyə, kimi güllələyirsiniz? Deyir ki, Qaçax Kərəmin dəstəsini. Gülür, deyir, xan olmağnan döyül, deyəsən, bir balaca başın çatışmır sənin. A kişi, Qaçax Kərəm uşağ idimi tüfəngi sana verif burda sana tabe ola? Deyəndə deyir ki, bəs sən kimsən?

– A kişi, mən Kərəm-zad döyüləm. Elə beləjə adım Kərəmdi, heş qaçax da döyüləm. Bizi güllələyərsiniz, Qaçax Kərəm gələr, torpağını torvaynan daşıyar. Dəlisən, nəsən? Mənim pasportuma yazılmıyıb, alnıma yazılmıyıb, kim deyir ə, mən Kərəməm, – deyəndə bular elə bil yuxudan ayılır. Deyir, pahooo, Kərəm bizi allatdı, Seyidin öyündə gizdəndi, qaldı yaqın. Ayə, bə nağayrağ, fikrin nədi? Deyir:

– Camaat içində biyavır olmamağ istiyirsənsə, mənim Kərəm olub-olmadığımı bilməh istiyirsənsə, mənim silahımı da, atımı da, beş dənə badronumu da mana ver. Ağajdan beş dənə alma asginan. Atı minəjəm, badronnarı da verəjəm tüfəngin ayağına. At cöylan eliyif hər dəfə gələndə, güllə açılanda sapı qırıf almanın biri düşəjəh. İşdi, belə eliyə bilsəm, çünki Kərəm atıcıdı, onda bil ki, mən Kərəməm. Yox, Kərəm döyüləmsə, almıyi vurammıjam, orda qalajax, onda da sən biyavır olajaxsan, özün bilginən, – deyəndə deyir kin, ə, məni dəyəsən axmağ qayırıf-

san. Mən nə qədər əfəl olmuşam ki, güllüyü də, atı da sana verirəm, özüm də burda otururam təpəmə atasan. Deyir:

– Yox, xan sağ olsun, axı görürsənmi gənə səyf eliyirsən. Atı, silahı mən özüm konullu verdim axı sana. Sən də indi mana ver, yenə qaytarıb özünə verəjəm.

Deyir:

– Gətirin verin.

Nolajax, yara sağalajağ olsa, təbib qarşı gələr. Atını çəkillər minir, tüfəngi də əlinə alır, badronnarı da qoyur, hərrənir. At hərrənif hər dəfə gələndə, güllə açılanda almanın biri düşür. Dördünü vurur. Deyir:

– Kərəmə oxşuyurammı?

Deyir:

– Tez ol, biri qalıf, vurginan, silahı təhfil ver, – deyəndə deyir:

– Xan sağ olsun, almanın biri qalıfsa, güllənin də biri qalıf axı.

– Bə nədi fikrin?

Deyir:

– Bizə Koroğlu nəvəsi deyillər. Bir qatar sinəmə şeir gəlif, onu deyim, onnan sorasına təhfil verim. İndi bunun yadına düşmür ki, axırıncı gülləni onun təpəsinə atajax da.

Sən ki, tutdun biz qaçağı,
Addı-sannı xan olarsan.
Sədan düşər Alosmana,
Dillərdə dastan olarsan.

Niyə kəsdin yollarımı,
Bilmədinmi hallarımı?
Demədimmi qollarımı
Bağlama, peşman olarsan.

Tanı Kərəm kimi mərdi,
Müxənnətdər çəhsin dərdi.
Vuruldu almanın dördü,
Beşincisi sən olarsan.

Deyəndə güllə açılır, xan aşır böyrü üstə. Aləm biri-birinə qarışır. Ayə, xanı vurdular. Camaat Kərəmgilin tərəfdarıydı.

Arıyı qatıllar, buların atdarını verillər, minillər, varıf gedillər. Allah oların hamısına rəhmət eləsin.

**74.**

Kərəm kolun içində gizdənir ki, İsrafil ağa eşiyə çıxanda bunu vursun. İsrafil ağa da içəridə xanəndeynən, dostlarınnan kef-damaxda, yiyillər, içillər, araxdan vurullar. Eşiyə hava almağa çıxır, balkona. Görür ə, nə yaman çiskinni havadı. Hündürdən deyir: "Can, can, ay Kərəm, görəsən, harda gecəliyifsən bu cür havada". Bunu Kərəm eşidir. Buna gülə ata bilərmi?

**75.**

Kərəm, düzdü, İsrafil ağadan qaçağ olub, amma olar süd qardaşı oluflar. İsrafil ağa Kərəmin anasınnan süd əmif. Kərəm kol divində yatan adam olmuyuf. Bu uşax söhbətidir[33].

Xoxan oğlu Alının qapısında toy olur. İsrafil ağa bunun dostu oluf. Bir ucu Bakı, bir ucu Tiflisdə elə bir şəxsiyyət yoxdu ki, Topal oğlu Alını tanımasın. Elə bir insan olmaz ki, onun qapısında düşərgə eləməsin. İsrafil ağa gəler Xoxan oğlu Alının qapısına toya. Özü də payızın son ayı olur, yer də qar olur. Onda Kərəm deyif ki, bəs mən gejikdim, İsrafil çıxan kimi mən onu vurajam. Uçux damın kalafası olor. Bu burda duror, gözdöör ki, havaxtsa İsrafil ağa çıxar. Bir vaxtdan sora İsrafil ağa çıxer su başına getməyə. Kərəm baxer görör ki, İsrafil ağa əler. İsrafil ağa qaşda duranda, belə baxer, görör ki, yer-göy hamısı qardı. Deyir: "Can, can, a Kərəm, görörsən, beş dəyqədi bax bu otaxdan çıxmışam, maa təsir eliyir soyux, bə sən bu çöllərdə nağayrersan?" Onda vurmor, çıxer geder.

**76.**

Qaçaq Kərəmnən İsmayıl yoldaş olur, ikisi də qaçax oluf. Bu, İsmayılı axtarır, İsmayıl da bunu. Axırda bular tapışellar. İsmayıl Kərəmnən yeddi yaş kiçiy olur. Bular yoldaş olanda öpüşöllər, əhdi-peyman eliyellər, əl vurollar: "Biz ölənəcən bir-birimizə sadiq qardaş kimi yaşıyajeyıx". Bular bunnan yoldaş olollar, qırx

[33] Söyləyici bu fikri əvvəlki mətndə söylənənlərlə əlaqədar deyir.

gün hərrənellər, hər kəs bir-birini yoxleer kim nətəərdi, nejədi. Günnərin bir günü İsmayıl deyir ki, ay Lələ (Lələ deyirdi Kərəmə), saa bir kalam açmaq istiyirəm icazə versən. Deyir ki, buyur, nədi? Deyir, anamı yuxuda örmüşəm, maa icazə ver iki günnüyünə, mən gedim anamı görüm, hara deyirsən, gələm səni orda tapım. İsmayıla icazə verir. Bunun da bir göy xallı ürgəsi oluf altında, yeriyən. Bu ata həmlə eliyir, yolnan, kolnan. Olar yolnan gedə bilməz, çünki Nikalay padşahının düşmanıydı. Düz geder İncə dərəsinə, dədəsinin evinə. Geder görör kü, anası sağdı. Birjə gejə qaler. Ama Kərəm buna tapşırer ki, ay İsmayıl, sən məni bilersənmi gəlib harda tapajaxsan? Yol-irizi deyim ki, gələndə oraya gəl. Deyəndə deyir, hara? Deyir, indi mən Kürü yarıb keçəjəm İsrafil ağanın yatağına. Orda çovannarnan gejə qalajam, savah dan ulduzu doğanda gələjəm Qazan gölünün üstündə atın yəhərini alıf, orda uzanıf yatajam. Sənin mənnən görüşün orda olajax.

Bu, Kürü yarer, gəler yatağın ot-alağına çatanda baxer görer ki, İsrafil ağanın atı Sarı at örühdədi. Onda deyir, həə, qardaşım day burdadı, oraya getmək mənə düşməz. Qayıder gəler dediyi yerə, hası ki, Qazan gölü var, orıya gəler. Orda atın yəhərrərinin tərriyini altına saler, yapıncısına bürünör, başını qoyur yater. Gejəni yater. Ordan da İsmayıl gejənin yarısı atı minir, harda kı, Kərəmnən görüşəjəh, ora gəler. Kərəm yatan vaxt dan ulduzu doğur. Doğanda Sarı at bunun atının iysini aler. Bu da piçənəyin ayağında atının irəşməsini vuruf, at otduyur. Bu atın iysini alanda Sarı at bərk kişniyir. Kişniyəndə çobana deyir ki, ə, gör o at nəyə kişniyir. O, at iysi alıf. O olmasa, Sarı at dünyasında kişnəməz. Bu çıxır girir. Deyir, ətrafda heş nə görünmür. Çünki otarağın ayağıdı, biçənəhdi. İkinci dəfə kişniyir, üçüncü dəfədə özü duror, qılıncı belinə bağlıyır. Deyir, Sarı at boşuna kişnəməz. Yavaş-yavaş biçənəyin qırağınnan geder, görör ki, böyük qaraltı var. Cəhd eliyir, baxanda görür kü, atdı. Yaxınnaşanda baxır ki, Kərəmin atıdı. Baxır görör kü, on addım kənarda yəhəri başının altına qoyuf, atın tərriyini altına salıf, yapıncıya bürünüf yater. Gəler belə baxer, baxer, təəccübnən baxer. Deyir, bunun həyatına bax, bir bunun yaşayışına bax, gör Kərəm kimi oğul harda yater, harda duror.

Qalx ayağa başı beşdi
Aç gözünü yatan Kərəm.
Yoxsa ürəh gəlif coşa,
Düşman üstə çatan Kərəm.

Gəzirsən qürbət elləri,
Dolanıf çərxi-fələyi.
.......................................
Tərki-vətən olan Kərəm,

Heç qorxmayır, ürək şirdi,
Özü yalqız, düşmən birdi.
Aç gözünü, İsrafildi,
Bax yaxannan tutan, Kərəm.

Sinəsinnən çəker, bunu yəhərdən qaldırer. Kərəm gözünü açanda baxer görör ki, bu İsrafildi. Deyir, ə bədbaxt oğlu, sənin mənim kimi düşmanın var. Burda niyə yatersan? Gələr bir çor-çoban çomağnan başına vurar öldürər, savax deyəjəhlər ki, bunu İsrafil öldürüb. Buraxer, buna heş nə demer. Bunu buraxanan sora genə başını yəhərin yastığına qoyur, uzaner. İsrafil ağa qayıder. Orda çobana tapşırer ki, bir quzu kəs, onu yaxşı soutma elə, bir sac çörəh qayır keçinin südünnən, bir bağlama elə, Kərəm filan yerdə yater, apar ona ver. Buların hamısını eliyir. Bir də Kərəm baxır görör kü, çoban gəler, çiynində də bir həyvə. O saat başa düşör kü, bu boşuna əlmer. İsrafil ağa buna nəsə deyif. – O Kəsəmənnər də biri-birinnən böyüh olanda həməşə lələ deyirdilər.

– Ay lələ, sabahın xeyir.

– Ayə, sabahın xeyir, a Məhəmməd. Nə yaxşı əlifsən?

Deyir:

– Vallah, saa pay gətirmişəm.

Deyir:

– Nə paydı?

Deyir ki, bir quzudu, soutma salmışam, bir də sac fətiridi, – deyəndə deyir:

– Özünmü gətirmisən, ya İsrafil ağamı göndərif? – deyəndə deyir:

– A bədbaxt oğlu, mən kiməm, İsrafil ağa göndərif.

Deyir:
– Qardaş çörəyini yeyə bilərəm.
Bu həyvəni də bunun yanında qoyur, bu çıxer geder. Oturuf belə fikirrəşer, baxer sağa, sola. Bu da onu görəndə elə şey eləməməlidi axı. Bular belə düşmandı. Bir vaxt görör kü, yolun toz-dumanı bir-birinə qarışıb. Deyir, bu İsmeyildi gələn. Gün artıq qalxıb. Yaxınnanşanda baxer:
– İsmeyil, sabahın xeyir.
Deyir:
– Ay lələ, yaman sifətin, forman dəyişif. Noluf sana? Nəsə sana toxunuf.
Amma görür kü, bir həyvə var, xam həyvədi, amma içində nə var bilmir. Bu nədi? Deyəndə deyir:
– Ay İsmeyil, atdan tüş, atın yəhərini al, tərini sil, atı da örüşə bağla.
Amma İsrafil ağa Kərəmin yanına gələndə, Kərəmin atının rəşməsini çıxardır, gətirer Kərəmin əyağının altına salır. İndi İsrəfilin gəlməyini Kərəm İsmeyilə deyir.

Baş söyküyüf şirin-şirin yatarkən,
İsrəfil yanıma çıxdı, vurmadı.
Yuxu görüf mətləbimə çatarkən,
Canımı yandırdı, yaxdı, vurmadı.

– Ayə, kim vurmadı? İsrafil!

Atı açıf özü gətdi oxannan.
Əl çatmadı tər qılınca tuxannan.
Gözü baxdım yapışıbdı yaxamnan,
Məzar tək suyumu sıxdı, vurmadı.

Deyəndə, İsmeyil deyir:
– Nejoldu? Tez ol yerini de, bu saat gülləliyəjəm.
Dedi:
– Yox, ayə, sənnih iş döy.

Xudam, durma mərd iyidin qəsdinə,
Sual olmaz istədiyi dostuna.
Mən Kərəməm, düşmüşdü qəsdimə,
Yandırdı canımı, yaxdı, vurmadı.

Nəysə bu söhbət burda qalannan sora dedi:
– Ay lələ, bə nağayrajeyih?
Deyir:
– Ay İsmeyil, borclu borclunun sağlığın istiyər. Borcunu verərik. Həyveyi aç.
Həyveyi açanda baxdı gördü ki, quzu iyvəiy doğranıf, hazır soutmadı, keçinin südünnən də fətir yayılıf dümağappax. Oturdular bir qarın yeyənnən sora, durdular öz işdəriynən məşğul oldular. Orda, burda, hər yerdə gəzdilər. Bu həmeşə Dilican dərəsi uzunu gəzərmiş. Bunun qulağına çater ki, bir adam Kərəmin adınnan gələn-gedəni soruşur. Bu bunun qulağına çater. Bu da, sən demə, qaraqoyunlu dərəsinnənimiş, adı da Kərəmmiş. Bu münvalnan Ayrım camatınnan bunu örgəner ki, o adamı maa nişan verin, mən onnan Kərəm haqq-hesabını kəsəjəm. Nəsə, buların əlinnən bu Kərəmi taper. Deyir:
– Ə, sən kimsən?
Deyir:
– Həncər, mən Qaçax Kərəməm.
Deyir:
– Doğurdanmı?
Deyir:
– Hə.
Deyir:
– Sana heş nə eləmiyəjəm, sənin qulağının birini kəsəjəm, saa Qaçax Kərəm yox, Kərə Kərəm desinnər.
İsmeyilin bircə marağı burdadı ki, ay lələ, bə deyirsən ki, borcunu verərik İsrafil ağanın, o havax olajax? Deyir, səs salma. Onun köçü, deyir, buyün, savax atdan yuxarı dağa çıxajax, onda. Bu da vaxtı-vədeyi biler ki, İsrafil ağanın köçü havax çıxajax. İsrafil ağa da – düşərgələrdə haravalar olurdu, – gejələr öz yoldaşı Hava xanımnan burda yatermış. Bular geder, Darrıx körpüsü, Çayqarışan deyirik, ora böyüh yerdi, düşərgə yeridi. Deyir, burda köçü salanda deyir:
– Ay İsmeyil!
Deyir:

– Ha.
Deyir:
– İsrafil ağanın borcunu bax burda verəjeyih.
İsrafil ağa yolnan, bu da kolnan, kosnan gəler. İsrəfil ağayı salamat dağa çıxartmaq üçün gəler ki, birdən toxunan olar, savax mənnən görəllər. Nəsə, bular gəlir düşərgə eliyir. İndi İsmeyil gözdüyür ki, bu havax gedəjəh. Gedəh də bunu güllələyəh qutarsın. Gün bater, getmer. Qarannıx düşəndə deyir:
– Ay İsmeyil.
Deyir:
– Hə.
– İndi, həmən vaxdı, – deyəndə deyir:
– Nə vaxdı, ay Kərəm?
Deyir:
– İsrafil ağadan hayıf çıxmağ.
Bu tez yarağını-yasağını nizamlıyır getməyə, deyir:
– Yox, ay İsmeyil, sən getmə.
Deyir:
– Niyə?
Deyir:
– O, Hava xanımnan haravada yater. Sənin onu görməyə ixtiyarın yoxdu, o mənim yengəmdi, onu mən görə bilərəm. Sən bu daşın üsdə otur, eləjə qulağ as.
Gəler, bir darax öz patronunnan bunun yastığının altına qoyur. Bir də üş kuplet şeiri yastığının altına qoyur. Qayıdır geder İsmeyilin yanına. Deyir ki, ay lələ, nağardın? Deyir, elədiyimi eləmişəm, səsi sabah çıxajaxdı. Gejdən oyanır ağa, duror çayda yuyunur, eliyir. Hava xanım yatağı yığanda örör ayə, üş kuplet şeir var bir vərağda, bir darax da patron var. Deyəndə deyir, ağa, mən heş səndə belə şey görməmişdim. Sən yatanda başıın altda patron qoyursan?
– Aaz, nə patrondu, buruya ətir.
Gətirəndə deyir, a bədbaxt qızı, bu, qaynın Kərəmin patronudu. Qaynın beyjə qonax gəlifmiş. Deyəndə Hava xanım deyir ki, a kişi, yaxşı bu hareynan gəler ki, sən onu bu yollarda örmör-

sən? Deyir, a bədbax qızı, yaylağa çatanacan mən yolnan gedəjəm, o kolnan-kosnan, məni dağa salamat aparajax. O onnan ötrüdü. Sora başdıyır şeirə.

Baş söyküyüf kiri yatan çağını,
Gəlif bu səhrada görən Kərəmdi.
Get uğurlar olsun, yaxşı dolan,
Arxancan danışıf söylüyən, Kərəmdi.

Bir neçə kralın gəzdim elində,
Şirin söhbətin var dilində.
Yapışdı yaxamnan Qazan gölündə
Qaytarıf borcunu verən Kərəmdi.

Qoymadım İsmayılı yaxına gələ,
Namərtlik etmərəm, el mana gülə.
Nikalay qoşununa sallam vəlvələ,
Mərd meydanında mərdana duran Kərəm.

Bunnarı aparer, dağa qoyur, qayıder. Bizim kəntdə Qurban ağa oluf. Kərəm özü də bizim kəndə nişannı oluf. Harda əlinə yarağ, yasağ, gümüş düşərmişsə, gətirif Qurban ağıya verərmiş ki, bunu Zibeydiyə apar. Bir vaxtı əlinə o qədər var düşör, bunu verəndə Qurban ağa tamahını fət eləmer, bunu vermer. Kərəm eşider ki, axırıncı pay gedif Zibeydiyə çatmıyıf. Bular dava edəndə İsmeyil eşidir. Deyir, ə, bu İsrafil ağa döyül? Gedəh başını kəsəh ayna tulluyax. Bizim əlimizdə nə var. Bular dağa köçör, köçəndə bu Qurvan ağanın da varı, dövləti olur. Bular Qurban ağanın harda düşərgəsi var, orıya gedillər. Görör qoyunu, quzusu öz ətrafında otduyur. Buları yarrı-yasaxlı görəndə çobanlar qaçer. Gəler Qurvan ağanın yanına ki, ağa, iki nəfər atdı, yaraxlı-yasaxlı adamlar gəler, qoyun-quzuyu buraxdıx, qaçıf gəldik.

– Ayə, kimdi, ayə, kimdi?

Deyir:

– Vallah, nə tanıyırıx kimdi.

Qurvan ağa yapıncı çiynində ayannan bəri gələndə, İsmeyil bunu tanımır. Deyir, ayə, bu kimdi? Deyir:

– Elə həmən adamdı bu, Qurban ağadı.
Deyir:
– Nağayrajıx?
Deyir:
– Nağayrassan, on açılanı qaldır göyə, güllə at.
O kişinin meyidini dağdan gətdim. Onnan sora kənddə düşmənçilik yaranır, Kərəm İrana qaçır.
*Söyləyici bunu Dəmirçi Hüseyndən eşidib. Dediyinə görə, şair təbiətli adam olan Dəmirçi Hüseyn İsrafil ağanın, Kərəmin həmkəndlisi olub, həm də onların hər ikisini görmüş şəxsdir.*

**77.**

Elin dağa köçən vaxtdarı olur. Kərəm gejə gedir, görür kü, paltarı yuyuf səriflər kəndirin üstə... (Camış paltar yiyəndi axı). Kəndiri camışın yanınnan çəkiflər, Həvva xanımın da kalağayısı haman camışın yaxınnığındakı kəndirdədi. Camış başını uzadıf kələğayını götürür, başdıyır yiməyə. Kərəm baxır ki, kəlağayı azca qalıf. Bu da guya gəlifmiş İsrafil ağanı vurmağa. Deyir, yox, bu nətəər olajax? Savax açılajax, kim biləjəh kalağayı camışın qarnındadı. Uje səs düşəjəh, deyəjəhlər İsrafil ağanın arvadının kəlağayısın oğurruyuflar. Bunun gəlif bir uju da məni tutajax. Camışı güllıəliyir, kəlağayı bir belə çöldə qalıf. Səhər güllə səsinə hamı qalxır, gəlif görüllər ki, kəlağayı... Hamı deyir, bu kim ola, kim ola. İsrafil ağa deyir, özünüzü yormuyun, mən bildim kimdi. Gələn Kərəmdi, özü də o kələğayıya görə camışı vuruf.
Bax, o devrdə belə kişilər oluf.

**78.**

O vaxtı pristav bura ələndə, hər ağa da bunun qaroulunda dururdu. Pristava nə olsa, bunnan görüllərdi. Bir gün nööbə İsrafil ağaya düşür. Sarı atı gətirir dvora[34] salmır. Dvordan bəri pristavın düşərgə yeriymiş, atı orıya bağlıyır. At tərsdiyir də burda. Palkona çıxanda baxır görör at tərsdiyif. Ordan İsrafil ağaya de-

[34] Dvor – rusca, həyət

yif ki, o atı gülləliyin. O at kimindi gətirif orıya bağlıyıf? İsrafil ağa orda bir şillə vuruf pristava.

İsrafil ağanı öldürən Kərəmin bacısı oğludu. Öldürənnən sora İrana edif dayısının yanına. Gedif deyif ki, ay dayı, day arxeyin ol, İsrafil ağeyi öldürmüşəm. Ordan onu it kimi qovalıyıf. Mən gördüm o kişiyi, Hajı əmi idi adı. Kərəm deyif, çox səhv eliyifsən. İsrafil ağa vurulası adam döyüldü. Buyünnən sora sən mənim bajım oğlu döyülsən.

**79.**

Qaçaq Kərəmnən İsrəfil ağanın arasında bir yaş fərq var. İsrəfil ağanın anası ölüf. Qaçaq Kərəmin atası deyif ki, rast ki onun anası ölüf, ona süd verməlisən. Qaçaq Kərəmnən İsrəfil ağa süd qardaşı sayıler.

Kürün qırağında Nar çala deyilən yer var, Gürcüstan tərəfdədi. Gejeynən buraynan getdikləri yerdə Qaçax Kərəmnən İsrəfil ağayı polisdər, jandarmalar gəzermiş. Möykəm yağış buları tutor. Şimşək çaxanda Kərəm görör, palıd ağacının divində (o vaxdı saldatdarın papağının ortasında ulduz olordu) bir dənə vayenni duror, əlində də beşaçılan var. Bir də şimşək çaxanda Kərəm beşaçılannan nətər vurorsa, düz ulduzun ortasınnan. İsrəfil ağa deyir, a Kərəm, niyə vurdun bunu? Deyir, mən vurmasam, o bizi qırajeydi. Baxanda göröllər ki, bir at var burda, nəyə desən dəyər. Göydəmir atdı. Kərəm bunu qantarğalıyıf ətirəndə İsrəfil ağa deyir ki, o uşağa-muşağa yaraşmer, o mənim kimi adamlarındı. Atı mana ver. Deyir ki, ağa, bunu mən vurmuşam, bu at mana çater. Deyir, yox, elə şey yoxdu, at mənimdi. Deyir, ağa, bu gün ata göz dikən savax mənim arvadıma göz dikər. Buyünnən sənnən qutardıx. Deyir, eləmi? Deyir, elə. – "Ay uşaxlar, kim mənən gələr"? Dəli İsmayıl Kərəmnən qaler, qalanı İsrəfil ağaynan. Deyir, ay İsrəfil ağa, indiyətən nə çörək kəsmişik, neynəmişik, heş birimizin başına qaxılası döyül. Əmbə ayrılmağımız.... Kişinin atına göz dikdin, arvadına göz dikdin, fərqi yoxdu. Sənnən qutardıx. Sən sağ, mən salamat.

## 80. QAÇAQ NƏBİ

Qaçaq Nəbi igid adam oluf, həm də insaflı adam oluf. Eşidif ki, kəntdə filan kişidə bir at var, qoçağ atdı, adamı darda qoymaz. Örüşdənmi, hardanmı bir şelxor[35] at gətirir, bu kişinin qapısına gəler. Kişi də görör bu, bura adamı döy. Arvada deyir, ay arvad, bu gəlmə adamdı. Sən Allah, bir yaxşı stol düzəlt, çörək söyləmiyəni heş zad söyləməz. Bu yesin, getsin. Arvad belə də elədi. Kişi dincəlmer. Deyir, gəti iki də yumurta qoy, bəlkə nəfisi çəkdi. Arvad iki də yumurta qoydu bura. Nəbi fikir vererdi. Bu yumurtaları vurdu bir-birinə, duz tökməmiş yedi, yıxıldı yatdı. Kişi səhər tezdən durdu öz malını yoxlamağa getdi. Getdi gördü boz at yoxdu, qayıdıf gələndə gördü, qonax da yoxdu. Küçələrə düşdü qıyvat qırmağa ki, bax belə bir qonağım oldu, belə bir iş elədi. Atı da aparıf gedif. Aqil adamlar dedilər, ay kişi, o kişi çörək kəsseydi, yumurtaya duz töksöydü o atı aparmazdı. Duz-çörək kəsseydi, duz çörək o adama qənim olardı. O igid adamdı hər kimsə. Atın yerinə at verdi, sənin atını da apardı getdi, halalı olsun.

## 81. İSRAFİL AĞA

Kısmat dedim, yadıma bir əhvalat tüşdü. İsrəfil Ağa istəmer tüşmançılıx daha da dərinləşsin. Özü şenniydə az-az görünör. Tiflisdə gün düşərri düşmüşdü, nəvilim, qumarda əli gətirmişdi. O vaxtı da bəyzadələrmiz qumar oynurdular. Gejə gejədən keçəndə şenniyə qayıderdı. Elə şenniyə yaxınnaşanda, kefi köhdü, əlində bir qızıl onnuğun belə altınnan vuror, onnux belə göyə geder, əlini yana açer tutor. Baş barmağınan onnuğun altınnan vuror, göydə tutor. Birdən belə eliyəndə nətər oldusa əlinə gəlmədi. Tez sol əlinnən qantarğıyı çəhdi, at xırpadan dayandı yerində. Tüşdü, atın dırnağının altınnan onnuğu götdü. Ta gejə vaxtı kiseyi açmadı ki, orya qoysun, civinə qoydu elə. Gəldi. O vaxtı evin böyüyü, evin kişisi, çöldən gələndə evin xanımı atın qantarğasını tutuf. Heç nökərə, naivə də umud olmuyuf. Evin xanımı İsrəfil ağanın əyağın-

---

[35] Şelxor – tökülüb-itən, şikəst

nan çəhmeyi çıxardanda gördü, bir qızıl dığırrandı gəvənin üstünnən belə etdi. Götdü, dedi:

– Ağa, bu nə puldu?

İsrəfil ağa əlini belə civinə saldı, gördü, əyə, tapdığı pul burdadı. Dedi:

– A xanım, o əlindəki mənim öz doğma pulumdu. Gejənin o vədəsi, zil qarannıxda, əlimi toxundura-toxundura yerdən tafdığımsa, mənim kısmatımdı.

Həqiqətən də, Allahtaala hər bir yaratdığının kısmatını da, ruzusunu da, həməşə verif və baxdını, yığvalını da verif.

## 82. ƏŞRƏF ÇOBANOĞLU

Bozalqanlının məşhur qaçaxlarınnan biri Əşrəf Çovanoğlu oluf. Olduxca yaraşıxlı bir oğlan oluf. Maması[36] istiyib ki, qızını ona versin. Bu, qızdan imtina eliyifdi. Soradan məlum oluf ki, bunun özünün istədiyi var, özü də filankəsdi. Ayrı variant tapa bilmədiyinnən maması, deyilənə görə, qarğa yumurtası pişirib yedizdirifdi, onu havalı eliyibdi.

Əşrəfin həmişə əlində tüfəng olarmış, gözəl Səmənd atı varıymış. Ceyrançöl ərazisində quş vurmaxnan, nə bilim, dovşan vurmaxnan keçinərmiş. Gürcüstan tərəfdən həmişə çapoolçular gələrmiş bəri. Gəlib bizim ərazilərmizdən ya mal-heyvan bölühlüyüv apararmışdar, ya at apararmışdar. Bunlar bir də baxıflar ki, ay Allah, atın üstündə bir nəfər var. Bu at əldən verilməli at döyül. Deyiflər ki, atdan düş. Bu havalıdı, bəyax dedim. Bu bəlkə də oların dedihlərinin o qədər də fərqinə varmer. Deyif ki, atdan niyə düşörəm ki? Deyir, o atı biz aparajeyih. Deyir, o atı mən minmişəm. Deyillər ki, yaxşı, min! İki nəfər qavaxdan, iki nəfər daldan bunu mühasirəyə alıllar. Deyillər, bax, yana çıxan kimi səni vurajeyih. Fikirrəşiflər ki, daldeylandırax, aparax. Hardasa bir yerdə vurax, atı da götürəh gedəh.

Hesab elə ki, belə getdihləri yerdə, bu tərəf uçurumdu, sıldırımdı. Atın üstünnən tullandığınnan, tüfəng də əlində, ordakı bö-

---

[36] Maması – bibisi

yük qayalardan birini özünə səngər seçer. Olardan birini vuror, o birilərinə deyir, tərpənən kimi hamınızı qırajam. Biriniz də tərpənmiyin. Vurulan da yaralı oluf, ölmüyüfdü. Götürüb birbaşa gətirib Kalvay Əsədin yanına. Kalvay Əsəd o zaman kəndin koxasıydı. Onun yanına gətirif. Kalvay Əsəd də soruşuf, kimdilər, nədilər, nəçidilər? Deyəndə deyif ki, bəs belə-belə! Məni öldürməh, atımı da almax istiyirdilər. Soruşar ki, a bala, kimsiniz, hardan gəlifsiniz? Deyiflər, Gürcüstannan! Kalvay Əsəd deyif ki, Əşrəf, a bala, mənim Gürcüstanda dostlarım var. Olara deyərəm, buların cəzasını verəllər. Deyir, Kalvay, sana böyük hörmətim var, amma mən buların nə atını, nə silahını verən döyləm. Beləcə piyada getsinnər. Sizin dediyiniz ağsakqallar, hörmətdi adamlar kimdisə, gəlsinnər birinci növbədə sənnən üzr istəsinnər, sən mənim böyüyüm, ağsakqalımsan. Onnan sora da mənnən üzr istəsinnər. Noolsun mən cavanam. Mən neynəmişdim ki olara? O adamlar gedillər və Kalvayının tanıdığı nüfuzdu adamlarnan geri qayıdıllar. Bunnan sora buların arasında barışığ olur.

Kalvay Əsədin evi köhnə “Jiquli” satışı məntəqəsinin böyründə, kanalın alt tərəfində yerrəşir. Həmin Kalvay Əsədin evində Nikolay troykası, yəni, açistikanı yerinə yetirməli olan dövlət nümayəndələri otururdu. Orda yeddi Bozalqanlı qaçağını güllələdilər: Qaçax Qəmbəri, Mamoy kişiyi, Məhər Quliyevin atası Mustafa Quliyevi. Həmin dövrdə adı siyahıda olanlardan biri də Əşrəf Çobanoğluydu. Amma Əşrəf Çobanoğlunu tuta bilmədilər, qaçmışdı. Xeyli müddətdən sora onu tutdular, Gəncədə mühakimə elədilər və güllələdilər. Çox cəsur adamıydı o. Düzdü, yaşca cavanıydı, hardasa, iyirmi iki, iyirmi üç yaşı varıydı, amma olduxca cəsur adamıydı.

## 83-84. ƏYYAR İSRAFİL

Köhnə zamannarda boz ayın əvvəllərində, çillə çıxarılanda oyunnar oynanılarmış, tamaşalar göstərilərmiş. Bu tamaşalarda çox zaman Əyyar İsrəfil[37] deyilən adam qadın paltarı geyinib

---

[37] Əyyar İsrafil çayçı olub, baməzə, gözəl lətifə söyləyən adam olub. Toylarda çay verərdi, məzhəkə çıxarardı.

qadın rolu oynuyarmış. Günlərin bir günündə kəndin ağıryana adamlarınnan birini məcbur eliyiblər ki, həmişə sən dayanıb baxıbsan, indi də sən oyna, camaat baxsın. Heç kim onda özünü kənarda tutmurmuş. Əslinə qalsa bu qadın rolunu oynuyan danışmazmış, ancax kişi rolu oynuyan danışarmış. Danışıx nədən ibarət olarmış: "ağız, sana qurban olum, nə gözəlsən, nə qəşəhsən..." Qadın rolunu oynuyan da guya bir az nazdanarmış. Bu kişi deyib ki, mən oynuya bilmərəm, mən danışa bilmərəm. Mən neyniyim? Deyiflər, onda sən qadın rolunu oyna. – "Onda gəlin indidən məni gülləliyin, mən qadın olammaram". Deyiflər, istər-istəməz oynujaxsan, başqa yolun yoxdu. Əyyar İsrəfil qadın rolu oynuyası olub, ağıryana adam da kişi rolu oynayıb. Əyyar İsrəfil deyilənə görə, çox çilli-çopurlu bir adam olub. Başdıyıb bu yaxınnaşanda, ağız nə gözəlsən, qadan alem, başına dönüm, nəvlim nə... Bu Əyyar İsrəfil üzünü belə açıb deyif ki, sənin gözünə heç işıx gəlməsin. Mənim harama gözəl deyirsən?

**84.**

Əyyar İsrəfilnən Xəyyat Mirzə məsələsi haqqında məlumatım var. Xəyyat Mirzəyə sevgilisinə qovuşmağa imkan vermirmişdər. Daha doğrusu, elinnən inciyib Eldara köçüb gedibdi bir zamannar. Ağbaş deyilən axund olubdu onun qayınatası. Hətta Xəyyat Mirzəyə qız verməməsinin səbəbini onnan izah eliyirmiş ki, söz deyif saz çalana mən qız vermirəm. Ağbaş axund dinə çox meyilli adam olsa da, dinnən xəbəri yoxuydu. Xəyyat Mirzə ona bir çuxa tikdirib, çuxanın da üstündə şeirnən dini suallar yazıb ki, buna cavab ver, qızını istəmirəm. O da baxıb görüb ki, bu suala cavab verəsi döyül, məcbur olub qızı verib. Amma qızı verməmişdən əvvəl Əyyar İsrəfil Xəyyat Mirzənin dərzi tükanına gəlib deyif ki, saa bir şeir göndəriblər. Deyif, nə şeirdi? Deyif ki, sənin yarın kiməsə qoşulub gedib, nə bilim, belə bir məzmunda. Bu da deyif ki, ay İsrəfil, onu kim deyif? Deyəndə deyif, onu deyən sənin sevgilinin getdiyi yerdən daha murdar yerə gedəndi. Onu vejinə alma. Fikirrəşdim ki, məndən əvvəl kimsə gəlib bunu sana deyə bilər, ürəyinə toxunar. Qəti vejinə alma. Səninçün hazırrıyıflar bunu ki, səni qıcıxlandırsınlar. Sən nəsə yeni bir şe-

ir yazasan, neyniyəsən. Ürəyinə dəyə bilər ha, ürəyinə salma. Deyir, onda xayiş eliyirəm, mənim bu yazdığımı apar onu yazana ver. Əslinə qalsa, o şeiri ona zarafat xatirinə başqa birisi yazmışdı, amma Hüseyn Bozalqanlının adına çıxmışdılar. Bu da elə bilmişdi ki, doğrudan, Hüseyn Bozalqanlı yazıbdı bu şeiri. "Yarım lotuların bəhsinə düşüb" misralı şeir yazmışdı. Bu da lazım olan formada buna cavab verdi. Əyyar İsrəfil Aşıx Söyün Bozalqanlıya dedi ki, ay Söyün dayı, istiyirdin Mirziyə corab hörəsən, o sana papış tikdi. Yəni, buların marağı nəydi? O dövrdə, radio yox, televiziya yox, nə bilim mən, internet yox.... Sadəcə olarax marax nəydi, bu iki nəfər bir-birinnən deyişsinnər, yerdə qalan da oturub qulağ assın, ləzzət alsın. Bu əyyarrığın özü də elə bilginən ki, sirkdə klounnux eləməh kimi bir şeydi o zaman. Ciddi söz məclisi olanda, tutaq ki, saatdarnan uzananda, bir növ arada fasilə eləməh kimi birdən görürdün üzünü-başını unnuyub Əyyar İsrəfil düşdü ortalığa. Bir oyun çıxartdı, bir hoqqa çıxartdı. Misalçün, pencəyinin düyməsinin birini aşağı, birini yuxarı bağladı, guya yerini düz tapber. Müxtəlif cür hərəkətdərnən, müxtəlif cür atmacalarnan, ona-buna dediyi sözdərnən camaatı güldürüb, əyləndirib. Müəyyən məqam çatanda, deyirdi ki, hə, indi təzdən aşığa qulaq asırıx.

## 85. ABUZƏR OĞLU MƏHƏMMƏD

Abuzər oğlu Məhəmmədin atası İrannan gəlmədi. Məhəmməd özü qoçax, igid adam oluf. Murğuz dağınnan gələndə bunun qardaşının birini üç rus jandarması vurur. Vuranda bu da köçün qabağınnan gəlermiş, dağdan qayıdıf arana gəlermişdər. Buna deyillər, qardaşını vurdular. Deyir, harda vurdular? Deyir, filan yerdə. – "Kimlər vurdu?" – "Üş dənə rus jandarması". Hərdəmin suyu diyilən yerdə bu, dağdağanın xopuna[38] girir, görünmür. Rusdar gələndə buların vurur, üçünü də başnı kəsir. Kəsir, atın qancığasına bağlıyır. Rus yalı adlanan yerə qədər buların başını atın qancığasında aparır.

[38] Xop – koğuş

Rusdarın başını kəsdiyinə görə Tiflisdən təzədən bura qoşun gəlir. Hajallı deyilən kəndi mühasirəyə alıllar kın, Abuzər oğlun tuta, gülləliyələr. Çapıx Mehdi addı rus dilini bilən bir adam deyir kin, siz gedin Tiflisdə mütrüf kitabına baxın, görün Abuzər oğlu Məhəmməd Hajallı oğludu, yoxsa Tat oğludu? Rusdar da bura gələndə hər gün birinin inəyini kəsirmiş, birinin qoyununu kəsirmiş, camaata olmazın işgəncələr verirmişdər. Burdan təzdən atdarnan gedellər Tiflisə. Tiflisdən əmr gəlir ki, qoşun geri çəkilsin. O Hajallı oğlu döylü.

Abuzər oğlu Məhəmmədi bular tuta bilmir. Axırda munu xəyanət yoluynan öldürməh istiyirlər. Belə də olur. Bunun kirvəsi olur Məmməd Salah. Məhəmməd Hajallı kəndinə gəlif bir gejə kirvəsinin öyündə yatanda buna deyir, mən yateram, sən də eşih başına hərrən, məni gözdə. Bu, tüfəngi götürör (hökümət muna pul qoyubbuş ku, bunu öldürələr), Abuzər oğlu Məhəmmədi vurur. Bu da yerinnən nətər ajıxlı-ajıxlı durur, xançalı buna vurmaq istiyir. Vurammer, özünü itirer. Xançal dirəyə dəyir, dirəyin ortasına qədər yeriyer. O zaman Şəmşəddin mahalı Qazax uyezdinə baxırmış. Bunu haravıya qoyullar, düz aparıllar Qazağa. Qazağa aparıllar, iri adamıymış. Haravadan əyaxları çölə çıxırmış. O zaman çar generallarının da insaflısı olurmuş. Çar generalının arvadı bunu öldürən Məmməd Salahı güllələdib. Deyif ki, belə iyidi də vurallarmı? Bax, Abuzər oğlu Məhəmmədin belə qoçaxlığı olub.

## 86. DƏLİ SADIQ

Bizim bu Hajallı kəndində Dəli Sadığ oluf. Qoçaxlığına görə ona Dəli Sadıx diyifər. Qonşuluxda erməni kəndi – Çinarrı kəndi var. Bir dəfə atı minif gedibbiş. Orda Quşbaz oğlu Yeqor oluf. Gedif görüllər ki, camaat yığılıb. Bu Quşbaz oğluYeqor da çox imkannı və varrı adam olor. Bu, buların yanına geder, camaat da bunu akrujeniyaya alır. Deyir, ə, Sadıxcan, sən mənim bu başım, bizim bu kəddən bir inəy aparıflar, onu sizin kəndmi oğurruyuf aparıf? Deyir, hə, başın üçün, biz aparmışıx. Deyəndə, ermənilər tökülür bunu öldürməh istiyir. Öldürməh istiyəndə Quşbaz oğlu Yeqor deyir, dayanın, dayanın. Bular aparıf inəyi,

deyilmi? Ala bu inəyiniz. Öz naxırınnan bir inəh gətirer, verer inək yiyəsinə. Sora Sadığı öyə aparer. Bunu aparanda bu Quşbaz oğlu Yeqor deyir, ayə, mən kopoyoğlu başıma and içdim ki, sən mənim bu başım, inəyi sizmi aparıfsınız. Sən də niyə yalan dimədin? Deyir, sən kopoyoğlu başına and işdin, mən kopoyoğlu da düzün dedim. Sən başa and işmişdin axı.

İndi başın qiymətinə bax.

## 87. PƏHLƏVAN NAĞI

Məşədi Seyid oğlu Məmmədsöyünün İsgəndər addı bir oğlu oluf. İsgəndərin Nağı adında bir oğlu oluf. Nağı hündürboylu, enni kürəhli bir adam oluf. Bu mahalda pəhlivan adınnan məşhurraşıf. Toylarda güləşəndə hamıyı yıxıf. Bir gün Öysüzdü bəyləri – Nəsib bəynən, Usuf bəy Yekalların hörmətdi adamlarını Pəhlivan Nağı da içində olmax şərti ilə toya dəvət eleef. Bular da bir iribuynuzlu heyvan götürüflər, gediflər oroya, həmən toya. Toya gedəndə görüflər ki, toyda başqa yerdən gəlmiş geyimli-kejimli bir pəhlivan var. Nəsib bəy Nağıya deyif ki, a Nağı, bu pəhlivannan güləşə bilərsənmi? Deyif ki, başına dolanem, a bəy, o mənim əlimdə nəmənədi. Nağının da sən deyən elə geyimi-kejimi olmof. Əyağında çarıx, əynində də cırıx-sökük paltar.

Bəli, pəhlivannan giriflər, pəhlivanın da yasoulları var, əlində silah. Güləşməyə başdıyanda Nağı əlini uzatdığınnan pəhlivanı götürüf dizi üstə yerə çırpıf. Yerə çırpanda yasoullar isteeflər ki, Nağıyı vuralar. Bəy deyif ki, hamınızı qıraram. Onu toya mən çağırmışam. Bəy Nağının şücaətinə görə ona bir dəst paltar, bir də bir ağ at bağışdıyıf və əlinə də bir kağız verif ki, gedərsən, Tiflisdə pəhlivanbaşı var onun yanına. Mənim adımı verərsən, bu kağızı da ona verərsən. Sənə pəhlivannığın qayda-qanunnarını örgədər.

Nağı gedif Tiflis şəhərinə, həmən o pəhlivanın yanına. Bu kağızı təqdim eleef ona. Deyif ki, bunu Nəsib bəy verif. Pəhlivanbaşının dəmirdən bir stolu varımış, bu ustolu pəhlivannarın ikisi götürərmiş. Nağının güjünü sınamağ üçün deyir, get, orda dəmir stol var, onu buraya gətir. Nağı geder, qoltuğuna aler, gətirer pəhlivanbaşının yanına. Pəhlivanbaşı görör ki, bu çox qüv-

vətdi pəhlivandı. Deyir ki, Nəsib bəy kağız verməsəydi, səni öldürtdürərdim. Mən səni örgədəmmərəm, çıx get. Onnan sora kəndə qayıdıf gəlif. Yekallar kəndində də vəfat eliyif. Aldədə torpağında da dəfn olunuf.

## 88. MƏCİDİ MƏCİD VURACAQ

Məcid Gədəbəy rayonunun Yaquflu dərəsində dünyaya göz açıf. Bir nəfər var-döylət saxlıyan adam çöldə mal otaran vaxdı bələkdə balaca bir uşaq tapıf. Kimsə doğuf, atıf çölə. Açıf baxıf, görüf bu oğlan uşağıdı. Həmin çoban bunu çuxasının ətəyinə büküf gətirif evinə. Arvadına deyif, bax, bunun gələcəyi var. Həmin çobanın ailəsi bu uşağa öz uşağı kimi baxıf. Uşax böyüyüf, adını da qoyuflar Məcid. Bunun sünnət toyunu – kiçik toyunu eliyiflər, sora böyük toyunu eliyiflər bu kişinin evladı kimi. Bolşeviklər Azərbaycana gələn vaxdı Məcid qaçıf çöllərə düşüf. Uzun müddət On birinci Qızıl Ordunun başında gələn əsgərlərə qarşı döyüşüf. Bunun öhdəsinnən gələ bilmiyiflər. Tovuz, Gədəbəy – ətraf rayonların hamısınnan o vaxdı atriyat dəsi ayırıflar Məcidi vurmağ uçun. Tovuz rayonunun Güyəndik kəndinnən iki qardaş Sovet hökümətinə qarşı döyüşmək üçün gedif Məcidin dəstəsinə qarışıf. Birinin adı Paşa oluf, birinin adı Əhməd oluf. Bular Yaquflu dərəsinin camaatının o qədər hörmətini qazanıflar. Göyçək oğlanlar imiş, özü də hər ikisi də şair oluf. Məcid baxıf görüf kü, heç ona salam verən yoxdu. Gələn bularnan əltəmən[39] olur, buları öpür, buların söhbətini eşider. Adamlar hazırrıyıf, zopoynan həmin iki qardaşı döydürüf, öldürtdürüf.

Məcid hündür bir qayanın mağarasında yaşeerdi. Mağaraya balaca bir keçi gedəsi çığır var idi. Cığırın mağaraya çataçatda çökək yeri var idi, o çökəkdə bir dənə göyrüc ağacı var idi. Mağaranın lap dərinniklərinnən baxanda gələn görünürdü, Məcid də içərdən onu vurordu. Rus qoşunları bura hücuma keçəndə rusdar gözdööflər, görüflər ki, beşaçılanın səsi kəsildi. Yəni ki, beşaçılanın patronu qutardı. İrəlliyiflər. Bu, tapancasını işə salıf, dok-

[39] Əltəmən olur – qucaqlaşır

quz gülləyə dokquz rus əsgərini salıf. Axır baxıf görüf kü, patron qutardı, axrıncı güllöyü öz ürəyinə sıxıf. Rusdar görüflər səs kəsildi. Bir müddət gözdüyənnən sora Məcidin meydini sürüüf çıxardıflar. Çıxardanda görüflər tapanca yerdədi. Tapancıyi götürüflər, baxıf görüflər ki, tapancanın güpünün üstünə yazılıf zərnən: "Məcidi Məcid vurajax". Məcid də belə getdi.

## 89-98. MİRƏLİ AĞA

Ağa Mirəli baba İranın Ərdəbil elinnən olub. Nəyə görəsə ordan iki qardaş Qarabağa gəlif. Qardaşlardan biri Qubaya keçif, Mircəfər Bağırovun nəsli onnan törəyənlərdi. Ağa Mirəli baba isə Ağdama gəlif düşüf. Burda bunu sıxışdırıflar. O deyif mənim yerimdən çıx, bu deyif mənim yerimdən çıx. Bu da deyif, vallah, seyid adamam, mana yer göstərin, mən orda məskunnaşım. Bular da deyiflər, əgər seyidsənsə, möcüzəni göstər. Möcüzən olsa, inanajeyih sana. Bu da ayiləsiynən məsləhətdəşer, gejeynən oranı tərk eder, bizim zonaya gəler. Aşağı Quşçuda ojax dağdağan var, gəler oraya düşərgə düşör. Bir övladı olor, iki də nökəri. Nökərinin iksi də ləzgi olor. Burda düşərgə düşərkən baxıf ki, ora bir az arandı. Deyif, elə yerə gedim ki, mal-qara günnən batmasın. Gəler bax indi uyuduğu torpağı seçer, burda qaler. Onnan sora da iki oğlu olor: Mir İsgəndər, Mir Əlnağı. Hər iki nökərin könlü bunun qızı Mahpeykərdə olor. Hər iki nökərin adı da Alı olor. Birini Böyük Alı, digərini Qul Alı deyə çağırır. Böyük Alı səxavətdi olduğuna görə mal-qaranı buna havalə eliyir. Kiçik Alı bir az tərsməssəb olduğuna görə buna ilxıyı verer. Biri səmtdə, biri də o tərəfdə indi ermənin əlindədi. İndi ermənin əlində olan Qulalı kəndi onun adı ilə bağlıdır. Ağanın ilxısını otardığına görə o yerin adı da İlxı dərəsi olaraq qalır.

Bir gün Bala Alı at ilxısıdndan gələndə görör ki, qızı verif Yekə Alıya. Ağa qızını verdikdən sora indiki Yekallar kəndinin ərazisini Yekə Alıya göstərir, deyir ki, bax o torpağı verdim sənə. Bala Alı fikirrəşir ki, burda bunun qalmağı əbəsdi. Bala Alı həmişə at ilxısını gətirər damlıyar, onnan sora çayın bu toyuna

keçər, gəlif orda təpənin üsdündə oturarmış ora baxmax həsrətiynən. O vaxtdan həmin yerə Ləzgi təpəsi deyillər.

Bir gün bu qızı buna vermədiyinə görə ağadan hayıf almax fikrinə düşör. Fikirrəşer ki, at ilxısını çəkif aparem Dağıstana. At ilxısını çəkif aparanda indi həmin ərazidə şlanqbaum var, ora çatanda Yekə Alı görör kü, bu ağanın atını aparef geder. Orda buların arasında mübahisə düşör, Yekə Alı xançalnan bunu vuror. Yekə Alı elə biler bu öldü, ordan gəler ağanın üsdünə. Deyir, ağa, at ilxın hanı? Deyir, İlxı dərəsində. Deyir, yox, Bala Alı at aparırdı, mübahisəmiz yarandı, öldürdüm. Deyir, nəhlətdəməni nahax öldürmüsən, çörəyimizi kəsmişdi. Gəlif həmin yerə çatanda göröllər, ağanın atdarı quyruğu yanmış, qorsalanmış şəkildə düzə dağılıflar. Gedellər hadisə yerinə. Bu görör ki, artıx ölör, ağadan qisas almax üçün çaxmağı çıxarder, əraziyə od vuror. Yaloy vuranda atlar quyruğu, yalmanı qorsalanmış şəkildə enif aşağı gəler. Gəlif göröllər vurduğu yerdən bir az da irəli sürünüf orda ölüf. Oranın adı günü bu gün də Oddax qaler. Mirəli ağa deyir, camaat bizə yaxşı-yaman deyər, bu nəhlətdəmeyi sürü bir çökəyə tulla, üsdünü basder. Daşnan üsdünü basdırer, ağa oruya iki dənə ağac basdırer. Deyir, gələnə-gedənə deyin bura nəhlət yeridi, hər gələn buraya üş daş tullasın və nəhlət oxuyuf keşsin. Kim bilif atmasa, nəhlətdəmə ona düşör. Ağaşdar da bitib sakqız ağacına çevrilir.

Burda hərbiçilər vardı. 1995-ci ildə müharibənin qızğın vaxdı bular meşəyə oduna gederdilər. Top çəkən maşınlar vardı – Teqaşlar. Bunu sürən deyir ki, oruya getdiyimizə, gəlin bu ağacı yıxax, aparax gedək. Atam orda heyvan otarırdı. Bulara deyir ki, bu seyid ağacıdı, buna toxunmuyun, meşə, dağ, dərə dolu odundu, gətirin yandırın. Buna fikir vermiyif, trosu ağaca doluyuf teqaşın arxasına qoşor. Heç bir kilometr getməmiş Teqaş aşır, həmin oğlan altında qalıf ölör.

Yekalı kəndi ağanın qızından törəyənnərdi, bizim kənd də oğlanlarınnan törəyənlərdi. Mirisgəndərin törəməsinnən Kəlbəcərdə də var, Göyçədə Maşa Mirismayıl ağa ocağı var. Mirisgəndərdən olannar bizim nəsildi. Hajı Əhməd, Hajı Rəhim, Kər-

bəlayi Səməd, Fərrux, Qasım. Hajı Rəhimin bir qardaşı Hajı Həmid Göyçəyə köçör, Göyçədəki nəsil də onnan töyərənlərdi.

Bizim kəndin adı o vaxdı oluf Yuxarı Ojaxlı, Quşçu tərəfi də Aşağı Ojaxlı oluf. Ağdam adın nə cür alıf? Bura karvan yolu oluf. Aşağıda Nəsib sultan körpüsü var, körpüdən keçən karvanlardan xərac alınırdı. Körpünün kənarında bir ağ dam vardı, xərac alan orda oturordu. Bundan başqa karvan yolunun üstündə qoja palıd, qara daş oluf, həmin yerlər karvana istiqamət oluf. Qaradaş kəndi öz adını ondan alıf, bura da Ağdam kimi qalıf.

Söyləyici bu məlumatı atasından, o da öz atası Hajı Əhməddən eşidib.

**90.**

Bura gəldikdən sora da Ağa Mirəliyi genə sıxışdırıflar. Buna deyiflər ki, seyidsənsə bir möcüzəni görkəz. Sabaha qədər möhlət alıf. Sabah yığışıflar. Təndiri qaladıf, quzuyu öldürtdürüf, soyduruf qucağına aler. Bunu salıflar təndirə quzu da qucağında. Deyif, bir müddətdən sora açarsınız ağzını. Təndirin qırağına da yığılannar deyillər (əstafrullax), bu məhv oldu getdi, açax. Açanda görüflər Mirəli ağanın sakqalında qıroy donuf, ujunda buz quzu qucağında bişif (söyləyicinin gözləri dolur). Deyiflər qal burda, sən həqiqi seyidsən.

Ağanın əsası da onun törəməsi olan Mir Qələm ağanın evində duror.

Ağanın nəvəsi Mirisgəndərin oğlu Hajı Mirbağıra az torpaq düşör. O burdan köçer geder oroya, orda tək yaşıyır. Vahid yaşadığına görə ora Vahiddi deyilir.

Bu çayın adı o vaxdı olor Ağ çay. Deyir, ağa rəhmətə getməmişdən qabax evlad törəmələrini başına yığır, deyir ki, yeddi ildən bir bu çay daşır, hər dəfə də bir qurban geder. Mənim sizə bir tövsiyəm, yeddi ildən bir çay daşajax. Nə vaxt ki çay ağ köpük gətdi qabaxnan, bilin ki, çay daşajax, onda çay kənarınnan çəkilin. Həqiqətən də, o vaxt bu vaxt yeddi ildən bir bu çayın güjdü daşqını olor.

**91.**

Burda Qulam kişi vardı, Allah cəmi ölənnərə rəhmət eləsin. Öz dövründə yaxşı vəzifələrdə oluf, sözü keçən adam oluf. Savadsız adam oluf, amma dəhşət yaddaşı oluf. O yaxşı bilirdi tarixçəni. Babamın yanına gəlirdi, çox söhbət eliyirdi, biz də ucunnan-qulağınnan eşidirdik. Onun söyləməsinə görə, İrannan bir nəfər ezam olunuf bizim məmləkətə. Onun adı oluf Əli. Əli gəlif Ağdam rayonunda məskunnaşıf. Kəskin bir seyid oluf, möcüzəli bir adam oluf. Oranın adamları bunu ələ salıflar. Yolun bu üzündə camaat taxıl əkifmiş, bu üzündə də bunun bir bala pərakəri[40] varmış. Bunun xatirinə dəyəndə bu bir ah çəkir, on beş dəyqə keçməmiş, deyir, bir bulut qalxır, göyün üzü qapqara qaralır, gurultu, külək, tufan, camaatın taxılını, deyir, yernən yeksan elədi dolu, amma bunun taxılınnan bir sünbül qırılmadı. Həmin gecə bu kişi camaatdan xəlvət durur külfətini yığışdırır, qaçır. Səhər durullar ki, seyid yoxdu. Ayə, seyid getdi, seyid itdi. Guya o kəndin də adı ordan qalır, indi Seyidlər deyillər. Seyid nejoldu? Seyid üzü bəri qərbə tərəf gələr, imkannı adam oluf, burda binə salır. Vergi yığannar gəler ki, vergi verməlisən. Deyif vallah, mən seyid adamam, nə vergi verəjəm? Bəyə xəbər çatır. Deyir, gətirin görüm kimdi o? Gətirillər bunu. Deyillər, sən hara, bura hara? Deyir, seyid adamam, yerim, məkanım yoxdu, harda oldu köçəri adam kimi dolanıram. Deyir, seyddiyini nəynən sübut eliyərsən? Deyir, möcüzələrim var. Buların da yanında biliciləri oluf. Seyidi sınamax üçün bilicini də gətirillər. Deyir, nə möcüzə göstərə bilərsən? Deyir, yandırın təndiri. Təndiri yandırıllar, qıpqırmızı təndir qızarır. Bir dənə quzunu alır qucağına, düşör təndirə, deyir qapıyin ağzını, mən aç deyəndə açın. Müəyyən müddət keçənnən sora açıllar təndirin ağzını, quzu qucağında bişif, kişinin sakqalında, bığında buz donuf. Xazeyn baxır belə, məhətdəl qalır. Bir at gətirillər. Xazeyn deyir, bu nejə atdı. Deyir, bu at yaxşı atdı, əvəzi yoxdu, amma su görəndə yatır. Atı sürüllər, çaydan keçəndə suya yater. Üçüncü bir inək gətirellər. Deyir, bu inək nejə inəkdi? Deyir, bu inək boğazdı qarnında da

---

[40] Pərakər – xırda əkin sahəsi

dişi buzoyu var. Bilicinin səbri çatmer, deyir ki, özü də təpəldir. Deyir, yox, təpəl döyül, quyruğunun uju ağdı. Quyruğu qatdanıf alnında duror, sənə elə gəler ki, təpəldi. Deyir, inəyi kəsin. İnəyi kəsellər, seyid deyən çıxır. Sultan buna deyir ki, mən sənin bu möcüzələrini gözümnən görməsəydim, sənə ağam Əmir Əli deyərdim. Mənnən nə isdiyirsən, təmənnan nədi? Deyir, mən yersiz, məkansız adamam, maa yaşamağa yer lazımdı. Deyir, nə qədər yer isdiyirsən? Burda iki variant danışıllar. Birində deyir ki, bir gündə nə qədər yer gəzsəm, oranı mənə ver. Bir variantda deyir ki, üş dənə çubux atajam. Üş çubux məsələsi bunun möcüzələrinə daha uyğun gəler. O çubuxlar hara düşsə, o çubuxların arasını maa verərsən. Sultan da fikirrəşer ki, bu hara qədər ata bilər. Uzaxbaşı bir kilometr atsın, artıx gedəmməz ki. Çubuxların hərəsin bir istiqamtə atır, çubuxlar gözdən itir. Deyir, bəs çubuxları harda axtarax? Deyir, adamlarının birini göndər Əlbiz dağına, birini Murğuz dağına, birini də Ağrı dağına. Deyir, heylə şeymi olar? Deyir, çubuxların nişanı var. Nar ağacından kəsilib, nə boydadı. Göndər, getsinnər yoxlasınnar. Bir aya, qırx günə çaparrar geder çubuğu dediyi yerdə tapır gətirillər. Deyir, verdim oranı sənə, get nə isdiyirsən elə.

Saraydan çıxannan sora üzü bəri gəler məmləkətin harasındasa məskən tutmağa. Topdağdağan deyilən yerə gəlif düşör. Ora gələndə Şəmkirnən Zəyəm arasında karvan yolunun üsdündə görör ki, bir cavan, stül oğlandı. Baxır ki, bu öy adamıdı, səfil döyül. Deyir, ay bala, kimsən, nəçisən, hara gedersən, niyə burda durursan? Deyir, ay baba, karvan gözdüyürəm. Deyir, a bala, nə karvan gözdüyürsən? Deyir, hansı karvan olor-olsun, isdiyirəm ona qoşulum gedəm hardasa bir tikə çörək tapam. Deyir, oğul, əlinnən nə iş gəler? Deyir, hara buyursalar, gedərəm. Deyir, mənnən gedərsənmi? Deyir, gedərəm. Bu oğlanı da götürör, gəler Topdağdağan olan yerə. Orda da beş-on gün qalannan sora görör kü, bura bunu təmin eləmir. Deyilənə görə, çay yuxarı yer axtarmağa gəler, göröm hara xoşuma gəler. Gəler Ağdamın bəri başındakı Dört dirək deyilən yerə, orda məskunnaşır. Bu uşağın adı olur Alı. Görör kü, çox qabiliyyətdi, çox sərrast, zehinni

uşaxdı. Bunun da bir qızı, iki oğlu oluf deyilənə görə. Oğlannarı da cavan rəhmətə gedif. Birinin adı oluf Mirqasım, digərinin adı oluf Mirqələm, qızın da adı oluf Mahpeykər. Bir müddət yaşıyannan sora bura bir nəfər də gəler. – “A bala, kimsən, nəçisən, nəzersən?” Deyir, iş gəzerəm, nökərçiliyə gəlmişəm. – “Ay bala, adın nədi?” Deyir, Alı. Bunu qəbul eliyir. Birinci qəbul elədiyinə Yekə Alı deyir, o birinə Bala Alı deyir. Sözün qısası, Yekə Alının qoçaxlığına görə arvadı Cənnət nənə ilə məsləhətdəşir. Deyir, ay arvad, oğlumuz yox, başqa bir simsarımız yox. Gəlsən, elə bu uşaxnan bu qızı evləndirək. Razılaşıllar, Alı da qıza meyilli imiş, buları öyləndirillər, xeyir-dualarını verillər. Müəyyən müddət keçir. Bala Alıya Qul Alı da deyillər. Çayın bəri üzünü qızı Mahpeykərə verir kişi ki, bura sənin ata malındı, malını dövlətini burda saxlıyarsan. Ermənistan tərəfdə də bir dərə var, kişinin ilxısı orda saxlanırmış. Bunu da Qul Alıya verer ki, ora sənin olsun. Amma Qul Alı bir etibarsızdıx eliyir. Evə getmək adıynan kişini alladır. Özünə qaçax-quldur dəstəsi tapıf gəler kişinin ilxısını oğurruyuf aparmağa. Mahpeykər də çörək bişirermiş. Görör ki, ilxını aparellar. Ağdama gedən yolun kənarında Saqqız ağacı var, bunun arxasınca gedif onun yanında bunu vurur. Yekə Alı gedif Mirəli ağaya deyir. Mirəli ağa deyir, nahaq onu vurdun, Allah ona lənət eləsin. Lənətdəmə də elə onnan qalır.

Möcüzələrini gösdərəndə buna şəkk eliyiflər. Bu hirsdənif əsanı yerə vuruf. Yerə vuranda əsa gürzə olor, qalxıf camaatı vurmaq istəyəndə onu yenidən əsa eliyif. Deyilənə görə, Hacı Mir İsmayıl ağanın öyündə oluf. Bizim kənddə bir kəskin seyid vardı. Əsanı gətiriflər ki, burda qalsın, yurdu, torpağı buradı. Deyir, vallah, aparın, aparmağınıza bir söz demirəm, amma durmujax, qayıdıf gələjəh. Əsanı axşam aparıf qoyuflar sandığa, sabah sandığı açanda görüflər yoxdu. Gediflər ki, əsa gəlif, burdadı, yerində yatır.

O ziyaratgaha indi getmək mümkün döyül. Orda nəzir qoyullarmış, kimsə o nəzirə göz dikir, gedif götürür. Qayıdıf çıxanda qapının başınnan ilan üsdünə sıçrayır. İlan həmin əsa olor.

Mənim yaxşı yadımdadı, biz Aldədə deyəndə nənəm deyirdi, siz allah, onun adını bütün deyin, Ağa Mirəli deyin.

## 92.

Ağa Mirəli əslən Ağdam rayonunun Seyidlər kəndinnən oluf. Arvadı Cənnət nənəni götürüf qaçıf. Vəli addı bir kişinin qızını götürüf qaçıf, gəlif Touz rayonunun ərazisində, Aşağı Quşçu kəndinin Topdağdağan deyilən yerində məskunnaşıf. Torpax sahibi bunu yanına çağırtdırıb ki, sən nə əsasnan mənim torpağımda məskunnaşıf mal otarırsan, daxma tikibsən? O da deyif ki, mən Allah adamıyam, seyidəm, mana hörmət elə. Nə eliyirəm sana? Deyif ki, mən sənin seyid olduğunu nəynən bilem? Əlində sənədin yox, bir şeyin yox. Deyəndə bunun əlində bir hasası varımış. Oxuyuf üfürüf, hasanı atıb hökümdarın üstünə. Hasa bir ilan oluf hökümdarın yaxasınnan yapışıf. Hökümdar çığırıf: "Ay məni xilas elə!" Seyid hasasını götürüf, deyif, qorxma, bu, ilan döyül.

Deyif, daha nə göstərə bilərsən? Deyif ki, bir quzu kəsdir, ətini dərisinin içinə qoydur, mənim qucağıma qoy, təndiri qalatdır, məni də təndirin içinə qoy. Təndir məni yandırsa, onda sən bilərsən ki, mən seyid döyüləm, mən yalan danışıram. Girif təndirin içərisinə, ağzını da örtüflər. Bir müddətdən sora deyif ki, məni çıxardın. Çıxardanda görüflər ki, quzunun əti pişif, bu kişinin də sakqalında quroy donuf. Onnan sora hökümdar buna inanıf. Deyif, mən sana nə verim? Deyif ki, Allahı tanımıyannan mən heç nə istəmirəm. Deyif, yox, istə. Deyif, mana bir qədər torpax ver, orda məskunnaşım. Deyif, get, bir ay hərrəndiyin torpağı sana verəjəm. Deyir, başına dönüm, bir ay hərrəndiyim torpağı verəmməzsən, üç gün hərrəndiyimi versən, bəs eliyər. Üç gün hərrəndiyi torpax – Ağstafanın Qələmçə kəndinnən gedif Şah dağınnan hərrənif, Şəmkir torpağınnan gəlif, bir də Kürqırağı dağlara.

Onnan sora hökümdar onun əlinə vəkalətnamə verib ki, bu torpaxlar sənindi. Sora onun savadsızlığınnan istifadə eliyərək Allahyarbəyli kəndinin vəkalətnaməsini onun əlinnən alıflar. Onnan sora gəlif o kişi Touz rayonunun ərazisində, Axıncı çayının sağ sahilində bir dəmyədə – Dört Dirəy deyilən yerdə məskunnaşıf. Orda özünə dam tikif, dağın bulaxlarınnan tüngnən[41] öz qapısına su çəkif. Həmin kişi Axıncı çayının sol sahilində

[41] Tüng – gildən hazırlanmış boru

rəhmətə gedif, orda dəfn eliyiflər. İki kümbəzdən ibarət türbəsi var, ətrafında da daş hasar. Həmən o türbəni Yekallar kəndinin sakinnəri ona hörmət əlaməti olaraq tikiflər. Məşədi İmanqulu deyilən şəxs orda oturuf, siyahı tutuf. Camaat da haravasınnan daşıyıf. Onu həm hasarreflar, həm də ona türbə tikiflər. Bu saat həmin türbə Ermənistannan həmsərhəddədi. Oroya 20 ildən artıxdı gedən-gələn yoxdu. Amma əvvəllər hər adna axşamı camaat orda qurvan kəsərdi, nəzir verərdi, dua edərdi.

**93.**

Qazaxdan sürü gedəndə Bəşir addı kişinin qapısına bir qoyun düşör. Bu qoyun qalır bu kişinin qapısında. Qoyun doğur. Qoyunun bir balası olur. Kişi bu quzuyu aparer ki, həftənin dördüncü günü ziyarətdə qurvan kəssin. Quzunun yıxıf başını kəsməy istiyəndə quzu əlindən çıxır Ermənistana gedir. Haram olduğuna görə, ojax o qurbanı qəbul eləmir.

**94.**

Mənim aldığım məlumata görə, Ağa Mirəli baba əslən oluf İrannı. Ordan keçifdi Qarabağ zonasına, hal-hazırda işğal altında olan Ağdam rayonunun nəzdində olan Seyidlər kəndinə. Qısa müddət orda yaşadıxdan sora, nəysə orda abu-havaynanmı, qonum-qonşularnanmı, nəynənmi barışmıyan Ağa Mirəli baba gəlib keçmiş Fərzalı kəndinə, yerdən qazma bir damda yaşıyıf. Hal-hazırda o kənt yoxdu. O kənt ona görə yoxdu ki, sovetlər dövründə dövlət orda su anbarı tikməyi planlaşdırdı. Elə ona görə də, həmin Fərzalı kəndini köçürtdülər ki, gedin Ağdam kəndinə.

Günlərin bir günü İran şahı Qazax-Gəncə zonasına səyahətə gəlir və bütün el-oba, burdakı bəylər, xannar öz carçılarına məlumat verillər ki, bütün kənt camaatına bildirin, İran şahı gəlir, biz onun görüşünə getməliyik. Topalaşmalıyıx müəyyən bir yerdə, İran şahınnan görüşəh.

Həmin elannarı verillər. Verənnən sora hamı gedir bu şahın görüşünə, amma Ağa Mirəli baba getmir. Baxıllar ki, bütün kənt camaatı yığışıf. Orda soruşullar ki, kim qaldı kəntdə? Deyillər ki, kəntdə bir Seyid baba var, o, sizin görüşünüzə gəlmiyif, kasıf

adamdı. Sizi rəva bilib özünə qonax çağırır. Şah razılaşır bu fikirnən. Deyir ki, bir halda ki seyitdi, onun seyitdiyinə qiymət qoyarax gedərih.

Şah gələndə görür ki, bunun yerdən balaca bir daxması var. Şahı yüksəy səviyyədə bu qarşılıyır. Şaha təhlif buyurur ki, düşün, bir kısmat çayımız var, bir kısmat plovumuz var. Oturun bir kısmat çörəh yeyin. Şah, vəzir, vəkil atdan düşür, qoşun da qapıda dayanıf. Ağa Mirəli baba şaha təhlif buyurur ki, şah sağ olsun, qoşunun yerləşəsi qədər yerimiz var. Bütün qoşun yavaş-yavaş, yavaş-yavaş içəri dolduxca, içəri genişlənir. Amma şah da ağıllı şah iydi. Baxır ki, bunun kiçiy bir qazanı var, qazandakı yiməy plovdu. Şah fikirrəşir ki, bunun bu kiçiy qazanı bu boyda camaata bəs edəcəhmi? Amma şah fikir verir ki, qoşun əhli otduxca yerdə güllü xalça açıla-açıla geder, süfrədə yeməhlər çoxala-çoxala geder. Baxır ki, bütün qoşun oturdu. Şah orda sual verir ki, eşikdə bizim adamlarımız qaldımı? Deyillər ki, şah sağ olsun, bircə gözətçi qalıf, bütün vara-varidata o nəzarət eliyir. Deyir ki, çox yaxşı. Bunun bu möcüzəsinnən şah heyrətə gəlir ki, İlahi, nəsə burda bir sirri var. Bu, doğurdan da, seyitdi. Bu elə-belə şey döyül axı, bu boyda qoşun balaca bir yerə nətəər sığışdı? Bu içəri girəndə o qazandakı plovu görmüşdü. Dedi, duranda ona da baxmalıyam.

Ağa Mirəli babanın bu hörmətinə görə, çayına, plovuna görə, şah təhlif buyurur ki, Seyid, məndən nə istiyirsiniz, mən nə verim sizə? Deyir ki, şah sağ olsun, heç bir təmannam yoxdu. Deyir ki, yox, bir şey istəməlisən. Onda Ağa Mirəli baba fikirrəşir, deyir ki, şah sağ olsun, siz o stəkandakı suyu içənə qədər mən dört dənə ağac sancajam ətrafa. Elə o torpaxları maa verərsiniz. Şah razılaşır, deyir ki, biz çayı içənə qədər sanc o ağaşdarı. Aldığım məlumata görə, onun biri Ağa Mirəlinin oğlannarının qəbri olduğu yerdi. İkincisi, Topdağdağandı, Aşağı Quşçu kəndinin aşağısındadı. Üçüncüsü, bizim bu kəndin aşağı hissəsində Dört Dirəh adlı yer var, ordadı. Dördüncüsü, Haça qayadadı.

Ağa Mirəli Baba həmin ağacları sancır, qayıder gəler. Duranda, bir daha bunnan bir möcüzə gözdüyür. Onsuz da şah bu möcüzəni görmüşdü. Duranda orda qazana nəzər saler ki, o plov

yarıdı, hələ kutarmıyıf. Bu boyda qoşun doydu, amma qazan yarıdı. Sora Ağa Mirəli babadan xayiş eliyir ki, Seyid, möcüzəni gördüm, başqa nə möcüzə göstərə bilərsən? Deyir, şah sağ olsun, qoy təndiri qalayax, mən möcüzəmi göstərəjəm. Təndiri qaladır, quzunu qoyur qucağına, girir təndirə. Deyir, quzu nə vaxt pişsə, mən özüm xəbər verəjəm, açarsınız təndiri. Təndirin ağzını açellar, baxellar ki, Ağa Mirəli babanın sakqalınnan buz sallanır, qucağında isə quzu pişif. İran şahı onnan razılaşır. Sora adam göndərir ki, gedin görün onun ağac basdırdığı yerlər haradı. Deməli, həmin o dediyimiz torpaxlar Ağa Mirəli babanın torpaxlarıdı, seyid torpaxlarıdı. Və o, dünyadan köçəndə deyif ki, məni burda axtarmıyın. Məni gördüyünüz o Kəsəmənli dağında axtarın. Kimsə dara düşəndə o dağı çağırsın, mən onun harayına çataram. Dünyadan köçəndə, belə bir vəsiyyət eliyif. Həmin o dağ da onun qəbrinnən, hardasa, bir kilometr hündürlükdədi, açıx-aydın görünür.

**95.**

Mən orda bir möcüzəni gördüm. Bizim kəntdə bir qadın varıydı. Həmişə çalışardı ki, ora ziyarətə getsin. O, ziyarətə gedəndə, ilin hansı fəsli olur-olsun, ordan bir cüt ilan çıxırdı. Qırmızı, gün kimi parıldıyan naziy ilanlar idi. O qadını o ziyarət qəbul eləmirdi, ilanlar qoymurdu. Ziyarətin giriş qapısınnan biri sağdan, biri soldan ilan sallanerdı çərçivənin başınnan. Arvad geri çəkilənnən sora, ilannar çəkilerdi. Başqa kim gedir-getsin ilan görünmürdü.

**96.**

Bizim bu kəntdə bir əmoğlu var, Zahid. Bir gün içki içif. Buna deyiflər ki, maşını sür, bizi ziyarətə apar. Bu deyif ki, ə, mən içki işmişəm, ora ojaxdı. Mən oroya gedə bilmərəm dana, məni aparmıyın. Buna deyiflər ki, ə, sən ziyarətə girmə də. Deyif, ə, mən sizə deyirəm, məni aparmayın dana orıya. O qəvirsannığa girəndə, orda bir reşotka var, giriş qapısı. O giriş qapısınnan içəri girməmiş baxıf ki, bir nəhəng ilan yolu kəsif. Bu maşını saxlıyıf, deyif ki, Allah sizə nəhlət eləməsin, axı, mən sizə dedim ki, məni o ojağa aparmıyın də. Bax, ilanı görörsünüzmü yolun için-

də? İndi tüşüf özünüz gedin. Bular maşınnan tökülüf. Maşını dala verəndə ilan yoldan çıxıf, onnan sora bular piyada gedif, ziyarət eliyif, qayıtmışdılar.

Belə möcüzələri var Ağa Mirəli babanın. Allah rəhmət eləsin.

**97.**

Aldədə haqqında rəvayətdər çoxdu. Onun birini mən danışım, siz eşidin.

Xəlifənin adamları iki dəfə Tovuz rayonunun Ağdam kəndinə gəlir, Aldədə babanı yanına çağırer. Seyid Ağamiri – Aldədəni aparmax istiyillər Xilafətə xəlifənin əmrinnən. Nə qədər çalışıllar, Aldədə babanı kəntdən apara bilmillər. Allah izin vermir, maneələr əmələ gəlir, apara bilmillər. Üçüncü dəfə Xəlifə deyir: "Gedin, nətər olur-olsun, Aldədəni gətirin bura, görüm bu nətər adamdı, nejə seyitdi".

Aldədə babanın arvadının adı Cənnət nənə oluf. Bular gələndə gətirer bir kilo qoyun ətini touya, yəni qazançıya tökür, pişirir. Deyir, mən sizə burda yemək verəjəm. Sərkərdə deyir ki, xanım, nejə ola bilər, siz bir kilo ətnən min nəfər əsgəri doyuzdurasınız? Bu olan şey döy. Deyir, siz oturun, indi baxarsınız. Bir kilo əti pişirir. Bütün nimçələrə, qavlara çəkif verir, qazanda genə həmin ət yerində qalır həmin qaydada, kutarmax bilmir. Bütün bu qoşun əhli, yan-yörədə olan qohum-əqrəba hamısı bu xörəhdən yeyir, ancaq kutarmax, tükənməy bilmir. Deyir: "İndi gördünüzmü Aldədə kimdi, onun ocağı nə deməhdi?".

Buna baxmıyarax, bular deyir ki, yox, biz Xəlifənin əmrini yerinə yetirməliyih. Ona görə biz səni burda qoyuf gedə bilmərik, baxmayarax ki, bu kəramətdər var. Bular Aldədə babanı götürüllər, gəlillər (Naltökən deyilən bir yer var Ağdam kəndində), bu Naltökənə çatıllar. Nə qədər istiyillər getsinnər, atdarın nalı özözünə tökülör. Oranı çıxa bilmillər, atdarın dırnaxları yerdə qalır, qanıyır. Bir neçə gün burda qaldıxdan sora görüllər ki, daa gedə bilmillər. Aldədə babaya bular deyir ki, siz böyüh övlüyasınız, Allahdan xayiş eliyin, biz burdan çıxax gedəh, sənnən bizim daha işimiz yoxdu. Onnan sora Aldədə baba namaz qılır, dua eliyir, Allaha yalvarır ki, buların atının nalı yerinə gəlsin, çıxıf getsinnər.

Atdarın nalı əvvəl necə vardı eləcə yerində olur. Heç elə bil bu nallar burdan tökülməmişdi, düşməmişdi. Xəlifənin qoşunu çıxıf gedir. Xəlifəyə deyillər ki, biz o adamı gətirə bilmədih. Onnan işin olmasın, o başqa adamdı.

**98.**

Cavad xanın dövründə bu erməniləri əsir alıf aparırmışdar. Mirəli ağa bulardan xahiş eliyir ki, bu gavurları aparıf nağarjaxsan? Bulardan bir neçəsini ver mana. Bir neçə erməni ayləsini xannan alır, deyir mənim malım, dövlətim var, bulardan istifadə eliyəjəm. İcazə alannan sora Bala Alıya deyir ki, sən atdarı köçür ayrı yerə, atdarın damının yerini bulara ver.

Ağdam kəndində məktəbin yanında Dörd dirək deyilən yer var. Əvvəl orda yurt salıf, ordan köçüb gəlib bir az da aşağıda yurt salıf.

Bir günnəri yaylağa köç vaxtı olor. Bala Alı ləzgi oluf. Oğrularnan danışıf ki, ilxını ləzgilərə versin. Cənnət nənəyə deyif ki, mənim yol azığımı hazırra, yaylax vaxdıdı, ilxını yaylağa aparım. Arvadın bunnan gözü su içmir. Yol azığını hazırrıyır, bir dəsmala büküf bunun dalına şələ kimi bağlıyır. Deyir, get oğul, uğur olsun, səni bu çörəyə tapşırıram. Tezdənnən guya dağa getməlidir. Səhər tezdənnən Yekə Alı – bizim ulu babamız duruf həyət-bajanı hərrənəndə görür ki, atın izi yaylax tərəfə yox, arana tərəf gedif. Atını minif bunun dalınnan gedif. Görör bir atdı geder. Atı aparıflar, Bala Alı da dalnan geder. Bunu daldan atır. Atı minif gələndə görör... (Saqqız ağacının biri indi də durur. O ağac iki idi. Anamın yanında balaca uşaq idim, harasa gedirdik piyada. Anam mana dedi ki, sən də bir daş tulla. Ora nəhlətdəmə idi. Tovuzun Kürboyu kəndlərinin hamısının qoyun-mal sürüləri buroynan gedərdi, buroynan gələrdi. Ordan yuxarı da keçən bir dənə daş götürüf atardı, aşağı gələn də, deyərdi "tfu, Allah sənə nəhlət eləsin".) Yekə Alı gələndə görör ki, atdığı güllə kürəyinə bağladığı çörəyin ortasınnan girif dağıdıf sinəsini. Atdan yıxılıf, elə orda da ölüf. Gedif qayınatasına deyif ki, belə bir əhvalat var, at yoxdu, özünü də vurdum, nəşi filan yerdə qaldı. Deyir, oğul, ora el yoludu, nəşi orda qoymaq olmaz. Uşaqlardan götür

get, orda bir yerdə basdırın. Atdarın içində ağ maydan olof, həmin atdar onnan törəyif. Deyir, əgər atı aparannar usta adam olsa, ana maydanın başını əkəjəhlər. Yox, ağ maydanın başını əkməsələr, maydan atdarı qaytarıf gətirəjəh.

Köçöllər yaylağa, payızda Yekə Alı görör kü, meşədə bir dəstə at otduyur. Geder qayınatasına deyir, filan yerdə at otduyur. Bizim olojax, gedim gətirim. Deyir, oğul, get bax, ana maydan içindədirsə, bizimkidi, gətir. Ana maydan yoxdursa, gətirmə. Geder görör ana maydan içindədi.

Yekə Alının Mahpeykərdən altı oğlu olor, bu kəndin də bünövrəsi onnan törəyif.

## 99. AĞBAŞ AXUND

Nənəm Seyidxanım deyirdi ki, dayın Bozalqannı Ağbaş Axund (adı Abdulla oluf) iyirmi beş il Nəcəf şəhərində oxuyuf, təhsil alıfdı. Onun başına ağ çalma bağlanıfdı, adı qalıf Ağbaş axund. Abdulla axund kimi el arasında az tanınıf. O, Nəcəf şəhərində oxuyan vaxtı pulu kutarıf, bir neçə sutka aj qalıf. Bu ajdıx ona sirayət eliyif. Gündüzdər dərsini oxuyuf, elmnən məşğul oluf, axşamlar ağlıyıf, aj qarına yatıfdı. Bir neçə gün belə davam eliyənnən sora, bir nəfər başı əmmaməli, sakqallı, nurani bir adam gəlir yuxusuna girir. Deyir ki, ay Abdulla, bilirih sən ajsan. Sən elm dalınnan gəlifsən. Allahın verdiyi bu elmi örgənifsən. Neçə gündü sən aj-aj ağlıyırsan, oxuyursan, yatırsan. Allahtaala məsləhət gördü ki, sənin balıncın altına pul kisəsi qoyax. Başının altına pul kisəsi qoydux ki, ayılannan sora onu götürərsən. Həmişə burdan nə qədər pul götsən, onun yerinə hər gün pul gələjəh. Nə istəsən al, ye, geyin, oxu.

Ağbaş axund yuxudan ayılanda əlini atır balıncın altına, görür, doğurdan da, burda bir kisə var. Açır, görür içində qızıl pullar var. Burdan nə qədər götürür xəşdiyirsə, səhəri, birsüyünü, bir ay bu pul kutarmır. Bu müşteyiddər baxır ki, bu uşağın pulu yoxuydu, indi hər gün yeməh də yeyir, paltarını da dəyişir, özünə kitablar alıb oxuyur, çalışır. Çağırır dini hövzənin rəhbəri ki, bizə pul gəlif çatmıyıf, sənə pul verməmişih. Pul bizə gəlməlidi, saa ver-

məliyih. Sən hardan aldın o pulları? O gizdətmir. Deyir, bəs belə-belə, yuxuda mənə belə bir sözdər deyildi ki, balıncın altına pul kisəsi qoyurux. Ta ömrünün axırına qədər bu pul kisəsinnən nə qədər pul xəşdəsən kutarası deyil. Deyir: "Pul kisəsini göstər görəy". Ağbaş axund göstərir. Baxıllar ki, doğurdan da, elədi. Dini hövzənin rəhbəri deyir, sən kisəni bizə ver. On beş ilini oxumusan, innən sora on ilin qalıf. İyirmi beş ilin tamam olana kimi burda pulsuz, bu hövzənin hesabına çay da iç, çörəh də ye, paltar da. Hamısı ödənəjəh, səndən bir manat da olsun pul alınmıjax. Abdulla axund həmin pul kisəsini verir dini hövzənin rəhbərriyinə. Onlar Abdulla axundu pulsuz yeməhnən, içməhnən, geyinməhnən – hər şeynən təmin eliyillər. Oxuyur kutarır və çıxıf gəlir öz vətəninə – Touza, Bozalqannı kəndinə. Bütün el arasında bunu hamı bilir, hamı da danışır. Genə də Allahın insannara göstərdiyi mərhəmətdi.

## 100. ŞIX SƏDİ

İranın ən tanınmış şahlarınnan Müzəffərəddin şah eşider ki, Təbrizdə bir uşax əmələ gəlif, yerin altını-üstünü biler. Vəzirə deyir:

– Vəzir! Atdan, gedək görək o, nətər uşaxdı?

Bu kəndin qırağınnan gələndə görör kün, iki uşax yuvadan quş balası çıxarder. Deyir:

– Oğul, Şıx Sədinin kəndi budumu?

Deyir:

– Ey şah, tanı mənəm, bil mənəm.

Bular geder Şıx Sədinin öyünü tapır, oturor. Öy yiyəsi deyir ki, gələr. Gələndə salam verir ədəb-ərkannan Şıx Sədi, içəri addıyır. Görör bəyəxkilərdi. Şıx Sədinin yeri ortada boşdu, oturor. Dedi:

– Oğul, mən sənnən soruşanda, niyə dedin ki, tanımaram?

Dedi:

– Şah sağ olsun, sən soruşdun, dedim tanı mənəm, bil mənəm.

– Ayıf döymü, sən bu kamalın yiyəsi, orda quş balası çıxardersan?

Dedi:

– Ey şahım, mənim ordan quş balası çıxardası vaxtımdı.

Bu, İsfahanın vəziyyətini təmiz şaha danışdı. Dedi, sən şəhərin böyüməyini istersənsə, ticarət yolları çəkdir, Arazın üstə körpü sal (Xudafərin körpüsünü o salıf), şəhər böyüsün. Beş-altı ildən sora gəldi bu uşağı apardı. Uşax İsfahanı gəzdi. Gördü, yaxşı mədəniləşif, yaxşı oluf. Dedi, oğul! İndi İsfahannan Təbrizi sən nətəri hesab eliyirsən? Dedi, İsfahan nisbi-cahan, əgər Təbriz olmasa! Gənə Təbrizi onun əyağına vermədi. Şah bunu özünə vəzir təyin elədi. Bir neçə ildən sora şah sorağ elədi hər yerə. Eşitdi ki, Hind şahının ağıllı, kamallı bir qızı var. Bu qıza elçi getdi. Qız dedi, onu mən imtahana çəkməsəm, ona getmərəm. Kecava hazırladılar, getdilər. Qızın dədəsi də oturdu, bu şahın ikisi də oturdu. Oğlan da oturdu, qız da oturdu. Dedi:

– Ay dədə, məni istiyən o oğlandımı?

Dedi:

– Bəli, mənəm!

Dedi:

– Sana dört dənə sual verəjəm. Əgər o dört sualı bildin, halalınam.

Dedi:

– Buyur!

Dedi:

– Bu dünyada nədi onnan şirin, onnan qıymatdı şey yoxdu?

Dedi:

– Ay qız, o insandı. İnsannan qiymətdi heç bir şey ola bilməz, onnan da əysiy heç bir şey ola bilməz. Qardaş qardaşı öldürör.

İkinci sual. Dedi:

– O nədi ki, malınnan, dövlətinnən, canınnan çıxersan, gejə-gündüz o sərvəti sən toploorsan, yarım saatın içində məhv olor, geder?

Dedi:

– Ay qız! O sərvət dostduxdu. Aradan elə bir iş keçər ki, illərnən qazandığın dosdunu itirərsən.

– Üçüncü sual. De görüm, o nədi onnan şirin şey yoxdu, həm də acı şey yoxdu?

Dedi:

– Dildən şirin şey yoxdu, onnan da acı şey yoxdu.

Dördüncü sual. Dedi:

– De görüm, o nədi onu həm bilersən, həm də bilmersən?

Dedi:

– O ölümdü. Bilersən, qavaxdadı, öləjəhsən, amma nə vaxtı öləjəhsən, onu bilmersən.

Oğlan dedi:

– Bir sual da mən verəjəm, ay qız, sana.

Dedi:

– Buyur!

Dedi:

– Bax, bu qazan ojağın üstündədi. Bu yanda da lovya var. Bu lovyadan nə qədər tökəh ki, bu lovya daşıf yerə tökülməsin?

Dedi:

– Ay oğlan, biz o lovuyu qədərində tökərik, ojağı da qədərində eliyərik, daşdırmarıx.

Yəni lovya mənəm, qazan sənsən. Mən səni o dərəcədə qızdırmaram, hirsləndirmərəm.

## 101. SEYİD ƏZİZ

Seyid Əziz öz tükünün üstə dolanan adam oluf. Seyid Əli adlı bir şəxsi ona pis münasibət bəsləyib, atını damlıyıb bir həftə saxlıyıf, arvadına pis söz deyif. Bu yekəxanalığına görə Əziz onu öldürüf, onnan da Qaçaq Əziz adını alıf. Bir az qaçaq düşüf, sora da türməyə düşüf – Qazax qalasına. Əzizin özü türmədən çıxannan sora gəlif atama başına gələn hadisəni danışır. Deyir, mən getdim Qazax qalasına düşdüm. Aradan bir neçə gün keşdi. Bir də gördüm ki, bir qadın xeylağı gətdilər saldılar. Bu xanımı çağırdım ki, a xanım, gəl görüm bura nəyin üstə düşüfsən. Bu qadın yaxınnaşıb qorxa-qorxa ki, a qardaş, vallah, olan şeyi danışajam, istersən inan, istersən inanma. Deyir, de, eşiderəm. Qadın deyir ki, qardaş, mənim bir həyat yoldaşım var idi, onun da bir dostu var idi. Həyat yoldaşımnan yaxşı, şirin-kəm dolanerdih. Yoldaşımın bir dostu var idi, bizə gəlif gederdi. Aradan nə qədər keçənnən sora ərim rəhmətə getdi. Faciəynən getdi, nə cür getdi bilinmədi. Dostu da gəldi, bunu dəfn elədik. İli çıxannan sora dos-

tu gənə gəlif-geder. Bir gün sirri aşdı, mana dedi, ağız, olan oluf, innən sora ərin diriləsi döyül. Mana gəl, köhnəki dostluğumuz davam eləsin. Mən də fikirrəşdim, razılıx verdim, muna ərə getdim.

Aradan beş-altı ay keşmişdi. Bir gün dağ tərəfə yönümüz düşdü. Onda maşın hardeydi, piyada gederdik. Bir palıd ağacının divində gejəliyəsi oldux. Söhbət eliyif burda uzanmışdıx, birdən ərim güldü. Güləndə dedim, a kişi, noluf, niyə gülürsən? Dedi, arvad, heç. Dedim, yox, ə. Dəlisən, cinnisən, burda gülməli nə var sən gülürsən? Dedi, arvad, Allahdan gizdin olmuyanı bəndədən niyə gizdiyim. Sənin qabaxkı ərini mən öldürmüşəm bu palıd ağacının divində. Mən onu öldürəndə onun hər yerdən əli üzüldü, palıd ağacına şikat[42] elədi ki, ay palıd ağacı, mənim qanımı batırma, mənim qanımı bu kişidən al. İndi palıd ağacı onun qanını alsın, görüm həncəri alır? Deyəndə, deyir, dedim ki, yaxşı eliyifsən, əlinin içinnən gəlif.

Arvad Əzizə söylöör ki, bu yatannan sora qalxdım, balaja balta vardı, balteyi götdüm, ərimin təpəsinə bir balta vurdum. Ərimin təpəsini çapdım, öldördüm. Dedim, belə filan, palıd ağacı ərimin qanını aler. Bu səbəbdən gəlif bura düşmüşəm. İndi sən nə dərəcə qəbul eliyirsən elə. Deyəndə Əziz deyir ki, bir halda ki, namus üstə gəlifsən, sən mənim bajımsan. Necə ki mən burdayam, bir qul oğlu qulun ixtiyarı yoxdu sana deyə gözün üstə qaş var, burdan dur anrı otur. Bunu eşidən dustaxlar da həmin qadınnan ana-bajıları kimi rəftar eliyillər.

## 102. OCAQ BAĞI[43]

Bağdı, ortada bir dənə ağac var, altısı da ətrafında. Ətrafdakı ağaclar ona baxanda balacadılar. Ona görə də ona yeddi qardaş deyillər. Bilmirəm nədisə, həmişə fevralın onu ora ziyarata gedillər. – Bu Xıdır Əlləz bayramı günü olur. – Cavan, böyük, uşağ, kimin nə niyyəti varsa ora gedir. Hamı aparıb şam yandırır. Şam belə olur: ağac götürüllər. Onun başına təmiz işdənməmiş dəsmal bağlıyıllar. Onu iki gün istağa qoyullar. Ayın onu

---

[42] Şikat – şikayət

[43] Tovuzun Yuxarı Öysüzlü kəndindədir.

günü aparıllar ora. Niyyət eliyillər, ağacın həm solunda, həm sağında yandırıllar. Nənəmin üç qızı varmış. Niyyət eliyif ki, oğlu olsa, yeddi il ağac pirinə şam göndərəjəm, qurban kəsəjəm. Qardaşım olub, o da yeddi il qurban kəsib, şam göndərib.

Buralarda hamı qapıya dağdağan ağacı basdırır. Onu kəsmillər, xeyir-bərəkət sayıllar.

## 103. HACI BABA

Bir Hacı Baba olor. Bu Hacı Baba, həqiqi də Hacı Baba olor. Bunun da bir nökəri variymış. Həmi qoçax, həmi cəngavər, həmi cüssəli, pəhlivan kimi bir uşağıymış. Bir gün bu nökərin hardan ağlına gəlirsə, gəler deyir:

– Hacı Baba, Hacı Baba, bu mən ölöm, mana bir manat ver.

Deyir:

– Əyə, ninersən bir manatı?

Deyir:

– Aparıb bir manatı şəraba verif içəcəm.

Deyir:

– Ədə, məlun köpəyoğlu! Mənnən min manat halal pul istə binnət qurdurmağa, mənnən min manat halal pul istə başqa iş gördürməyə. Mən şəraba pul verənəmmi? Get burdan, məlun köpəyoğlu!

Bunu qoaler. Bu nökər geder qıraxda duror, camaatı yığer, deyir:

– Hacı Baba, Hacı Baba,

İsdəkan isdəkana vurmamısan,
Qaval götünə dımbıldatmamısan.
Nə bilürsən, mən ölümün qədrini.

Mən ölümə bir adamın qanınnan keçellər. Elə yerdə buna belə-belə barmağını şırtdader.

## 104. TORPAĞIN TAVAZASI

Bir padşah var idi, vara, dövlətə o qədər həris idi ki, isteerdi hər yerdən qənimət gətirib daha da varransın. Ona görə də qızılını müxtəlif yerlərdə saxlayırdı. Bir dəlləyi var idi. Dəlləkxanada

bunun ayağının altda sementdən qayırtdırıb bir xeylax qızıl tökmüşdü. Dəllək həmişə gələndə fikirrəşirdi ki, burda nəsə qızıl var. Dəllək padşahın başını qırxdıxca fikirrəşirdi ki, mən qızılı almalıyam.

Günnərin bir günü dəllək padşahın başını qırxdı, üzünü qırxanda ülgücü boğazına tutdu. Dedi:

– Padşah.

Dedi:

– Hə.

Dedi:

– Bura padşah yeri döyül, ülgüc boğazındadı, qızılı mana ver, – deyəndə dedi:

– Verərəm, hardadı mənim qızılım?

Dedi:

– Elə bil məni bir xəzinədə boğollar. Qızılı mənə ver.

Padşah qorxusunnan dedi:

– Verərəm, hələ başımı, üzümü qırx.

Başını, üzünü qırxannan sora padşah münəccimləri çağırdı. Dedi:

– Dəllək belə bir iş tutdu. Bu nə deməkdi?

Dedi:

– Padşah sağ olsun, bunu bir sən bilirsən, bir mən. Sən hər yerdə qızıl saxlıyırsan, dəlləyin ayağının altda da qızıl küpən var. Dəllək ora çıxanda qızıl onu havalandırer. Sana bir məsləhət eliyim.

Dedi:

– Nədi?

Dedi:

– Günü bu saatdan gedərsən o qızılı götürərsən, başqa bir yerdə saxlıyarsan. Sabah, birsiyün gör dəllək qızıl söhbətini eliyəjəkmi?

Bir necə günnən sora dəllək gəlir. Deyir ki, padşah sağ olsun, deyəsən qızılı mana verdin. Heç qızıl yadıma düşmür. Onda elə bilirdim dünya qədər qızılım var.

Qızılı ordan götürənnən sora dəllək daha söhbəti salmır.

## 105. AÇ QAPINI, ÖRT QAPINI

Keçmişdə bir bəy olor. Bu bəy qapısında bir nökər saxlamaq isteer. Nə qədər əhali gəler, bəy deyir:

– Ay oğul, bu hayatı[44] ək-beçər saat beşə qədər. Beşdən sora əlini vurma.

Axşam saat beş olanda gələn adam oturor ki, bəy beşə qədər deyib. Bəy gəlir:

– Ay oğul, buyün necə manat almalısan?

– Bu qədər.

Pulunu verer, deyir: "Sənnən nökər olmaz". Belə-belə ətrafa yayılır ki, bəy bir nökər tutammer. Bir kasıb oğlan deyir, mən gedib bəyə nökər oloram. Gedib bəyə ədəbnən-ərkannan salam verer. Deyir:

– Bəy sağ olsun, mən nökər olmag isteerəm.

Deyir:

– Ay oğul, ol.

Deyir:

– İndi göstərişini mana ver, mən işdiyim.

Deyir:

– Sən bu qapıyi süpürməlisən, bu daşı belə yığmalısan, filan işi belə görməlisən saat beş tamama qədər. Beş tamamda gəlib yoxlojam.

Beş tamama qədər oğlan bu işi görür. Bir az fikirrəşer, deyir: "Boş adamam, bu daşı bir az da anırı yığım". Beş olor, bəy gəlir, görür kü, saat beşi keçif, bu hələ işdiyir. Bir az da gözdöör, görör qarannıxdı, gənə işdeer. Deyir:

– Ay oğul, bura gəl. Sənə mən nə dedim?

Deyir:

– Bəy sağ olsun, siz dediniz ki, beşə qədər işlə. Mən də fəhlə adamam, boş adamam, niyə boş duroram. Bu daşdı, sən onu bir fəhləyə yığdırmalısan, mən yığıram.

Bu oğlan gənə daşı daşıya-daşıya bəynən söhbət eleer. Deyir:

– Ay oğul, qutardıx, gəl.

---

[44] Hayat – həyət

Çörək yeyir, çay içənnən sora deyir:
– Bir söz deyim.
Deyir:
– Buyur.
Deyir:
– Mən o otaxda yatajam. Sən saat beşə qədər bu qapıyi aram-aram açar, örtərsən. Nə tez, nə yeyin.
Oğlan qapıyi açır örtür, açır örtür. Saat beş gəlir. Bəy görör ki, beş keçdi, altıdı, gənə işdiyir. Deyir:
– Ə, sənlə deyiləmmi? Saat beşə demişdim.
Deyir:
– Bəy sağ olsun, bəy deyir aç qapıyi, ört qapıyi. Oldun nökər, durma bekar.

## 106. ANASI GƏZƏN AĞACI QIZI BUDAQ-BUDAQ GƏZƏR

Bir oğlan bir qızı sevir, amma atasınnan anası razı olmor. Oğlan deyir, yox, elə odu ki var, mən onu alajam. Atası deyir, oğlum, o qız bulağa suya gedəndə daylağı çək apar, o bulağın başındakı ağaca bağla. Daylağı bərk döy ağacnan. Gör onda qız sana nə deyəjək.
Oğlan görör kü, qız sənəyi götürüf suya geder. Daylağı çəker, aparer bulağın başındakı ağaca bağleer, ağacnan döyör. Deyir:
– Tez ol, ağaca çıx.
Qız deyir ki, ay oğlan, o daylağın anası o ağaca çıxıfsa, o daylağ da çıxajax, o daylağı öldürmə. Oğlan başa düşör kü, atası, anası muna düz yol göstərib. O işdən vaz keçer.

## 107. O GÜNƏ DƏ, BU GÜNƏ DƏ ŞÜKÜR

Ataların bir misalı var. Deyir, o gününə də, bu gününə də şükür. Bunu bünövrəsi necə əmələ gəlif mən istiyirəm bunu ətraflı sizə söylüyüm.
Keşmiş ayəmdə insanlar dənizi paraxotla keçirmiş. Belə səfərlərin birində paraxot xeylax getmiş küləh başdadı, dalğa vurdu paraxotu batırdı. Bir kadın suyun üzündə qaldı. Küləh vuruf bunu qırağa çıxardan vaxdında, bu qadın, sən demə, həmli imiş, ətrafa çıxan kimi uşağa yatdı, iki oğlan uşağı doğdu. Bular hələ

anasınnan əmməmiş Allahdan əmr oldu ki, Əzrayıl, get o uşaxların anasının canını al. Əzrayıl gəldi uşaxların anasının canını aldı. Geri qayıtmağ vaxdında Allahdan bir marala əmr oldu ki, o uşaxları qoyma ölməyə. Maral uşaxları ağzında bir-bir aparıb yuasına qoydu və öz məməsini uşaxların ağzına sıxdı. Uşaxları qoymadı ölməyə. Üç il bu uşaxlara maral baxdı.

Vaxt belə gəldi ki, bir kəntdə bir yoxsul aylə varıdı, bunun da dokquz qız uşağı varıdı. Dedi: "A kişi, ya get özünü yarğannan at, ya da başını apar daşın altda qoy, bu dokquz qız uşağını mən saxlıya bilmerəm. Get qazan, gəti". Kişinin bir berdanqası[45] vardı. Dedi: "Gedim orıya, görüm nə tapıram".

Bu, meşiyə tərəf gedəndə gördü kü, bir maraldı yönü o tərəfə, arxası buna tərəf. Dedi: "Haa, elə bu maralı vursam, uşaxlar bir ay yiyər". Tüfəngi götürür üzünə, çırık, açılmadı. İkinci gülləni qoydu, açılmadı, üçüncüdə tüfəngi kötüyə vuranda maral qaşdı. Baxdı ki, maralın dalınnan iki uşağ qaçır. Buları qoaladı tutsun. Vəhşi uşaxlar idi. Axşam tərəfiydi, tüfəngi də tərsinə keçirdi, bu oğlan uşaxlarını hərəsini bir əlinə alıb evə gəlirdi. Bunun yoldaşı evin üstə çıxıb baxanda gördü kü, əri gəlir, əmbə hər əlində bir uşax gəlir. Gəlhagəl görür iki uşaxdı, vəhşi uşaxlardı. Dedi:

– Bu nədi?

Dedi:

– Allah-taaladan mana rast oldu.

Dedi:

– Ə, bu dokquz qız uşağını saxlıya bilmirsən, bunu nətər saxlıyassan?

Dedi:

– Arvad, ürəyini sıxma. Allah versə, bunnan da verəjəh.

Ojağa qazan asmışdı – xörək, həm bu uşaxlar yidi, həm özdəri yidi, kutarmadı. Bu uşaxlar, beləlihlə on səkkiz yaşına çatana qədər bu ayldə yaşadı.

Bir gün şəhərin padşahı vəzirnən gedirdi. Gördü bu həyatda iki oğlan uşağı var, heç misli-bərabəri yoxdu. Dedi:

– Vəzir, bu uşaxları al.

---

[45] Berdanqa – tapança, silah

Vəzir gəldi:
– Ə kişi, bu uşaxları mana sat.
Dedi:
– Ə, dəlisən, divanasan, mən buların sayasına dolanıram, harya vererəm, ə, uşağı.
Padşah işara elədi ki, qızılnan baravar ver. Arvad işara verdi ki, kişi, ver. Uşaxları padşah apardı, hərəsini bir qoşuna sərkərdə qoydu. Bular burda işdiyən vaxtı Allahdan əmr oldu Əzrayıla ki, get o uşaxların canını al. Əzrayıl yaxınnaşanda, bu uşaxların rənginə baxanda qorxdu. Ardıc kolu vardı, burya girdi. Allahdan səda gəldi ki, Əzrayıl, nooldu? Dedi:
– Bu uşaxlardan xof etdim.
Dedi:
– O uşaxları tanıyırsanmı?
Dedi:
– Xeyir.
Dedi:
– O dəryanın qırağında anasının canını aldın ha, həmən uşaxlardı.
Bu, öz-özünə fikirrəşdi, dedi: "Allahtaala, sənin o gününə də şükür, bu gününə də şükür". Həmən o söz burdan əmələ gəlif.

## 108. BƏXTİNİ SINAYAN ARVAD

Bir şahın üç arvadı olur. Bu üç arvadın ikisi tənbəl, pinti, bekar, biri qəşəh. Bu qəşəh arvad o qədər işdiyir, o qədər çalışer, heç nökərlərə imkan vermer, qulluqçulara imkan vermer. Bişirmək, düşürmək, yığmax. Şah heç munu çox istəmer, munun qədrini bilmer. Tənbəl arvatdarına yaxşı şeylər aler, yaxşı padarkalar aler, yaxşı paltarlar aler, yanında gəzdirer. Bu arvad o qədər heyifsilənir, o qədər talehinnən küskün olor, tutur şahın yaxasınnan. Deyir:
– Şah.
Deyir:
– Haa, otur görüm burda, mana cavab ver.
Deyir:
– Nədi?

Deyir:
– Bir belə sana çalışeram, işdeerəm, əmək çəkerəm, cafa çəkerəm, niyə mənim qədrim bilinmer? Sən yiyif yatan, başının kirini, əyağının kirini yüyə bilmiyən arvatdara belə qızıl alersan, belə gümüş alersan, belə baxersan, belə saxlıyırsan, belə çox isteersən.
Deyir:
– Ay arvad, o mənnən asılı döy. Sənin talehin elədi, onların talehi də belədi.
Deyir:
– Nə bəxt, nə taleh?
Deyir:
– Yaxşı, gəl.
Üçü də öydə oturormuş. Şah deyir:
– Durun, məhlənin o başında bir quyu var, o quyunun başına gedək, sizin baxtınızı, talehinizi ordan istijəm. Mən oroya bağlatdırmışam taleyinizi.
Geder quyunun başına çıxer. Quyunun başına çıxanda bu çirkin arvatdarın birinə deyir ki, yeri get, talehini ordan istə. Gəler, ağzını quyuya tutor, deyir:
– Ay mənim baxtım.
Deyir:
– Can baxtım, can taxtım, nə istirsən, nəyə ehtiyacın varsa, mana de, verim, apar.
Şah əlinən işarə eliyir, bu qayıdır şahın yanına əler. İkinci arvad geder. Geder, bu da ağzını tutor, deyir:
– Ey mənim baxtım, ey mənim taxtım.
Deyir:
– Baxtına da qurvan, taxtına da qurvan, haycan, nə istirsən yolunda hazıram. Canım da sana fədadı.
Muna da deyir ki, sən də gəl. İndi bu gözəl, göyçək qadının ürəyi döyünör, çırpıner ki, ilahi, mən bu qədər qoçağ, bu qədər yaxşı... Bu çirkinlərə belə deyən gör mana nə deyəjək. Məni başına qaldırıf birliyanta çöörəjəh. Geder ağzını quyuya tutor, deyir:
– Ey mənim baxtım!
Deyir:

– Azzar baxtım, çor baxtım, qara gəlmiş baxtım! Navar, nəyə gəlifsən? Çıx burdan cəhənnəm ol, günü qara. İş səndə, qabiliyyət səndə, qoçaxlıx səndə. Səni düzə tullasalar, ordan yer eşif, özünə bir kümə düzəldif çörək tapajaxsan yeməyə. Nəzirsən burda, niyə gəlifsən?

Şah deyir:

– Arvad, eşitdinmi, gördünmü? Bu sənin baxtın, bu sənin talehindi.

Bəzi arvatdar var ey, deyillər açılmadı qara baxtım. Həmin söz burdan qalıf.

## 109. PADŞAHIN ŞÜBHƏSİ

Patcahın bir neçə qadını olur, uje yaş da haklıyır bunu. Allahtaaladanmı, necəmi, gəlir bunun ən kiçik arvadınnan bir evladı olur. Patcahın da uje yaşı atmışı ötmüşdü. Nəsə, öz-özünə şüphələner. Bir il keçmer, ikinci dəfə yenə o qadınnan bir oğlan uşağı olur. Nəsə, bu öz-özünə deyir: "Ay dili qafil, mənim neçə qadınım, xanımım var, noldu qırx ildi olardan uşax olmadı, gəldi bunnan oldu". Nəysə, vəzir-vəkili yığır, məslahat eliyir ki, bu nədi? Hərə bir söz deyir. Patcah yenə elan verir, dünyagörmüş ahıl adam olur, gəlir deyir:

– Patcah sağ olsun, mən heş nə deyə bilmərəm, ancax bu uşaxları ver maa, qoy mən bu uşaxları tərbiyə eliyim.

Deyir:

– Necə tərbiyə?

Deyir:

– Ver maa da, tərbiyə eliyim, mən saa dəqiq deyəcəm ki, bu sizin evladızdı, yoxsa necə... Sizin şübhənizə də hə, yox, cavab deyək.

Dünya görmüş bu qoca kişi uşaxları götürür, necə lazımdı qulluğ eliyir, hər şeynən təmin eliyir. Görür bu uşağın biri elə pıçax itiləməhnən, xənçəl oynatmaxnan məşğuldu, o birsi də elə ala qoyun belə etdi, qara qoyun elə etdi, naxır belə etdi, belə danışır. Bir gün, beş gün. Görür uşaxlar elə həmən qaydeynan hər şeyi təkrar eliyir. Uşaxları götürür gəlir, deyir:

– Patcah sağ olsun, hal-qəziyə belədi.

Deyir:
– Sən necə ayırd elədin?
Deyir:
– Bu birinci uşax – puçaxnan oynuyan uşax qəssabdandı, sə-ən oğlun döyül. İkinci uşax çoban oğludu, o da elə bütün günü ala qoyun, qara qoyun, xallı qoyun deyib durur.
Deyir:
– Bə bunu necə sübut eliyək?
Deyir:
– Patcah sağ olsun, o xanımı çağır, onnan söhbət eliyək üçü-müz, o, həqiqəti bizə deyəjək.
Qadın gəlir. Deyir:
– Belə-belə. O dünyagörmüş ahıl adam belə deyir ki, bu uşaxlar biri çobannandı, biri qəssabdandı. Sən nə deyirsən?
Qadın görür kü, iş o yerdə döyül, deyir:
– Patcah sağ olsun, sənin yanında günah işdətmişəm, ancax səhfimi boynuma alıram. Mən gördüm ki, sənin qadınnariyın hamısı yaşdıdı, ən cavanı mənəm. Oların beş il, üç il ömrü qalıb, olar dünyadan köçəcəh, siz də yaşdaşmısız. Elə ona görə də mən bu işə əl atdım ki, var-devlət mənə qalsın, evlatdarıma qalsın. İndi nə günahım var mən hazıram.
Patcah deyir:
– Hə, mən uje başa düşdüm kü, necə səhf eləmişəm.
Qadına da deyir ki, bu səhfi eləmisən, heç kəsə demə, elə öz aramızda qalsın, ölənə kimi də Allah yuxarıda şahiddi bizə.

## 110. ATANIN YALAN ANDI

Keşmişdə bir ata olur. Bu atanın gözünün ağı-qarası bir oğlu olur. Keşmişdə aylədə çox uşax olurdu. Həmin kənddə onun yan-yörəsində hərənin dörd-beş oğlu olur. Bu kişinin də bir oğlu. Ona görə bu kişi həmişə bu oğlunu hər şeydən çox istiyirmiş. Qonşunun oğlannarı hamısı tüfəng götürüf oya gedir, hər işnən məşğul olur, ancax bu ata oğlunu çox qorğalıyırmış ki, birdən nəsə olar oğluna, amandı.

Bir gün bu oğlu deyir ki, ata, bəs mən də getmək istiyirəm oya. Tüfəngi ver, mən də gedim. Deyir:

– Yox, oğul, tüfəng yoxdu.

Deyir ki, niyə yoxdu, bəs var idi. Deyir:

– Satmışam.

Deyir:

– Onda and iç.

Atasının goruna and içir ki, satmışam, tüfəng yoxdu. Oğlan inanmır ataya. Deyir ki, yəqin bu yalandı. Fikirrəşir ki, necə eliyim örgənim bu, doğurdanmı tüfəngi satıf, yoxsa hardasa saxlıyıf? Bir gün qoyunun dərisini sənəyə doluyur. Elə eliyir ki, qıraxdan baxanda ayıya oxşuyur. Düzəldir bunu, atası yatan vaxdı çıxır çölə. Qışqırıf qaranəfəs gəlir ki, ay ata, ay ata, həyətə ayı gəlib. Pilləkənin başına çıxıf ayı. Az qala məni basmışdı, parçalamışdı. Kişi tez gedir palazın arasında gizdədiyi tüfəngi götürüf tap-tap səəngə vurur. Oğlan gülür, deyir:

– Ay ata, bəs sən neynədin? Mən yalannan eləmişdim onu. Sənin bu tüfəngi ortaya çıxartmağını istiyirdim ki, görüm həqiqətən tüfəngi satmısan, yoxsa yalannan atanın goruna and içersən. Nəyə görə sən belə elədin?

Deyir:

– Ay oğul, sən mənim gözümün bəbəyi bir dənə oğlumsan. Mən səni qorumaxdan ötrü, məcbur oluf atamın goruna and içmişəm.

## 111. QATIRIN NALLANMASI

İrağ üzdən, bir kişinin bir qatırı varıymış. Bunu harya aparersa, nallada bilmer. Nalvəndə imkan vermir qatır. Gah təpikler, gah nağayrer. Kişi: "Ayə, mən nağayrem, bunu harda nalladem, kimə nalladem?" Axırı əlaci kəsiler, soraxler, soraxler, deyillər ə, filan kəntdə köhnə bir nalvənd var. Kişi qatırı da çəkə-çəkə miner geder. Deyir:

– Nədi?

Deyir:

– Mənim bu qatırımı nallamax lazımdı.

Deyir:

– Hardan gəlifsən?
Deyir:
– Filan yerdən.
Deyir:
– Öyün yıxılsın, ordan burya nalbənd yoxuydumu?
Deyir:
– Vallah, nallıya bilmədilər. Qatır imkan vermədi.
Deyir:
– Hə, gəti.

Gətirer, adi yolnan qatırı nallamax istiyəndə görör ə, bu təpikler, nəvilim, əyağın ater, əlin ater. Təzdənnən uşağa deyir:

– A bala, get o damda eşşəh var, o eşşəyi gəti burya.

Gətirer, qatırın gözünün qavağına bağler eşşəyi. Eşşəyi bağler orıya, kişi başder köhnə qaydada, kirimişcə qatırı nallıyır. Nalvənd bunu nallıyır, bu da nalvəndin pulunu verer. Deyir:

– Əyə, qardaş, bax, bu qatır əvvəlcə nallamağa imkan vermədi. Bir-neçə nalvəndə də apardım bunu, imkan olmadı. Mana de görüm, bunu nağardın ki, bax bu belə sakit durdu?

Deyir:

– Ə, nağayrejam? Onun dədəsini gətdim gözünün qavağına bağladım ki, oynaxlıyıf eləmə, dədən o eşşəh döyülmü? Onnan sora kirimişcə durdu.

## 112. HANSIMIZ GÖZƏLİK?

Günlərin bir günü bir qadın o birsi qadınnan, kəntdi da, eldi-obadı, başdıyıllar rəqabət aparmağa. Bu rəqabət nəyin üstündə tüşür? O deyir, sən çirkinsən, bu deyir, sən çirkinsən. Biri ordan çıxır, biri burdan çıxır. Başdıyıllar bular dava-dalaş eləməyə. Bular uje artıllar, olurlar yeddi nəfər. İndi biz eşitmişih yeddi gözəl, bular o yeddi gözəllərdən deyil. Çox dava-dalaşdan sora ağıllı bir qadın bulara məsləhət görür kü, a kişinin qızdarı, hər gün siz kəntdə dava eliyirsiz. Çəkilin bir tərəfə, ötənnən-keçənnən bir sual-cavab eliyin, görün hasınız gözəlsiniz? İndi siz bir-birinizi pisdiyirsiniz, o sənnən rəqabət aparır, o səni söyür, bu səni döyür. Bular razılaşellar. Çəkilellər bir kəndin qırağında bir meşəliyə.

Qərara gəlillər ki, burdan keçən kişi xaylağınnan soruşajeyih, görək hansımız gözəlih. Və bu tərəfdən qərara gəlillər ki, hansı kişi bizi pisdəsə, onu məhv eliyəjeyih. Bular belə qərar qəbul eliyillər. Baxıllar ki, meşədən bir kişi gəlir. Görünür kü, bu da mala gedib, buzoya gedib, oduna gedib, nəyəsə ehtiyacı var da. Bu kişi gələndə bunu çağırıllar ki, kişi, yaxınnaş da bizə. Kişi yaxınnaşır bulara. Yaxınnaşan mamenti buna sual verillər ki, kişi, səni bilirsən nədən ötəri çağırmışıx? Deyir, xanımlar, nədən ötəri çağırıfsınız məni? Deyir ki, de görəh hansımız gözəlih? Axı bunlar o qədər gözəl deyillər ki, bunun hamısına gözəl desin. Baxır, görür, buların içində bir nəfəri hamısınnan gözəldi. Birini göstərir ki, bax, bu gözəldi. Kişini məhv eliyillər, atıllar kənara ki, bu bizə niyə çirkin adı verdi. Bir nəfərə gözəl dedi, qalanı gözəl dööl.

Nəysə, bir az gözdüyüllər, indi ikinci kişi gəlir.

– A kişi, burdan gəl.

Bu kişi də yaxınnaşır bulara. Kişi nə bilsin ki, bunun başına nə iş gələjəh burda. Bu gəlir, buna çatannan sora gənə həmin sualı ikinci kişiyə də verillər ki, hasımız gözəlih. Səni ona görə dəvət eləmişih burya. Bu da həmin şeyi deyir. Bu kişini də məhv eleellər. Bir də baxıllar ki, uzaxdan biri arxasında odun şələsi meşədən gəlir.

– Kişi, bir şələni qoy yerə, gəl bura.

Kişi şələni qoyur, yaxınnaşır bulara. Fikirrəşir ki, ilahi pərvərdiyar, meşənin qırağı, yeddi qadın, bular nəyə yığışıflar burya? Burda axı toy döy, bayram döy, bura kəntdən uzax. Bu qadınnarın nədi fikri, özü də hamısı qadın? Yannarında bir kişi xeylağı da yox. Kişi, ağıllı kişi olur. Deyir ki, buyurun, xanımlar. Kişiyə həmin sualı verillər. Deyillər ki, hasımız gözəlik, onu göstər. Kişi özü-özünə fikirrəşir ki, yox! Nəsə burda bir sirri var. Bu sual boş-boşuna deyil. Kişi ağıllı kişi olur. Fikirrəşir, deyir ki, baxıram hamınıza, hamınız gözəlsiniz. Biri-birinizdən sizi seçməh olmur. Xanımların biri deyir ki, nejə yanı gözəlih? Deyir, ilahinin verdiyi gözəllih sizdə var. Kiminiz xasiyyətinə, kiminiz sir-sifətinə, danışığına görə gözəlsiniz. Yeddi nəfərin içində bir çirkini yoxdu. Hərənin öz gözəlliyi var. Həmin kişini də qadınnar sağ-salamat buraxıllar, çıxır gedir. Odur ki, insanda ağıl. Bu xanımlar gəlillər kən-

də, aralarında razılaşellar. Qonum-qonşunun da qulağı dincəler. Dava-dalaşdan da cannarı azad olur. Onnan sora başdellar bular insan kimi yaşamağa, da dava-dalaşnan yox.

## 113. VƏTƏNƏ GƏLDİM, İMANA GƏLDİM

Bir türk, ərəb, fars bir şaha qonax gedir. Gedir, camahat yığılır. Elan verilir, şah qonax gəlif. Hamı yiyir-içir, şadlanır, vəzir, vəkil. Şahların yanında bilici olarmış. Bilicinin məsləhətinnən durub-oturallarmış şahlar. Vəzirdi, vəkildi, şahdı, bir də bilicidi. Məclisdə oturollar, hamı yiyir-içir şadlanır, söhpət eleer, eyinnəri açılır. Bir quş da qəfəsdə ötör gözəl bir səsnən. Bu ötdükcə, bilici ağlıyır. Bu öy yiyəsi şah deyir ki, ə, mən bura ağlaşmağa ha çağırmamışam sizi. Xoş sözdər danışax. Hamı şaddanır, sən də bikef durufsan. Səni bikef görüb mən də bikef oluram. Deyir, o quş ağladır məni. Deyir, o nə der? Bə o oxuyanda mən şadlanıram, ruhlanıram, ömrüm artır. Deyir, onun səsi gözəldi, amma dediyini sən qanmırsan, bilmirsən. Deyir, nə deyir? Deyir, o, vətən deyif ağlıyır. Vətən, vətən, vətən. Deyir, bə nağayrım? Deyir, neçə ildi onu qəfəsdə saxlıyırsan? Deyir, on ildi. Deyir, onu Allahın rizasınnan burax, əmmə müşahidə elə gör harya tüşəjəh o!

Gedir bir göldə çırpınır, parvazdanır, gənə gözəl səsnən oxuyur. Gedir qoja bir yulğun ağacının başına çıxer. Orda da oxuyur: "Vətənə gəldim, imana gəldim!" Vətən elə şeydi.

## 114. ATAM , OĞUL, CAN QARDAŞ

Biri varıydı, biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir kəntdə bir arvat varıydı. Bu arvadın bir oğlu, bir əri, bir qardaşı – üçünü də hökümət çağırmışdı. O vaxtı qazı deyirdilər. Qazı çağırıf deyir, sizin bu adamlarınıza sud olojax, iş veriləjəh, filan. Camaat yığılıf, millət yığılıf, hamı baxır. Arvat fəryad eliyif, o baş-bu baş gedif-gəlif ağleer, hönkürör. Qazı bunun üçünə də ölüm hököm verməlidi. Camaat deyir ki, ay qazı, bunun birini bu arvada bağışda. Üçünü də aparma, buna zülüm olar. Qazı arvadı çağırer, deyir:

– A bajı, a bajı, burya əl!

Gəler. Deyir:

– Ərini, qardaşını, oğlunu – üçünnən birini seç, götü.

Arvat irəli yeriyer, əlini gözünün üstünə qoyor, deyir:

– Atam sana qurvan, ər eldən gələr, oğul beldən gələr, atam oğlu can qardaş.

Muna camaat təəccüb eleer.

– Arvat, nə danışersan? Bu nə deməkdi? Bizi başa sal.

Deyir:

– Ərimi tutallar, öldürəllər, asallar, nə çoxdu kəntdə kişi, birinə ərə edərəm, olar ərim. Oğlumu da tutallar, asallar, kəsəllər, birin də doğaram, olar oğlum. Amma anamı, atamı tapıf dirildif, oları bir-birinnən görüşdürüf qardaş əmələ gətirəmmərəm. Ona görə deyirəm ki, ər eldən gələr, oğul beldən, atam oğlu can qardaş.

Arvadın bu ağlına heyran qaler qazı. Onun üçünü də azad eler. Deyir:

– Arvad, bunun üçünü də saa bağışdadım, çıx get.

## 115. DƏLLƏKLƏ QƏSSABIN BƏHSİ

Bir kənt olor. Bu kəntdə bir dəlləh olor, bir də bir qəssav. Bu dəllək də çox hörmətdi adam olor kənd içində, bu qəssav da yaxşı böyük adam olor. Ta adı-sanı var, hamı deyir ki, filan dəlləh, filan qəssav. Ta bular ad çıxardıv, addarı var.

Bir gün, nəysə, bular oturuf söypət elermiş, nağayrermış. O deyir, mənim oğlum qoçaxdı, yaxşıdı, o deyir, mənim oğlum qoçaxdı, yaxşıdı. Deyir, a kişi, gəl oğlumuzu on gün, bir ay bəsdiyək. Bəsdiyənnən sonra oğlumuzu güləşdirək. Kimin oğlu yaxşı oldu, yıxdı, güləşə yaxşı getdi, kişi odu. Deyir, yaxşı.

Dəlləh aparer, başdıyır gündə bir dəfə oğlunun üzünü qırxer, başını qırxer, çimizdirer, yüür, özü baxer, normalnı yedirder, munun idmanınnan məşğul olor. Buna belə baxer.

Qəssav da deyir, a sənin başına daş tüşsün, indi mən baxem, sən tamaşa elə. Heyvannarı kəser, yağlı böyrəhləri çıxarder, ürəyi çıxarder, quyruxdan çıxarder, kavavı çəker, gündə üş dəfə, dört dəfə, gədiyə yidirder. Gədə öz-özünə quyrux gətirer, qarın qavağa süzör, göt dala. Bu burda belə kökəlməhdə, bu burda belə olmaxda olsun.

Vaxt günü gəler, vaxt tamam olor. Bir ay tamam olor. İndi bir, nəvilim, meydanıymış, xırmanıymış, nə imiş, burya yığılellar. Deyillər, dəlləyin oğlunnan qəssavın oğlu güləşəjəh. Dəlləyin oğlu ortuya gələndə öröllər, bir nəzik, bir şıvqım, bir cavan uşaxdı, qabiliyyətdi. Qəssavın oğlunu ətirəndə öröllər, ilahi pərvərdiyara, gözdəri örtülüb, piy basıf, puxax yerə dəyer, qarın irəli süzüv, göt geri süzüv, ağız ayrıx qalıf, ağzınnan heliy tökülən bir pəhlivan. Deyir, yaxşı.

Ortuya çıxan kimi dəlləyin oğlu üççə dəfə qaldırer qəssavın oğlunu yerə vuror. Hamı əl çaler, hamı halal olsun deyir sana. Deyir əsl pəhlivan, əsl kişi, dəlləyin oğludu. Qəssavın oğlunnan heç-zad olmaz. Bax bu da dəlləhnən qəssabın nağılı. Balaca da olsa maraqlıdı, mənalıdı.

## 116. HALALLIQ

Bu faktdı, nağıl döyül. Bir vədə burdan bir zəvvar Məşədə beş-on nəfər ziyarətçi aparmışmış. Gediflər bular, İranda bir kəntdə qonağ qalıflar. Hansı ki, bu kişinin, zəvvarın qonaxçı yeri oluf. Deyək ki, gedəndə bunlara çay pulu verərmiş, filan verərmiş də, o adamı da dolandırarmış. Karvansaray kimi onun evindən istifadə edərmiş, ona xeyir verərmiş. Bu nə vaxt gedərmiş, görərmiş ki, bu ev yiyəsinin arvad-uşağı taxıl souror. Deyib kin, ə, sizin nə qədər yeriniz var, hər dəfə gələndə görörəm taxıl sovurorsuz? Deyir ki, əkin üçün döyül, satış məqsədiynəndi. Deyir, a kişi, bir halda ki satış məqsədiynəndi, munu neynirsiz bu qədər təmizdiyif? Deyif, ə kişi, bə sizdə nətər eliyillər, nə cür eliyillər? Deyir, ə Vallah, mən o kəntdə-kəsəhdə üç-dört nəfər taxıl alverçisi görmüşəm, onlar onun içinə torpax da tököllər. Deyəndə bu arvat qayıder deyir:

– Ay qağa, sizdə heç yağış yağermı?

Deyir:

– Hə, hərdən-hərdən.

Deyir:

– Heyvan saxlersınızmı?

Deyir:

– Hə.

Deyir:

– Yağışı Allah o heyvanın üzünə yağdırer, sizdih döyül. Ə, deyir, Quranda yazılıf ki, ticarətdə insafı unutmaynan. Ə, biz munu xəlvirriyif saterıx, sən də deyirsən mənim tanıdığım adamlar içinə torpax da tökör.

## 117. BUNA DA ŞÜKÜR

Bir ovçu kişi olor. Bunun var-yox bir oğlu varıymış. At çapermışdar uşaxlar, at çapanda oğlu atdan tüşüf qılçası qırılıf, dizdən kəsiflər. Gələndə görör ki, arvad oturuf ağler. Ova da gedəndə o vaxtlar on, on beş gün gedəllərmiş.

– Noluf, arvat?

Deyir:

– Uşağın qılçası kəsildi.

Deyir:

– Buna da şükür!

Deyir keçer, gətdiyi oydan pişirellər-tüşüröllər. Bir də geder bir-neçə günnən sonra gəler. Gələndə örör el-ova hamısı deyif gülör, bunun arvadı qapının ağzında oturuf ağler.

– Arvad, niyə ağlersan?

Deyir:

– Uşaxlar qarğı-qarğı oynormuşdar, uşağın gözünə qarğı batıf, gözünün biri çıxıf.

Deyir:

– Arvad, buna da şükür!

Üçüncü səfər gələndə görör kün, kənd od tutuv yaner bir dənə bunun evinnən başqa, camahatın hamısını da qılışdan keçiriflər. Arvad duruf bunu gülər üznən qarşılıyır. Kəntdə adam yoxdu, hamısını qılışdan keçiriflər, evləri oddoflar. Deyir:

– Arvad, noluf bu kəndə?

Deyir:

– Vallah, o birsi kəntdən gəldilər yağılar (düşmənni imişdər), kəndin hamısını oddadılar. Gördülər oğlun bir qıçı yox, bir gözü kor, dedilər bu bizə neyliyəsidi. Ona görə bizim öyə dəymədilər.

Deyir:

– Arvad, demədimmi, buna da şükür!

# II. ETNOQRAFİK MƏTNLƏR

## 118-122. XIDIR NƏBİ

Bizim bayramların biri də Xıdır Nəvi bayramıdı. Gözümüzü açıf biz böyühlərmizdən görmüşüh. O bayramı bu birisi bayramlar kimi də qeyd eləmişiy, hələ olardan ötə. Kiçih çilənin on günü qalanda Xıdır Nəvidi. Xıdır Nəvi bayramı üş gündü. Bir gün onu təmizdellər. Kimi buğdadan eliyir, kimi qarğıdalıdan. Həmi nəzir kimi sayıler, həmi bayramdı. Yüərdih, qurudardıx, sajı arxası üstə çevirərdik, külünü tökərdik, onu orda qovurardıx. Buğda, yaxud qarğıdalı ayrı-ayrı. Sora da onu aparıb çəkərdik kikirədə. Onu kikirədə çəkərdik, gətirərdik, onnan qoyut deyilən bir yeməh düzəldərdik. Üç günüydü. Birinci gün qourardıx, ikinci gün onu kirkirədə çəkərdik, üçüncü gün onu hazırrıyardıx. Onun hazırranmışını qoyardıx bir qırağa. Üçüncü günü hazırradığımız unu qoyardıx bir qavda stolun üstünə ki, peyğəmbərimiz gəlib ona əl basar. Xıdır Peyğəmbərin bu nəziridi, ona nəzirdi. O Xıdır peyğəmbər gecə gəlib ona əlini basardı. Qarannıxda heç kimin gözünə görümməzdi. Əlini basardı, hasasını sancardı ona. Savax duruf hamı o una baxardı ki, görəh, Xıdır peyğəmbər gəlif kimin ununa əlini basıf. Onda o şad olardı ki, peyğəmbər beyjə gəlib mənim qoyud unuma əlini basıf. Belə də deyərdilər, Xıdır peyğəmbər deyif ki, bunu qouranda qızım qoursun, çəkəndə gəlnim çəhsin, hazırrıyanda arvadım hazırrasın. O qoudu qouranda buğda çoxaler. Kikrədə unu çəkəndə, un azaler. Onu hazırrıyanda, çoxalar yenə. Bax belə də bir deyim eşitmişih.

Üçüncü gün çıra hazırrıyardıx. Həmin gün gündüz hamı armut ağacının başınnan, meyvə ağacının başınnan çuvuxlar qırardılar. Hardasa bir iyirmi santı, otuz santı çuvuxlar düzəldərdilər. Ailədə kimlər varsa, hərənin adına bir dənə. Kimlərsə rəhmətə gedif o evdə, o ölülərin də adına hərəsinə bir dənə. Ölülərinki bir tərəfə, ad eliyərdilər, dirilərinkini bir tərəfə, sayınnan. Başına da pambıxdan, biz lopa deyərdik, belə doluyardılar lopa düzəldərdilər. Ona başına bağlıyardıx belə, ona da bizdə çıra deyəllər. Hərənin adına birini qoud ununun üstünə, böyrünə sancardılar. Or-

da yandırardılar hərənin adına bir çıra. Ölülərin adına düzələni də aparardılar qəbirsannığa. Kəntdə kimin ölüsü vardısa, gedərdi qəbirsannıxda hər qəbirin üstünə birini sancardı, orda yandırardılar. Gözdüyərdilər, orda sönərdi, qayıdıf gələrdilər. Bax belə bir deyim də var ki, öləndə gorumda çıra yandırajaxsan. Bax həmən deyim də həmən çıradan qalıf.

O qoudu da hazırrıyannan sonra, ouşdarında sıxmalıyıf dümbəh kimi eliyərdilər. Qapıya gələnə, qonum-qonşuya – hər kəsə onnan paylıyardılar ki, bu nəzirdi, Xıdır peyğəmbərin nəziri. Hamıya paylıyardılar, bayram eliyərdilər, şadyanalıq eliyərdilər.

Bir də ki, o qoud çəkiləndə, uşaxlar hamımız biri-birimiznən zarafatdaşardıx, belə əyləncə kimi. O unu adam ağzına alanda adamı boğardı. O muna deyirdi ki, ala, bu unu ağzına al, denən ki, palıt pa! O da ağzına alanda, onun gəniziyinə[46] gedərdi, evə dağılardı. Hələ onun üstündə döyülərdik evi batırdıx deyə. Ağzına alardı, onun xirtdəyinə gedərdi (çox quru olordu, qovrulmuş unnandı axı), çaçıyardı[47], dağılardı evə. Hələ bir onun üstə danlanardıx, döyülərdik ki, evi batırdınız, unu dağıtdınız. Hətta onun üstə döyülərdik ki, bunu əyaxlamax da olmaz. Bunu əyağ altına niyə dağıdıfsınız.

Bax belə adətimiz də varıydı. Hal-hazırda da Xıdır Nəvi bayramını qeyd edirik.

**119.**

Fevral ayının birinci ongünlüyüdü. Anbarda taxıl kutarıf, pul kutarıf. Nağarax, nağayrax, kəntçi deyir: "A bala, tüş o anbarı süpür, ordan bir sərniş küncdən-bucaqdan buğda çıxajax". Bu buğdanı gətirerdilər, sajı çörördülər, bu buğdanı yüüf sajı çörör, bu buğdanı qorordular. Onnan sonra bunu aparıf dəyirmanda üyüdördülər. Buna qoud deyirdilər. Bəhməznən o qorulmuş buğdadan üyüdülmüş unu qater, yiirdilər. Bu olordu Xıdır bayramı, buna Xıdır Nəvi bayramı deyillər. Fevralın 9-10-na tüşör. Əlamətdəri, məsələn, canavar çöldə qoyunu tutuf parçaler, ada-

[46] Gənizik – burunla udlağın arası, nəfəs borusu
[47] Çaçımaq – öskürmək

mı tutdu, adamı yiir... Xıdır Nəvidə demirlər “Xıdır Nəvidi, çölə çıxma ha, canavar səni yeyər”. Yəni, o zamanda Xıdır peyğəmbər küləhnən, tufannan, camahatın dadına gəler ki, bax bu şeyi eleyin. Bunu süpürün, sajda qoorun, dəyirmanda üyüdün, bəhməz qatıf yiin, beş-on gün tutumlu olun. Üstünnən beş gün, üç gün keçmiş Nooruzgülü çıxer. Artıx Nooruz ərəfəsi gəldi, çərşənbələr gəldi, çillələr getdi.

**120.**

Böyük çillə çıxır, kiçik çillənin ortasında fevralın onunda keçirilir. Qarğıdalını, buğdanı qovurannan sora dəyirmana aparıllar, üyüdənnən sora bəhməz, bal qatıllar. Onu üyüdənnən sora gətirif evə qoyullar, meşoyun ağzını açıx qoyullar ki, Xıdır baba gəlif çomağını ona vuracax və ruzu-bərəkətimiz artacax. Hər evdə bişirilirdi, qonum-qonşuya pay göndərilirdi. Xıdırın gəlişi nəynən bilinir? Yazda sərin meh əsir, ona Xıdır küləyi deyillər. Canavarın kürsə gedən vaxtı olor.

**121.**

Xıdır peyğəmbər guya yelnən hərəkət eliyən bir peyğəmbərdi. O olur fevral ayının 10, 11, 12-sində. Buğdanı, qarğıdalını təmizdiyənnən sora sajda qoorollar. Qoorannan sora onu nəzir kimi aparırsan dəyirmənə, yerə tökmək olmaz, dəyirməndə üyüdülör. Pesoğu suda qarışdırıb onun üsdünə tököllər, qarışdırıb yeyillər. Deyilməyə görə, köhnə kişilər altı aylıq ziyarətə gedəndə həmən ərzağı götürüflər. Qout Xıdır peyğəmbərin nəziridi. Nəzir kimi deyillər. Burda bir qohumumuz vardı, beş qızı olmuşdu, növbəti uşağa boylu idi. Yoldaşım nəzir elədi ki, yeddi il qout qayırıb olmayana paylıyacam bir oğlu olsun. Allah da eşitdi, bir oğlu oldu. Qoutu eşiyə qoyullar, Xıdır Nəbi gəlib əsasını basırsa, qəbul olunurdu. Onda görörsən həmən üç güdə hava küləkliyir. Onda deyillər, Xıdır Nəbi görkəzdi özünü.

## 122.

Qovutun içinə çiy yumurta qoyarmışlar, arzusu yerinə yetsə, baxtı açılsa qırmızı rəngə boyanardı. Deyirdilər ki, baxtın açılacaq. Xıdır Nəbi gəlif qırmızı çəkib.

## 123. NOVRUZ

Cənab Əmir bayramında baja-baja gəzdirirdik. Şər qarışannan sora gedirdik qapıya, "Dörüşdər" deyirdik, bir mahnısı var idi, onu oxuyurduq.

Döyrüşdər, ay döyrüşdər
Hax yolunda durmuşdar.
Əlif Quran başıdı,
Quran Allah işidi.
Bunu oxuyan uşaxlar,
Cümrü cənnət quşudu.
A xala, verin payımızı,
Aparax verək ustada.
Ustad yesin dad eləsin,
Allah sizi şad eləsin.
Verənin bir oğlu olsun,
Adı da Bayram olsun.
Bayramınız şad olsun[48].

Bunu kim oxumurdusa, ona pay vermirdilər. mahnını deyənnən sora ev yiyəsi çıxıb soruşurdu ki, a bala, usdadınız kimdi? Deyirdilər, Cənab Əli. Gətirirdi sənin torvana yağ da vererdi, meyvə vererdi, əriştə də vererdi. Dəsteynən gəzirdilər. Qapıda itdər olordu, itdən qorunmax üçün hərə əlinə bir ağac götürördü. İki-üş nəfər iti qovurdu, iki-üş nəfər də evə yaxınnaşıb mahnını oxuyardı.

---

[48] Variant: Verənin oğlu olsun,
Vermiyənin qızı olsun.
Bir gözü də kor olsun,
Əlinnən əppəy it alsın.

## 124-125. SAYA BAYRAMI

Deməli, dekabr ayının hardasa ikinci ongünlüyünün axırlarında, çillələr girən ərəfədə saya bayramı qeyd olunur. Əkinçilih o qədər güjdü olmuyuf, millət əsasən heyvandarlıxnan yaşıyıf. Qoyuna peyğəmbər surfası deyiflər. Qoyunun adı qızıl oxağıdı[49]. Qoyun oluf ildə iki dəfə bala verif. Qoyun oluf bir payız doğuf, bir cüt də yazbaşı doğuf, süd verif, yun verif. İndi gör qoyun nədi? Peyğəmbər surfasıdı da.

Bəzi hüröyün qoyunlar yaylaxda qaçarax qoç alarmış. Bunnar payız doğarmış. Deyək ki, noyabrda. Belə götürək noyabrın onunda qoyun doğarmış. Sürüdə yüz dənə qoyun var. Onun üçü doğdu. Buna deyərmişdər döl burnu. Yəni, döl tüşəjəh bunnan sonra. Döl burnu özünü göstərdi noyabrda. İndi dekabrın iyirmisidi, məsələn, ət-süd kutarıf. Qışdı, qar yağıf, çöldə bir metr qar var. Oğul-uşağın, filanın, ətəmi deyim, güjdü yeməyə deyim ehtiyacı var. O vədə döl burnu deyilən quzular kəsilərmiş. Bular qourma olunuf bardaxlara yığılarmış və yaxud da ki, oğul-uşağın, el-elatın, uşax-böyüyün qarnını doyduruf Allaha şükür eliyərmişdər. Bax bu ərəfədə Saya bayramı keçirərmişdər.

Anam a narış qoyun!
Tükü bir qarış qoyun!
Nənəm sənnən küsüfdü,
Südün ver barış, qoyun.

### 125.

Fevraldan marta qədər olan dövrdə döl düşör, döl qutaranda çobannar bayram kimi qeyd eliyir. Hətta çobannar döldən macal tapıb üzünü də qırxa bilmir. Döl qutaranda üzünü də qırxıb bayram edirdilər. Mart ayı qutaranda döl də qutarırdı. Sovet dövründə döl vaxtı kalxoz beş-on nəfəri çobana kömək döndərirdi. Döl kampaniyası keçirilirdi. On nəfər adam fermlara göndərilirdi, hər çobanın yanına üş-dörd köməkçi verilirdi. Tək adam öhdəsinnən gələmmerdi. Bir gejədə 20-30 qoyun doğurdu, biri aparıb onu

[49] Oxağ – ovuntu

kənarda mayalandırırdı, quzunun yeri ayrı olordu. Körpə quzunu kərəskəyə[50] qoyollar. Bir az onnan faraş olanı paçala qoyurdular. Paçal tolaya oxşuyur, bir az iri olor. Doğub mayalanan quzunu anasının yanına buraxıllar, bir müddət olara paçalda baxıllar. Kərəskəynən paçal arakəsmə ilə bir-birindən ayrılırdı. Doğanı o saat ayırıb balasını da, anasını da kərəskəyə gətirirdilər. Dölçü gederdi, çovanlara kömək edirdi. Döl qutaranda da üzünü, başını qırxdırırdı, heyvanın birini kəsib bayram eliyirdilər.

## 126. MÜSƏLLƏYƏ ÇIXMAQ

Sübh tezdən, hava işıxlaşmamış, tülkü durmazdan deyif camaat. Deyiflər tülkü durmazdan beş nəfər, üç nəfər ağzıdualı ağsaqqal səs çıxardan vannamı, dəmir-dümür götürərmişdər, çıxarmışdar yüksəh bir yerə. Ora çıxarmışdar, tezdən orda dambıldadarmışdar. Bu da nolan sözdü? Allahtaala deyir ki, mən gündə bir neçə dəfə amin deyirəm. Sən səhərdən axşama qədər şükürünnən qalma. Bir də, ən əsası, dermiş, mənim sizi eşidən vaxtım dan sökülən vaxtıdı. Niyə deyirmiş dan sökülən vaxtı? Dan söküləndə hamı yuxudan qalxıf, xeyir-şər eləmiyif, amma saat onda əhalinin əlli faizi günah eliyif, əlli faizi şər eliyif, əlli faizi böhtan eliyif, əlli faizi oğurrux eliyif. Amma sübh tezdən gözünü oxalıyıf qalxanda həmin gün üçün günah eləmev. Ona görə Allahtaala deyif ki, mən sizi dan yeri söküləndə eşiderəm. Dan yeri söküləndə mana dua eliyin. İnamlı adamlar, imannı adamlar, ağzıdualı adamlar bir yüksəh yerdən mana dua eləsin. Ola bilsin ki, mən sizi eşidərəm. Və bu məqsədnən müsəllaha, yəni yüksəh yerə çıxılıf Allaha dualar olunuf, yağış istənilif. Və Allahtaala burda bir məqama toxunuf. Deyir ki, ay mənim yaratdığım bəndə, onu bil ki, ola bilər ki, sənin dediyin dua saadına tüşər. Allahtaala bir gündə müxtəlif saatlarda, müxtəlif günlərdə, müxtəlif dəqiqələrdə, üç dəfə amin deyir. Allahtaalanın deməyinə baxmayaraq ki, dan yeri söküləndə mana dualar eliyin, amma günün müxtəlif saatdarında üç dəfə amin

[50] Kərəskə – quzu üçün qamışdan düzəldilmiş yer

deyir. Ona görə deer səhərdən axşama qədər şükürünüzdən qalmıyın. O duanız ola bilər, mənim amin dediyim saata tüşər, o yağış yağar.

## 127. CADÜGƏRLƏR HAQQINDA

Kalvayı Məhəmməd oluf, oxuyuf üfürürmüş, arpanı divarda yeridirmiş. Oxuyanda insanı anadangəlmə lüt eliyif. Bizim bu çayın üzərində oluf. Bəylərdən hansısa bunu məjbur eliyif ki, səndə cadügünnüh var, bizə gösdər. Deyif, a kişi, məni məjbur etmə, bu allah sirridi. Məjbur eliyəndə deyif ki, ras ki belədi, onda görərsən. Bir gəlin anrıdan bəri gələndə oxuyuf, görüflər gəlin soyuna-soyuna əler. Nəhlət şeytana eliyif geri oxuyanda gəlin utnana-utana geri gedif. Qadınnan soruşullar ki, sən niyə soyunurdun. Deyir, dünya-aləm od tutuf yanerdi. Bədənim alışdı, paltarı soyunuf tökördüm ki, bədənim yanmasın.

Molla Məhəmməd var idi, cadükün idi. Musa peyğəmbərin devrində nə oluf hamısı sehrbaz oluf. Onda Tövrat var idi. O enirdi çayın üsdündə otururdu, dizinin üsdündə dua yazerdı. O yazdığı duanı sənə versə, şahın üsdünə getsən şah atkaz eləmerdi, səni qəbul eliyirdi. O öləndə onu qəbir götürmədi, ona yeddi qəbir qazdılar. Günah özüynən, danışılanı deyirəm. Deyir qəbiri qazerdılar, hazır olanda xəvər eliyirdilər ki, gətirin. Xəvər oraya çatan kimi qavır uçurdu, içi torpaxnan dolordu. Axırı o yerə çatdı ki, Tovuz rayonunda Cindar Həmzə olof. Gedillər o cindarın yanına. O deyif ki, onun yeddi arxa dönən qohumlarınnan yığın, daş götürsün hərəsi, o qəbir qazılan yerə lənət oxuyuf daş atsın, yeddinci qəbrdə onu dəfn eləyin. Ona kimi altı qəbir qazıflar hamısı uçuf.

Kirpi balalıyan vaxt onun balasın palçığa bük, bilinməsin ki burda kirpi var, apar yuvasına qoy. Kirpi gəlif görəjəh balası yuvada yoxdu, yumru palçıx var. Yaxın gedəmmiyəjəh. Hardasa bir ot var, kirpi o otu tapıf gətirif onun üsdünə tulluyan kimi palçıx dağılajax, kirpinin balası çıxajax. O otu kim tapıf üsdünə tiksə, o sehrbazdı.

Bayquşunu gözünün biri yuxuculdu, biri eycildi[51]. Onun deyir biri suya bater, biri batmer. Yuxuculu üsdündə götürsən, gözün yuxudan açılmıyajax. O eycili tapıf götürsən, oannan kim sənin üsdünə nə fikirnən gəlsə, hamısı sənə aydın olor.

Şahmar ilanı öldürüf yerə basdırırsan, ağzında buğda dənəsi əkirsən. O buğda cücərir, sünbüllüyür. O sünbülün içindəki buğdanın bir dənəsi sehrbazdı, onu tapıf ağzına alsan, səni heş kim görməz, sən hamını görəşsən.

Canavarın ağzında iki dişi var, onun biri ən ajı dişdi. Həmin diş sehrlidi. O üsdündə olsa, kimin üsdünə getsən, səni əliboş geri qaytarmaz. Un dəyirmannarının üsdünnən göz qaytarmaq üçün də o dişi asırlar. O vaxdı canavara biz söyürdük, böyüklər deyirdi ki, canavarın ağzına söymüyün, onun ağzı duadı. Canavarın ağzına söyən kimi deyir qapında heyvanını yeməlidi.

## 128. VERGİLİ İNSANLAR

Əlmərdanlı kəndinin sakini Cabbar kişi biz uşax olanda söhbət eliyirdi ki, cavan vaxtımızda Şavadın meşəsinə oduna getmişih. Odun qırıb qayıdanda gördük ki, meşədə kəsih kötüyün üstündə bir xamralı çörəh buğlaner. Deyir, ajmışdıx, hamımız da yeməh isterdih, ancaq bu çörəyin hardan peyda olması bizi qorxudurdu. Kimi dedi, bunu cin qoyuf, kimi dedi, şeytan qoyuf. Nəsə, heç kim cürət eliyif o çörəyi ordan götürməh fikrinə düşmədi. Belə olanda Nəcəf dedi ki, nə olur olsun, mən çox ajmışam, çox işdəmişəm, mən o çörəyi yijəm. O getdi, deyir, xamralını götürdü, yavaş-yavaş yeyə-yeyə yola davam eliyəndə... Onun əmisi oğlu var idi, Ələkbər oğlu Məhəmməd, onnan da on bir yaş böyüh idi. Bu Məhəmməd də dedi ki, mən Nəcəfdən on bir yaş böyüyəm. Əgər ona bir şey olajaxsa, maa onnan qavax olsun. Həm də çox istiyirmiş əmisi oğlunu. Deyif, ay Nəcəf, onun yarısını qır ver, yarısını da mən yijəm. Elə bular çörəyi yiyif gəlellər. Kəndə gələndə Aşıx Nəcəfin dayısı Molla İsmeyil çox böyük şəriyət alimi oluf. O, gəlif dayısının yanına,

[51] Eycil – oyaq

bu əhvalatı danışıf ki, belə-belə bir əhvalat oldu. Meşədə bu çörəh hardan peyda oldu, bilən olmadı. Götürdüh yarısını mən yidim, yarısını kəsdim verdim əmim oğlu Məhəmmədə. Rəhmətdih Molla İsmeyil "Quran" açer. Deyir, ay Nəcəf, sana həm şairrih gəlmişdi, həm uzun ömür gəlmişdi. Şairriyin qalıb özündə, ömrünü kəsdin verdin Məhəmmədə. Nəcəf babam onnan sora cəmisi 46 il ömür sürmüşdü, gözəl də bir şair kimi Tovuzda məşhurlaşmışdı. Onnan 11 yaş böyüy olan əmisi oğlu Məhəmməd isə 1994-cü ildə 113 yaşında dünyasını dəyişdi. Ölənə qədər həkimə müraciət eləmədi. Camaatnan söhbət eliyə-eliyə rəhmətə getdi.

## 129. YAĞIŞ YAĞDIRMAQ

Bınnan irəli yağış yağmıyanda Allaha dua eliyirdilər. Allahın adına bir heyvan kəserdilər. Seyid Fəttahın üstünə geder, seyid adamlar su tökürdü. O da istanerdi. İnan Allaha ki, elə bilginən yağış göydən elə yağerdı. İl çox quraxlıq keçəndə eliyirdilər.

Bax burda bir seyid kişi varıydı, Yəhya dediyimiz. Onu göndərirdilər ki, get Toyuz çayında çim gəl. Gerderdi o kişi, Allaha yalvara-yalvara çimerdi o soyux suda. Onnan sohra möhkəm yağış yağerdi. Taxıl bol olurdu, urza bol olurdu.

Yağış çox yağanda, kəsmiyəndə ilk uşaxlara su verirdilər ki, eşiyə at suyu. Onda yağış kəsərdi.

# III. NAĞILLAR

## 130. İKİ QARDAŞ

İki qardaş olor, buların atasından qalma varı-dövləti olor. Bu qardaşın biri hərtərəfli insan imiş, özü də gözəl xanımla həyat qurufmuş. O biri qardaş ondan böyüymüş, istədiyi yerə gedərmiş, gələrmiş. Gələndə də qardaşınnan soruşarmış filan şey nədi, filan şey nədi, niyə belə eləmisən? Bunun üstündə kiçik qardaşın ona acığı tutur. Deyir, mən səni öldürə bilərəm, bu evdən nə götürürsən götür, çıx get. Yaşamaq üçün sənə bir neçə söz örgədəjəm, onnan ömrü boyu qazanıb yaşıyajaxsan. Deyir, birinci, dəvət olunan yerə get. İkinci, qarşına nə qismət qoysalar, onu özün ye, heş kəsə təklif eləmə. Üçüncüsü, getdiyin yerdə heş kəsdən heş nə soruşma. Dördüncü sözüm budu ki, səbirli ol, səbirli ol. Deyib bunu evdən qovur. Böyük malikanəsi olor, bağı-baxçası, sarayı, hər tərəfli[52].

Bu burda qalsın. Bu kəndin özündə iki nəfər olor. Bu iki qonşunun ikisi də kasıb olor. Biri okqədər kasıb olor ki... Fikirrəşir ki, mən ayiləmin yanında üzü qarayam, burda yaşıya bilmirəm. Mən üz döndərib gedəjəm, hardasa fəhləlik eliyəjəm. Qonşularında da özü kimi bir oğlan varmış. Buna deyir ki, mənim belə bir fikrim var, gəlsənə çıxax gedək başqa yerə, çörək qazanax. Burda bizim qismətimiz gətirmir, bəlkə başqa yerdə gətirər. Deyir, olar. Vədələşillər, evdə halallaşıllar, azdan-çoxdan yemək götürüllər, yola çıxıf gedellər. Bular gejeynən çıxıllar kənddən ki, heş kəs görməsin.

Gejənin bir aləmi kənddən aralanıf gəlif çıxıflar bir çayın qırağına. Fikirrəşillər ki, burdan anrı hara gedək. O gələjək soruşajax kimsən, nəçisən, bu gəlif soruşajax. Bular suyun qırağında bir az yatıf dincəlillər. Bir qısmat yeyənnən sora deyillər, görək

[52] Söyləyici nağılı uzun müddət ifa etmədiyindən fikrini cəmləyə bilmir və nağılın əvvəlini düz başlamır. Hadisələrin sonrakı inkişafından da görünür ki, bu abzasın nağıla aidiyyəti yoxdur, nağıl növbəti abzasdan başlayır. Tərtib zamanı bu abzası çıxartmaq da olardı, amma ənənəvi nağılların günümüzə hansı şəkildə gəlib çatdığını görmək üçün gözəl nümunə olduğundan nağılı söyləyici necə söyləyib, o şəkildə də təqdim edirik.

bura haradı? Belə baxıllar, görölləр, kənd kimi yer görükür. Deyillər, gedək. Yolda bir uşağa rast olurlar. Deyillər:

– Ay oğlan, burda elə bir adam varmı bizi nökər saxlıya? Biz işdəmək isdiyirik.

Deyir:

– Ay əmi, kəndin qulağında bir kişi var, o nökər işdədir.

Tapıllar bu adamı, bunnan görüşüllər. Biz işdəmək isdiyirik, fəhləyik, dolanmax isdiyirik. Deyir:

– Olar, işdiyərsiniz, boğazınızın çörəyini verərəm.

Bir neçə gün qalıllar, görüllər yox, boğaza işdəməknən olmor axı. Fikirəşillər ki, nağarax, neyninək? Bir neçə kənddə də işdiyillər, hamısında bu forma olor. Elə olor ki, burdan da ayrılıllar, gəlillər yol ayrıcına çıxıllar. Yol ayrıcına çıxanda oğlan deyir ki, bizim qismətimiz gətirmədi bir yerdə, ayrı-ayrılıxda gedək, bəlkə Allahtaala qismətimizə bir şey verdi.

– Bəs nə vaxt biz görüşəjeyik?

Deyir:

– Üş-dörd il işdiyək. Bu daşı görörsən, bunun altına nişan qoyarıx. Hansımız tez gəlsə, o nişanı götürsün. Gözdüyür, gözdəsin, gözdəmirsə, nişanı götürüf getsin.

Demək o oğlanın biri çıxır yolun sağına, biri də düşür soluna. Gethaget. Biri getdi, o heş, o birinnən danışax. Mən evdən çıxmalıyam deyən bir xeyli gedir, gəlib bir kəndin qulağına çatanda bir cavan oğlannan raslaşır. Deyir:

– Mən iş axtarıram, burda varlı-hallı adam olarmı məni nökər saxlıya?

Deyir:

– Bizim kənddə heylə adam yoxdu, ancaq o kəndin baş tərəfində bir kişi var. O kişinin qoyun sürüsü var, sürünü otarmağa çoban axtarır. Get gör götürsə, o götürəjək, onda olmasa, heş kəs götürmüyəjək.

Bu oğlan soraqlaşa-soraqlaşa geder. O vaxdı kənddər seyrək oluf, indiki kimi tünlük deyildi. Gəlir tapır kişini.

– Salamməleyki.

– Əleykimət salam.

– A oğul, eşidirəm səni.
Deyir:
– Ay əmi, mən gəlmişəm, işdəmək isdiyirəm, kasıbam. İsdiyirəm ki, mən haqqıynan sizə qulluğ eliyəm.
Deyir:
– Mənim bir sürü qoyunum var, otararsanmı?
Deyir:
– Cannan-başnan otararam. Haqqı nolojax?
Deyir:
– Ay bala, hər ilinə bir söz verəjəm. Yeməyini verəjəm, yatağını verəjəm, amma qutaranda sənnən haqq söhbəti yoxdu. Qutaranda hər ilinə bir söz verəjəm.
Bu fikirrəşir, fikirrəşir, deyir bəlkə məni sınayır. Razılaşır. Deyir, hələ günümü keçirim, qarnımı doyurum. Bunun yanında bir il işdiyir, iki il işdiyir, yaxşı da buna paltar verir, geyindirir, yedirdir. Dörd il tamam olor. Bu bir də fikirrəşir, mən yoldaşımdan ayrılmışam, bizim vədəmiz var, dörd ildən sora biz görüşməliyik. Mən bunnan vidalaşım, haqqımı alım gedim. Deyir:
– Əmi, mən getmək isdiyirəm.
Deyir:
– Oğul, yaxşı yol, get.
– Bəs mənim haqqım?
Deyir:
– Bizim sözümüz sözdü. Hər ilinə bir söz deyəjəm. İsdiyirsən deyim, çıx get.
Oğlanın Allaha, bəndəyə ajığı tutur ki, dörd ildi zulum çəkmişəm, söznən haraya gedim mən? Deyir:
– A kişi, sözün də lazm döyül.
Başın götürüf çıxır. Gəlhagəl, gəlhagəl, kəndin qırağına çataçatda o vaxdı bəyin evini buna istinad vermiş oğlanla rasdaşır. Deyir:
– Ay əmi, hardan gəlirsən?
Deyir, belə-belə. Deyir:
– Bəs sən o kişidən haqq aldınmı?
Deyir:

– Başıma belə bir iş gəldi, mana heş nə vermədi. Dörd il işdədim, deyir hər ilinə bir söz verirəm. Mən də dedim söz nəyimə lazımdı, mənə dolanmağa pul lazımdı, çörək lazımdı.

Deyir:

– Zalım oğlu, heç olmasa o sözdəri al, get də.

Bu da fikirrəşir, fikirrəşir, deyir düz deyir da. Heç olmasa sözümü alım, gedim. Gəlir kişinin yanına kor-peşman. Deyir:

– Ay əmi, haqq vermirsən, vermirsən, heç olmasa sözdərimi de.

Deyir:

– Oğlum, neçə il işdəmisən.

Deyir:

– Dörd il.

Deyir:

– Birinci odur ki, hara təhlif eləsələr, ora get. İkinci, getdiyin yerdə heç nəynən maraqlanma. Üçüncüsü, qabağına nə qismət qoysalar, onu yi, heç kimə təhlif eləmə. Dördüncü, səbirli ol. Beyninə bir fikir gələndə səbirli ol. Gedə bilərsən. Oğlan qayıdır gəlir, nağıl sözüdü, gəlir həmin yolayrıcına çatır. Görür həmən daş orda durur. Daşın orasına keçir, burasına keçir, görör nişan yoxdu. Deyir, hə, dostum gəlif gedif. Bunun, demək, əli-ayağı boşdu, dörd ildə qazancı eləcə dörd söz olur.

Üzünü çöyürüf başdıyır yoluna davam eləməyə, indi hara gedəjəh. Yolboyu gəlhagəl, görör bir karvansara var. Gün əyilif. O vaxdın adamları, karvan sahibləri karvansarada gecəliyərmiş, orda qalarmış. Yaxud da kəndlərdə qonum-qonşular onları evlərinə apararmış. Bu kənddə də belə bir adət varmış ki, axşam üsdü olanda kəndin adamları gəlif burdakı nabələdləri evinə dəvət eliyərlərmiş. Bunun heş nəyi yoxuymuş, bir nimdaş paltarın içində idi. Bir də hərrəndi gördü ki, bunun qonşusu burdadı, başında da buxara papax, bir atın üsdündə, yedəyində də bir at, üstündə yəhəri, xurcunu. Görür bu buna yaxın gəlmir. Ha çalışır ki, bunnan söhbət eləsin. Qonşusu gəlir, atdan düşür. Dilucu salam verir. Hardan gəldin, sən niyə belə qayıtdın? Deyir, nə bilim. Deyir, mən yaxşı qazanmışam, demək, sən tənbəl imişsən. Bax iki dənə at qazanmışam. Atın birinin yükü puldu, biri də

özüm üçündü. Deyir, nolar. Daha buna təhlif eləmir ki, gedək bir kısmat çörək yeyək.

Demək, gün əyilir, axşam düşür. Görör kəndin adamları yavaş-yavaş bura tökülür. Hərə birini çəkif öz evinə aparır. Bu qonşusunu da gəldilər apardılar, bu qaldı təkəmtək. Heş kəs yoxdu. Bir də gördü qıraxda iki adam duruf. Biri yaxınnaşdı bu kasıb oğlana, dedi ki, gedək sən də mənim qonağım ol. Deyəndə kişinin sözü yadına düşür ki, təhlif olunan yerə get. Deyir:

– Nolar.

Deyir:

– Dalımca gəl.

Həmin adam düşür qabağa, bu da onun dalınca geder. Dalınca gedəndə fikir verir ki, o biri adam buna yaxınnaşır. Deyir:

– Hara gedersən?

Deyir:

– Bu adam məni evinə dəvət eliyif, olara gedirəm.

Deyir:

– Zalım oğlu, onun evinə gedən salamat qayıtmır. Sən hara gedirsən?

Deyir:

– Bədbaxt oğlu, bunnan əysik günümmü olajax? Mənim nəyim var ki, məni öldürə? Elə ölüm mana daha yaxşıdı.

Bunu kor-peşman geri qaytarır, özü o kişinin dalınca geder. Görör böyük bir hasardı, böyük bir darvazadı. Qala qapısı kimi qapısı var. Qapını açdı, dedi arxamca gələ. Oğlan bir az gedəndə gördü ki, bura cənnət guşəsi kimi yerdi. Hər tərəfdə çarhovuzu, bağı, baxçası. Bir az gedənnən sora görör ki, xırman kimi yerdi. Böyük bir tığ buğdadı, bunun da üsdündə bir dənə xoruz var, qılçasının biri yoxdu. Taxılın üsdündə dənnənir, orda da yatır. Bunun yanınnan keçir, gedir bir az ayna. Böyük bir aynabənd olor. Aynabəndə çatanda görör ki, burda bir dənə anahürüyə bir qadındı, çırçılpax, saçı-başı tökülü, bircə önlüyü var. Qabağında bir tığ yundu, cəhrədi, yunu cəhrədə əyirir. Ev yiyəsi bunun yanınnan anrı keçir, bu da bunun dalınnan geder. İçəri keçer. Böyük aynabəndə rast oldu. İçəridə qəşəh, tərtəmiz, gül kimi hər

şey. Gördü, stol var. Ev yiyəsi özü oturdu. Buna dedi, əyləş. Stolun birində də bu əyləşdi. Gördü, otaxların birinnən ay parçası kimi bir xanım çıxdı. Ev yiyəsi buna dedi, qonağımızı yuyunmağa apar. Xanım oğlanı çəkdi apardı, qapını aşdı, içəri saldı. Dedi, orda yuyunarsan, təmizdənərsən, paltarını da ora qoyarsan.

Oğlan çimdi elədi, çıxanda istədi öz paltarını axtara. Gördü bir dəst təzə paltar var, özünün paltarı yoxdu. Ha fikirrəşdi, neylədi. Xanım işarə elədi ki, o paltarları geyin, səninkidi. Daha bu heş nə demədi. Paltarı geyindi, çıxdı eşiyə. Gəldi öz stolunda oturdu. Bir az keçənnən sora gəlin bir nəfərrik xörək gətirdi, bunun qabağına qoydu. Oğlan baxdı ki, bircə nəfərrik xörək gəlif. Qaşığı əlinə alıf bunnan bir kısmat almağ isdiyəndə gördü bir nəfər içəri girdi. Tanımır, eləmir. Ev yiyəsi də buna heş nə demədi. Bu kirimişcə başdadı xörəyini yeməyə. Gələn adam da danışdı, danışdı, çıxdı vardı getdi. Bu oğlan heç əhəmiyyət vermədi, başını salıf yeməyini yedi. Yiyif qutarannan sora ev yiyəsi xanıma işarə elədi ki, yer sal, qonax qoy dincəlsin. Xanım apardı başqa bir otağın qapısın açdı, dedi bura sənin yerindi, burda sən yatarsan. Bu getdi yatdı.

Səhər durdu, üzünüzə xeyirriknən açılsın, bu nağıldı. Təzdənnən həmin təmiz paltarı geyindi, gəldi stolun qırağında oturdu. Gənə ev yiyəsi heç yemir, eləcə bunun qabağına bir nəfərrik xörək qoyuldu. Bu tərtəmiz xörəyi yiyif qutarannan sora bir az da durdu gözdədi. Gördü, ev yiyəsi heş nə demir. Utana-utana dedi, mana icazə versəniz, mən gedərdim. Dedi, olar, gəl. Gənə özü qabağa düşdü, gəldi həmən qarının yanınnan, xırmanın yanınnan keşdi, gəldi çöl darvazasını açdı. Qabağa düşdü, çölə çıxannan sora dedi, gedə bilərsən. Oğlan dayandı. Dedi:

– Niyə dayandın?

Dedi:

– Xayiş eşiliyirəm, mənim paltarımı verin mən öz paltarımda gedim.

Dedi:

– Yaxşı.

Qadına dedi ki, bunun paltarını özünə verin. Köhnə paltarını geyindi, gənə gətdi həmin qapıdan yola saldı. Oğlan otuz-qırx

metr aralanannan sora ev yiyəsi gördü, bu oğlan lal kimi gəldi, lal kimi də gedir. Dalıncan çağırdı. Dedi:

– Bir ayağını saxla. Olar sənnən bir az söhbət eliyəm?

Dedi:

– Niyə olmur, ixtiyar sahibisiz.

Qapıdan içəri girdi, bir az durannan sora bunu gətirən kişi dedi:

– De görüm hardan gəlirsən?

Oğlan başına gələn əhvalatı danışır. Deyir, sən nətər insansan ki, gördüklərini mənnən xəbər almırsan? Demirsən ki, taxıl taxıldı, üstündəki xoruzun qılçasının biri niyə yoxdu? Səni təəccübləndirmədi? Deyir:

– Ağa, mal sənin, məsləhət də sənindi. Özün bilərsən, mənim nə işimə qalıf?

Deyir:

– Yaxşı, o qarını görmədin? Bu boyda cah-cəlalın sahibi o qarının əyninə paltar geyindirməyib, özü də üryan cəhrə əyirir.

Deyir:

– Vallah, mənim nə işimə qalıf? Ev sənin, məsləhət sənin.

Deyir:

– Bu da yaxşı. Bir söz də soruşajam. Bəs yaxşı, axşam da, səhər də sənin qabağa xörək qoyuldu. Axşam mənim qapımdan qonax girdi içəri, nə ona təhlif elədin, nə mənə.

Deyir:

– Ağa, başına dönüm, çörək sənindi. İsdəsən özün yiyərsən, isdəsən başqasına verərsən. Mana da bir kısmat qoydunuz, mən də öz kısmatımı yedim. Mənim nə işimə qalıf, sənin çörəyini başqasına təhlif eliyim.

Dedi:

– Hə, gedək.

İndi bu fikirrəşir ki, bu məni öldürəjəh. Bunu bağın ən gözəl yerinə apardı. Gördü dünyada nə yoxdu ki, bağda olmuya. Hər şey var.

– Mən, – dedi, – sənə danışajam o əhvalatı, sən qulaq asarsan. Getdiyin yerdə kim idi səni işdədən?

Deyir:

– Bu nişanda adam idi.

Deyir:

– O mənim qardaşım idi. Onu mən bu mülkdən qovmuşam, özü də həmən bu sualların üsdündə. Demək, sən ona nökər olmusan, o sənə haqq vermiyif, mənim ona dediyim sözdəri satıf. Zəhmət çəkmisən, indi gəl.

Oğlanı anbarın qabağına aparır. Civinnən bir dəst açar çıxardır, qapıları açır. Deyir, gir içəri. İçəri girir. Deyir, burda nə görörsən? Deyir, atdar bağlanıf. Deyir, o atdardan iki dənəsini çıxart çölə. Nə ixdiyarı vardı? İki dənəsini çıxardır, ağaca bağlıyır. Sora o biri qapını açır.

– Burda, – deyir, – nə görörsən?

Deyir:

– Atın ləzvazimatdarını, qantarğası, yəhəri-yüyəni.

Deyir:

– Hər iki atın yükünə uyğun qantarğa, yüyən, nə lazımdı götür.

Bunu götürüf çıxardır çölə. Deyir, atdarı yəhərrə. Atdarı yəhərriyir, qantarğasın, hər şeyin yerinə qoyannan sora deyir, indi gəl. Gedir bağın bir başqa hissəsinə. Gənə bu formu bir anbar çıxır. Açır qapısını. Qapını açanda görör kü, bura elə bil ticarət mərkəzidi, dünyanın hər şeyi burdadı. Paltar, parça. İki dəst, – deyir, – qastum götür ordan. Götürür çıxır. Xurcun götürür, bir at yükü xurcun da parça yığdırır. Buları gətirir atın yanına, ata yühlətdirir. Deyir, indi gəl. Gəlir bir dənə qapının yanında dayanır. Deyir, axşam sənin arxanca gələn adam saa dedi ki ey, getmə, sən niyə gəldin mənim dalımnan? Deyir, sən mənə təhlif eləmişdin, gəldim. Qapını açır. Deyir, içəri gir. İçəri baxanda görör ki, burda insan başı, leşi hərəsi bir tərəfdədi. Deyir, gördünmü buları? Bularıın hamısı sənin kimi qonaxlardı. Axşamkı kişi sənə düz deyirdi ki, burdan salamat adam qayıtmır. Hamısı da nəyə görə? Sənə dediyim sualları mana verdihləri üçün. O sorğu-sualın qapıdan çölə çıxmaması üçün oları öldürtmüşəm, oların var-dövlətidi buların hamısı. Deyir, indi paltarını dəyiş. Paltarın bir dəstini geyinir, bir dəstini də xurcuna qoydurur. De-

yir, atdarı çək. Atdarı çəkif çölə çıxanda deyir, mən də sənnən gedəjəm. Atı minir gəlir, karvansaraya çatmamış atdan düşür. Deyir, sən bu atı yedəklə, o birini də min. Sən oldun mənim qardaşım, havaxt dara düşsən, mənim yerimi bildin, qapıma gələrsən. Sənə uğurlar olsun.

Bu yola düşdü, gəldi karvansaraya. Gördü nə yerlisi var, nə tanıya bildiyi adam var. Atını sürdü öz el-obasına tərəf.

Gəlhagəl, gəhagəl, kəndə çataçatda böyük meşəlik vardı. Fikirrəşdi ki, mən günüz getmiyim kəndə. Gejəliyim, gejə kəndə girim, görüm mənim qonşum nətər gəlif, nə danışıf. Getdi meşənin bir qırağında yatdı dincəldi. Gejənin bir vaxdı durdu atı çəkə-çəkə getdi. Öz döngələrinə çatanda çəpərri idi, balaca daxması vardı, üsdündə də bajası vardı. Qonşunun məhləsinnən keçəndə gördü ki, qonşunun gəlini söylənir. – “Ay bala, sənin atan getdi gəlmədi, görəm onun axırı noldu?” Barmağını dişdiyir ki, uje o getdi, salamat qayıtmıyannardan biri odu. Çəpərdən keşdi, öz həyətlərinə çatanda o vaxdı da bunun bir oğlu var imiş, on iki-on üç yaşında imiş dana. Qapıya çatanda gördü səs-səmir yoxdu, qapı bağlıdı. Atdarı çəkdi kirimişcə bir səmtə bağladı, dedi çıxım bajaya, baxım görüm içəridə işıx-zad varmı. Çıxanda gördü ki, çıra yanır. Çıranın da işığında nə aydın görünəjeydi. Yoldaşı da uzanıf yatıf ortada, yanında da simpatişni bir oğlan, qolboyun oluf yatıllar. Bədbaxtın ürəyinə şübhə düşür ki, yağın arvad mən gedənnən sora ərə gedif. Bir az fikirrəşdi, fikirrəşdi. Getdi, ojax yerində bir yekə heyvərə qara daş vardı, götürdü gəldi bajanın üsdünə ki, bunu burdan salsın buların üsdünə. Birdən kişinin axırıncı sözü yadına düşdü ki, səbirli ol. Bu söz yadına düşəndə bu daşı kirimişcə yerinə qoydu, dedi gözdüyüm görüm nolur. Bir xeylax da keşdi, səhərə az qalır. Alatoran olanda oğlan əlini gəlinin sinəsinə qoydu, bu, lap şübhələndi. Gəlin gözünü aşdı, dedi:

– Nə var, yıxıl yat, hələ savağa çox var.

Deyir:

– Ana, bəs deyirdin ki, atan gələjəh (söyləyicinin gözləri dolur), – deyəndə bu oğlan dəli olor. Bildi ki, öz oğludu. Gəldi qapının yanına, başdadı qapını döyməyə.

– Kimdi?

Deyir, mən filankəsəm. Deyir, sən filankəs olammazsan. Gejənin bu vaxdı qapı açılmaz. Deyir, nə danışırsan, mən filankəsəm. Dedi, yox, olmaz. Evin kişisi öydə yoxdu. Deyir, bə yanındakı kişi döyülmü? Deyir, o uşaxdı. Yalvar-yaxış eliyir ki, mən filankəsəm. Açır qapını, görüşüllər. Səhər səs-sorax yayılır ki, deməzsənmi filankəs gəlif, filankəs gəlmədi. Nağılımız burda bitdi, dədə.

Çox gözəl sual verdin, Allah köməyin olsun, yadımnan çıxmışdı[53]. Ev yiyəsi dedi, mən quş əti sevənəm. Xoruz, beçə alıf gətirirəm, tökürəm həyətə, taxılı cıynaxlıyıf dağıdır ayağ altına. Ona görə qılçasının birin kəsmişəm, yiyif eləjə yatır, dağıda bilmir. Qaldı o qarı. İndi gördüyün gəlin varmı? Heş bu gəlin onun əlinə su tökməyə yaramazdı. Həmin arvad elə bir gözəl idi. O mənim yoldaşım idi. İntaası onu mən dul almışdım. Əri ölmüşdü, dul almışdım onu. Dünyanın o yeri qalmadı mən onu gəzdirməyəm. Ürəyi nə isdədi onu aldım, geydirdim, yidirtdim, gəzdirdim. Bir dəfə gördüm öz-özünə deyir ki, ağzımın ləzzəti Məhərrəmnən getdi. Bir dəfə dedi, iki dəfə dedi, mən qulağ ardına vurdum. Axırda dözə bilmədim, bir gün soruşdum ki, a qız, Məhərrəm kimdi, deyirsən ağzımın dadı onnan getdi? Deyir, bəs mənim əvvəlki həyat yoldaşım idi. Bu, deyir, mana hədsiz dərəcədə pis təsir elədi. Dedim, sən onun harda olduğun bilirsənmi? Deyir, o ölüf, qəbri filan yerdədi. Çox uzax bir yer dedi. Dedim, gəlsən belə eliyək. Gedək onun qəbrini axtarax tapax, onun üsdə sənin adınnan ehsan verəh, qoy hamı bilsin ki, sən onu unutmuyufsan. Deyir, yaxşı. Onu, deyir, şirin dilə tutdum, apardım. Getdik, bir bələdçi də tapdım, atnan getdik, uzun axtarışdan sora qəvirsannığı tapdıx. Elan vurdurdux ki, bəs filan Məhərrəmə onun həyat yoldaşı tərəfindən ehsan verilir. Camaat yığıldı, həqiqətən də, ona çox dəyərli ehsan verdirdim. Aradan iki-üç gün geçənnən sora bunu da gətirdim evə. Dedim, razısanmı mənnən. Dedi, hə, çox razıyam.

Aradan bir az keçənnən sora gördüm bu öz-özünə gənə deyir ki, ağzımın dadı Məhərrəmnən getdi. Fikirrəşdim ki, ey dili-qa-

---

[53] Söyləyici qonağın ev sahibinin həyatində gördüyü şeylərin mənasını söyləməyi unudur, bizim sualımızdan sonra onları xatırladı.

fil, bunnan artıx mən neyniyim buna? Durdum, deyir, özümə bir yoldaş da tapdım. At-ulax götürdüm, həmən kəndə getdik. Heç ona demədim hara gedirik. Gəldik həmən qəvirsannığa, bunun qəvrini qazdırdım, Məhərrəmin sür-sümüyünü çıxartdırdım bir sapa düzdürdüm. O qadının boğazında ki boyunbağı var, insan sümüyüdü hamısı, həmən Məhərrəmin sür-sümüyüdü, boğazınnan asdım ki, indi ləzzəti onnan alginən.

Sənin çörək təhlif elədiyin mənim qonşumdu. Ona çörəh təhlif eləməməkdə çox yaxşı elədin, mənim ürəyimdən xəvər verdin. O mənim öyümdə olan əhvalatdarı həmən o çuğula yetirəndi ki, mənim evimdən salamat adam getmir. O gənə nəsə axtarırdı ki, burdan aparıf camaata söyləsin. Bax ona görə mən ona yemək təhlif eləmədim.

*Söyləyici nağılı anasından eşidib.*

## 131. YAZIYA POZU YOXDUR

Bir gün Şah Abbas vəzirinə deyir ki, vəzir, gəl bu məmləkəti gəzək, görəh camaatın güzəranı nətərdi, nətəri yaşıyıllar, neyniyillər, dolanışıxları nətərdi, nəynən məşğuldular. Bu məqsədnən, Vəzir Allahverdi xan olub, təğyiri-libas oluflar, kəndbəkənd, elbəel dolaşıflar. Bir axşam çağı gəlif bir qapını döyüflər. Bir nəfər gözəl simalı bir adam buları qarşılıyıf. Deyif ki, qardaş, qonağ istəmirsən? Deyir ki, qonağa da qurban olum, Allaha da qurban olum. Qonağ Allah qonağıdı, böyük məmuniyyətnən. Amma, deyir, çox üzr istiyirəm, mən sizi evimə dəvət eliyə bilmijəm. Deyir, nə səbəbə? Deyir ki, dönə-dönə üzr istiyirəm, yoldaşım hamilədi, qonşudan mamaça çağırmışıx. Sizə tövlədə samanın üsdə yer aşdıra bilərəm, orda dincələrsiniz. Şah vəzirin üzünə baxır, vəzir şahın üzünə baxır. Vəzir yavaşca bir eyhamnan şaha işarə vurur ku, vəziyyət belədi.

Bulara tövlədə samanın üsdə bir kilim salıllar, onun üsdə balınc, döşəh qoyullar. Bular burda rahatdanır. Gejənin bir aləmi vəzir gülür. Vəzir gülləndə Şah Abbas deyir ki, vəzir, nəyə güldün? Belə nəql eliyillər ki, vəzir bütün heyvannarın, quşdarın dilini bilirmiş. Deyir ki, şah sağ olsun, biz istədih bir balaca mür-

gülüyəh, gözümüzə yuxu getsin. Mən gördüm, iki dənə göyərçin gəldi, bu evin qabağındakı o hündür ağacın başına qondu. Bunun biri o birsinə dedi ki, bacılı, bacılı, bilirsənmi nə var? Dedi, nə var? Dedi ki, bu gün, elə bu saat burda bir oğlan uşağı dünyaya gəldi. Şahın hərəmxanasında da şahın hərəmlərinnən biri gözəl bir qız dünyaya gətirdi. Qurban olduğum Allahtaala buları bir-birinə buta yazdı. Şah deyir ki, vəzir, sən nə danışırsan, bu bir rəiyyət oğlu, orda da şah qızı dünyaya gəlif. Bular nətəri bir-birinə buta yazıla bilər? Mən bu yazını pozaram. Deyir, vallah, şah sağ olsun, mən heş nə demirəm, amma Allahın buyurduğu fərmandı, bunu heş kim poza bilməz. Deyir, mən pozaram.

Səhər açılır, bu qonaxlar – şahnan vəzir ev yiyəsinnən vidalaşır, gəlir şah qırmızı geyinir, taxta çıxır. Deyir ki, filan yerdə belə bir insan var, onu mənim hüzuruma çağırın. Gəlillər kişiyə deyillər ki, şah səni çağırır. Kişi gəlir. Deyir ki, şah sağ olsun, məni çağıtdırıfsız? Deyir:

– Hə, mən çağıtdırmışam. Mən yuxumda gördüm kü, sənin evində bu axşam bir oğlan uşağı dünyaya gəlif.

Deyir:

– Bəli, şah sağ olsun.

Deyir:

– Mən isdiyirəm onu sarayımda böyüdüm, boya-başa çatdırım, ona təlim, tərbiyə verim. Onu igid bir cəngavər eliyim. Sən ver uşağı maa, onun əvəzində də saa qızıl verim.

Şah buna bir külçə qızıl tulluyur. Deyir:

– Şah sağ olsun, heş bu lazım döyül. Bütün rəiyyətin balaları, evlatdarı hamısı sənindi. Böyüh məmuniyyətnən.

Deyir:

– Yox, bunu da götür, o uşağı ver maa.

Uşağı bələhdə gətizdirir, buna təhfil verillər. Uşağın atası gedənnən sora Şah Abbas deyir:

– Vəzir!

Deyir:

– Hə.

Deyir:

– Gəl.

Vəziri alır yanına, bu uşax da qucağında gəlillər bir sıldırım qayanın başına çıxıllar. Deyir:

– Ay vəzir, bu uşağı burdan aşağı tullasam, bu gedif yerə salamat çatar, yoxsa nətəri?

Deyir, şah sağ olsun, nə deyim, vallah, Allah bilən məsləhətdi. Arada imkan tapır, vəzir belə uşağa baxanda görür ki, bunun iki qaşının arasında bir xal var. Şah uşağı tulluyur sıldırımın başınnan. Deyir, indi de görüm, mən bu yazını pozdum, yoxsa pozmadım? O uşax yerə dəyif tikə-tikə olujax. Deyir ki, şah sağ olsun, mən onu diyə bilmərəm. Gedillər. Şah deyir, o uşax yerə salamat çatmaz. Bu vaxdı, (rəvayətdi) aşağıda bir dişi canavar balalarını əmizdirirmiş, qeyri-ixtiyari göyə tərəf boylananda görür kü, bələk kimi bir şey gəlir. Bunu qoymur yerə dəyməyə, göydə tutur. Yavacca, ehmalca yerə qoyur. Görür bir dənə uşaxdı. Bir ovçu da hərrənə-hərrənə gəlir, görür canavardı, balalarıdı. Göyə bir dənə güllə atır. Bu canavar balaların da götürür uzaxlaşır. Yaxınnaşır görür bir dənə qundax, bir uşax. Ovçu da neçə illərdi birinnən evlənipbiş, ayilə həyatı qurupbuş, evlatdarı olmurmuş. Baxır görür bir yaraşıxlı uşaxdı bir günnüh, iki günnüh. Deyir, saa qurban olum, ay Allah-taala, bəlkə bu bizim qismətdi, bəlkə elə bunu bizə göndərifsən.

Bunu gətirir evə. Xanımına deyir ki, ay xanım, vəziyyət belədi, neçə illərdi evlənmişih, bizim uşağımız da yoxdu. Bunu bəlkə qurban olduğum bizim üçün göndərifdi. Deyir:

– A kişi, nə deyirəm vallah, qurban olum Allaha, bəlkə elə bizim qismətimizdi, bizim taleyimizə, bəxdimizə yazılmış bir evlatdı bu.

Bunu tərbiyə eliyillər, bu uşağı böyüdüllər. Uşağ hardasa on üç, on dörd yaşına çatır. O vaxdı da üzdə olan sənət yox imiş də. Yaxşı uşaxları, ağıllı, mərifətdi, qanacaxlı uşaxları çayçıya şəyird verəllərmiş, camaata qullux, xidmət eliyən. Bunu bir çayçıya şəyird verillər ki, qoy elə bu, yanında dursun, çay paylasın, yavaş-yavaş bu camaata xidmət eləməyi öyrənsin. Bu da qısa müddətdə o qədər camaatın hüsn-rəğbətini qazanır, o qədər gözəl bir uşağ olur. Yavaş-yavaş böyüyür on beş, on altı yaşına çatır.

Aradan xeyli müddət keçir. Bir gün şah Abbasnan Vəzir Allahverdi xan bu məkana qonax gəlir. Şəhərin o vaxdı darğası olub. İndi bilmirəm nə vəzifəsiymiş bu darğa, şəhəri birbaşa bu idarə eliyirmiş. Darğa deyir ki, Şah Abbasnan vəzirə qulluğ eliyən bir cavan adam lazımdı, hansı ki, əqli-dərrakəsi özündə, qanacaxlı, mərifətdi, gözəl-göyçəh bir nəfər. Deyillər, vallah, filan yerdə çayçı var, onun bir şagirdi var, o qədər gözəl, o qədər göyçəh, o qədər mərifətdi, qanacaxlı, cəzbedici uşaxdı. Elə o qulluğ eləsə yaxşı olar. Bunu çağırıllar. Darğa deyir ki, oğlum, şahnan vəzirə qulluğ elijəhsən, çay aparajaxsan, yiməy aparajaxsan. Deyir, böyüh məmuniyyətnən.

Həmin uşax şahnan vəzirə qulluğ eliyir. Vəzir çox aqil adam imiş. Uşax çay gətirir, çörəh gətirir. Anrı-bəri baxır ki, ə, bu uşağın iki qaşının arasında bir xal var bütün gözəlliyinnən əlavə, davranışınnan əlavə. Fikir bunu çox uzaxlara aparır. Darğanı çağırır, deyir ki, bu kimin uşağıdı? Deyir, vallah, bir ovçu var, uşağ onun uşağıdı. Deyir, çağır ovçunu. Ovçunu xəlvətə çəkir, deyir:

– Mənim sənnən elədiyim bu söhbəti hələ şah bilmir. Sən maa düzün de görüm bu uşağ sənindimi? Bu uşağ hardan səndədi? Sən bunu maa düzünü desən, sənnən işim yoxdu. Əgər düzünü deməsən, şaha sənin boynunu vurdurajam.

Bütün oluf keçənnəri həmən ovçu danışır. Vəzir deyir ki, şah sağ olsun, bu uşağı tanıdınmı, bizə qullur eliyəni? Deyir, yox. Deyir, bu həmən uşaxdı. Deyir, ayə vəzir, nə danışırsan, o yüksəhlihdən uşax yerə salamat çatarmı? Deyir, mən o uşağın sifətinə baxmışdım, xal həmən xaldı. Onu saxlıyan adamdan da öyrənmişəm, yaş da eynilə uyğun gəlir. Şah sağ olsun, bu həmin uşaxdı. Deyir, noolar, vəzir. Bir məytuf yazır. Buların səfərləri varmış, hardasa bir aya yekunnaşarmış. Yazır ki, yerimdə qalan vəzir, bu məytufu saa verən adam sənin yanına çatan kimi bunu iki şakqa elə, hərəsini darvazanın bir küncünnən asdır. Gələndə görüm kü, bax elə vəziyyətdədi. Bunu çağırır, möhürünü basır. Deyir:

– Oğlum, saa bir əziyyət versəh olarmı?

Deyir:

– Şahım, o nə söhbətdi, böyüh məmuniyyətnən.

Deyir, bax bu kağızı mənim yerimdə Qara vəzir qalıb, ona çatdırarsan?

Deyir:

– Baş üstə.

Bular səfərlərinə davam eliyir, bu da çarığının dabanını bərkidir, gəlir şahın malikanəsinə çatır. Girir belə, görür kü, gözəl baxça-bağat hər yer, bir çarhouz. Bir az əlini, üzünü yuyur, bərk yorulup-buş. Papağın çıxardır başının altına qoyur. Deyir, bir yarım saat yatım gözümün ağrısın alım, sora bu məytufu çatdıraram Qara vəzirə. Həmən qız da, onunnan eyni gündə dünyaya gələn qız da qırx incə belli qızlarnan gəzillər, artığ o da böyüyüb, gözəl-göyçək qız olub. Qızdarnan hərrənirmiş baxçada. Deyir ki, qızdar, mən susadım, bir çarhouzda əlimi-üzümü yuyum, gəlirəm. Aralanır gəlir, görür kü, ə, bu çarhouzun başında bir gözəl oğlan yatır. O qədər gözəldi. Bütün gözəlliyinnən əlavə bunun iki qaşının arasında təhlində bir xal var. Deyir, ilahi-pərvərdigara, bu nə gözəl oğlandı? Bunu ömrünün xoş bir vaxdı yaradıfsan. Diqqətnən buna baxanda görür kü, bunun papağının tərkində bir üşkünc kağız var. Yavaşca bunu götürür, görür atası yazıf. Belə bir şey yazıf. Deyir, Allah saa insaf versin, ay ata. Belə bir oğlana qıymağ olarmı? Orda götürür ki, yerimdə qalan vəzir, bu məytub saa çatan kimi, bu oğlana üş gün, üş gejə toy eliyif, mənim qızımı ona verirsən. Gələndə bunu mən bir kürəkən kimi görürəm, qızımı da onun ömürrüh yoldaşı kimi. Götürür kağızı verir. Vəziri də bunu oxuyur, buna üş gün, üş gejə toy çaldırır.

Bir qısa müddət də keçir, bir beş-on gün. Deyillər, paa, şahnan vəzir səyahətdən qayıdır. Hamı buların pişvazına çıxır, o cümlədən, bu kürəkənnən qız. Atdar bəzənir qəşəh, yəhərlər hamısı belə. Minillər hərəsi bir atın belinə. Kürəkən şahzadə kimi, bu da xanım şahı qarşılamağa gedillər. Vəzir Allahverdi xan görür, paa, bu bəzənif gözəl, şaha layiq bir libasda, xanım da onun kimi. Deyir, şah sağ olsun, o gələnnəri tanıyırsanmı? Deyir, nədi? Deyir, həməndi, bax o həmən oğlandı, namə göndərdiyin oğlan. Şah bərk hirsdənir ki, mən nə demişəm, bu Qara vəzir nağayrıf. Gəlir taxta çıxır. Deyir, Qara vəziri çağırın. Çağırıllar. Deyir, adə, mən saa nə demişəm, sən nağayrıfsan? Deyir, şah sağ olsun, buyur, bu sənin na-

mən. Naməni açır oxuyur, görür belə yazılıf. Qız toçnu atasının xəttinnən yazıf. Vəzir genə gülür, deyir ki, ay vəzir, niyə gülürsən? Deyir, şah sağ olsun, yazıya pozu yoxdu.

"Yazıya pozu yoxdu" misalı o vaxdan qalıb.

*Söyləyici bu nağılı yas məclislərində söylədiyini dedi.*

## 132. KEÇƏÇİ ŞAH ABBAS

Şah Abbasa cənnətməkan deyillər. Sual yaraner ki, nəyə görə? Deyir, bu gözünnən görməmiş, bu qulağınnan eşitməmiş əlli dənə material, mənim kimisi yüz nəfər getsin desin ki, bu duxarın böyründə... Ona inanan döyülmüş. Özü həyvəsini çiyninə keçirif axtarıf həmin məkanı tapıf sora taxtı-səltənətdə əyləşərmiş.

Şah oğlu Şah Abbas gəlir Touza. Əlibəylinin astanovkası deyirik. Maşın yox, araba yox, öküz yox, ulax yox. Görür, bir kişi duruf. Deyir:

– A qağa, hara gedersən?

Deyir:

– Əlibəyliyə gederəm.

Şah oğlu Şah Abbas deyir:

– Mən də Əlibəyliyə gederəm, gedək dana.

Piyada gələjəhlər Əlibəyliyə. Mənim özüm o qədər piyada Touza gedif gəlmişəm ki. Vaxtilə atı olan atnan gederdi, olmayan da piyada gederdi.

Şah Abbas bir müddət gəler, İt yalağına çatanda yoldaşına deyir ki, gəlsən bu yola bir körpü salax. Əlibəylidən olan kişi buna belə baxır, deyir:

– Atamın goru haqqı, bu dəlidi ə. Burda haraba yox, öküz yox, daş yox, ağac yox, körpünü nədən hazırrıyajax?

Kirimiş durur. Bir az da gəlellər. Sən görməzsən, indi ora şəhərə dönüf. Touzun bəri tərəfi yolun sağ tərəfi, sol tərəfi taxıl idi. Elə taxıl olordu ki, xəlbiri tullasan, göydə qalerdı. Şah oğlu Şah Abbas deyir:

– Kişi (taxıl da eləcə çiçəhdi), görəm bunun yiyəsi yiyibmi, yijəhdi?

– Ə, bu dəlidi. Taxıl teyxa çiçəhdi, yiyif nədi, yijəh nədi?

Dilxor olur bu kişi. Bir müddət gəlellər. Görör qabaxda bir cənaza geder. Şah Abbas deyir:

– Kişi, görəm bu ölübmü, yoxsa öləjəhdi?

Deyir:

– Atamın goru hakqı, bu çisti dəlidi. Mən hardan gəldim buna rast oldum. Kişi laydırda geder. Bu deyir, görəm ölübmü, yoxsa öləjəhdi?

Gəlif çıxıllar Əlibəyliyə. Əlibəylidə Şah Abbas deyir:

– Kişi, burda Allahın öyü hardadı?

Deyir:

– Allah öyünü yıxsın sənin. Dədəmin goru haqqı, çisti dəlidi ey, canın üçün.

Kişi geder öyə. Kişinin ağıllı-kamallı bir qızı varıydı. Görör ki, dədəsi qanı qara gəler öyə. Deyir:

– Ay dədə, niyə elə eliyirsən?

Deyir:

– A bala, Touzdan gəlerdim, miningit oğlu miningit biri rast gəldi. Maa deyir, gəl bu yola körpü salax.

– Ay dədə, sana qurban olom, o gör nə ağıllı, nə kamallı, nə savatdı adamdı. Demək isdiyir ki, a kişi, gəl söhbət başdıyax, Əlibəyliyə getdiyimizi bilmiyəh da.

Deyir:

– Yaxşı, a bala, körpü bu olsun. Bə İt yalağında taxıl çiçək açıf. Deyir, yiyəsi bunu yiyibmi, yoxsa yijəhmi?

Deyir:

– Ay dədə, sən qoja kişisən. O vaxdı dədəm də söylördü. İndi mənim taxılım qutarıf, taxıl almağa da imkanım yoxdu. Taxıl da əhmişəm. Gedif birinə deyirəm, dərdin alem, iki put taxıl ver, taxılımı piçəndə saa verəjəm. O kişi demək isdiyir ki, taxıl yiyəsi taxılı borca verəjəh, yoxsa biçəjəh, aparıf anbarınamı qoyajax?

Deyir:

– A bala, yolnan bir cənazə gedir. Deyir, bu kişi ölübmü, yoxsa öləjəhdi?

İndi a sana qurban olom, elə adam var ki, bugün öldümü, bunnan da qutardı. Savetdihdən adı silindi, heç bunun goruna

and içən də yoxdu, rəhmət deyən də yoxdu. Amma elə adam var iki əsrdi deyillər, rəhmətdik filankəs. Yəni bu kişi bir rəhmət qazanıfmı? Kişi deyir:

– Gəldik çıxdıx Əlibəyliyə, maa deyir Allahın öyü hardadı?

Deyir:

– A dədə, o meçidin yerini soruşor dana. Qərib adamdı, harda qalsın. Ona görə deyir, Allahın öyü hardadı? Mən gedim orda axşamlıyım. Ay dədə, gəlsənə, qərib adamdı, meçitdə çayxana yox, çörəhxana yox, ona çörəh göndərəm.

Deyir:

– A bala, sən bilersən. Ağlın kəser göndər, ağlın kəsmer özün bilersən.

Nökəri çağırer. Yaxşı dolma bişiribmiş. Qoyur bir qab nökərin qabağına ki, yi. Yiyir.

– Doydunmu ə?

Deyir:

– Hə, doydum.

Bir qava beş dənə dolma qoyur, yaxşı üzünün yağınnan süzür, iki dənə də çörək qoyur. Bükür, nökərin əlinə verer. Deyir:

– Gedersən meçidə. Deyirsən, bu axşam bura gələn qərib qonax kimdi? Dejəh mənəm. Çörəyi verersən, deyirsən, bunu mənim xanımım göndərif. Göydə ulduz beşdi, göyün üzü yaman bulutdu, nan da ikidi.

Ə, nökər nə qanır? Bunu təkrar eliyə-eliyə gəler. Yolnan gələndə qazanın ağzını açer, qabağına qoyor, dolmanın ikisini baser. Qaşıx yox, bir şey yox, suyu da içer, çörəyin də birini yeyir. Gəler meçidə.

– Kimdi burda qərib qonax?

Deyir:

– Mən.

– Mənim xanımım göndərdi bunu. Dedi, göydə ulduz beşdi, göyün üzü də yaman bulutdu, nan da ikidi.

Kişi qazanın ağzını açanda görür, göydə üşcə dənə ulduz var (ikisini basıb yeyid axı, üzünün yağını da içib), göyün üzü elə ayazdı ki, heç olmuyan kimi. Bu da ismarış göndərir ki, get, a ba-

la, xanımına deynən ki, göydə ulduz üşdü, göyün üzü də yaman ayazdı, nan da bircə dənədi. Nökər bunu təkrar eliyə-eliyə gəldi.

– Ə, verdinmi?

Deyir:

– Verdim.

– Nətər oldu?

Dedi:

– Xanım, sən dediyii ona dedim, o da mana dedi ki, göydə ulduz üşdü, göyün üzü də yaman ayazdı, nan da bircə dənədi.

Qız nökərin başını aldı qoltuğuna, bir gödək ağaş varıydı, belinin kökü uzunu dartır, bəyirdir.

– Ə, sana dedim yi, doydunmu? Niyə yedin?

– Ay xanım, vallah, yiməmişəm.

– Ə, yiməmişəm deməknən deyil axı.

Deyir:

– Dədə, bunu qonax çağırmalıyıx.

Nökəri göndərir ki, get denən mənim xanımım deyir ki, mənim qonağımsan.

Allahtaala bütün gözəlliyi bir insanda cəmləmer, ağrın alem. Kiminə bilik verifsə, səyivətdih də verib, kiminə gözəllih veribsə, qıçasın pis eliyib. Hərədə bir nöqsan olmalıdı. Bütün gözəllik bir adamda cəmlənməz. Qız o qədər savatdı, o qədər gözəl idi ki, hayıf ki gözdəri bir azca çaş idi. Şah oğlu Şah Abbas nolajaxdı, savatdı, bilihli adam idi. İçəri girən kimi qıza baxanda görör ki, qızın gözdəri bir balaca çaşdı. Deyir:

– Bu buxarıyı örən usta yaxşı usta oluf, hayıf ki, bir balaja kəj çatıf.

Yanı Allahtaala sana bu qəddi-qaməti verif, bir azca gözdərin çəpdi. Qız deyir:

– Ninirsən, kəj olsun. Hər nə olur olsun, canın üçün, tüstüyü elə çəker, zil.

Yəni qız bununla şah oğlu Şah Abbasa deyir ki, buxarının kəjliyinə baxma, beyin var, savad var. Şah oğlu Şah Abbas da bu qızdan keçəsi olmor. Mütlax bunnan mən öylənməliyəm. Məsla-

hat eliyəndə qız deyir ki, sən nə işin sahibisən? Bu demir mən şah oğlu Şah Abbasam, patcaham. Deyir:

– Heş nə.

Deyir:

– Yox, bir sənət sahibi olmasan, mən sana getmərəm.

Nağayrax, neyniyəh? Dülgərrik altı ilə başa gəler, örük örmək üç ilə başa gəler. On günə, on beş günə qəlib atmağı örgədellər Şah Abbasa. Başdıyır qəlib atmağa. Bular öylənellər.

Şah oğlu Şah Abbas burda qəlib atmaqda olsun, bu qız da aparıf qəlibi bazarda sater. Sənin kimi oğlannar gəler ki, xanım, bunnan yüz dənə, iki yüz dənə olarmı. Deyir, lap beş yüz dənə olsun. Örgənellər, göröllər, burda bir kişi qəlib ater. Oğlannar deyir, bu kişini aparax bizim üçün qəlib atsın. Aparellar kişiyi salellar padvala. Arvad axşam gözdüyür, kişi gəlmədi, savax gözdüyür, kişi gəlmədi. Nağarsın? Yeri məlum döyül, yurdu məlum döyül. Bakıdan gəlif məndən zoğal alan kimi varıf gedif, mən nə bilim kimdi, nəçidi. Şah oğlu Şah Abbas həmişə keçənin üstünə qolunu çəkirmiş. Bazara çıxanda görör, budaha, burda Şah Abbasın qolu olan qəlib var. Deyir:

– Qardaş, bu neçəyədi?

Deyir:

– Yüz manat.

Deyir:

– Yüz on manat olsun, bu şərtə ki, iki yüz dənə mana qəlib lazımdı.

Deyir:

– Bizdihdi.

Kişi də damda ater dana, yazıx nağarmalıdı. Geder dama baxanda manşırrıyır, görör bay, Aşağı Öysüzdüdə bir dama salıb kişiyi, burda qəlib atdırellar. Xanım bunu azad eliyir. Xanımın zehninə bax, sənətin qüvvəsinə baxginən ki, bu sənət olmasaydı, Şah Abbas xilas ola bilməzdi. Bunnan da mən qutareram.

## 133. AĞILLI QIZ

Bunu, ölənnərinizə rəhmət, atam danışıb. Deyir, şah oğlu Şah Abbas vəzirinə beş manat pul verer, qırx gün də möhlət verer. Deyir ki, gedərsən, beş manata bir erkək alarsan, erkəyin ətinnən pilov bişirtdirərsən, yununnan xalça toxutdurarsan, beş manatımı da gətirərsən, erkəyi də diri gətirərsən. Qırx günə bu işi yerinə yetirməsən, səni zindana salıf boynunu vurdurajam.

Vəzir çox fikrə geder. Şah Abbasın atasının vəziri də həmən vəzirin atası olor. Oğlu gəler içəri fikirli-fikirli. Atası dillənir. Deyir:

– Oğul, sən nə qədər fikrə dalıfsan? Bir belə fikir olarmı?

Deyir:

– Ata, mənim dərdimə əlaj yoxdu.

Deyir:

– Bala, elə şeymi olar? Hansı dərd olar ki, dərmansız olsun? Bir fikrini de.

Deyir:

– Ata, şah beş manat verif. Deyir, get bir erkək al, ətinnən pilov bişirt, yununnan xalça toxut, erkək də diri gəlsin, beş manat da.

Vəzir bu fikirnən durur yola düşür, el-oba gəzməyə geder. Yolnan gedəndə bir nəfərə rast olor. Kirimişcə hər ikisi yol geder. Deyir:

– A qardaş, gəlsən, bu yola pilləkən qurax, məkana tez çatax.

Deyir:

– Ə, dayan, sənin axlın çatmer axı. Mənim burda nəyim var pilləkən quram?

Dinmillər, hər ikisi bir müddət geder. Geder bir çay sahilinə çatellar. Deyir:

– Gəlsən, elə addıyax heş birimiz ayağımızı suya salmıyax.

Deyir:

– Sana aşağıda dedim axı. Dayan, sənin başın yoxdu. Mənim burda ağacım yox, körpüm yox, nəyin üstüynən gedəm ayağım suya dəymiyə?

Bir müddət kişiynən yol gedellər. Sahilə çatanda baxır ki, buğda zəmisi, göz baxdıxca baxırsan. Vəzir deyir ki, ey ilahi,

görəm bunun yiyəsi yiifmi, yijəhmi? Yol yoldaşı deyir ki, vallah, sənin axlın çatmer. Yijəhdi, yimijəhdi nədi? Zəhmət çəkif əkif, yijəh da.

Dinmillər, bir müddət yol geder. Yol yoldaşı olan kişinin hayatına çatanda bu öz evinə burulur, vəzir də yol alıf getmək isdiyir. Kişinin bir qızı olor, gözünün biri kaş olor. Deyir, ay ata, gejənin bu vaxtı o yoldaşı haraya buraxdın? İnsan döyülmü, gejə hara gedəjəh? Niyə qaytarmadın? Deyir, onun axlı çatmer. Yolda mana belə suallar verer. Mənim baltam yox, ağacım yox, mən ona nə körpü salım? Deyir, yox, ata, o savatdı adamdı. Onu qaytar geri. O demək isdiyir ki, söhbət eliyə-eliyə gedək, nətər getdiyimizi bilmiyək. Yola pilləkən salax o deməkdi. Atası dedi ki, bəs çaya çatanda dedi, elə addıyax heş birimiz ayağını suya salmıya. Qız deyir ki, ata, o demək isdiyib ki, gəl birimiz ayağını soyunsun, o birimizi addatsın. Kişi deyir, bəs taxıla çatanda da deyir ki, onun yiyəsi yiifmi, yijəhmi? Qızı deyir ki, ata, onun hər ikisi də ağıllı fikirdi. O demək isdiyif ki, onu əkənin borcu-xarcı varsa, satıf onu borcuna-xarcına verəjəh, yoxsa özü yijəh. O, savatdı adamdı. Qız onu geri çağıtdırır. Çağırer, geri qaytaranda gəler vəzir içəri, qapıya çatanda deyir:

– Maşallah, nə gözəl buxarıdı, ancax hayıf ki, bir az əyridi.

Qızın çaşdığına işarə vurur. Qız deyir:

– Baxma əyri olduğuna, tüsdüyü həmişə düz çəker.

Yatellar, səhər üzünüzə xeyirrihnən açılsın, duruf gedəndə vəzir şah verdiyi tapşırığı qıza danışer. Deyir, onun fikrini çəkersənsə, sən getmə heç haraya, onu mən həll eliyəjəm. Qız deyir, orda quyu var, get ordan bir qamış kəs, gətir mana. Vəzir geder o qarğının birini kəsib gətirer. Qız bunnan bir tütək qayırer. Deyir, o dağda sürüyü görörsənmi? Aparıf bunu o çovanın yanında çalarsan. Çovan həvəsdənəjəh, onu mana sat deyəjəh. Onda deyərsən, beş manatdı. Sən erkəyi soruşarsan, çovan deyəjəh, beş manatdı. Tütəyi verərsən çovana, erkəyi alıf gətirərsən. Belə də eliyir, gedif erkəyi alıf gətirer. Erkəyin qarnının altını aldırer, balaca bir xalça toxuyor. Burduror, hayasınnan pilov bişirtdirir, hayasın da başına qoyor. Erkəyi də vəzirin yedəyinə verer. Erkək

salamat, pul əlində, yunu da belində. Pilo əlində şahın yanına gedəndə pilovun iyisi şahı vuror. Deyir, vəzir, bu sirri mana açajaxsan. Deyir, nəhlət şeytana de, onu mənnən soruşma. Deyir, yox, onu mana açajaxsan. Necə mən sizə söhbət elədiyim kimi şaha söhbət eliyir.

Nəysə, şah israr eder, vəzir məjbur olor sirri açır. Şah ona nə qədər elçi düşör, mümkün olmor. Qız deyir, nolsun şahdı, onun sənəti yoxdu. Savah taxtdan düşər, şahlıx əlinnən gedər, mana nəynən baxar? Sənəti olsa, mana baxajax. Mən şaha getmərəm, mən sənətkar isdiyirəm. Axırı belə qaler ki, şaha xalça toxutmax örgəder. Şah türməyə düşör. Türməyə düşəndə şahın yerini bilmerlər. Şah xalça toxuyur, onu satışa çıxardır. Xalça qızın əlinə keçəndə deyir, şah filan yerdədi. Onnan sora həmin qız şaha geder.

İndi sənət ölməz. Alimlih asantdı, oxuyarsan, əlinnən alarlar, ancax sənəti alammazlar. Haraya düşsən, sənətnən dolanarsan.

## 134. AĞILLA BƏXTİN MÜBAHİSƏSİ

Kişi kasıb bir adamıydı, gedif cüt əkirdi. Ağılla Baxt bir yerdə dedilər bu qoja kişidi, yaşdı adamdı, buna bir köməkdarrıx eliyəh. Əkin əkerdi, qopun[54] burnuna bir küpə rast gəldi. Küpeyi kişi çıxartdı. Ağıl dedi, bunu mən yetirdim, Baxt dedi, bunu mən yetirdim. Ağılnan Baxt başdadı höjətdəşməyə. Ağıl çıxdı durdu qıraxda, dedi:

– Yetiribsən, di kişiyə ver, yesin.

Ağılsız adam nağayrasıdı? Baxdı gördü bir küpə sarı dəmirdi. Ə, sabah taxıl çıxanda bu taxılı zay elijəh. Dığırrıya-dığırrıya apardı əldən qoydu yola.

Tacir karvan vurub yolnan Tiflisə gederdi. Gördü kü, bir küpə qızıl qoyuluf yola. Yığdı karvana. Baxt yalvardı Ağıla ki, ə, kişiyə yetirmişdik, bunun əlindən aldın verdin tacirə. Qoymaynan aman günüdü, dərdin alem, ağrın alem. Yalvardı yapışdı. Ağıl gəldi girdi başa. Girəndə (bir xeylax da tacir qızıldan yığıb gedirdi), cütcü dedi:

---

[54] Qop – kotanın dişi

– Tacir baba, bu buraxma döyül, yığıf haraya aparersan? Bilerəm, səfərin Tiflisədi. O küpüyü apararsan Tiflisin patcahına verərsən. Deyərsən, Azərbaycandan Cütcü Əhməd bunu sana padarka göndərdi.

Din varıydı, ilqar varıydı, iman varıydı. Bir sənin canın üçünə kəndin parası ya batardı, ya tikilərdi. Vaxt gəldi, apardı bu küpüyü Tiflisə. Tiflis patcahının qabağına qoydu ku, Azərbaycannan Cütcü Əhməd bunu sana padarka göndərdi. Patcah fikirrəşdi ki, deməli, Azərbaycanda adam qıtlığı var, yoxsa bu qədər qızılın yiyəsi niyə cütcülük eləsin?

– Tacir!

Dedi:

– Bəli.

– Havaxt gedəjəhsən?

Dedi, məsəlçün, beşinci gün, dördüncü gün. Dedi:

– Gedəndə burdan gələrsən.

Tacir getdi, işini qaydasına qoymaxda olsun, patcah belə bir kəndə[55] tapşırdı kı, həftənin dördüncü günü hazırraşın, gedəjəhsiniz Azərbaycana, Cütcü Əhmədin sərəncamına. Orda əhali çatışmer... Yiməyiniz, işməyiniz, təminatınız hamısı mənim boynuma, gedin o kişinin sərəncamına, nə desə, onu qəbul eliyin.

Tacir gəldi:

– Patcah sağ olsun, mən gederəm.

– Çox yaxşı. Bax bu kəndə də yiyəlik eylə, apar Cütcü Əhmədə deynən ki, Tiflisin patcahı da bunu sana padarka göndərib.

Bu da çörək tapmer yiməyə. Ayannan bəri mal-qoyun, at-eşşək, millət, ağlaşan, vuruşan gəler. Baxt dedi ki, Ağıl, bu qədər adamı gətirerəm kişiyə, əlini belinə qoysun xəzeyinnih eləsin, işdətsin. Ağıl dedi, ə, get dərdində olginən. Onu gətirən mənəm.

Bular gəlməkdə olsun, Ağılnan Baxt vuruşmaxda. Gəlib bu kişinin sahəsinə çatanda Ağıl çıxdı durdu qıraxda. Dedi, di yiyəlik eləynən. Nolajax, maldı, qoyundu taxıla sarı cumub ayaxlıyır. Kişi payıyi götdü, qoyma dedi. Adam nədi, mal nədi, at nədi? Ə köpək uşağı, taxılı niyə tapdalıyıf zay eliyirsiz? Taciri

[55] Söyləyici öz kəndlərinə işarə edir.

uxaladı[56]. Heş tacir fürsət tapmadı ki, deyə ə, belədi. Ağaca qoyma deyib düşüb buların üstünə. Ağıl yox, çıxıb başdan. Tacir gətirdiyi adamları da götürüb gedir. Baxt yalvardı ki, ağıl, amanın günüdü, dərdin alem, sana qurban olum. Ağıl gəldi girdi cütcünün başına. Cütcü dedi:

– Tacir, bilerəm səfərin İranadı. Bu millәti aparırsan verirsən İranın patcahına. Deyirsən, Azərbaycannan Cütcü Əhməd bunu sana padarka göndərib.

O vaxtı din varıydı, ilqar varıydı, inam varıydı. Yaxşı yadında saxla, bir az sözü sözə calıyan adamam. Rəhmətdik dədəm deyirdi ki, Qarabağdan gedif mal gətirirdik. Pul çatmıyanda torpağı yerdən götürüb ona and verirdik ki, bu torpax haqqı, bir aydan sora pulun qalanını verəjəm. O qədər adama inam varıydı.

Başağrısı olmasın, tacir getdi çıxdı İrana. Şəhərin qırağında gətirdiyi adamlara dedi ki, durun burda. Getdi patcahın yanına. Dedi:

– Patcah sağ olsun, Azərbaycannan Cütcü Əhməd sana bu millәti padarka göndərif.

Patcah fikirrəşdi ki, bu qədər əhalisi olan niyə cütcülüh eliyir. Ə, bu vəzifəyə layih adamdı. Gətirəh bunu İranda patcahlıxda bir vəzifəyə qoyax. Mənim kimi iki dənə yasoulu çağırdı ki, ə, Azərbaycanı tanıyırsanmı? Dedi, patcah sağ olsun, qarışbaqarış.

– Filan yerdə Cütcü Əhməd addı biri var, gedin onu gətirin.

Gəldilər, Cütcü Əhmədi tapdılar. Dedilər, səni İranın patcahı çağırır. Qoydular faytona, getdilər, saraya daxil oldular. Kişi oturub bizim kimi. Ağıl dedi ki, kişiyi kasıfçılıxdan gətdim, patcalıxda vəzifəyə qoydum. Baxt dedi, ə, get işində ol, onu eliyən mənəm. Vuruşdular, Ağıl çıxdı durdu qıraxda. Kişiyə çörək gələsi oldu. Ofisiant çörəyi süfrəyə qoyan kimi kişi götdü qabı başıaşağı əldə qoydu (kişinin boşqabı başı üstünə qaldırıb üzüaşağı çevirməsini söyləyici əli ilə göstərir). Üst-baş qalmadı. Ağılsız adamdı da, Ağıl çıxıb, dəli şeydi. Baxt gördü kü, kişininki ölümdü. Sən gəl İranda – patcahın sarayında belə hokqa çıxartginan. Ofisiant gedib patcaha xəbər verənə kimi Baxt Ağıla yalvardı ki,

---

[56] Uxaladı – qabaqladı

aman günüdü, kişiyi bu vəziyyətdən qutar. Qutarsan, dünyada sənsən. Ağıl gəldi girdi başına. Ofisinat getdi patcaha dedi ki, bu dəliyi gətirmisən, saray qalmadı, ustul qalmadı, xörəyi başınnan aşağı əldən qoydu. Patcahın qəzəbi tutdu.

Cütcünü apardılar patcahın yanına üstünnən başınnan xörək tökülə-tökülə.

– Ə kişi, dəlisən, divanasan, sarayı, üstünü-başını niyə bu kökə salmısan?

Ağıl girib başa axı. Dedi:

– Patcah sağ olsun, sən bu ağılnanmı patcahlıx eliyirsən?

Dedi:

– Necə yanı?

Dedi:

– Patcah sağ olsun, mən sənin çörəyini o qədər uca tuturam ki, başımnan aşağı tökürəm ki, patcah, çörəyin uca olsun, taxtı-səltənətin ucalsın. Yeməyə nə var. Qaşıxla elə buraya (söyləyici ağzını göstərir) doldur. Gör mən səni nə dərəcədə uca tuturam.

Ayə, patcah gördü ki, bu ağıllı gafdı. Kişiyə qastum gətir, şalvar gətir, paltarını dəyişdilər, bir vəzifəyə qoydular.

Dünyada ağıl da yaxşı şeydi, baxt da yaxşı şeydi. Ağılnan baxt bir yerdə olsa, demək, hər şey eləmək olar.

## 135. QİSMƏTDƏN QAÇMAQ OLMAZ

Peyğəmbər dedi ki, ey Allahtaala, mən nə yijəm günorta? Dedi:

– Sən süddü aş.

Dedi:

– Yaxşı.

Biz Qarabulax deyirik, orda böyük bir qonax[57] var idi. Çıxdı qonağın başına. Dedi:

– Görüm bu qonağın başına süddü əriştəni kim gətirif çıxardajax.

Biri əyilif bulaxdan su içəndə partfeli cibindən düşür yerə. Bu suyu içif, çıxıf geder. Pullu adam həmişə əlini cibinə salıf yox-

---

[57] Qonaq – qovaq ağacı

luyur axı. Bu əlini cibinə salanda görör ki, pul yoxdu. Deyir, hə, bulaxdan əyilif su içdim, orda cibimdən düşmüş olajaxdı. Qayıdıf gedəndə görör kü, bir atdı kişi burda heyvanını suluyur. Deyir:

– Qağa, mən yarım saat bunnan qabax burda əyilmişəm.

Malı suluyannan qabax biri gəler görör ki, partfeldi, içində də pul. Götürör, çıxer, varer geder. Bu qayıdanda görör, bir kişi burda malını suluyur. Əyə, mənim burda... Deyir, a kişi, vallah, billah görməmişəm. Musa peyğəmbər də qonağın başında görör axı. Kişinin partfelinin düşməyini də gördü, bir ayrı adamın aparmağını da gördü. Deyəndə sözdəri çəpləşir. Deyir:

– Ə, iyirmi dəyqə döyül burdan ayrıldığım.

Pulu itirən nətər vurursa, malı suluyan ölür. Bulağa gələn görör burda biri ölüf. Kəndə huy düşür ki, deməssənmi, filankəs bulaxda ölüf. Ayə, bunu kim öldürdü, haraya getdi. Bu buraya yüyürör, o oraya yüyürör, biri də qonağa baxanda deyir:

– Sən öl, kişiyi öldürüf də ağaca çıxıf. Ə, bəri düşginən. Kişiyi öldürüf, buna bax, gör haraya çıxıf.

Nə tanıyıllar bu Musa peyğəmbərdi. Camaatın gözünü qan örtüf. Balta gətirellər, dəhrə gətirellər, qonağı kəsirik. Düşüröllər. Düşürən payaya qoyma deyir. Kişiyi yorğan-döşəklik eliyillər. Sənin kimisi gəler. Gələndə deyir, öyünüz yıxılsın, bu filankəsdi, neyləmisiz. Ə, qolun qurusun, qıçan qurusun deyə-deyə (bulağın yanında Əlixan addı bir kişi var, arvadı da sestradı) palazın arasına qoyullar, bunun öyünə aparellar.

– Əyə, nağayrax, neyniyək?

– Ə, bir sütdü əriştə bişirin, qaşıxnan ağzına damızdırax dana, yumuşaxdı dana süd, gedəjəh.

Bişirellər, damızdırellar, peyğəmbər diriler. Geder Turi-sənada gənə Allahtaalaynan danışanda deyir, a sana qurban olum, o süddü-əriştə dəqiqdi. Buna söz-söhbət yoxdu. Onu içdim. Amma pulu düşən kişi belə, pulu aparan belə, ölən belə. Bu nə hak-hesab idi? Dedi:

– Pulu düşən kişinin atası pulu aparanın atasını işdətmişdi, hakqının verməmişdi. Onun pulunu saldım onun atasının hesabını verdim getdi.

– Bəs ölən?

Dedi ki, o ölənin atası öldürənin atasını öldürmüşdü. Onu da onnan əvəzləşdirdim. Sütdü ərişdəni də işdinmi? Di yeri get işinnən məşğul ol.

## 136. ALLAH VERSİN

Üş dənə hambal var idi. Bular gejə-gündüz vaqon boşaldıf, iş görüflər. Bayaxları söhbət elədiyim şah oğlu Şah Abbas Vəzir Allahverdi xana dedi:

– Öyün yıxılsın, elə hey yatersan. Gejə saat üşdü, gedək rayonu, şəhəri hərrənək, görək kimdi çalıf-çapan, dağıdan.

Gördülər ki, bir damkadan işıq gəler. Şah Abbas dedi, gejənin bu vaxdı kimdi yatmayıf oyax qalan? Gəldilər qapının ağzında dinşədilər ki, bular hareyi talıyıflar, hardan gətiriflər. Bular çatmaxda olsun qapının ağzına, bu damkadakı da üş dənə hambal idi (Yaxşı qulax as, kitaba qeyd elə bunu). Bular çörək yeyən vaxdı dedilər, gəlsəniz, bir dilək diliyək, bəlkə Allahtaala diləyimizi eşitdi.

– Deynən, ə, nə dilək eliyirsən?

Dedi:

– Ə, nolar şah oğlu Şah Abbasın ürəyinə riza düşə, qızını mana verə, mən də bir ağ gün görəm.

Şah Abbas qapının ağzında eşider. O birinə dedilər:

– Sən deynən.

Dedi ki, vəzirin ürəyinə riza düşə, qızını maa verə, mən də işıxlı dünyada bir gün görəm. Öldük dana. Gecə saat ikidə, üçdə gələrsən, arvad yox, uşax yoxdur ki, gələndə biləsən çayın-çörəyin hazır olajax. Deyəndə o birinə dedilər:

– Ə, sən deynən.

Dedi:

– Qardaş, mən Allahdan isdiyirəm.

Qapıyi möhürrədilər. Sabah gəldi çıxdı taxtı-səltənətə. Çağırdı yasoulu, dedi ki, filan küçdə filan nömrəli öy, orda üş nəfər adam var, gətirirsən buraya. Buların əlində döyüldümü? Getdilər tapdılar, gətdilər. Şah Abbas dedi:

– Ə, beyjə nağarıfsınız, nə iş görüfsünüz?

Dedi:

– Patcah sağ olsun, heş nə. Hamballıx eliyirdik, mal yüklüyürdük.

Dedi:

– Nə danışıfsınız, onu danışın.

Danışamı biler? Bayaxları damkanın altı idi, iştədiklərini danışerdılar, indi boğazları quruyuf. Məsəlçün, indi mən bülbül kimi ötürəm. Amma prezident gələ burya, mənim dilim söz tutarmı? Əlaj kəsildi, dedi:

– Sən öl asdırram, nə deyifsinizsə, deyin.

Bu dedi ki, patcah sağ olsun, mən dedim ki, patcah qızını mana verə, mən də ağ gün görəm. Deyir:

– Gəl keç sağ tərəfimə. Sən nə dedin, ə?

– Patcah sağ olsun, dedim, vəzirin ürəyinə riza düşə, qızını maa verə.

Dedi:

– Gəl sən də keç sol tərəfimə. Sən nə dedin ə?

Dedi:

– Mən dedim ki, mənimkini Allah versin.

Dedi:

– Get səninkini Allah versin.

Bulara dedi ki, siz Allahdan dilək dilədiniz, Allah sizin diləyinizi eşitdi, ürəyimə riza saldı. Qızdarı sizə verəjəm bu şərtə ki, mənim torpağımdan çıxajaxsınız.

Çəkidən yüngül, qiymətdən ağır patcahlıxda nə zinyət varıydı doldurdu xurcunnara, atdar yükləndi, bir at qıza, bir at oğlana verdi. Dedi ki, işıxlanmamış mənim torpağımdan çıxın. O ki dedi, mənimkini Allah versin, bu da çıxer bunun torpağınnan. Getdilər, Öysüzdünün başında gördülər gejədi, bir adam gedir.

– Ə, kimsən?

Səs tanış gəldi. Dedi ki, mənəm, ə.

– Ə, sən haraya gedersən?

Dedi ki, mən də çıxeram bu torpaxdan. Dedilər, çörək kəsmişik, bir yerdə hamballıx eləmişik, elə bir yerdə gedək. Nə desən də var dana. On illik, on beş illik azuqə var burda.

Nolajax, atın tərkinə bunu da götdülər, getdilər. Gethaget, gethaget, getdilər Aşağı Öysüzdüdə bir öyə qonax oldular. Bular içəridə idi. Gördülər ki, a kişi, bir yürgəy asılıf orda, içəri girən, çölə çıxan bu yürgəyi bir dəfə belə yürgəliyir. Durammadılar, soruşdular ki, a sana qurban olom, o nədi, nə işin sahabıdı? Adamdı, daşdı, ağaşdı. Dedilər, paa, o adamdı, bir kəlmə sözü on manatdı. Buların qızılı var, pulu var, amma qıyıf ona vermillər, amma Allahversinin fəhləlikdən on manatı var idi, çıxartdı, dedi:

– Ala bu on manatı ver ona, maa bir kəlmə söz desin.

Apardılar pulu verdilər.

– Ay baba, o kişi bir kəlmə söz isdeer sənnən, – deyəndə dedi ki, a bala, elə ki Əlibəyliyə çatdınız, gördünüz toran düşüf, gün qubura girer, deməynən ki, gedif Köçəsgərdə qallam. Elə Əlibəylidə də qal.

Yoldaşdarı hərəsi bu Allahversinə bir soxma vurdu ki, ə, zulum oğlu zulum, mən bilmerəmmi qarannıx düşəndə harda qalmax lazımdı? On manatı nahax verdin.

Sabah üzünüzə xeyirrihnən açılsın. Sabah açıldı, bular yol başdadılar gethaget. Qoşaoynüyün dərəsi deyilən yer var, ora düşərgə yeridi. Axşamüsdü Qoşaöynüyün dərəsinə çatanda bu Allahversin dedi ki, a qağa, mən on manat verif söz örgənmişəm. Mən burda qaleram. Bular dedi ki, ə, kişisən, kişi oğlusan, gejə vaxdı yanımızda qadın... Dedi:

– Ə, başın üçün, nə olur olsun bir metr gedən döyüləm.

Bular gedəsi oldu, Allahversin bu düşərgədə qalası oldu. Ağdamın başına çatanda bular xanımlara dedilər ki, biz çıxax o təpənin başına, görək harda it ürür, işıq gəler, gedək o səmtə. Bular çıxan kimi çovğun-boran başdadı. Atdı-adamlı bular burda ölməkdə olsun, irağ üzüzdən. Bu xanımlar iki saat gözdədi, üş saat gözdədi, soyux, qar-qiyamət. Xanımın biri dedi, aaz, gəl qayıdax Allahversinin yanına, bular görəndə ki biz yoxux, biləjəhlər ora qayıtmışıx dana.

Gəldilər Allahversinin yanına. Gördülər ojağı qalıyıf, yaxşı xumarranıf yater. Bajı-qardaş kimi bular da bunun yanına uzanıf yatellar. Sabah açıldı, üzünüzə xeyirrihnən açılsın. İndi bular qa-

yıdası döyül, irəli gedillər həm bulardan xəbər bilməyə, həm də patcahın əmridi Touz rayonunnan çıxmalıdırlar. Getdilər gördülər paho, bular burda rəhmətə gedif.

Allahversinnən bu iki qız getdilər çıxıdılar Qazağa. Pul var, para var. Bajı-qardaş kimi başdadılar burda yaşamağa. Bir də gördü ki, bax belə bir çayçıdı. Biz söhbət elədiyimiz kimi iki oğlan söhbət eliyir. Biri deyir, ə, noldu ateyin axırı. Allahversin də qulağ aser. O biri dedi ki, ayə, İran qalmadı, Turan qalmadı, Ermənistana kimi apardım, mümkün olmadı. İndi loğmannar mana deyillər ki, filan yerdə bir bağ var, o bağda filan ağacın meyvəsi var, onnan gətsən dədən qutarar. Oraya da gedif gəlməyə mənim imkanım yoxdu. Pul verirəm, para verirəm, yenə də gedən yoxdu. Allahversin buna qulağ asırdı. Yaxınnaşdı dedi:

– A qağa, mən gederəm.

Yüz min manat deyib, əlli minini bəri başdan verir. Deyir, gəldin əlli minin də verəjəm, gəlmədin əlli min halalın olsun.

Allahversin Qazaxda girdi bazara. Üç illik pradukt, yağ, şor, düyü, nə bilim, dünyanın nə nazı-neməti var doldurdu faytona, gətdi bu xanımlar olan yerə. Xanımlar baxdı ki, bu nədi, nə hərəkətdi, Allahversin nə iş görür? Dedilər, bu nəmənədi? Qannarı qaralmaması üçün dedi:

– Nə bilim, ağlıma yerrəşdi, elə bazarrıxdı eləmişəm.

Sabah dedi ki, mən gederəm, qayıdaram qayıdaram. Qayıtmaram, üç illik azuqəniz var, üç ildən sora başınıza nə işi gələjəh, gəlmijəh o sizin işinizdi.

Sabah bu yol aldı getməyə. Getdiyi yerin xanının Allahtaala canını aldı, bütün nəslin, kökün qırdı, bir ayıyı da gətdi qoydu oruya həmən gejəsi. Allahversinin şəklini göstərdi ki, buraya belə bir adam gələjəh, o gələnə kimi buraya sahiblik elə. Elə ki o gəldi, sən başını götür gəniynən[58] buradan.

Allahversin gələndə gördü hündür hasardı, üçəridə mal, qoyun, at, eşşək, toyux, cücə, var-dövlət xirtdəyə kimi. Girdi bağa, gördü bir ayı. Bir balaca dili tutuldu. Bədən başdadı əsməyə. Ayı Allahtaala tərəfindən hökmə gəldi, dedi ki, Allah öyünü yıx-

[58] Gəni – aradan çıx

sın, yeddi ildi burda canım çürüdü mənim. Səni gözdəmerəmmi? Gəl bu viranxanana yiyəlik eylə dana. Allahversinin ürəyi getdi, yıxıldı. Bir müddətdən sora ağlı üsdünə gələndə dedi:

– Ə, o, deyəsən, maa deyirdi ki, gəl bu yıxılmışına yiyəlik eyləginən.

Hərrəndi, gördü bir bəşər, insan yoxdu. Həmən deyilən meyvədən dərdi, gətdi bu kişiyə verdi, əlli mini də aldı. Qadınnara dedi ki, durun gedək. Damımız var, daşımız var, məkanımız var, öyümüz var, eşiyimiz var. Qadınnarı da götdü, getdi həmən vilayətə, burda başdadı Allahversin şah barabarı adam olmağa. Var-dövlət aşıb daşır, nökər-naib, dolanırdı. Hər xanımın özünün nökəri.

Nolajax, Şah Abbasın arvadı dedi ki, Allah öyünü yıxsın, bir kəndçinin keçisi itəndə kəndə zincir salıf qiyamat qoparer. Beş ildi qız verifsən, sən öl, ondan mana bir xəbər gətirməsən, bu taxdı-taraca od vurajam. Şah vəziri çağırdı, dedi:

– Öyün yıxılsın, qızın biri də sənindi dana. Gedək oları axtarax.

Dəmir çarıx, dəmir hasa geyindilər, kəndbəkənd, diyarbadiyar getdilər çıxdılar Allahversin olan kəndə. Allahversin faytonda, nökər də yanında gederdi. Gördü ki, patcahdı, vəzirdi, çiyinnərində xurcun dərvişlibas gəlellər.

– Əylə, ə, – dedi. Bular əylədi. Nökərə dedi, get olara deynən ki, mənim ağam deyir, beyjə mənim qonağımsınız. Öyüm məktəbin yanında filan yerdədi, adım da filankəs (söyləyici öz evinin yerləşdiyi ünvanı verir). Gəl beyjə mənim qonağım ol.

Bulara da bu lazımdı, yatmağa yer lazımdı. Axşam getdilər, Allahversin də gəldi, bular da gəldi. Yimək-işmək quruldu. Xanımlar da hərəsi bir qabinetdə. Xanımmı çıxer? Yeməyi nökər gətirer, nökər aparer. Yatmax vaxdı gələndə Allahversin dedi:

– Buranın qanununu bilersənmi?

Dedi:

– Nə qanun, a dərdin alem?

Dedi:

– Qanun budu ku, beyjə hərəniz bir kadınnan yatmalısınız.

Əyə, bular ağıllı-həyalı adamlar, özdəri də dərvişlibas. Ayə, etmə, eləmə, atam sana qurban, anam sana qurban. Dedi:

– Başın üçün qulağınız boyda doğradaram sizi. Bu elin-obanın qanunu budu ki, hərəniz bir qadınla yatmalısınız.

Biler ki, patcahın qızı bu qabinetdədi, vəzirin qızı da o biri. Patcaha dedi ki, sən bu qabinetdəki qıznan yatajaxsan, vəzir də o qabinetdəki qıznan. Bular içəri girəndə ata-bala biri-birini görör, Allah gösdərməsin, biri-birinə suaşdılar, öpüşdülər.

Allahversinnən bu qızdar bu müddətə kimi bajı-qardaş kimi yaşıyıflar. Təzdən bir yerə yığışdılar. Şah oğlu Şah Abbas savatdı adam oluf, molla kimi özü kəbin kəsif. Öz razılığınnan, öz dəstixəttiynən qızdarın ikisinin də kəbinini Allahversinə kəsdi. Dedi, qardaş, doğurdan da, adama Allah versin. Patcah kimdi, vəzir kimdi?

Allah adama verəndə, a başına dönüm, bax, belə verir.

## 137. ANASINI CÜTƏ QOŞAN KEÇƏL

Keçəlin anası xəstələndi. Beş gün, on gün, bir ay yatannan sora dedi:

– Oğul, ürəyimə yaman ciyar kavabı düşüf.

İndiki kimi hər çardağın altında bir qəssabmı vareydi? Alışma olardı, vəssalam. Qəssaf nəəzerdi, mal kəsən nəəzerdi. Oğlan çıxer kəndə, görör alışma[59] eliyən olmadı. Qayıder gəler. Anası deyir:

– Noldu, ay bala?

Deyir:

– Ana, vallah, alışma eliyən olmadı.

Alışma eliyən olsa, ciyarı bu almalıdı dana. Savah da çıxer, gənə alışma eliyən olmor. Axşam anası dedi:

– Oğul, mən ölörəm, ürəyim nanə yarpağı kimi əser ciyar kavabınnan ötəri.

Deyir:

– Nağayrım, ay ana?

Vur-tut buların bir cüt öküzü varıydı. Anası dedi:

– Gət o öküzü kəs, onun ciyarınnan kavab çək.

Dedi:

– Ana, iki aydan sora əkindi, mən bir tay öküznən nağarajam?

---

[59] Alışma – bir neçə adamın pul atıb heyvan almasına deyilir. Həmin heyvan kəsilir, əti pul atanlar arasında bərabər bölünür.

Dedi:
– Oğul, Allah kərimdi.
Dedi:
– Vallah, Kərimin quyusu yaman dərindi. İşdi, sən sağaldın mən də öküz tapmadım, səni qoşojam.
Daqavor bağladılar, öküzü kəsdi. Ciyarı çəkdi, qarıya yidizdirdi. Qarı elə bil ciyar kavabının əlində idi, on beş yaşındakı qız kimi sıçradı qalxdı.
Əkin vaxdı keçəl getdi Məhərrəmin yanına ki, əyə, bir tay mənim öküzüm var, bir tayını da sən ver, yeri əkim. Dedi, mənim öküzüm də, xışım da, boyunduruğum da hazırdı, özüm əkəjəm. Sənin yanına, o birinin yanına, keçəli qəbul eliyən olmadı, əkinin də vaxtınnan on beş gün keçir. Camaat döşüyüf əker. Axşam dedi:
– Ana.
Dedi:
– Hə.
Dedi:
– Kərim, kərim deyirdin. Çarığın bağını bərkit, əlaj yoxdu, səni qoşajam.
Savah qalxdılar, üsdünüzə xeyirrihnən açılsın. Bir tay öküz, bir qarı qamçıya qoyma dedi. Gedif əkerdi.
Şah oğlu Şah Abbasa Allah rəhmət eləsin, neçə saatdı onnan danışırıx. Şah vəzirə dedi ki, ə, ürəyim yaman atdaner, gedək kəndi-kəsəyi gəzək. Gələndə gördülər bir oğlandı, bir öküzü, bir qarını döyüb əker. Vəzirə deyir:
– Allah öyünü yıxsın, yernən göyün arası qədər günaha batdıx.
– Nə günah?
Deyir:
– Belə günaha batdıx ki, görmürsənmi qarıyı cütə qoşuf. Atı səyirt, get onu aşginən.
Vəzir gəldi dedi:
– Ə, bir əylə.
Dedi:
– Nə əyliyim? Sözün var deginən, gejikmişəm.
– Ə, – dedi, – bu arvadı niyə cütə qoşufsan?

Əhvalatı buna danışer. Vəzir gəldi dedi ki, patcah sağ olsun, açası olmadı. Patcah kağız yazdı bəyin üsdünə ki, bir öküz versin. Öküzü gətdi, qareyi aşdılar. Patcah dedi:

– Ə, nağayrax? Tənbəl bir qızım var, gəlsən buna verək. Bizdən ədalətdidi bu, gör nə işə qoşor adamı. Dedi, get gör öylüdümü?

Vəzir gəldi, soruşdu:

– Ə, öylənibsənmi?

Dedi:

– Yox.

Dedi:

– Saa bir qız versək alarsanmı?

Dedi:

– Mənim vaxdımmı var, əkin gejikir, gətirif öyə qoysanız alaram.

Vəzir gəldi dedi:

– Patcah sağ olsun, deyir, öyə gətirif qoysanız, alaram.

– Ayə, – dedi, – kopoğlunun hökmünə baxginən. Əyə, get onun öyünün yerini örgən gəl.

Gəldi dedi:

– Harda olorsan sən?

Dedi:

– Məktəbin yanınnan tikinə çıxırsan, ordan da başaşağı burularsan, orda oloram.

Qızı kəcavəyə qoydular, gətdilər bir gərdək asdılar, qızı düşürdülər qoydular buruya, çıxdılar getdilər. Axşam keçəl gəldi.

– Ana, nə iş görüfsən?

Dedi, oğul, öküzün altını təmizlədim, qapıyi süpürdüm, qaşığı yüdüm, hay-huy, bir vedra da su gətirmişəm. Dedi:

– Hə, sana bir çörək. O nəmənədi?

Dedi:

– Ə, nə bilim nəmənədi. Uğur olmamışlar bir qızdı gətirif, gərdəyin dalına qoyuflar.

Deyir:

– Nə badə, nə badə çörək verərsən ha. Ətini kəsərəm.

İki gün belə, üş gün belə. Qıza dədəsi öyündə qırx qaravaş qulluğ eliyirdi. Kimi qaşıx tuturdu, kimi naskı geyindirerdi, kimi dalına şəlliyerdi. İndi hardadı? Gördü ki, kəmər gedif belə yapışıf. Qalxdı ayğır kimi yerdən. Gördü qarı qapıyi süpürör. Bu sıva qavırğanın üsdünnən təpiknən nətər vurdusa, qarı dombalax aşdı. Dedi:

– Rəhmətdiyin qızı, qoysan, para çörək də biz qazanax.

Bütün işdəri gördü. Qarı bir küncdə inildeer. Axşam oğlan gəler, deyir:

– Ana, bu gün nə iş görüfsən?

– İşgörən günün qara əlsin. Bu ayğırı hardan tapıf gətirifsən. Burdan nətər vurufsa, qavırğam qırılıf.

– Bə bu nağarıf?

Dedi, belə belə. Dedi, para çörək buna verersən, sən də tığa[60] vurorsan.

Bir gün patcah vəzirə dedi ki, ayə, qızı apardıx verdik, gedək görək nədi, nə döyül. Öldürüf, asıf kəsif? Dəvrişlibas gəldilər. Gördülər, qız tumanın ətəyini kəmərinə keçirib qapıyi süpürör. Bulara qonax oldular. Axşam xəngəl bişirəsi oldular. Bilersən, bilmersən, bu zonada nə beçə əti, nə dana əti, nə quzu əti... Xəngəli kim bişirtdirərdisə, baş kişi oydu. O vaxdı buğda harda idi ki, xəngəl bişirəsən. Qız gəldi atasının qulağına dedi ki, biriniz qurudu əzin, biriniz də sarımsağı döyün, yoxsa burda işdəmiyənə çörək yoxdu. Oğlan dedi, ey, onun qonağa aidiyyəti yoxdu (Budaha qonax gəlibsən, çıxarıf çayın pulunu verirsən. Onun sana aidiyyəti yoxdu. Qədirəl qüvvət özüm verəcəyəm. Qonax tığdan vurandı)[61].

## 138. KEÇƏLLƏ KOSA

Kosuynan keçəlin dəyirmənə uçireti bir tüşdü. Keçəl bir dağarcıx taxıl aparmışdı, getdi gördü Kosa üş çual gətirif. Kosa qabağa tüşür, çualları üyüdüf qutarması gej çəker. Keçəlin də nəyi var ki, bir dağarcıx gətirif. Tökdü üyütdü. Kosa dedi ki, a Keçəl, gəlsən,

---

[60] Tığ – toplanmış, çox yığılmış

[61] Söyləyici ilə çayxanada oturub söhbət edirdik. Çayın pulunu vermək istədikdə bu nağılı bizə misal çəkdi.

bir kömbə bişirəh, unu mənnən, urvası sənnən. Keçəl fikirrəşdi ki, bir kömbəyə nə qədər urva gedəjəh ki. Bilmerəm su dəyirmənini görübsənmi? Onun tavağını görübsənmi? Kosa bir belə unu tulladı tavağa, suyu buraxdı ora. A Keçəl, urva gətir, a Keçəl, urva gətir. Urva qala dursun, təmiz dağarcıx qutardı. Yoğurdular yapdılar, kömbeyi bişerdilər. Kömbə bişdi hazır oldu. Kosa dedi:

– A Keçəl, bunu bölməhdənsə, çöp atax, kimə düşər, düşər.

(Mənnən sana amanat, qətiyən keçəlnən mübahisəyə girmə, onların baxtı ayrı şeydi).

Dedi ki, nolar, eliyək. Çöp atdılar, kömbə gəldi düşdü Keçələ. Keçəl kömbəni doğradı, doldurdu dağarcığa, bir dilim çöldə qaldı. Bağlamağa yer yoxdu dana. Dedi:

– A Kosa, bunu verərəm sana, amma hakqımı alajam.

Dedi:

– Ə, sən bilmersənmi, mana haxverməz oğlu haxverməz deyəllər.

– Bıy, – dedi, – səni salamat olmuyasan. Sən eşitmiyifsənmi, mana da hakalan oğlu hakalan deyəllər.

Kömbüyü verdi, dağarcığı vurdu çiyninə, gəldi. Anası istədi ki, ələk gətsin, tavax gətsin çörəh bişirməyə. Dedi:

– Ana, zəhmət çəkmə, bişirif gətmişəm.

Aradan üş gün keçənnən sora dedi:

– Ana, mənim çarıxlarımı gətir, bir az alacağım var, gedif onu alem.

Çarığı geyindi, hasıyı aldı əlinə, kosanın öyünü tanıyırdı dana, getdi. Dedi:

– A Kosa, mənim amanatımı verginən.

Dedi:

– Ə, mən sana nə dedim? Demədimmi ki, mən haxverməz oğlu haxverməzəm.

Dedi:

– Ə oğraş, mən də sana demədimmi ki, mən də hakalan oğlu hakalanam.

Bir-birinə bir az hərbə-zorba gəldilər. Keçəl dedi:

– Bax, gələjəm, hakkı hazırla.

Bir də getdi, iki də getdi, üçüncüdə Kosa gördü kü, gəler. Özünü verdi dama, dedi:

– Arvad, çıx damın belinə, başını-gözünü yol, özünü fidah eyləginən ki, Kosa öldü.

Kosa ölsün, arvad çıxdı damın belinə. Hay-həşir, qiyamat. Ay camaat, niyə durursunuz, kosa öldü. Keçəl ağlıya-ağlıya özünü yetirdi. Başına döyör, gözünə döyör, qıçasına döyör. Kosanın qardaşdarı dedi:

– Əyə, ölən qardaş bizimdi, sən niyə özünü həlak eleersən?

Dedi:

– Ə, neynim. Mənim yolum yomursun. Bir günnəri dəyirməndə munnan mənim uçiretim bir tüşmüşdü. Orda əhdi-peyman eylədik ki, kim qavaxca ölsə, o birimiz onu yusun.

– Zalım oğlu zalım, – dedi, – sana verəh, sən yuynan dana, daha özünü niyə fidah eleersən?

Dedi:

– Yox dana, qavaxca mən ölsəm yaxşıydı.

Yuat yeri quruldu, Kosuyu yuata çıxardası oldular. Keçəl suyun altına qor verif elə şakqıldader ki... Biler ki, Kosa bijdih eliyir. Suyu şakqır-şakqır qaynatdı. Mağar quruldu, Kosuyu gətdilər. Keçəl qaynar sudan tökör, daşdan sürtör, Kosa qalxmer ki, qalxmer. Dedi, yaxşı, ağzına v..im, haraya gedəjəhsən mənim əlimnən. Gətdilər Kosuyu basdırdılar.

Hardan xəbər verim sana, bu kəndin oğruları getdilər Ermənistanı taladılar, gətdilər. Gejə saat ikidi, üşdü. Dedilər, arvat-uşağı oyatmıyax, elə qəvirsannıxdaca gəlin bölək, hər küşdə də payını götsün çıxsın getsin. Ə, çox yaxşı, ağıllı məsləhətdi. Böldülər, arada bir xançal qaldı. Bu dedi ki, mən sizi aparmışam, xançal mənimdi. O dedi, əyə, bura bax, qapının ağzını kəsən mən idim, xançal mənimdi. Bu biri dedi, ə, erməni qalxanda başına vuran mən idim, xançal mənimdi. Biri dedi ki, gəlin belə eləmiyək. Nağayrax? Keçəl də girib bir çürük qavıra, biler ki, Kosa nə vaxtsa duruf qaçajax, onda tutuf hakqını alsın. Dedilər, gəlin belə eliyək. Bax o meyit təzə ölüb. Çıxardax onu, xançalnan vurax. Kimin xançalı ayağa kimi getsə, xançalı ona verək. Kosa

eşider axı bunu, Keçəl də eşider. Kosuyu çıxartdılar. Kosa biler ki, bunu öldürməyə aparellar, xançalı bu saat cəneyjəh[62]. Dedi:

– Ə, ölülər, niyə durorsuz, öyüz yıxılsın, məni aparellar.

Keçəl ordan bağırdı ki, ə, tut, gələrəm. Sağlam adam qavırsannıxda vahimələnir, o ola qəbirdən səs gələ. Tut gələrəm deyəndə oğrular varı-döyləti də orda qoydular, qaçdılar. Çürük dərədə bulardan biri dedi:

– Ə, qulağımız səsə düşüf. Ölümü dirilər? Gəlin gedək varımıza yiyə durax.

Biri dedi, yox, atamın goru haqqı mən gedən döyüləm. O biri dedi, mən gedən döyüləm. Obşim, bir-iki nəfər qayıdası oldu. Bular qayıdana kimi Keçəlnən Kosa da varı bölör. Oğrular gəlif o məqamda çatdılar ki, bular bölüf qutarıf, arada gənə xançal qalıf. Keçəl dedi ki, o köhnə hesaba görə bu xançal mənə çatır. Oğrular bunu eşidif üstünə qoydular. Getdilər dedilər:

– Öyünüz yıxılsın, qavırsannıx qalxıf köhnə hesab bölör, başın üçün, qaçın.

Keçəl də belə hakqını aldı.

## 139. DIBIRIN QEYRƏTİ

Allahtaala bizi yaradıf, dördayaxlı heyvan yaradıv, qoyun, keçi, quzu, mal, dövlət, camış. Günlərin bir günü qoyun sürüləri, deyir, dağlarda leş-leşə döşənib. Ot yoxdu. Allahtaalanın qəzəbi tutuf bulara, ot vermiyif. Ot olmasa, quru yerdə nə otdujax? Süleyman peyğəmbər quşdarın peyğəmbəridi. Musa peyğəmbər də bu dörd ayaxlı heyvaniyyətin peyğəmbəridir. Deyillər ki, a dıvır (hər qoyunun qavağında bir dıvır olurdu), sən bizdən yüngül olarsan. Gözdə-qulaxda ol, Musa peyğəmbər gəlib bu yoldan keçəndə bizim ismarıcımızı ona deynən. Deynən ki, Allahnan danışanda bizi yaddan çıxartmasın. Ya bizi bir yollux öldürsün, ya da bizə göy ot versin. Deyir, yaxşı.

Rəvayətdi da. Keçi alaqaranlıx gedir yola çıxır. Görür ki, Musa peyğəmbər gəldi.

---

[62] Cəneyjək – sancacaq

– Salam, yolda duran.
Deyir:
– Əleykə salam, Musa peyğəmbər. Hara gedirsən?
Deyir:
– Allahnan danışmağa.
Deyir:
– Sən bilersənmi, mən keçiyəm, dıvıram?
Deyir:
– Hə, bilerəm.
Deyir:
– Bizim də peyğəmbər sənsən. İndi biz Allaha bir ismarıc göndəririk, onu çatdıra bilərsənmi?
Allah da göydən eşidir. Deyir:
– Bəli, çatdırram.
Deyir:
– Bax, bütün qoyun sürüləri, hələ camışı, malı demirəm, mən qoyun sürüsünün dıvırıyam deyə qoyun sürüsünü deyirəm. Bax dağların döşündə leş-leşə verif. Daşdan başqa bir ot yoxdu ki, ağzımıza alıf otduyax.
Deyir:
– Yaxşı. Nədi ismarıcın?
Deyir:
– Denən ki, biz leş-leşə verif ölörük. Bizi dirildirsən, ot ver otduyax, diriltmersənsə, bərdən-anrı qırginən qutarax dana. Nə vaxta kimi buna dözək?
Deyir:
– Yaxşı.
Musa peyğəmbər gedir Turi-Sənaya. Deyir:
– Ya Allah, bir ismarıc da var. Məni sən dörd ayaxlı cinsiyyətə peyğəmbər qoyufsan. Onlar da mənnən ismarıc yolluyuf ki, leş-leşə verif ölörük. Ya bizə bir yemək təşkil eliyin, ot-cincilim yeyif dolanax, eliyin, obuyun camaatı bizim ətimizdən istifadə eləsin.
Deyir:

– Get olara deynən ki (sözün məğzi buradı ha, dıvırın hərəkətinə bax, Musa peyğəmbərin hərəkətinə bax), sizi mən yatratmışam, mən də qıreram, sizə ot yoxdu. Yer üzünnən sizi siləjəm.

Deyir:

– Yaxşı.

Bir yerə qeyd eliyir. Bular örgənir ki, Musa peyğəmbər savah yox, bürsügün gəlib burdan keçəcək. El elə xəbər verə-verə dana. Yer, deyir, qulaxlı olar. Gənə dıvırı göndərellər ki, boğazında zınqıroy, get, gəlib keçəndə başını silkələ, qoy zınqıroy səs eləsin. Musa peyğəmbər gəlir:

– Salam, dıvır qardaş. Sizin də ismarıcınızı dedim (Allah da göydən baxer).

Deyir:

– Eləmi?

Deyir:

– Elə. Biz qırılejeyih eləmi?

Deyir:

– Hə, siz qırıleşsiniz.

Qoyunun da hamısı leş-leşə verib, gözü yoldadır, görək dıvır nə xəbər gətirəcək. Musa peyğəmbər üzünü çöyürüb gedəndən sora qoyun sürüsü görör, dıvır mak vura-vura əler, oxuya-oxuya əler, yerə kəllə vura-vura əler. Qoyun cinsiyyəti deyir, sənin qadan olsun, xeyir xavardı, bu günnən sora diriləjeyih. Dıvır Musa peyğəmbərin sözünü gəlif tərsinə deyir. Deyir, heç olamasa, mana umud eliyillər, qoy ürəyə gəlsinnər. Bəlkə yarım saat, bir saat gej öləjəhlər, Allah da buna münasib bir iş görər. Elə də olur. Gəlif deyəndə ki, Allah ot verəjəh, yaşıjeyih, Allahın xoşuna gəlir. Dıvırın bu sözünə görə, bu qoyun cinsiyyətini qırmer, ot verir, yaşadır buları.

Musa peyğəmbər gəlif keçəndə örür ki (İndi bir də gedir dana. Yeddi ildən bir gedir), əyə, Allah demişdi ki, mən yaratmışam, mən də qırajam, get elə de. Musa peyğəmbər gedib çıxır Turi-Sənaya. Deyir:

– Bir sözüm də var, ya Allah.

Deyir:

– Nədi?

Deyir:
– Filan vaxdı siz mana dediniz, get denən mən yaratmışam, mən də qırajam.
Deyir:
– Bəli, dedim.
Deyir:
– Bə niyə qırmadın?
Deyir:
– Sən mənim peyğəmbərim ola-ola gedib olara bir xoş söz demək əvəzinə, mənim sözümü olduğu kimi dedin. Mənim də ajığım gəldi. Elə o dıvırın qeyrətinə görə otu yaratdım ki, qoy yesinnər, yaşasınnar.

## 140. MOLLA NƏSRƏDDİN VƏ QIRX LOTU

Molla Nəsrəddin dahi bir adamıydı. Molluynan molloydu, alimnən alimiydi, fəhleynən fəhleydi, lotuynan lotuydu, şahnan şahıydı, hər dili, hər donu, hər yolu bilerdi. Bir gün camaatın içində hərrəndiyi vaxt camaatın ağsaqqalı, el ağsaqqalı, el əhlisi gəler, deyir:
– Ay Molla, bilersən nə var?
Deyir:
– Nə var?
Deyir:
– Bizim bu şəhərdə, bu əyalətdə qırx lotu peydah oluf. Çaler, çaper, dağıder, kimin bir sarı keçisi var, südünü sağıb qatıx çalır, arvadı, uşağı pencər pişirəndə qatığı tökör ki, uşağı zəhərrənməsin. O qatığatan aparer yiir. Nağayrax? Biz neyliyək?
Molla Nəsrəddin bir az fikirrəşer, deyir:
– Yaxşı!
Deyir:
– Onun öhdəsinnən gəlsə, bircə sən gələjəhsən. Özgə heç kim onun öhdəsinnən gələmməz.
Deyir:
– Yaxşı!

Molla gəler öyə. Fikirrəşer, nağayrem, nağayrem? Molla geder bazardan iki dənə dooşan aler. Ağ dooşannarı qoltuğuna vuror, gətirer öyə. Öyə gəler, deyir:

– Arvat!

Deyir:

– Ha!

Deyir:

– Bilersən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Bu gün gejdi, uje axşamüstüdü, çatmaz, savaxları qırx adamlıx yaxşı yeməh pişirərsən, süfrə açarsan, puloy hazırrıyarsan, cürbəcür şeylər eliyərsən, biri də özün. Qırx bir adam oturub biz burda yiif-içif nəfəs alajıx.

Deyir:

– Yaxşı, ay Molla, baş üstə!

Deməli, arvat savax ehtiyatı görör, hazırrığı görör. Qırx bir adamlıx stol açer, hazırrer. Molla dooşanın birini taxtın əağına bağler, o birini də qoltuğuna aler. Deyir:

– Qoy bu dooşan burda dursun.

Deyir:

– Yaxşı!

Molla arvadına bir də deyir ki, sənin boğazına bir bağırsax bağlıjam. Sənə yalannan ajığım tutajax, dijəm ki, ay köpax qızı, filan şeyi niyə belə eləmədin. Böyründən belə vuranda, sən yıxılarsan orya. Boğazındakı bağırsağı kəsəjəm, xırıldıyarsan, qan axıv tökülənnən sonra məəm bir düdüyüm var, gəlif qulağının divində çalanda, sən zil qalxar, ayağı üstə durarsan.

Deyir:

– Yaxşı!

Nəysə, Molla bu tapşırıxları verer, o biri dooşanı qoltuğuna aler, geder bazara. Bazara edəndə, lotular bunu gözdöördü. Gördülər, Molla Nəsrəddin gəler, qoltuğunda bir dooşan. Hamısı bu-

nu dövrəyə aldı. Lağa, ləğşəngəyə qoydular ki, Molla indi də dooşan alveri eler. Dooşan sater, dooşannan oyner, oturuf duror.

– Ə Molla, bu dooşan nədi?

Deyir:

– Bu doşan mənim carçım, xəbərçimdi.

– A kişi, carçı, xəbərçi nədi?

Deyir:

– Sən nə bilersən? Həncəri carçı, xəbərçi nədi? Mən nə iş görörəm, harya, kimnən nə iş görməliyəm bu dooşana derəm, dooşan geder ona xəbəri çatdırer.

Deyir:

– Məsələn nə?

Deyir:

– Öyümə, məsələn, qonax gəlsə, derəm get arvadıma denən ki, yiməh hazırrasın, çay hazırrasın, süfrə hazırrasın. Pul lazım olor, derəm get arvadıma denən mana bir belə pul göndərsin. Filan şeyi belə eləsin, həmin şeyləri dooşan geder deyir, arvat da yerinə yetirer. Mən onnan nəfəs aleram.

Deyir:

– Eləmi?

Deyir:

– Elə.

Deyir:

– Gəlsən, bu dooşanı sınıyax?

Deyir:

– Gəl sınıyax.

Deyir:

– Nədi?

Deyir:

– Qulağ as.

Əyiler dooşanın qulağına deer ki, get arvada denən ki, Molla Nəsrəddin deyir mənim qırx bir qonağım olojax. Qırx bir adamlıx yeməh hazırrasın, puloy pişirsin, çay qoysun, iş görsün. Günorta saat ikidə, üşdə gəlerih. Bunu dooşanın qulağına əyiler der də, bu dooşanı buraxer. Dooşan da bir burda hoppaner, bir orda, nəvi-

lem, hası kola girdi, nejoldu, harya cəhənnəm oldu getdi. İndi bular bir az hərrəner, bir əyləner, bir az gap elellər, filan. Dellər, uje vaxtdı, yavaş-yavaş gedək.

Öydə də arvada tafşırıv ki, bax ha, mənim dediklərimi unutma. Yadınnan çıxardarsan, unudarsan, onda mənim də Molla Nəsrəddinniyim getdi. Bular duror, dəstələner, gəler. Qapıya ələndə göröllər ba, arvat qapıda bir dəzgah quruv, bir təntənə quruv, samavar qaynev, xörəh pişif, stol açılıf, süfrə düzülüf. Hamısı keçer. Xoş gəlifsən, beş gəlifsən, əyləşellər stolun başında. Oturollar, yiillər-içellər. İndi Molla belə arvadın üzünə baxer. Arvada bir işarə verer. Aaz, köpax qızı, niyə gejıxdın? Çayı vaxtında gətirmədin, çörəynən baravar stola düzdün.

Deyir:

– Molla, Molla, məni bağışda, bu dəyqə...

Molla arvadın böyrünnən belə vuranda, arvat yerə yıxıler. Yerə yıxılanda, belinnən xançalı çıxardır, boğazındakı bağırsağı kəser. Bağırsaxdan qan fışqırıv teyx vuranda, arvat xırılder yıxıler. Guya arvat öldü. Bular:

– Ay Molla, nağardın? Allah öyünü yıxsın, bizi qana saldın, filan-fisməkan.

Deyir:

– İndi məəm arvadım diriləjəh.

Tez əlini civinə saler, düdük varıymış, düdüyü çıxarder. Qamışı başına qour, düdüyü çaler. Arvat "həpşi" eleer də, qalxer. Arvat qalxer, duror geder. Çay gətirer, filan-fisməkan. Bu lotubaşılar bir-birinə baxer. Bu lotular deyir:

– Ə, sən öləsən, mən lotubaşı olam, Molla da mənnən üstün ola? Muna trilyon da versəm, munu Mollanın əlinnən almalıyam.

Yiir-içellər, qalxellar. Çıxanda lotubaşı deyir:

– Molla, bilersən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Gərəh o dooşanı mana satasan.

– Ayə, bazar dolu dooşandı, ged al, belə filan-fismәkan.

Deyir:

– Yox. Bazardan onu alıv, əhilləşdiriv örgədənətən, sənki örgənmiş dooşandı. Onu mana ver.

Molla bir qədər munnan pul aler, taxtın əağına bağladığı dooşanı açer munun qoltuğuna qour.

Deyir:

– Arvadı diriltdiyin düdüyü də maa ver.

– Ayə, Allah öyünü tiksin, ikisinimi də aparersan?

Deyir:

– Sonra qaytarar özünə verrəm.

Nəysə, düdüyü də, dooşanı da aler, gedellər. Bular gedəndə, indi yolda məsləhət elellər. Bu deer, qavaxcan mən aparem, o deer, qavaxcan mən aparem, o biri deer, mən aparem. Lotubaşı deyir:

– Yox, birinci mən aparmalıyam. Mənim öyümə getsin. Mən sınaxdan keçirem. Bir-bir sınaxdan keçirəh, sonra da hamımız yığışıf bir yerdə məsləhətdəşif bir qərara gələrik.

Deyir:

– Yaxşı.

Lotubaşı dooşanı qoltuğuna vuror. Dooşanın qulağına pıçılder ki, get arvada denən yeməh-içməh hazırrasın (öyü-zadı da göstəripbiş), gələjəm. Dooşanı buraxer. Dooşan hop-hop, dooşan qaşdı gizdəndi. Munun dalınnan lotubaşı öyə əler, düdük də civində. Gələndə örör arvad öydə, nə yeməh qayırıf, nə içməh, öz işində-güjündə.

– Ağız, dooşan gəlif sana demədimi? Çayın-çörəyin hanı?

Deyir:

– Kişi, dəlimi olufsan, dooşan nədi, zad nədi? Dooşan da adamnan danışermı?

Deyir:

– Ağız, nə danışersan, Molladan bu qiymətə almışam.

Elə biler arvad zarafat eler. İçəri girer, həqiqi heç nə yoxdu. Ağız, burya əl! Gəler. Arvat yanına girən kimi, arvada bir təpik vuror. Arvat böyrü üstə yıxılanda, xançalı belindən çıxarder ar-

vadın başını kəser. Arvadın qanı fışqırıv axannan sonra gətirer düdüyü, başder çalmağa. Arvat öldü getdi, nəəzer.

Deyir:

– Ha... Molla bizim başımıza oyun açıf.

Duror qollarını çərmeer, bir vanna su gətirer öyün qanını yüür, filan-fisməkan, bu cənazeyi pükör.

Deyir:

– Sən öləsən, bu ki belə həngamə elədi, bunu pütün bu lotuların hamısına verəjəm, hamısı qoy növbüynən belə olsun, mən ki olmuşam.

Lotubaşı duror savax çıxer bazara. Bazara çıxanda, geder bazarın anrı başınnan da bir dooşan aler qoltuğuna, gəler. Gəler görör lotular burdadı. – Salamməlöykü! – Əlöyküməsalam! – Ayə noldu?

Deyir:

– Ə, canın üçün Mollanın dediyinnən də üstün oldu. Getdim gördüm dooşan gedif deyif. Arvat yeməh-içməh, süfrə, hər şey... Sonra da ajığım tutdu arvadı yıxdım kəsdim, düdüyü də çalan kimi arvat qalxdı oynadı. Əlanın əlası. İndi siz də dostsunuz, qardaşsınız, aparın, amma axırda bu düdüh də, bu dooşan da mənimdi. Siz əlinizi çəkin. O bunun üzünə baxer, bu onun üzünə baxer. İndi ikinci aparer. İkinci də geder bu minvalnan genə belə. Heç nə hasil olmor. Bu da bir dooşan aler qoltuğuna, gəler çıxer bazara. Üçüncü, dördüncü, beşinci, qırx lotunun qırxı da arvadı boğazder. Başlarına bu oyun gəler. Bu Molla Nəsrəddin buların ağzına pox quyusu dolduror.

Lotubaşı bildi ki, da uje qırxıncının arvadı da öldü getdi. Hamsının başına ələn müsibətdi. Bu lotuları çağırdı yığdı başına ki, nağayrax, neyliyəh, nətər eliyəh ki, kutarax bu Mollanın əlinnən, intiqam alax. Bu Molla da gəldi öyə, fikirrəşdi ki, bu lotular bunnan intiqam alajax. Fikirrəşdi, mən nağayrem? Dedi, hə, tapbışam! Qonşusu varıydı. Onu çağırdı.

Dedi:

– Ə, başına dönüm! Gedək qavırsannıxda bir qavır qaz.

Getdi qavırsannıxda bir qavır qazdırdı. Pulunu verdi. Bir də bir tunel işdətdi. Yerin altınnan əlli metr, altmış metr tunel qazdırdı, qavırdan da baca qoydurdu. Ordan da hava gəlerdi. Bir manqal götdü, bir az kömür götdü. Dedi:

– Məni apar qavırsannıxda basır diri-diri.

Yanında da damqeyi götdü, kömürü götdü, manqalı götdü. Damqanın üstünə öz adını yazdırıf. Dostu apardı bunu qavırsannıxda diri-diri basırdı.

Dedi:

– Dilinizdən heç nə çıxmasın.

Qonşusu qayıtdı gəldi öyə. Lotular savax yığıldı getdi Mollanın qapısına.

– Ay Molla, Ay Molla!

Arvadı eşiyə çıxdı. – Salamməlöyküm. – Əlöykümənsalam.

– Ay bajı, Molla öydədimi?

Dedi:

– Başına dönüm, Molla öldü. Dünənnən Molla basırılıv.

– Aaz, elə sey olmaz! Bizə niyə demədiniz?

Dedi:

– Vallah, hə.

Bular geri qayıtdı. Dedilər, ə, bunun goru, kəlləsi belə-belə olsun. Munnan gənə hayıf alammadıx. Gəlin yığılax, hamımız qavırsannığa edək.

Buların qırxı da yığıldı qavırsannığa etdilər. Əllərində lapatka getdilər qavırsannığa. Baxdılar ki, həqiqətən, bir təzə qavır var, torpağı-zadı təzə. Baş ağacına da yazılıf Molla Nəsrəddin. Bu lotubaşı o qədər ürəyi yanıqlıydı ki! Özü də arvadı öz əmisi qızıydı. O qədər də istəhli olmuşdu. Dedi, ə mana elə dağ çəkif ki bu, siz Allah, birinci buna mən dağ çəkəjəm.

– Ə, nə dağ çəkəjəhsən?

Dedi:

– Ə, bu goru-kəlləsi belə olmuş ölüv, innən sora nağayrmax olar? Gəlin bunun qavırını sökək, ayıf da olsa, çölə çıxarax, batırax, buluyax, beləsa da hayıfımızı alax, – deyəndə dedilər oldu.

Bu lapatkeyi götdü, bir deşih aşdı. Şalvarını puxoyluğuna salıf burya otdu ki, bir bayıra çıxsın. Molla aşağıdan damqeyi bircə dəfə cızıp munun götünə. Yandığınnan “Allah yandım, Allah öldüm”, inlədi oana tüşdü.

– Gör qavırı belə olmuş nə pis adamdı, qavırı da od tutuv yaner. Qavırı da diş durmor.

O biri dedi, ə, sən nə dersən, yalan dersən, çəkil bir göröm. İndi bu birsi gəldi. İkinci belə, üçüncü belə, dördüncü belə, qırxıncı belə. Qırxının da götü damqalı, bular kirimişcə kor-peşman qayıtdılar gəldilər.

İndi söylöm Molladan. Axşam oldu, Molla axşam tunelnən çıxdı, kirimişcə gəldi öyünə. Əlini-əağını yudu, bir az çörəh-zad yedi, qapısını-bajasını kıfılladı, yıxıldı yatdı. Savax açıldı. Molla dedi ki, deməzsənmi, bu qırx lotu hayfı məndə qoymujax. Gör neçə dəfə bulara zülm eləmişəm. Geyindi-gejindi, özünü saldı Qazının yanına. – Salamməleykim! – Əleykiməsalam! Qazı ağa mənim bir şikayətim var. Dedi, buyur, Molla. Otdu qaznının yanında. Dedi, başına dönöm, mən Molla Nəsrəddinəm. Mənim dahiliyimi sən bilirsən, kəntdə xeyirrığımı, şərriyimi sən tanersan. Hamı da məni ağsakqal kimi tanıyır. Qırx dənə qul almışam o vaxt özümə. Alanda da hamısının götünə damqa vurmuşam. İndi bu qullar mana baş əymer, mana qulluğ eləmer. Mana deyir, sən kimsən? Ağa mənəm, qul sənsən. Məni təhqir elellər, artıx-əysih dellər, varımı-yoxumu talellar, yiillər. Deyəndə Qazı deyir:

– Dəqiq?

Deyir:

– Dəqiq.

Qazı tez qasit göndərer. Deyir:

– Bular çağrılsın!

Bunu burdan, onu ordan, qırxını da çağırer gətirellər. Qırx lotu içəri girəndə göröllər, Molla Nəsrəddin qazının böyründə oturuf. Əyax üsdə qufquru quruyuflar ki, bizim öyümüz yıxıldı da. Biz buna gələmmədih, bu bizə üstün gəldi. Qazı deyir:

– Ə, niyə buna qullux eləmersiniz?

Deyir:

– Başına dönöm, nağayrerıx?

Deyir:

– Bə munun qulusunuz, sizi pulnan alıf, belə eleef, elə eleef.

– Xeyir, elə şey yoxdu, – deyəndə Molla deyir ki, başına dönöm Qazı ağa, inanmersan mana, onların yambızını aşdır bax, onların hamısının, üzr istirəm, yambızında mənim damqam var: Molla Nəsrəddin, Molla Nəsrəddin. O vaxt alanda mən onu elə eləmişəm ki, qoy mana artıx-əysih böhtan danışmasınnar. Deyəndə əmr eleer, tez açıf yambızlarına baxanda göröllər ki, bəli, qırxında da damqa var. Qazı deyir, Molla, buları öldürüf-itirif neynəməh sənin ixtiyarına qalıf. Sən nə buyrux versən, mən icra elejəm. Molla qayıder deer ki, Qazı ağa, bilirsən nə var? Deyir, nə var? Deyir, başına dönöm, buları öldürməhnən, itirməhnən nahaq qan tökülməsin. Nahaq qan bekar şeydi. Mən sənnən xahiş elerəm ki, bulara elə bir əmr verginən ki, bular bu torpağı, bu məmləkəti tərk eləsinnər. Ömürrüh bu torpaxda, bu məmləkətdə hərrənməsinnər. Deyəndə der ki, baş üstə. Lotulara deyir, razısınızmı? Hamısı yalvarır ki, bizi öldürmə, razıyıx başımızı götürəh bu məmləkətdən çıxax gedək.

Buları rədd eler bu məmləkətdən gejeynən, molloyu da buraxellar, çıxır geder öyünə. Molla Nəsrəddin öyünə gələndə camaat yığıler munun başına. Hamı onu təbrik eleer. Hamı bu kişiyə deer ki, bu qırx lotunun əlinnən canımız boğazımıza yığılmışdı, heç kimin də güjü çatmerdi. Ay Molla, sən ki bu xeyirxah işi gördün, Allah sənin köməyində dursun. Patşah eliyəmmədiyini sən elədin.

## 141. FƏRSİZ KİŞİ

Biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir kəntdə mənim kimi ağılsız kişi varıydı, dəli. Bu kişi bir fəhmsiz, fərasətsiz şeyiydi. Munun bir arvadı varıydı. Arvadı həmi bir az gözəl-göyçəh idi, həmi də, üzr isterəm ifadəmə görə, lotuydu. Bu kişi bu arvadın öhdəsinnən gələmmerdi. Başına bir qapbaz vuror, nə desən bu kişinin başına gətirir, açer. Kişi də qorxusunnan heç kimə açıf deyəmmer.

Bir gün bu arvadın adamları yanına gələndə, deyir bu kişiyi haryasa yolla, bir gün sənin yanında eyş-işrətdə qalmalıyıx. De-

yəndə deyir, yaxşı. Arvad deyir, a kişi, filan kəntdə qazan qayrellar. Get ordan mana bu ölçüdə, bu biçidə biz qazan qayırtdır, gəti. Xörəh pişirməyə yaxşı qazanımız yoxdu. Deyir:

– Yaxşı.

Kişi tişdərini ağarda-ağarda civinə də əppəydən-üppəydən qour, qəpiydən-quruşdan qour, qazan qayırtdırmağa eder. Arvat da öydə, lotusu gəler, başdır lotusuynan eyş-işrətə.

Bir də o vaxtı baxer ki kişi, qazan hazır oluf. Qazan qayıran deyir ki, ay qardaş, qazanın hazırdı, gəl pulunu ver, qazanını göt. Gəler.

– Nə verəjəm?

Deyir, misalçün, üç manat, beş manat. Pulu verer, qazanı aler qoltuğuna gəler. Arvad aynadan baxerdi. Görör bıy öyün yıxılsın, kişi budu gəlir, çatıf öyə. Qavağına eder, deyir:

– A kişi, qazanı gətdinmi?

Aler baxer, deyir:

– Pəh nə gözəldi, nə qəşəhdi, əllərin var olsun, qolların sağ olsun, nə yaxşı qazan qayıtdırıfsan. Amma a kişi, sən bir şeyi yaddan çıxardıfsan.

Deyir:

– Nəyi?

Deyir:

– Qazan qayırannan soruşdunmu ki, neçə litr muna su töküləjəh, neçə adamlıx bu xörəh çıxardajax və muna nə qədər duz salınajax? Deyəndə deyir:

– Yox.

Deyir:

– Öyün yıxılsın, qayıt onu da örgən gəl. Mən qarabudamıya yemək pişirəmmərəm. Əsas da duzu lazımdı. Xörəh duzsuz oldu, duzdu oldu, yiyilməz.

Deyir:

– Yaxşı.

Kişi qazanı qoltuğuna vuror, qayıder qazan qayıranın yanına. Kişi soruşor. Bu dəmirçi biler ki, munun arvadında nəsə bir fırıldax var. Deyir ki, ə kişi, bax bir belə duz salıjax. Deer, qadan

alem, o mənim yadımdan çıxajax. Deyir, bax bu kəlləni götür, bir belə, bir belə, bir belə... Öyə çatanatan bunu deyə-deyə get, yadınnan çıxmaz. Deyəndə deyir, yaxşı. Munun da pulunu verer, yola tüşör. Bu kişi "bir belə, bir belə, bir belə" deyə-deyə gəler. Bir kəntdə ən yaxşı pəhlivanın uşağı daylax alıpbış təzə. Munun belinə yəhər qouv, qantarğa vuruf, üzəngi qouf munu minipbiş. Bu fərsiz kişidi də "bir belə, bir belə, bir belə" deyə-deyə oycunu açıf yumor. Əllərini qollarını oynada-oynada gedəndə birdən atdı oannan gəler. Gələndə dayalx görör kü, yolun içində nəsə bir şey munun üsdünə gəler. Ürkör, gədeyi qaldırır yerə çırper. Gədənin qolu-qavırğası qırıler. Bir təhər daylağı tutor, bu kişiyi möhkəm budoyur. Ayə, bu nədi, bir belə, bir belə? Deyir, bə nə deyim? Deyir, denən ki, noxtası bərk olsun, filan-fisməkən. Deyir, yaxşı. Bu da munu döydüyünə, əzdiyinə çıxarder muna bir beş qəpih, on qəpih qızıl verer. Deyir, get munu da doxtura ver, canını kutar.

Bu indi yolnan gəler. Uzaxdan ələndə örör kü, çoxlu camaat gəler, bir ölü gətirellər. Bulara yaxınnaşanda deyir ki, noxtası bərk olsun, qantarğası qaim olsun. Belə deyəndə deyillər:

– Ə, kopoğlu dəlidi, nədi?

Munu tutor o qədər budoyullar, yidiyini kusor. Deyir:

– Ə qardaş, bə nə deyim? Dərdin alem, məni niyə öldürörsünüz?

Deyir:

– Denən ki, Allah rəhmət eləsin, goru nurnan dolsun, yeri cənnətdih olsun!

Bu buları deyənnən sora çıxarer muna halva da verellər, pul da verellər. Dellər, yeri. Bu indi yolnan gəler. Yolnan gəldiyi yerdə görör qavağınnan bir toy gəler. Bah, çalğı, muzıka, zurna, filan-fəsməkan. Bulara çater, deyir:

– Allah rəhmət eləsin, goru nurnan dolsun, yeri behişt olsun, bu dünyasınnan oluf, o dünyasınnan olmasın!

– Əyə, bu kopoğlu dəlidi, – deyif munu o qədər çırpellar ki, bu zornan əllərinən çıxer. Deyir:

– A qardaş, məni öldürmöyün, nə deyim?

Deyir:

– Denən mübarək olsun, Allah xeyir versin, başa varsın, filan-fəsməkan səni buraxax.

Bu buları da deyir. Burdan da muna yeməh-zad verellər. Yolu əlinə aler, irəvan olor gəler.

Nəysə, gəler çıxer öyünə. Qapısına əler, darvazeyi döyör. Darvazeyi döyəndə oynaş da içəridə arvadın yanında, özü də lüt. Arvat təntiyir. Görör əri gəlif, daa munun əynini geyməyə vaxtı olmor. Qapıyı açmamış qapınını dalında bir vedrə qara mazıt varıymış (o vaxt mazıt yandırellar, qara nöyüt yandırellar, onnan işıx düşör öyə), bu qara mazıtdan, nöyütdən də munun başına, gözünə, bədəninə çəker. Kişiyi qapının dalına belə tik qoor, çıreyi də götürör munun başına qour. Qapını açer kişi, içəri girer.

– Ağız, öyün yıxılsın, qapını niyə açmersan? Mən təntimişəm, döyülmüşəm, söyülmüşəm, nəvilem, nağayrmışam, neynəmişəm.

Kişi gözünü belə öyə gəzdirir, dört tərəfə baxanda örör kü, küşdə bir uzun şey var qafqara, başında da çıra. Deyir:

– Arvad, o nədi küncə qoyufsan? – deyəndə arvad deyir:

– Ə kişi, büyün bunu saterdılar, bu çıra qavıdı, üsdünə çıra qoyulur. Belə hüdürə qoanda işıx yaxşı tüşör. Kişi deyir ki, arvad, yaxşı çıra qavıdı, xoşuma gəldi, amma bircə hayıf olsun ki, o qabağınnan salannan şey nədi?

Deyir:

– Onun lüləyidi, nöyüt ordan tökülör.

Deyir:

– Hər şey xoşuma gəldi, amma lüləyi xoşuma gəlmədi. Yox, mana o nöyüt töküləni lazım döyül, mən onu qopardajam.

Balteyi götürüf mazıtdı-mazıtdı bunun üsdünə cumanda, bu lotu elə götürülör ki, çıra başınnan tüşör qırıler. Arvat da özünnən geder yerə yıxıler. Kişi balta əlində çağırer:

– Ay qonşular, gəlin harayıma, görün nələr oluf.

Qonşular gəler. Deyillər, a kişi, sənin arvadın çoxdannan bu yolun yolçusudur. Biz özümüz sana demirdik ki, qoy özü açsın. İndi ki belədi, burdan beləsini özün bilərsən. Bu məmləkətdə, bu eldə, bu ovda bu pozğun arvat qalmaz. Kişi də arvadı ordan didərgin eler, qoalıyır. Onnan sorasına şad-xürrəm o kəntdə, o eldə yaşıyır.

## 142. KÜPƏNİN NAĞILI

Bir gün bir küpə varıydı. Bu küpə yolu əlinə aldı, dığırrana-dığırrana, dığırrana-dığırrana yolnan geder. Munun qavağına bir dana çıxdı.

– Salamməleykim!

– Əleykiməsalam!

– A küpə baba, hara edersən?

Dedi:

– Nənəmgilə qoz oğurramağa.

Dedi:

– Məni də yoldaş eliyərsənmi?

Dedi:

– Yoldaş olmuyax, qardaş olax. Gəl gedəh.

Getdilər. Dığırrana-dığırrana, dığırrana-dığırrana gedəndə qavağına yolda bir ülgüş çıxdı.

– A küpə baba, hara edersən?

– Nənəmgilə qoz oğurramağa.

– Məni də yoldaş elə.

Dedi:

– Yoldaş yox, qardaş olax. Gəl gedəh.

Ülgüş də mindi, dığırrana-dığırrana getdilər. Az getdilər, çox getdilər, qavağlarına buların bir xoruz çıxdı.

– A küpə baba, hara edersən?

– Nənəmgilə qoz oğurramağa.

– Məni də yoldaş elersənmi?

Dedi:

– Yoldaş olmuyax, qardaş olax.

Bular da getdilər. Bir qədər gedənnən sora qavağına bir şahmar ilan çıxdı.

– A küpə baba, hara edersən?

Dedi:

– Nənəmgilə qoz oğurramağa.

Dedi:

– Məni də yoldaş elersənmi?

Dedi:

– Yoldaş olmuyax, qardaş olax. Gəl gedəh.

Getdilər, getdilər, bir qədər gedənnən sora çıxdılar bir daxmanın qavağına. Dedilər, bura qarının evidi.

– Ay qarı nənə, ay qarı nənə.

Qapı kıfıllıdı, qarı yoxdu. Kıfılı qırdılar, girdilər içəri. O ki var qozdan çuallarını, muşoylarını, torvalarını, civlərini, küpənin içini – hamısını doldurdular. Bu mamentdə gördülər takqıltı gəler. Takqıltı gələndə dana dedi ki, məni qapının başınnan asın.

– Nağarjaxsan?

Dedi:

– Gör nağayrajam!

Daneyi qapının başınnan asdılar. Xoruz peçin içinə küllüyə girdi, küllühdə durdu. Dedi:

– Gör nağayrajam!

Ülgüş palazın arasına girdi, farmaşın içinə. Farmaşa qavqarerdilər o vaxdı palazı. İndi farmaşın palazını töküv içinə qoz dolduruflar. Qarı da əlini ater ki, qozu darada[63]. Burya girdi. İlan da qapının davanındaja şahmara qalxıf, orda duruf gözdüürdü. Bular başdadılar qozu dolduruf daşımağa. Qarı gəldi. İçəri girəndə ördü, Allah, munun öyündə bir şakqıltı var, bir hənirti var, gəl görəsən.

– Ayə, kimsiniz? Ay köpəh uşağı, mənim varımı niyə tükəndirersiniz? Niyə belə elersiniz?

Qarı qapıdan keçəndə dana başına dırıxladı. Onnan qalıf ki, dana başına sıçan qarı kimi. Qarı başının-gözünün poxunu təmizdəməmiş gördü peçin içində tıkqıltı gəler. Gəldi:

– Ə, peçin içindəki, kimsən?

Peçin ağzını açanda, xoruz parpıladı, külü təmiz qarının başına-gözünə doldurdu. Gözdəri tutuldu qarının. Gözünü birtəri oxaladı çıxdı, gördü farmaşda şakqıltı gəler. Geder farmaşa baxanda ördü, ülgüş şarta-şart qozdarı qırıf yiir.

– Ayə, niyə elə elersən mənim qozumu? Kimsən, nəçisən, nə kərasan?

Əlini farmaşa salanda ülgüş arvadın əlini doğram-doğram elədi. Arvat gördü yox, bularnan başarammer. Bulara qarğadı, söy-

---

[63] Daramaq – yaymaq

dü. İndi qapıdan çıxer. Qapıdan çıxanda ilanın quyruğunnan basdı, qara ilan arvadı elə vurdu ki, arvat bircə dəfə ah elədi, öldü. Bular nə qədər istellər qozdan doldurdular küpəyə. Yola çıxanda küpə başdadı dığırranıf getməyə. Bular dalınnan nə qədər çağırdı, ay küpə baba, bizi də özdə. Biz sənnən yoldaşıx, qardaşıx, bizi də özdə, bizi də apar, bizə də ver.

Dedi:

– O mümkün döy, ayeyi-təsvir döy.

Onatan camaat tökülüf, hamı şakqıltıya bu arvadın öyünə əlmişdi. Qozu da talan eləmişdilər orda. Bu mamentdə xoruz yüürdü ki, yolda küpənin qavağına keçə. Xoruz yüürüf qavağına keçəndə küpə dığırrandı, munun az qaldı üstünnən keçə. Xoruz qorxdu, geri qaşdı. Ülgüş gəldi ki, ay küpə baba, sən mana qardaş deyifsən. Mənim qoz payımı ver. Harya edersən? Yaxınına ələndə munun da əllərini doğram-doğram elədi. Anırı gedəndə bir də baxdı ki, qara ilan zoğ durmuş, dalınnan gəler. Adam adama deyir, səni qara ilan vursun! Dana qavağına durdu. Daneyi də ilan vurdu. Dana da orda yıxıldı öldü, camaat başına yığıldı. İlan bunun qavağınnan gəlir sağa-sola quyrula-quyrula. Gəldi bir daşın divinə sindi, küpə burdan keçəndə küpənin gözünnən elə çırtdatdı ki, küpə qırıx-qırıx oldu, qoz da oralarnan bir dağıldı. Heş kimə də qismət olmadı.

Bax küpənin axırı belə oldu. Yəni yoldaşdığa xayin oluf özünə çəkif yiif, özgəyə vermiyənin axırı belə olur.

# IV. LƏTİFƏLƏR

## 143. DÜNƏNKİ SƏNƏTİMDİR, BUGÜNKÜ SƏXAVƏTİM

Bir gün bazara xalça satan bir xalça gətirif çıxarder. Zili deyillər, hardasa dördün beşə bir dənə xalça olor. Dərzi tükanın qavağınnan aser bunu divardan. Bir tacirin gözü xalçanı tutuf, satan da iki minnən aşağı tüşmör. Səhərdən axşama kimi bu deyir, iki mindi, o deyir, min doqquz yüz doxsan doqquz manat səhsən qəpiyim var. Bir abbasım çatışmer. Xalça satan deyir, yox, get tap gəti. Axırı bir qonşusu gəlif bazardan keçəndə tacir deyir:

– Bir abbası mana borc ver.

Borc pul aler, xalçanı aler. Bu alver eliyəndə dərzi də boş imiş, baxermiş. Deyir, Allahtaala, mana belə bir kilent yetirmə, əgər mana belə müştəri yetirsən, bu çətin adamdı, bunnan bajarmaram. Xalçanı sater, pulunu aler, gəler girer dərzi tükanına. Parçaları seçer. Bu parçadan kəstum neçiyə çıxer. O da qiymətini deyir. Deyir, ölçümü götür. Ölçünü götürör. Havax gəlem? Deyir, savah saat on ikidə gələrsən, yoxluyax görəh üstünədimi, saat üçə kimi də hazır olajax. Çıxer geder.

Savax gəler on ikidə yoxloor dərzi. Geder bir də hərrəner gəler, saat üçdə kəstumu geyiner, əynindəki paltarrarı yığer bir torvanın içərisinə. Dərzinin pulunu verer. Neçə qiymət demişdi son qəpiyinə kimi verir. Qapıdan çıxanda da əlini civinə saler, şəyirdin oycuna nəsə qoyur. Tacir tini dönəndə dərzi şəyirdə deyir, görüm sənə nə verif. Oucunu açanda örör bir qızıl onnux verif. Deyir, a bala, sən burda dur. Qaça-qaça geder. Deyir, bu qızıl onnuğa iki-üç dəst kəstum tihdirə bilərdin. Nətər olor dünənnəri bir abbasıya görə səhərdən axşama kimi çənə vurdun, indi iki kəstumun pulunu şəyirdə əl hakqı verersən? Deyir, onu sən qammazsan, çatmaz sana. Deyir, yox e, məni agah elə, mən dünənnən yalvarmışam səhərdən axşama kimi, Ay Allahtaala, mənə belə müştəri yetirmə. Sən də gəldin nə dedim onu verdin, üstə də bir qızıl onnux şəyirdə verifsən. Deyir, dünənki mənim sənətimiydi, büyünkü səxavətimdi. Əgər o sənətim olmasa, səxa-

vətim də olmaz. O sənətdə mən bir abbası qırılsam, mənnən tacir olmaz. O şəyirdə də o pulu verməsəm, məndə səxavət olmaz.

## 144. SƏNİN ATINI ALAN BU PUTULKOYDU

Bir gün bir şah varıymış. Şah dəvriş paltarında bazarı gəzərmiş, yoxluyarmış, gələrmiş. Qayıdıf gələnnən sonra vergini tənzimlərmiş ki, camahatdan nə qədər vergi yığmax lazımdı.

Bir gün geder, atdan tüşör, vəziri, vəkili yanında dəvriş paltarında. Bir dənə sərxoş gəler yapışır ki, bu atı mən almalıyam. Yaraşıxlı, yəhərri, qantarğası, dəmirrəri qızıldan, şahın atıdı. Bunu təpik salma oynollar:

– A kişi, satılmer!

– Yox e, atı almalıyam!

Şah bazarı hərrəner, vəziyyəti örgənənnən sonra gəler əyinini dəyişer, taxta çıxer. Deyir:

– Gedin o sərxoşu gətirin!

Sərxoşu gətirellər şahın hüzuruna. Deyir:

– Ə, mənim atımı alan səniydinmi?

Belə baxer, deyir:

– Bəli!

Şah deyir:

– Zindanbaşını çağırın bunu zindana salın, car çəkif bunu edam elətdirəjəm. Bu nə karədi mənim atımı aler?

Deyir:

– Şah sağ olsun, son söz olarmı?

Deyir:

– Olar.

Deyir:

– İcazə ver, bir anam var, başqa heç kimim yoxdu, gedem anamnan görüşöm.

Çıxer geder. Anasının yanına getmer. Geder o maqazinə girer, bir dənə dolu şüşəni aler gətirer, gəler.

– Ə, anannan görüşdünmü?

– Hə.

Deyir:

– Götürün!
Deyir:
– Bir söz də olarmı, mənim şahım?
Deyir:
– Olar!
Deyir:
– Mən nə karəyəm sənin atını alerdım. Sənin atını alan bu putulkoydu, – deyif stolun üstə qoyur.
Onnan sora şah rəhim eliyif onu buraxdırer.

## 145. QƏPİYİMİ VER

Bir gün də bir bəyin, varrı bəyimiş, şahıymış, patşahıymış, var-yox bir qardaşı varıymış, buna da baxmermış. İldən-ilə vergiyi artırermış, artıra-artıra gedermiş. Camahat da söyürmüş, bu qardaş da elin arasında qulağınnan eşidərmiş ki, camaat söyör ki, şah köpoğlu belədi, bu şah köpoğlu belə elədi, belə elədi. Söyürmüşdər hər yerdə. Üzdə də olmasa, asta-asta söyüşdər gedermiş. Bunun ürəyi götürmür, bir gün fağır qardaş bazarın qavağında oturuf başdıyır ağlamağa. Ağlıyır. Vəzir gəler, deyir:
– Ay şah, qardaşın orda səni biyavır eliyir, oturuf ağleer səhərdən axşama.
Nəysə, bunun dalınca neçə dənə vəzir, vəkil göndərer ki, gedin onu gətirin. Gəlmer. Axırı baş vəzir geder, dilə tutor bunu gətirer. Gəlir, deyir ki, ayə, ay qardaş, nəyin çatışmer? Pulun çatışmer, gəl bir meşoh qızıl verim apar. Yeməyin çatışmer, yeməh burda. Mənim kimi qardaşı olan adam da ağlıyarmı? Deyir:
– Ağa, yadıma bilersən nə tüşüf?
Deyir:
– Nə tüşüf?
Deyir:
– Yadıma tüşüf ki, o uşax vaxtı anamız ikimizi də lütdöördü, başımızdan su töküf bizi çimizdirerdi. Çimməh yadıma tüşüf.
Deyir:
– Onunçun ağlamax lazım döyül. Gəl deynən, gedəh çiməh hamamda.

Deyir:

– Yaxşı!

Deyir ki, hamamçıya deyin hamamı qızdırsın. Nəysə, gedellər. Soyunanda, üstə işarə qoyulmuş bir qəpiyi varmış bu kasıvın. Çıxarder bunu qardaşına uzader ki, ay qardaş, bax bu qəpiyi mən istiyəndə ver.

Deyir:

– Ə, at oana, çıxanda sana bir meşoh qızıl verəjəm.

Deyir:

– Yox, əl ələ hökm eliyəmməz. Bax bu bir qəpiyi mən istiyəndə verərsən.

Bu götürör qəpiyi paltarının üstə tullor. Girellər, bədəni istananda, bu başdıyır şapbaşap varrıyı döyməyə.

– Ayə, niyə döyürsən məni?

Deyir:

– Mənim qəpiymi ver!

– Ə, burda hardan alem bu qəpiyi, ordadı, gedəh verim!

Deyir:

– Yox e, burda ver bu dəyqə, mən istiyəndə demişəm, şərt qoymuşam. Mənim bu dəyqə qəpiymi burda verməlisən!

Deyir:

– Ə, lütəm, burda hardadı? Qəpiyi orda paltarın üstə atmadımmı?

Deyir:

– Ə, sən, bu boyda varın-dövlətin sahibi, əgər bir qəpiyi verə bilmersənsə, kopoğlu, bu camahata bu vergini nə qədər yühlöörsən, hardan alsın versin?

## 146. İKİNİZİN DƏ YÜKÜNÜ MƏN ÇƏKİRƏM

Öküzdəri qoşollar haravaya. Öküzdər yol geder. Öküzdər bir-birinnən söhpət eleer. Biri deyir, yükün ağırıməndədi, o birisi də deyir, yox, məndədi. Başdıyıllar bir-birinnən spor eləməyə. Öküzün boyunduruğunu elə dəqiq zərgər dəqiqliyinnən ölçöllər ki, ikisinə də eyni yük tüşsün. Onu da, ya öküzün bel gönünnən, ya da camışın bel gönünnən hazırrıyıllar. Dərisini soyanda kəser

("kağan" deyillər), kağan düzəldellər, şin bağlellar. Birdən kağan dilə gəler ki, ay bədbaxtlar, ikinizin yükünü də mən çəkerəm, heş mən dillənmerəm.

## 147. MƏN DƏ SİZİN BİRİNİZ

Öy yəəsinin touxları olor. Bir on, on beş dənə touğu olur, bir dənə də xoruzu. Dən tökör touğa həyətdə. Xoruz touxların hamısını qanadınnan qoaler. Dənin harda gur yeri varsa, gəler deyir, qıkqılıqı, mən də sizin əriniz. Dənin gur yerinnən yiir.

İndi qızılquş göydə görünör. Touxlar deyir:

– Ərimiz burdadı, müdafiyə elijəh.

Touxlar qaçer çəpərin divində gizdənellər, ağaşdarın putaxlarının altında. Xoruz yüyürür oları qanadınnan itəler:

– Qıkqılıqı, mən də sizin biriniz.

## 148. QIZIM GÜNÜMDÜR, OĞLUM ƏRİM

Bir odunçu varıymış. Gündə üç şələ meşədən odun gətirer, bir qarın çörəyə satermış. Bir gün yorulor əldən tüşör da, yaşdaşıpbış, belində palanı gəler. Palanını çıxarder, odununu tüşürör, bulağın başında bir əl-üzünü yüür. Bulaxdan içer, deyir: "Ay Allah, mənə bir ruzu yetir, şələ daşımaxdan, bu dərtdən mənim canım kutarsın". Toux da bulağın böyüründöymüş. Yaxınnaşer odunçuya, deyir:

– Sənin nə dərdin var?

Deyir:

– Mənnən çox dərdi olan varmı, ay toux? Səhər süph açılannan axşama kimi üç qarın yeməyə mən üç şələ odun gətirirəm.

Deyir:

– Ə, dərt məninkidi, qızım günümdü, oğlum ərim. Gör mənnən böyük dərdi olan varmı?

## 149. ÇIT

Bizim o Touzun dağlarında birinin erkəyi iter, qoyunun erkəyi. Bu dağdan, meşənin içərsindən o birsi dağa çağırer:

– Ay filankəs, ay filankəs.

O deyir:
– Nə deyirsən, eşiderəm?
Deyir:
– Bizim o qara qaşdı, qara gözdü, iri buynuzdu, iri quyruxlu ağ erkəyi gördünmü?
Deyir:
– Çıt (Söyləyici ağzı ilə personajı yamsılayaraq çıt eləyir).
İkinci səfər bir də çağırer:
– Ayə, sənnənəm, bizim o qara qaşdı, qara gözdü, iri buynuzdu, iri quyruxlu ağ erkəyi gordünmü?
Bir də çıt eleer. Üçüncü səfər deyir:
– Ayə, kopoğlu, sənnən döyləmmi? Bizim erkəyi gördünmü?
Deyir:
– Ayə, kopoğlu özünsən, səhərdən "çıt" eləmerəmmi sana?

## 150. EŞŞƏK SƏNDƏN MƏRİFƏTLİ DÜŞÜB

Dağda kalxozda ot çalmağa gedən kişi eşşəyini palanner, miner eşşəyə, dəryazını da çiyninə vuror, ot çalmağa geder. Görör şəkil çəkən əlində aparat kəndin içiynən gəler. Deyir:
– Əyə, bir şəklimi çək, uşax əsgərlikdədi, uşağa göndərəjəm.
Bunun şəklini çəker, şəkil çəkəndə sifətinə gün düşör, sifəti görünmür. Götürür şəkli oğluna göndərer. Oğluna yazer kın, ay oğul, eşşəyin üstəki mənəm.
Hə, oğlu da baxer, baxer, dədəsinin sifətini tanımer, ancaq eşşəh görüner. Götürer dədəsinə məktub yazer ki, şəklini aldım, ay ata. Eşşəh sənnən mərifətdi düşüb.

## 151. ŞOT, RAŞOT

Bir gün Azərbaycan lotuları Maskvaya gedif çıxıllar. Maskvanın lotuları bildi ki, Azərbaycandan bura lotular gəliflər. Bulara başdadılar hörmət-izzət, bu ya, o yan. Bizimkilər dedi ki, nolar, bizim diyara da gəlin daa, gəzməli yerrər var. Nəsə, vədələşirlər, avqust ayında Maskvanın lotuları Azərbaycana gəlellər. Azərbaycanın lotubaşçısı Bakı-Tiflis arası bərk gedən restoranlara pulu

payleer iki min, üç min, dörd min. Deyir, qağa, nə yijeyihsə şot elə, mən şapkeyi belə qaldırajam, deyəjəm şot, sən ordan deynən raşot.

Maskvanın lotuları gəldi. Gələndə Bakıynan Tiflis arası bərk gedən istalovalarda oturullar, yiyillər-içillər. Qutarannan sora papaxlarını qaldırıf deyillər şot, istalovoyu işlədən də deyir raşot. Bu istalovoy belə getdimi. O biri istalovoyda şot, raşot. Rus məəttəl qaldı bu nətər şeydi? Pul demirlər, qiymət oxumurlar, eləcə deyillər şot, raşot. Azərbaycan lotusuna deyir ki, bu nə sirdi? Deyir, öyün yıxılsın, bu papağın qiymətini bilmersənmi? Bu kimin başında oldu, lap min manatlıx yeynən, işginən, eləcə denən şot, o dejəh raşot.

– Ə, bəs bu papağı satarsanmı? Qiyməti neçəyədi?

Otuz minə papağı sater rusa. Xoş-beşdən sora aralandılar. Rus indi istalovoyda oturuf vurur. Ayağa durada deyir, şot. Buna deyirlər iki min manat. Deyir, bəlkə papağı yaxşı görmüyüf. Bir də deyir şot. Deyir, ə, dedim da iki min manat. Ayan-bayan eliyəndə ağaca qoyma deyif buların üstünə düşüllər.

## 152. BURAYA DA SƏN BAXIRSAN?

Bir gün bir qarının əjəli tamam olur. Əzrayıl gəlir ki, vaxtın tamamdı, canını almağa gəlmişəm. Deyir, atam-anam saa qurban olsun, mənim uşaxlarım Rusiyetdədi. Mana iki gün majal verərsənmi olarnan danışam, gəlsinnər? Deyir, yaxşı, iki gün saa möhlət verirəm. Qarı burdan nətər samalyota mindisə, getdi çıxdı Rusiyetə. Azreyil dəftər-kitaba baxanda gördü qarı yoxdu. Qarı hardadı? Zadda göstərdi qarı filan oblastda, filan yerdədi. Getdi üsdünü kəsdirdi. Dedi, iki gün icazə almışdın, sənin vaxdın tamamdı. Sən niyə qaçırdın? Qarı başını qaldırır, görür başının üsdündə Əzrayıl duruf. Deyir:

– Bıy, sana qurban olom, buraya da sənmi baxersan?

## 153. QARI VƏ QIZI

Bir qarı var imiş kəntdə, bir qızı var imiş. Qarı deyirmiş, bala, neynirik qışa azuqə yığıf. Mən qoja arvadam, ölüf gedəjəm,

səni də biri alıf gedəjəh. Belə olor bular qışa azuqə yığmırlar, amma nə qızı alan olor, nə də qarı ölör.

O vaxdı da mal çoxuymuş. Sahəyə çıxanda malın peyini quruyur, ona gərmə deyirih. Bir gün qar gəler qapını aler, arvadnan qızın canına titrətmə düşör. Deyir, bala, əlimizi-ətəyimizi yığıf bəyliyin kööşən yerinə gedək. Oduna əlimiz çatmaz, görək tərdən-təzəhdən nə taperıx.

Balaxlarını çərmeyillər, qarı yara-yara gedəndə göröllər ki, gün vuruf, dağın döşündə qar əriyif. Bir çovan qoyunu qar əriyən yerə verif. Çovan görör, iki qadın heylağı qarı basa-basa gəler. – Ayə, bular itə-qurda rast gələr, canavar yeyər, qurd-quş yeyər, bular hara geder? Bular da görör, bir çovan başında züllə papax, əlində çomax dağın döşünə gün düşən yerdə qoyun otarer. Qarı əlini belə qoyur, deyir:

– Ay çovan, ay çovan, ay çovan.

Deyir:

– Hay, hoy.

Deyir:

– Bəyliyin kööşən yeri haradı?

Yəni qarı çox yarıf getmiyəh, görək haradısa oranı əlimiznən, ayağımıznan dırtmıxlıyax, qarı dağıdax, təzəh yığax.

– Ay qarı nənə, ninersən?

Deyir:

– Tər-təzəh yığmağa əlmişih.

– Ay imanın kamil olmasın, bu qarın içində qışın bu vaxtında tər-təzəh nə gəzer? Tər nədi, təzəh nədi?

Deyir:

– Tər altıdı, üstünün qurusu da təzəhdi.

Deyir:

– Elə ayağınızın altınnan göz görən yerlər hamısı bəyliyin kööşən yeridi. Hardan isdiyirsiniz, yığın.

Qarı kənara atanda göröllər, malın peyini quruyuf. Hərəsi bir meşox yığır. Çovan qoyunu orda qoyuf deyir, gəlerəm sizə köməh eliyim. Ay imanın kamil olmasın, yazda, yayda harda ölmüşdün qışın bu vaxdı təzəh yığırsan? Qarı deyir, ay çovan, Al-

lahdan nə gizdin, qızıma dedim səni alajaxlar, mən də ölüf gedəjəm. Heş nə yığmadıx.

## 154. FİT ÇALMAQ

*Söyləyici Dəmirçioğlunun Ərəb atını itirməsi səhnəsini daşınanda bu lətifə yadına düşdü. Dastanı saxlayıb lətifəni söylədi. Lətifəni Borçalı lətifəsi kimi təqdim etdi.*

Bir kişi camışdarı oğlunun qabağına qatıb bazara göndərir. Deyir, apar sat gətir. Bu da camışdarı qabağına salıb bazara gedir. Bazara gedənə kimi mahnı oxuya-oxuya gedir. Fikirrəşir ki, əyə, bir belə mahnı oxudum, heş fit çalmadım. Camışdarı burda qoyur, geri qayıdır. Evlərinin qapısından başdıyıb təzdən fit çala-çala gəlir ki, camışdar yoxdu. Nə qədər eliyir, tapa bilmir, kor-peşman evə qayıdır. Dədəsi deyir:

– A bala, deyəsən, camışdarı satıfsan. Yaxşı qiymətə verə bildinmi?

Deyir:

– Ay dədə, yox. Qavağıma qatdım, oxuya-oxuya apardım. Bazara yaxınnaşanda yadıma düşdü ki, əyə, fit çalmamışam. Camışdarı orda qoydum, geri qayıtdım. Gəldim elə fit çala-çala həmən yolnan getdim ki, camışdar yoxdu.

Dedi:

– A bala fitini çaldınmı?

Dedi:

– Hə.

Dedi:

– Oğul, sənin telinə qurvandı onda o camışdar.

# V. AŞIQ RƏVAYƏTLƏRİ

## 155. AŞIQ ƏLƏSGƏRLƏ MOLLA CÜMƏ

Deməli, mənim sizə söyləyəcəyim Aşığ Ələsgərnən Molla Cumanın görüşməyi məsələsidi. Aşığ Ələsgər eşidir ki, aşıx sənətində ən güjdü olan kəsdərdən biri də Molla Cumadı. Göyçə mahalınnan durur Şəkiyə – Molla Cumanın arxasınca gəler ki, gedim bu Molla Cumanı tapım, görüm bu nətəri insandı? Bunun sənəti nətəri, hansı səviyyədədi? Xeyli yol gəldihdən sora gəler, Molla Cumanın yaşadığı evə çater. Səhərin xoş vaxtları olor. Atdan düşür, evin ətrafında çağırmağa başdeer. Nəysə, buna cavab verən olmor. Günortaya qədər çağırer, günorta evdən bir qız uşağı çıxer. Yaxına gəler ki, bəs kimsən, nə istersən? Deyir ki, yol adamıyam, Allah qonağıyam. Soruşmax isdeerəm ki, bura kimin evidi? Deyir:

– Molla Cumanın evidi.

Deyir:

– Bəs mən günortadan çağırerəm, bu evdə bir kəs yoxdumu mənə cavab verə?

Deyir:

– Ağsakqal, bizim evimizin qulağı yoxdu.

Deyir:

– Bəs Molla Cuma hanı, sən qarşılıyırsan məni?

Deyir:

– Molla Cuma atamdı, bərəkətsizə gedif.

Deyir:

– Bəs nə qədər gözdəsəm, mən onu görə bilərəm?

Deyir:

– Gen götürsə, tez gələjəh, dar götürsə, gej gələjəh.

Nəysə, bu, maraxdan oturur, eyni zamanda mat qaler bu qızda olan təxəyyülə. Gözdüyür, axşama yaxın toran elləşəndə[64] görör uzunqulağın belində iki bağlama odun şələsi, bir yaşdı kişi gəldi evə. Kişi gəler. Molla Cuma Aşığ Ələsgərnən görüşör.

– Xoş gəlifsən, kimsən, nəçisən?

[64] Elləşəndə – düşəndə

Oturuf söhbət eliyəndə bu açıxlıyır ki, bəs mən Aşığ Ələsgərəm, Göyçədən gəlmişəm sənin sazını almağa. Amma qızın məni bağlıyıf, mat qalmışam. Həm getməyə taqətim yoxdu, həm də səni görüb bilmədiyim mətləbdən halı olmalıyam. Deyir:

– Nədi?

Deyir:

– Bəs, qızına dedim ki, səhərdən çağıreram, günorta çıxmısınız evdən. Deyir ki, evimizin qulağı yoxdu. Mən bilmerəm bu nə deməkdi? Evin qulağı olormu?

Deyir:

– Bizdə it olmuyuf, it saxlamamışıx ki, sənin gəldiyini xəbər verə.

Deyir:

– Bəs qızın deyir, bərəkətsizə gedib atam. O nə deməkdi?

Deyir:

– Odundu da, nə qədər yandırırıx, bərəkəti yoxdu ki.

Deyir:

– Bəs, gen götürsə tez gələjəh, dar götürsə gej.

Deyir:

– O da, ağacın gəzini gen götürsəm, balteynən asan yarıb, ağacı tez kəsif gətirəjəm. Dar da götürsəm, elə bir yerə vur ki, vurasan, haçan gəldi Allaha təvəkkül.

## 156-157. AŞIQ ƏLƏSGƏRLƏ AŞIQ ALININ DEYİŞMƏSİ

Aşığ Ələsgərnən Aşığ Alının deyişməsi olufdu. Hər kəntdə dodağı göyçəh olur da. Aşıxları dalaşdırax, maraqlanax. İrəvanda yağ satanda Səfdər danışır ki, ə, Ələsgər dünən yaman səhv danışdı bir məclisdə. Nə danışdı? Deyir, dedi Alı elə-belə şeir yazandı. Ustamdı deyə mən yazıb verirəm, o da oxuyur. O da gəlir Alıya deyir ki, Ələsgər filankəsin yanında belə bir söz danışıf. Düzdümü? Gedif soruşanda deyir, düzdü, Ələsgər yanımızda dedi. Belə-belə xoruz döyüşdürən kimi buları tənədən çıxardıflar.

Bir məclisdə Ələsgər olduğu yerdə, əlində siyirmə qılınc Alı gəlir orya girir ki, çörəh kəsmişih, ustan olmuşam, şəyirdim olufsan, hamısını halal eliyirəm, əmbə buyün sənnən kutarajam.

Dedi, niyə, nəynən kutarajaxsan? Dedi, deyişəjeyih! Sən niyə belə-belə sözdər yayıfsan? Ələsgər cibinnən Quranı çıxardıf deyir: "Bu Quran haqqı, mən elə şey demərəm! Mən on bir il sənin atının altını kürümüşəm." Ələsgər and içənnən sora, burda deyişillər. Bu deyir, o deyir. İndi nööbə Ələsgərindi. Axşamnan başdıyıf, artıq hava işıxlaşer. Ələsgər təntiyif, görüf nööbə bunundu, muna nə deyəjəm mən. Deyir, icazə ver, usta, eşiyə çıxem. Deyir, sora qaçarsan ha! Deyif, yox, qaçmaram, qayıdıram!

Bu şeytannar var ey, adamı görəndə başını çəkir çanağına. Gejə əzir, savax olanda qınına girir. Baxanda örör bir şeytan başını çölə çıxartdı, çəhdi. Bunu yaylığa pükür, civinə qoyur. Deyir, bunu qafiyə tutuf deyəjəm. Desələr ki, elə şey olmaz! Görkəzəjəm, deyəjəm bax budu!

Səhər vaxtı bir hikmətə tuş oldum,
Desəm inanmazlar, sirri-sübhandı.
Yeddi daş qaladı daşsız-kərpicsiz,
O qalada bir əjdaha pünhandı.

Hərdən bir başını çıxardır dərdən[65],
Yeddi qat qalanı tərpədir yerdən.
Özü dincdi, heç incitmir insanı
Bilmədim cindi, ya xandı.

Səhərdən səhərə edir seyranı,
Götürür qalanı, gəzir hər yanı.
Ələsgər deyər, bu müəmməni
Hər kim tapsa, canım ona qurbandı.

Alı cavab verə bilmir. Alı oturur dirəyin divində, qalyan çəkir. Bir ay çəkmir, Alının gözdəri tutulur hirsinnən. Almalı bulağının başında bir daşın üstündə çay içirmiş. Sazı o daşın üstə vuruf qırıf ki, mənnən sora daa mənim sazımı çalan olmasın. Mən də getdim, sazım da. "Sındı sədəfli saz, təzənə qaldı" şeirini də orada deyir. Alı elə adam olub ki, deyirdin salaməlöyküm, sənə sazla deyərdi əlöykətsalam. Elə saz çalan olub.

[65] Dər – qapı

Onnan sora Alının bir ay çəkmir gözdəri tutulur. O da Ələsgərə qarğıyıf. Deyif, Ələsgər, ömrün çox olsun, amma qarnın aj. Ələsgər 105 yaş yaşıyıf. Üç dərmanı oluf alt-altda, amma ömrünün sonlarında əli kasıflığa tüşür.

**157.**

Alının qoja vaxdı, Ələsgərin də cavan vaxdı, bular məclisdə olor. Alı kişi deyir ki, ay oğul, bir bu məclisi hərrən, mən su başına çıxım gəlim. Bu su başına gedəndə məclis buna deyir ki, ay Ələsgər, bəsdi dana bu qojuyu gəzdirersən yedəyində. Gələndə bir bunu çətinə sal, görəh nə cavab verəjəh sana. Bu gəler, içəri girəndə, o vaxdı belə dallı stollar olmuyuf, taburetka oluf dana, dalı açıx. Gəlif ki, kişi oturuf da, ağsaqqal adamdı. Ələsgər deyif ki, ay ustad, niyə oturorsan, dur. Deyəndə deyir, oğul, bir dincəlem. Deyir, indi dincəlməh isteersən, saa bir sual verəjəm. Məclis toyluyuf bunu. Deyir, a bala, deyirsən de da, nağayrım. Sən deyərsən, mən də eşidərəm. Orda götürör dodağdəyməz bir divani deyir Ələsgər. Deyir,

Nahağ yerdən sirri-şiri gizlətdi xannan gədə,
Ah çəkər, nalə edər, can gedər cannan gədə.
Etiqatla, səssiz dillə çağırar şahlar şahını,
Nahağ üşdü, dilək dilər insan insannan gədə.

Alı görür kü, ə, bu şeir xamdı. İndiyənəcən Ələsgər belə şeir oxumuyub. Deyir, oğlum, onda mən heç sazı götürmüyüm, elə sazını yaxın tut, mən sənin şeirinin cavabını verim. İndi gör Alı nə deyir. Deyir:

Hələ şəyirdsən, dərs alar kannan gədə,
Həqiqətdən dışqarısan, keçifsən yannan gədə.
Aşiqisən saz çalıfsan, şairnən işin nədi,
Dəryalardan xarac alsan, həya elə xannan gədə.

Ələsgər baxer görör, bu qalxmaz daşdı, bunu nahaq dindirif. Dedi, gəl indi muna denən ki:

Al əliyə yelkənini[66], çıx dəryaya saha gəz,
Qəza ki sənnən gələjəh, istiyirsən gir dəryaya gəz.

[66] Sazı nəzərdə tutur

Sirr içində sakin əyləş, həqiqətdən aya gəz,
Ağ eylə sinan aynasın şəri-şeytannan gədə.

İndi Alı nə deyir:

Al çətirini sal sərinə, sərhəddində gəzginən,
Həqiqətdən iş anlasan, təliqəti yazginan.
Haqqın qırağını nə yanıl, nə azginən.
Arı təki sızlar, ya şan çıxar şannan gədə.

Ələsgər deyir ki:

Ələsgərnən danışırsan, al əlinə saz danış,
İstə səni isdiyəni, eylə ərkin, az danış,
Əyləşəndə ağır əyləş, danışanda az danış,
Eşidənnər əhsən desin saa hər yannan, gədə.

İndi Alı deyir:

Gəl Alıdan gendən dolan, səni salar əngələ.
Gəndi dağlar nalə edər, çisgin gələr, çən gələr.
Əzrayıl nə kişidi, sinən keçər çəngələ.
Keçərsən xirdar əlinə, addadar sannan, gədə.

Deyəndə deyir, ay ustad, qurtardınmı? Deyir, sən də qutardınmı? Deyir, hə. Alı deyir, indi mənim sənə sualım var. Alı baxdı gördü (dufarda keçmiş saatdar vardı zincirri, girvəngəsi vardı. Burda da belə saat vardı, üzü yaşıldı, arxası da taxtadı, sarıdı). Bu gözünə sataşdı, dedi, gəl bu sualı Ələsgərə ver. Deyir:

Özü yaşıl, taxtı sarı bazı-sirin[67] üstədi,
Əyləşəndə məslahatda boyda duvar üstədi.
Dil birdi, cəsəd ayrı, həm ölür, həm dirilir.
Nə yerdədi, nə göydədi, bəni-insan üstədi.

Ələsgər baxdı gördü ki, şeir xamdı, bu nə danışdı. – Ustad, biri də varmı? Deyir, hə.

Buyün bir əcaib görmüşəm, nə əti var, nə qanı.
Gejə-gündüz nalə edir, yoxdu onun zamanı.
Özü üçün gərdişdədi, çarx dolanır dünyanı,
Əyləşəndə diribuynan gah da cəlal üstədi.

---

[67] Bazı-sir – divarı nəzərdə tutur

Elin göyçəhlisi bil Aşığ Alıdı,
Hər kəs bu fikrə düşsə, kəj dolanar xəyalı.
Oğul, bu sirri ki mən deyirəm, nə diridi, nə ölüdü,
Arif olan uzax düşmə, ağıl kaman ustədi.

Onnan sora Ələsgər kişiyi qucaxlıyır, o üzünnən, bu üzünnən öpür.

## 158. AŞIQ ALININ ƏLƏSGƏRDƏN İNCİKLİYİ

Əsəd Ələsgərə şəyird olanda artıq Aşıx Alının gözləri tutulufmuş. Əsədin dədəsi Əhməd koxoynan Aşıx Alı da dost oluf. Əsəd Ələsgərin yanında şəyird imiş dəyən Ələsgər deyif ki, ay Əsəd, Alıda bir dastan var, heş kimə vermer. O, dədəyin dostu oluf, get gör o dastanı ala bilersənmi. Əsəd də bunun sözünə baxer. Özü-özünə deyir ki, Alı dədəmin dostu oluf da, məni də tanıyır. Yəqin dastanı verər.

Ora gedəndə Alı arvada deyir ki, arvad, gələn kimdi? Deyir ki, Əhməd koxanın oğlu Əsətdi. Deyir, hə, eşitmişəm, Ələsgərə şəyird gedif. A bala, xeyir ola, nə yaxşı gəlifsən? Deyəndə deyir, bu sənəti öyrənerəm, bir iş dalınca gəlmişəm. Deyəndə Alı arvada deyir ki, gəti mənim sazımı uşağa ver. Çalıb oxuyanda görör, gözəl səsi var. Deyir, indi bə nəyə əlifsən? Deyir ki, bir dastan var səndə, "Bəhram" dastanı, ona əlmişəm. Deyir, oğul, saa and verirəm atayın goruna, özünmü gəlifsən, Ələsgərmi göndərif? Deyir, Ələsgər göndərif. Deyir, onda yoxdu, get Ələsgərə deynən ki, o dastan ona lazım deyil.

Söyləyici bunu Aşıq Əsədin dilindən eşidib. Dediyinə görə, Aşıq Alının ömrünün son vaxtlarında Aşıq Ələsgərlə aralarında incilik olub. Həmin incikliyə görə Aşıq Alı dastanı ona verməyib.

## 159. AŞIQ ƏLƏSGƏRLƏ ABBASIN ƏHVALATI

Bunu atam danışırdı mənə. Atam Basarkeçərdə toyda oluf. Ələsgər xəstələnir. Qonşusu Abbas, Göyüş, Heydər dört qardaş olollar. Böyük qardaşı Abbas deyir:

– Əyə, mən toya ehtiyat almağa gederəm İrəvana. Ələsgəri çağırın ha! Get, indidən zənit elə.

– Əyə, Ələsgər xəstədi.
Deyir:
– Xəstə döyül, dünən kəndin içində söhpət eliyirdi, yaxşılaşıf. Bax, Ələsgəri qoyar, özgə aşıx gətirərsiz ha!
Abbas bunu tapşırıf gedir. O biri qardaşdar məsləhəti bir yerə qoyullar, deyillər, yox! Gedək Kərkibaşdan Göy aşığı gətirəh. Deyir, əyə, bəs Abbas bizə nə deyər? Ələsgərin də onda 85-90 yaşı olardı. Bular Göy aşığı gətirillər.
Abbas gələndə örür Göy aşıx meydan açıf oxuyur toyda. Çağırır eşiyə qardaşdarını.
– Əyə, nanəciblər, niyə belə iş gördünüz? Ələsgər qonşudu, onu çağırmadınız. Ələsgərin biz qələminə tüşəjeyih. Niyə bizi biyavır elədiniz? Bə mən böyük qardaşıydım. Mənim sözüm sizə keçmədi?
Deyir:
– Nağayrax, oldu, keçdi.
Toydan bir gün sora Abbas beş kilo qənd, çay, kişmiş, nəvilim, bir az bazarrıx-filan eliyir, Ələsgərin görüşünə əlir ki, Ələsgər, bizi bağışda da! Qardaşdarım mənim sözümü tutmadılar, gedif Kərkibaşdan Göy aşığı gətiriflər.
Deyir, ayə, qojalığın üzü qara olsun! Sizin bu işiniz mana zərbə vurdu. Abbas deyir, yaxşı, mən gedim. Deyir, yox, getmə! O sazı mana ver. Sazı alır, deyir:

Abbasdan Heydara şikayətim var,
Göyüş təsdiq edə, bir də Zal bilə.
İgid cavannıxda dəli gərəhdi,
Qojaldıxca mətləv qana, hal bilə.

Eşitdin naxoşam, qüvvədən azam,
Haçan olsa, Göy aşıxdan mən sazam.
Gəlsənə, şəninə bir dastan yazam,
Camahat eşidə, el-mahal bilə.

Ələsgərəm, indi abdal olmuşam,
Seçilib gövhərdən zülal olmuşam.
Sən ağ çalsan, mən də göy çal olmuşam,
Ləyax bu çal qədrini çal bilə.

## 160. QULAQKƏSƏN QIZ

Bir gün Aşıq Ələsgəri Kəlbəcərə toya çağırıllar. Ələsgər baxır ki, yolun kənarında bir oğlandı, qatar çiynində çal-çarpaz, taxıl biçir. Dedi:

– O oğlan kimdir?

Dedi:

– Ələsgər əmi, o oğlan döyül, qızdı.

– Əyə, nətəri qızdı?

Dedi:

– Ona qulaq kəsən qız deyillər.

– Ədə, nətər qulaq kəsən?

Dedi:

– Bir kasıf kişinin qızıydı, bəy də ona vurulmuşdu. Bəy onu istiyirdi, qız getmirdi. Atası bəyə dedi, götür qaç. Bunu götürüb qaçanda atın tərkində bəyin qulağını kəsib. Ona görə buna qulaq kəsən deyillər.

Ələsgər atdan düşüf sazı çıxardır: "Ay balam hey" deyəndə çırık-çırık beş dənə güllə atılır. Ələsgər yıxılır. Qız gəlir, görür heç ağrıyan yeri yoxdu, güllə dəymiyib. Bir az ayrandan-zaddan verer, içer. Deyir:

– Aşıq, nə məjbur olmuşdu ku, sən şeir deyirdin? Halını bilmədiyin atın dalına keçmə. Get.

Camahat yığılır. Dəli Həsən vardı, deyir:

– Ay Aşıq Ələsgər, büyün həm ölübsən, həm dirilibsən, onnan danış.

Ay Həsən, mən deyim, sən onu tanı,
Gözlərim ala göz ceyranı gördü.
Kosalı tərquvədin sultanı
Sana bəşər diyən tərlanı gördü.

Onun kimi can alan varmı, hanı?
Qılyazdı getsə aşığın canı.
Diriltdi xəstəni, verdi ayranı
Yazıq canım bu gün loğmanı gördü.

Qoca Ələsgərin yanıldı zəndi,
Nə bilim qabağımdakı qulaq kəsəndi.
Zəhirmara döndü ağzımın qəndi,
Qətlimə verilən fərmanı gördüm.

## 161. AŞIQ ƏLƏSGƏRİN ANAXANIMA ŞEİR QOŞMASI

Ələsgər toydan gələndə arvadı Anaxanım həmişə qabağına çıxırmış. Dedi:

– Arvad, bir az su gətir, içək.

Dedi:

– Günü ağ olsun qızıyin. Bayax dedim, su gətirmədi, mən də getdim dizimi yerə qoydum, bulaxdan içmişəm. Sən də iç, gəlginən.

Dedi:

– Arvad, sən belə döyüldün? Sən niyə belə eliyirsən?

Deyir:

– Harda axmaq arvatdar var şeir qoşursan. Olmazmı birin də mana deyəsən?

Dedi:

– Arvad, sən də paltarın yenisini geyin, gəl dur qabağımda.

Kalağeyi qəlibin arasınnan çıxartdı, donu farmaşın arasınnan çıxartdı. Arvat geyindi gəldi. Dedi, bir güzgüyə bax, gör nə marala oxşuyuram. Ələsgər dedi:

Ala gözlü nazlı ceyran,
Boyun qanqaldan artıqdı.
Dodağındır qarpız qabığı,
Burnun xiyardan artıqdı.

Şanə kimi barmaqların,
Kötük kimi dırnaqların,
O xırdaca ayaxların,
Xırmanda vəldən artıqdı.

Qollarındı çərək-çərək,
Baldırındı dama dirək,
Öynədə yeddi çörək,
Qarnın çuvaldan artıqdı.

Ələsgər deyər bu baxışın,
Bəbət idi sənin duruşun.
Sənin camış kimi yatışın,
Toolada kaldan artıqdı.

Arvad nəyi vardısa yığıb, ya Allah, atası evinə gedir. Bəşirnən Talıb kənd arasına çıxanda camaat deyir, sizin boyuza qamış ölçüm, siz niyə adam olursuz. Dedi, noluf? Dedi, nolajax? Ata, o şikildə arvadı çöllərə salıf.

Bəşir gəlif Ələsgərin başı üsdən tüfəngi götürür. Ələsgər deyir, ədə, nağarersan? Deyir, tüfəngi aleram. Deyir, ədə, eşikdə alsana? Deyir, burda aleram. – Niyə? Dedi, isterəm bir güllə sana vuram, birin də özümə? Ə, noluf? Dedi, canına azar oluf. Hamı deyir, bu şikildə uşaxların anasını Ələsgər çöllərə salıf. Deyir, a bala, sana qurban olum, ananıza da. Bundan ötəri məni niyə öldürürsüz? Sabah gedib gətirərəm.

## 162. AŞIQ ƏLƏSGƏRİN DƏRƏLƏYƏZ ƏHVALATI

Aşığ Ələsgər Dərələyəzdə bir məclis keçirirmiş. Məclis də sünnət toyu imiş. Axşamnan gəlir, məclisi başdıyır, çalır, oxuyur. Keşmişdə çox gejə olormuş toylar. Fikir verir, görür bir cavan oğlandı, həməşə əlini üzünə qoyur. Bunun dişi ağrıyırmış. Belə hərrənir, ufuldanır, gəlir aşığa qulağ asır. Görür durammır, mağardan çıxıf gedir aanda hərrənir. Öz tay-tuşdarı da bunnan zarafat eliyillər. Biri deyir kin, ə, məndə bir at kəlpətini var, gətir dişini çəkim çıxardım. Biri də deyir kin, ə, get bir ipin ujun bağla dişinə, əyağınnan belə çəh, qoy çıxsın. Biri də həqiqi mənada deyir, ayə, ə bədbəxt oğlu, get həkim tap (O vaxtı da üz qırxana, sünnət kəsənə dəlləh deyirlərmiş). Bu qayda məclis keçir, bu yazığ da nə Ələsgərdən doymur, çıxıf gedə bilmir, nə də dayana bilmir. Bir əz oturur ofuldanır, çıxır hərrəner bir də qayıdır gəler. Xülasə, məclis gejə qurtarır, indi savağı var. Səhər gəlillər, oturullar, məclis başdıyanda Aşığ Ələsgər gənə sazını çıxardır, təcnis oxuyur. Həmən oğlan dünənki kimi gənə burdadı. Buların biri deyir ki, ayə, sana demədimmi get dişini çəhdirginan. Ələsgər orda bunun vəziyyətinə baxırdı, atalar sözünnən istifadə edir, dodağdəyməz təcnisinin

birini bu adama aid eliyir. Atalar deyif ki, arvadın pis oldu boşa qutar, qonşun pis oldu, köş qutar, atın pis oldu, sat qutar, dişin ağrıdı, çəh qutar, başın ağrıdı, öl qutar. Bu beş atalar sözündən Ələsgər istifadə eliyir, şeirin ikinci bəndində bunu deyir:

Keçən gənc ər gəl erkəndi gərdişi,
Dəllək çağır, çağırajan gərdişi.
Qəzanın qədəri, çarxın gərdişi,
Sər-səri tez salar ayağ-ayağa.

Göyçəli Aşıx Müseyf, bir də Xatınnı Kor Ələhbərdən ayrı-ayrılıxda öyrənmişəm. Dedilər ki, orda sözü səyf yazıblar, o "qəncər" deyil, "keçən gənc ər" yazılmalıdı. Keçən gənc ər gəl erkəndi gərdişi. Yəni, sy cavan oğlan, nə qədər ki, gej döy, tez dəlləh çağır çəhdir dişi.

## 163. ONUN PAPAĞI MƏNİMKİNDƏN YEKƏDİR

Diyəllər ki, böyük ustaddarımızdan olan Aşığ Ələsgər bir gün bir məclisə toya gedir. Məclisdə oturuf gözdüyən adamlardan biri deyir ki, ə, Aşığ Ələsgər gəlir, bunu yaman hazırcavab söylüyüllər, buna bir sual verəjəm. Qapıdan girir:

– Salaməlöyküm, hamılıxca toyunuz mübarək olsun.

Biri də deyir ki, Ələsgər kişi, xoş gəlifsən. Aşığ Ələsgər, sənin qardaşın varmı? Deyəndə, Ələsgər dayanmadan deyir:

– Qardaşım var, onun papağı mənkinnən yekədi.

Çünki bu buna deyəjeymiş ki, papağı neynirsən? İkizə biri bəsdi.

## 164. HƏM BİLİRƏM, HƏM DƏ BİLMİRƏM

Aşıx Ələsgər dağın döşünnnən gedirmiş, bir uşax da quzu otarermış. Uşax görör, bir aşıq gəler. Yüyürə-yüyürə qabağına ələndə örör böyründə sazı.

– Ay dayı, sən kimsən?

Deyir:

– Aşığam.

Deyir:

– Aşıxsan, çox yaxşı. Sənə bir sual versəm, taparsanmı?

Deyir:

– De görək, bala.

Deyir:

– Tapsan, otardığım quzunun birini saa verəjəm, tapbasan sazını alajam. Deyir, o nədi ki, həm bilerəm, həm də bilmerəm?

Ələsgər məhətdəl qaler. Uşağa deyir, sənin toyunu da mən eleejəm, elə vaxd olar rasdaşarıx açaram sənin qıfılbəndini. Geder başqa yerdə elə olor ki, qıfılbəndi açellər. Deyillər, o ölməkdi. Bilerəm ölöjəm, amma bilmerəm havaxt ölöjəm.

## 165. AŞIQ HÜSEYNİN GÖYÇƏ SƏFƏRİ

Aşığ Ələsgərin iki nəfər hörmətdi şagirdi oluf. Birinin adı Əsəd oluf, birinin adı Nəcəf. Bu Nəcəfnən Əsəd Ələsgərə deyiflər ki, havalar soyuyuf, toylar seyrəlif, bizə icazə ver bir Aran mahallarına gedəh, bir işdiyəh, pul qazanax. Aşığ Ələsgər də bulara icazə verif, həm də bir söz tapşırıf. Əvvəlcə soruşuf ki, hansı zonuya getməh istiyirsınız? Deyiflər, biz Touza getməh istiyirik. Bulara tapşırıf ki, Aşıx Söyün Bozalqannıynan görüşməmiş sazı köynəyinnən çıxartmıyın.

Bular Touz rayonuna gələnnən sonra bir neçə nəfərnən görüşüflər və oturuflar. Bular da bir stol təşkil eliyiflər ki, təzə aşıx gəlif. O vədə radiyo, televizor olmuyuf, elə aşığ görəndə, aşıxdan ilham alırlarmış. Bular deyiflər ki, yox, biz Aşıx Söyün Bozalqannını görməmiş sazı köynəhdən çıxartmıyajıyıx. Aşağı Əlimərdannında Molla Söyün oluf. O deyif, bir halda ki elədi, a bala, durun gedəh. Bir erkəh də götüröllər, onnan sora bu aşıxları da aparer düz Söyün Bozalqannının öyünə. Aşıx Söyün də görür kü, bəli, Molla Söyün gəler, yanında da bir neçə nəfər adam, hətta iki nəfər də aşığdı, sazdı-zaddı.

– Gəlin, gəlin, xoş gəlersınız.

Belə də olur. Gəlellər. Heyvannar kəsiler, qazannar asıler, qəşəh sürfə açıler. Camahat diyir ki, yaxşı, a Söyün kişi, bu aşığlara icazə verginən oxusun, biz də qulağ asax. İcazə alellar. Bu aşıxlar da başdıyıllar qəşəh oxuyullar. Aşıx Söyün buların sənətinnən razı qaler. Məclis qutarer, yekunda Aşıx Söyün deyir, a

bala, buruya gəlməhdə fikriniz, məqsədiniz nədi? Deyir ki, vallah, elə-belə gəlmişih ki, bu Aran mahalında camahatnan tanış olax. Diyəndə diyir, xoş gəlifsınız, lap yaxşı eliyifsınız.

Buların hər ikisini Aşıx Hüsöyn öz yanına götürör də, qırx gün bu Aran mahalında, Gəncədə, Qazaxda, Touzda, Şəmkirdə gəzdirer. Qırxıncı günü Nəcəf deyir ki, ay Söyün kişi, əgər icazə versən, biz gedərdih Göyçəyə. Göyçəyə bu saat qar yağıf, qar dizə çıxer. Hər üçü atdanellar düz Qazağın yuxarı hissəsində çinar var, çinarın divinətən gedellər. Aşıx Söyün bu qırx gündə bulara bir manat da pul vermiyif. Nooluf, hamısı atın xurcununda. Gətirir xurcunu düşürür, bir dəsməl da saler yerə, nə varsa, tökür üsdünə. Pulu Aşıx Söyün üç yerə bölör. Bular da fikirrəşer ki, biri Aşıx Söyünün, biri mənim, biri də yoldaşımın. Belə olan halatda həmin pul payının birini Nəcəfə verer, birini Əsədə verer, yerdə qalanı da dəsmələ pükür, deyir ki, munu da ustadınız Aşığ Ələsgərə verərsiz, mənnən təmbəki puludu. Belə olanda Necəf köörəler. Deyir, ə, belə də insanmı olar! Qırx gündü bu biznən əziyyət çəkif, payına düşəni də Ələsgərə göndərer. Bu adamın əvəzi yoxdu. Köörələndə deyir, ay Necəf, niyə köörəldin? Deyir, ay Söyün kişi, sənnən doymadım mən. Bir arzum var, Allah eləsin yerini alsın. Deyir, arzun nədi? Deyir, arzum odu ku, gördüm sənin də həyat yoldaşın hamilədi, mənim də. Allah ikimizdən birimizə bir oğul evladı versin, yəni qohum olax, kirvə olağ. Diyəndə Aşıx Söyün diyir, ay bala, arzun başa çatsın, qismət olar, inşallah.

Xudafizləşillər, ayrılıllar, Aşıx Söyün öyünə əler, bular isə Göyçiyə gedellər. Aradan bir nə qədər keçənnən sonra Nəcəfin bir oğul evladı dünyaya gəler. Aşıx Söyünə ismarıc eliyilər ki, Necəfin oğlu oluf.

Nəysə, uşax böyüyür və sünnət toyunu eləmək fikrinə düşöllər. Ordan xəbər göndərellər ki, Aşıx Söyün, arzumuz yerini alıf, filan günü Necəfin oğlunun kiçik toyudu. Aşıx Söyün də burdan hazırraşır, on beş nəfər atdıynan getməyə başdıyıllar. Demək, Telli Əsəd oluf, Kalva Əsəd oluf, Bəvəd Məhəmməd oluf, nəvilem, bir on beş nəfər. Amma bunun hardasa beş-altısının adı Söyün oluf. Bunun da ayrı səbəbi var. Aşıx Söyün çox iyid adam

oluf. Buna görə onun düşmənnəri varıymış. Yəni Söyün diyəndə heş bilən olmasın bu Aşıx Söyündü, bu Qəssaf Söyündü, bu Dəlləy Söyündü, bu Çopur Söyündü. Beş-altısının adı Söyündü.

Gediflər bular, Şiş qayadan keçəndə buları çırpanaxlı dolumu deyim, yağışmı deyim, bir əz vuror, buları isdader. Çatellar Daşkəndə, Necəfin kəndinə. Zurnaçılar buları qarşılıyıllar. Zurnaçılar buları qarşılıyanda yaxşı nəmər verellər bulara. Qədir kişi (Aşıq Qədiri nəzərdə tutur – tərt.), Allah rəhmət eləsin, danışerdı ki, hərəsinin qaşqasına bir qırmızı qızıl onnux yapışdırer. Elə də olsun, yapışdırsın. Nə fərqi var ki? Toy öyünə daxil olollar. Aşıx Söyün Ələsgəri görmüyüf, Ələsgər də Aşıx Söyünü görmüyüf, amma bular bir-birinin qiyabı da olsa bədən formasını, sifət qurluşunu örgənipbiş. Aşıx Söyün məclisə, toy otağına girəndə örör kü, baş tərəfdə bir adam oturor. Eşitdiyi nişannar bu adamda. Umumu məclisə salam verer və gedir:

– Ələsgər kişi, xoş gördüh.

Bu da:

– Ay Söyün, ay bala, xoş gəlifsən.

Aşıx Ələsgər Aşıx Söyünnən yaşca hardasa qırx yaş, qırx beş yaş böyük oluf. Aşıx Söyün baxanda örör, Ələsgərin bu tərəfində Aşıx Musa oturor, Ələsgərin şəyirdi. İndi söhbət burda dursun. Necəfnən Əsəd yaxşı pul aparıf qazaşnan getdihlərinə görə Musanın şəyirdi Heydar icazə aler Musadan, bu da gəler Aran mahalına – Touza. Elə bu Aşağı Xatınnı kəndində bir evdə çalıf oxuyurmuş. Onda da aşıx gələndə qonu-qonşuya xavar eliyirdilər ki, gəlin, aşığımız var. Elə olor ku, Dəlləh Niftalı adında bir kişi oluf bu aşıx oxuduğu evin yaxınnığında. Qonşuymuşdar. Bir uşax qaçer, deyir ki, ə, get Dəlləh Niftalıya deynən əlimizə bir təzə aşıx keçif, gəlsin onu oxudağ. Sən demə, bı Aşıx Söyün də bu Niftalının öyündə qonağ imiş. Diyəndə deyir ki, ə, aşığın yekəsi məəm öyümdədi. Oxutmax lazımsa, gəlsin buruya oxudax. Diyəndə bir də adam göndərer ki, ə, bu Aşıx Söyünü də gətirin. Aşıx Söyün deyir, ay bala, mən orıya gedəndə o aşığın dili tutulojax. Bə nağayrax? Aşıx Söyün deyir, onda məəm adımı Aşıx Söyün demeyin, Molla Söyün deyin.

Gələllər bu otağa, qapıdan içəri girəndə hamı görör kü, Aşıx Söyündü gələn. A Molla, gəl, a kalvayı, gəl, a kalvayı, gəl. Bu kalvayıyı lap başa keçirellər. Oturollar, aşıx indi çalıv oxuyur. Bunun sifarişin oxuyur, onun sifarişin oxuyur, gəlir Aşıx Söyünə çater. Deyir, a kalvayı qağa, Allah canını sağ eləsin, camahatımız da sənin xətrini isdiyir. Bir sifariş də siz diyin, oxuyum. Deyir, ay bala, mən kalvayı adamam, vallah, sifariş-zad bilmerəm. Nə oxuyursan oxu, bir hava oxu. Diyəndə diyir, a kişi, hancar bilmerəm? Sən kalvayı adam niyə bilmersən ki? Deyəndə deyir, yaxşı. Ustan kimdi? Deyir, Aşıx Musa. Deyir, onda Musadan bir şeir oxu. Musadan bir şeir oxu diyəndə bu başdıyır oxuyur, şeiri düzgün oxumur. Aşıx Söyün deyir, ay bala, Aşıx Musa yaxşı aşığdı, elə şeir deməz. Şeiri düzgün oxu, düzgün çatdır camaata. O aşığ da bunnan xoflaner. Burdan, ordan deyillər, ə, tanıdınmı? Deyir, yox. Ə, deyir, öyün yıxılsın, Aşıx Söyündü, gedif nə sürtünörsən ona, nə məjbur eliyirsən? İndi bu böyüh bir küy-kələhnən geder Göyçüyə. Deyir, ə, Aşıx Söyün deyirsiniz e, mənim sazımı da bir məclisdə əlimnən almışdı. Camahat aldı verdi.

Hə... Xülas, Heydər gəler Göyçüyə küy-kələhnən, yanı bu Aşıx Söyünün əks tərəfinə sözdərnən, söhbətdərnən. Gələnnən sonra indi həmin məclisdə Ələsgərnən görüşör Aşıx Söyün. Belə baxanda örör, Musa bunun böyründə oturor. Musoynon da Aşıx Söyünün tanışdığı olur. Belə əlini verəndə Musa bunun əlinin ujunnan tutur. Əlinin ujunnan tutanda deyir, ə, axı mən Musoynan tanışam, bu niyə mənim əlimin ujunnan tutsun. Belə baxanda örör, həmən o Aranda gördüyü aşıx başını qaldırıf baxammer, belə başı yerdə, yerə baxer. Deyir, hə, xata burdan gəler. Məclisə sükut çökör. Yəni, Aşıx Söyünnən Aşığ Ələsgər qabax-qarşı oturuf söhbət eliyillər. Bunatan Göyçədə Səməd ağa oluf. Səməd ağa gəlif ki, Aşığ Ələsgər, Aşıx Söyün, siz iki nəhəng gavax-qabağa oturuf söhbət eliyirsınız, bu balaca aşıxlar da bizə bəyaxdan saz çalıf oxuyurdular, qulaq aserdığ. İndi bura toydu axı. Burda oxumağ, çalmağ lazımdı. İndi Aşığ Ələsgər deyir ki, ay Səməd ağa, bir beş dəyqə icazə ver, yaqın ki, oxuyaram. Görəh qonağlarımız nətəri gəldilər. Diyəndə Ələsgər sual verir, ay Söyün, bizim bu yerlər, bu dağlar xoşunuza

gəldimi və nətəri gəldiniz, narahat olmadınız ki? Diyəndə diyir, Ələsgər kişi, çox gözəl yerrəriniz, yurtdarınız, oymaxlarınız var. Əmbə bu Şişqayadan keçəndə bir balaca dolu, yağış, çırpanax bizi vurdu, incitdi. İncitdi diyəndə (Qaçax Telli Əsəd həmin Aşıx Söyünnən gedef) Telli Əsəd Söyünə deyif, ayə, dilinə düyün düşməsin, ə, incidim deməyə yer tapperdınmı? Diyəndə deyir, ə, Əsəd, kərkiyi daşa vurdum, bəlkə Ələsgər heç başa düşmüyə. Ə, nə başa düşmüyə. Ələsgərə ilgəh lazımiydi. Ələsgər deyir, a Səməd ağa, a camahat, qonaxlarımız bir az inciyiflər, narahat olufar. Olar otursun, mən istiyirəm, sizin üçün bir hava oxuyam. Noolasıdı, Ələsgər sazı döşünə çəker, zilini zil, bəmini bəm eliyir. Deyir ki,

Demədimmi işmə eşqin camını,
İşsən dünya sana dar olajaxdı.
Ya dost olma, ya zəhmətə incimə.
Dost yolunda boran-qar olajaxdı.

Yəni Ələsgər eyham vurur ki, mən sana minnətçimi yolladım gəl mənnən qohum ol. Bu öz arzundu, nəyşə incidim deyirsən?

Necəfə xavar geder ki, ay Necəf, Aşıx Ələsgər kirveyin üstünü kəsif, ona meydan oxuyur. Gəler Necəf belə qapıdan baxanda Aşıx Söyünün gözünə sataşer. Deyir, ay Necəf, ay Necəf. Deyir, nədi, ay kirvə? Deyir, ə, o sazını mana əti, mən saz gətiməmişəm. Rəhmətdih Aşıx Söyün götürör kü:

Demədimmi düşmə şeytan feilinə,
Fitnə şəmatəsi şər olajaxdı.
Bu dünya bir bağdı, bağmanı iblis,
Alması, heyvası, nar olajaxdı.

Diyəndə Aşığ Ələsgər deyir, ayə, həmi mənə cavab verdi, həmi də xatanın hardan dəydiyini bildirdi. Onda Aşığ Ələsgər deyir.

Təəccüb eylədim mən bir hesaba,
Fələh qurğusuna əhsən, mərhaba.
Nörəstə gözəllər tapmasın cəfa,
Qönçənin əndamı xar olajaxdı.

Diyəndə, Aşıx Söyün deyir, elə döylü.

Gözəllər təşbehdi, bağın gülünə,
Mail olma şirin ləhcə dilinə.

Həvəsdənif sığal vermə telinə.
Mənşərdə hər muyu mar olajaxdı.

Ələsgər deyir:

Halaldan kəsb elə kəs özünə maya,
Cəhd elə əməyin getməsin zaya.
Zinəkar, haramxor heç çatmaz baya.
Dosta xayin baxan kor olajaxdı.

Ələsgər Musanın şəyirdinə eyham vuror ku, öyün yıxılsın, gəlif nə qandırıfsan bizə.

Aşıx Söyün deyir:

Aldanma ceyfəyə[68], uyma fənaya,
Güvənmə devlətə, simu-tilayə.
Bir gün köçürəllər o darül-ülbaya[69]
Simuzərdən əlin car olajaxdı.

İrəhmətdih Aşıx Söyün deyir, fikirrəşdim ki, diyəm Ələsgər kişi, mənim üstümü nəyşə kəsifsən? Mənim dərsimi verən kişi verif. Mən elə-belə, əldə qayırma aşıx döyüləm, heş mana bənd olma. Aşıxlıx Allah tərəfinnən vergidi mana. Amma mənnən qavax bu ifadəni, bu kəlmələri bu işdətdi.

Ələsgər deyir:

Ələsgər, kim bilər qüdrətin sirrin,
Qaranlığa işıx var, acıya şirin.
Dilində car elə mərtdərin pirin.
Qorxma dar günündə yar olajaxdı.

Diyəndə Aşıx Söyün deyir, fikirrəşdim ki, ə, onun ətəyi ha bircə döyül. Bir ətəyinnən də sən yapışginən.

Küllü-nəfsi zaqətül nöfti yazanda,
Söyün şərm elə, sal yada fəhmin azanda.
Gün hərarət edif yerrər qızanda,
Şahı-mərdan şəfakar olajaxdı.

Bununla demək istəyir ki, Aşığ Ələsgər, dünyədə yaranmış nə varsa, hər şey torpaxdan yaranıb və torpağa qarışmalıdı. Bir belə kütlənin qarşısında mənim üstümü kəsifsən, mana şeir oxuyur-

---

[68] Ceyfə – dünya malı
[69] Darül-ülba – qəbir

san, meydan oxuyursan. Bəlkə mən bir aciz adam oloydum, onda mənim aqibətim noolardı? Bu camahatın qarşısında mənim hörmətim noolardı? Hamı ölüjəh. Heç olmasa ölüm gününü yadına salmersan ki, həyatda insan müvəqqətidi. Gələcəhdə bir rəhmət var, bir nəhlət var.

Aşığ Ələsgər deyir ki, ay Söyün, Qarabağ yaylağınnan gəlerdih. İki nəfər şəyirdim var idi, arxamca gəlerdilər. Bunun biri nişannıydı. Gördüm o birinə deyir ki, ayə, mənim nişannımın yurd yerinnən keçəjeyih. Allah o Allah olarmı ki, indi nişannımnan görüşəm, bir imkan ola. Bular gəldilər, deyir, qabaxda Ələsgər, sonra Nəcəf, sonra da Əsəd və ilaxır, at sürüb gedellər. Aşığ Ələsgər baxanda örör kü, comalar sökülüf, dəyə sökülüf, payız vədəsidi. El-oba dəriyə tökülüf, yurtda barxana qalıf, bunun sevgilisi də barxananın üsdə oturor. Deyir, ay bala, mən sizin söhbəti eşitdim. O vaxt, həmin dəyqə Allahdan nə arzu eləsən, o sənin qismətin olarmış. O sevgilin, get görüş gəl. Noolasıdı, bu qayıtdı, deyir, qıza sarı meyilləndi, qız da buna sarı imrəndi. Xülas, bunnar elə görüşə görüşdə, əlləri bir-birinə çataçatda bulax qabağında kişi yurtdakı barxaneyi götürməyə əler. Ay qız, burdasanmı? Diyəndə, deyir, o aşıx da geri qayıtdı, qız da geri qayıtdı. Orda deyir, bir dodağdəyməz təcnis demişəm. İndi, Aşığ Ələsgər deyir, göröm Aşıx Söyünün dodağdəyməz təcnis diməyə də qabiliyyəti çatermı. Ona görə oxuyur. Deyir,

El yeridi, yalqız qaldın səhrada,
Çək əsgərin, çal çatığın çataçat.
Hərcayilər səni saldı iraqa,
Həsrət əlin yar əlinə çataçat.

Diyəndə, Aşıx Söyün cavabında oxuyur ku:

Həllaj gələr, dağlar atar yaynan,
Qayalardan səngi salar çataçat.
Ə, deyilənə ya yaqın qan, ya inan,
Xeyir-şərini çəkəjəhlər çataçat.

Aşıx Söyün indi sözü Musanın şəyirdinə vuror kü, xeyir-şərini çəkəjəhlər çataçat. Aşıx Ələsgər deyir:

Qışda dağlar ağ geyinər, yaz qara,
Sal dəsdinnən ağ kağıza yaz qara.

Əsər yellər, qəhr eliyər yaz qara.
Daşar çaylar, daşdan gələr çataçat.

Aşıx Söyün deyir:

Dilin dəysə narazısız nara hey,
Ərəsətdə atajaxlar nara hey.
Nar içində ha çəkərsən nara hey,
Ətin ərir, əzan yanar çataçat.

Aşığ Ələsgər deyir ki:

Ələsgərin xətti çıxdı, çal indi,
Heyi yeyə, dalı reyə çal indi[70].
Hərcayinin kəlləsinnən çal indi,
Sal çəngəlini, çəh ciyarın çataçat.

Aşıx Söyün:

Söyün, əl çək şər işdərdən daha sən.
Cəhd eyləynən yekin yetsin daha sən[71]
Nə anladın, nə qanarsan daha sən
Səysən il də dərs alasan çataçat.

Bu da qayıdıf həmən o şəyirdə sözü vuror. Diyəndə, Aşıx Ələsgər deyir, sağ ol, a Söyün, ay bala. Çox qəşəh cavab verdin, istiyirəm bir şeir də oxuyum. Diyəndə Aşıx Söyün deyir, Ələsgər kişi, innən sora mənim dərim isinif, nə oxuyursan oxu. Onda Aşığ Ələsgər deyir ki,

Nahaq yerə sir işlərin gizlədin xannan gədə,
Ah çəkərsən nalə ilə, can gedər cannan, gədə.
Sidqi dilnən, etibarnan çağır şahlar şahını
Nahaq işdi, dilək dilər insan insannan, gədə.

Aşıx Söyün fikirrəşer ki, əyə, bu nə deməhdi? Yəni bunnan qavax-qarşı oxuyan mənəm. Gədə də bizdə ən əysih kəlmədi. Bu niyə bu kəlmeyi mana deyir. Aşıx Söyün deyir.

Aşığa nə ləyaxdı diyə hədyannan, gədə.
Danışsın həqiqətdən, yeddi ərkannan, gədə.

---

[70] Ələsgər bu misra ilə Aşıq Söyünə ehyam vurur ki, bizim aramızı vuran Musanın şəyirdi Heydərdir.
[71] Daha sən – dehə sən (ona sən)

Yeddi yerdən, yeddi ərşdən, yeddi dərdən
Dərsin alsın şiri-yəzdannan gədə.

Aşığ Ələsgər deyir:

Al çadırın sal sərinə çıx səhraya sayə gəz,
Qəza ki sənnən gəzəjək, istər gir dəryaya gəz.
Sin içində sakit əyləş, həqiqətdən ayə gəz,
Ağ eylə sinən aynasını şəri-şeytannan, gədə.

Aşıx Söyün:

Aşıx, həqiqəti dilində izhar eylə,
Şeytanın şər işinnən sidqini kənar eylə,
Səjdə qıl şahlar-şahına, sərini nishar eylə,
Hər şiri də xilas eylər nari-neyrannan gədə.

Ələsgər deyir:

Ələsgərnən danışanda al əlinə saz, danış,
İstə səni isdiyəni, eylə ərki, naz danış.
Əyləşəndə ağır əyləş, danışanda az danış,
Görənlər əhsan desin sana hər yannan, gədə.

Aşıx Söyün deyir:

Söyün deyər, eşq əhlilər atəşə yana gərəh,
Şərriyətin, şəkkiyətin, təqlitin qana gərəh.
Təcnisin, o təxnisin sayısın sana gərəh,
Nə seçər xiridarın qeyri-qanınnan gərəh.

Diyəndə, Aşığ Ələsgər başdıyır bir şeir də oxuyur ku:

İptida xəlq oldu küllü-kainat,
İnsan nəqa mindi, nəqa nə mindi?
Gözdərin afəti alır canımı,
Müjgan kipriklərin nə qana indi.

Aşıx Söyün diyir, bıy Allah öyünü yıxsın, aşıx yiyəsi, şair yiyəsi. Ayə iki sətirdə girdi yerin tənginə, iki sətirində də qayıtdı çıxdı gözəlləməyə keşdi. Nətər olan şeydi, bı məni nətər imtahan eliyir? Aşıx Söyün cavab verer ki:

İptida xəlq oldu cümlə məxluqat,
Onda yer nə mindi, nə yerə mindi?
Ə, hüsnünnən cismimdə qalmadı taqət,
Nə arif münsüfdü, nə ara mindi?

Demək isdiyir ki, bilmerəm mənnən dosdux eləməh isdiyirsən, ya düşmənçilih. Mən bu işi başa düşəmmerəm. Aşığ Ələsgər deyir:

Nə əysiy gül, nə artıx din, nə danlan,
Hərcayiyə zəhər olmur nadannan.
Seryaqufdan, dilbilməzdən, nadannan,
Ə, əzəl nə qanmışam, nə qanam indi.

Aşıx Söyün deyir,

Mərdü dünyədən gedər qaladı,
Hərcayilər cismim odunu qaladı.
Tənə sözlər, ciyarımda qaladı,
Nə kəsə bilerəm, nə yaram indi.

Ələsgər deyir:

Ələsgəri çəkməginən, yar, ala
Layax budu, yar xətrini yar ala,
Sınmış dəndan[72], nə yar ləbini yarala.
Əmməh də istəsən nə qan əm indi?

Aşıq Söyün deyir:

Söyün ölsə canan bükər özağa,
Şeyda bülbül boyun əyməz o zağa[73].
Mən can dedim, canan düşdü uzağa.
Nə qəlbim yaxındı, nə aram indi.

Onnan sora da bir şeir də var ki, Aşığ Ələsgər deyir, ay Söyün, bir gün arvadnan yaman aramız dəymişdi. Arvad ajığ eliyif çıxıf getmişdi. Bir də oğlanlarım öz aralarında məsləhətdəşellər ki, ə, biz boyda igid oğlannarın anasını boşuyuf ayrı arvad almağ... Mən də, deyir, düzü, ayrı fikirə düşmüşdüm kü, nəsə bir həmdəm gətirim. Uşaxlar dedi, ay dədə, axşamatan çalıb-çağırmaxdasan (Aşığ Ələsgərin uşağları deyir ha). Mal damının orta kərəni sınıf, büyün-savah kərən sınajax, mal çöldə qalajax. Şər də qarışıf. Çıreyı də götdüh, mal pəyəsinə edəndə ördüm, deyir, kərən-zad qırılmıyıf. Dedim, a bala, hansı kərəndi qırılan? Qapının, deyir, qarğa dilini arxasınnan keçirdilər, biri kürəyi götdü, biri yaveyi götdü.

[72] Dəndan – diş
[73] Zağ – qara qarğa

Gördüm, deyir, ə, çırtdıyan kərən göydə döyül, yerdədi. Mənim kərənimi çırtdadajax uşaxlar. Dedim, a bala, nə deməh istiyirsiniz? Dedi, ə, bizim kimi oğulun da anasını boşamağmı olar? Ə, ged arvadını gəti qoy bizə analıx eləsin. Diyəndə dedim, a bala, baş üstə. Bularnan razılaşdım, onda deyir, bir şeir demişəm ki:

Hərcayinin, dilbilməzin ujunnan,
Ay hazarat, mən ziyana düşmüşəm.
Doymağ olmur gözəllərin mətninnən,
Pərvanətək yana-yana düşmüşəm.

Deyəndə Aşıx Söyün cavab verir ki:

Kamil ustatdardan alıf dərsini.
Şair cəriyəsində sana düşmüşəm.
Arif məclisində, alim yanında
Neçə dəfə imtahana düşmüşəm.

Deyəndə Ələsgər işarə verer ki:

Devlətin çox oldu, qıymadın pula,
Qaraldı ojağım, yapışdım qula.
Nə ölör, nə iter canım qurtula,
Məjnun kimi biyabana düşmüşəm.

Aşıx Söyün deyir:

Bir zaman əlimdə zilbəm saz oldu,
Gözəllər mənimlə üzbəüz oldu.
Suyum artığ gəldi, tozhatoz oldu,
İndi də yumşalıb una düşmüşəm.

Aşıx Ələsgər deyir:

Ələsgər keçərmi namus-arınnan,
Aləm yatmır mənim ahu-zarımnan.
Boşasam qorxuram oğlannarımnan,
Boşuya bilmerəm, qana düşmüşəm.

Aşıx Söyün deyir:

Özüm aşiq oluf gəzirəm eldə,
Həsrət gözüm qaldı əbrüşüm teldə.
Ələsgər söylüyən təşbeh misalda,
Söyün diyər həmən günə düşmüşəm.

Bu şeirlərnən yekunnaşer. Axırda "Narın üz" şeirinin bir bəndini deyir Aşığ Ələsgər. Deyir ki:

Könül, sən ki, düşdün eşqin bəhrinə,
Narın çalxan, narın silkin, narın üz.
Dost səni bağına bağman eyləsə,
Almasın dər, gülün iylə, narın üz.

Diyəndə, Söyün diyir, Ələsgər kişi, bu dərzilər paltarı tikirlər, nəysə uyğun gəlmiyəndə bunu sökməh lazımdı. Altdakı sapı bəri çəkəndə sökülə-sökülə arxıyatan geder. İndi deyir, sən deyirsən narın üz, mən dejəm üz narın.

Ey nazənin, rizvanın üz narın,
Kətan narın, köynəh narın, üz narın.

Aşığ Ələsgər deyir, ay Söyün, dalını demə. (Alıncalı Məhərrəm oluf, Göyçəli aşığ oluf. Çox qorxmaz, həmi də heş kimə baş əyməz bir ustad olub). Onu Aşıx Məhərrəm bilmer. Bilsə məni də çöküzdürər. Xayiş də eliyirəm burdan beləsini demə. Təzdən oturollar, yiyillər, içellər, kirvəlik də başa çater.

**166.**

Hüseyn Bozalqanlı ilə Kalva Əsəd qan düşmanıymış. Kirvəlik məsələsi çıxanda Hüseyn Bozalqanlı gedir Kalva Əsədin evinə. Kalva Əsəd yuxarı başda xalçanın üstə oturuv çay içermiş. Hüseyn Bozalqanlı içəri girəndə, bu əlini beşatılana atıf. Deyif, Əsəd, beşatılanı qoy yerə. Mən bu gün, bu saat, sənin qapına tüşmən kimi gəlməmişəm, eloğlu kimi gəlmişəm, amma barəsində danışdığımız bu məsələ, bu proses başa çatannan sonra tüşmənih. Mən səni harda görsəm, öldürəjəm, sən də öldür. İndi icazə ver evindəyəm, surfanın qırağında oturum söhpət eliyək. Bir məsələ var onu araşdırax, razılaşarsan, bir eloğlu kimi qoşularsan, razılaşmazsan, mən sənin həyatinnən çıxana qədər mənə möhlət ver, sonra tüşmənih. Deyir, nə məsələdi? Deyir, Aşıq Ələsgərgilə biz kirvəliyə getməliyik. Orya getməh üçün də mənim elə atım, topum, tüfəngim, pulum, malım yoxdu.

Bunlar gediflər. Göyçüyə çatmamış bir gədihdə bunlara güllə atıflar. Nəysə, bunlar gediflər, kirvəlikləri də yaxşı başa çatıf. Orda bunlar deyşiflər. Orda onların çox məşhur "Çataçat" qoşa

yarpaq şeirləri var. On gün orda qalıf böyük aşıq məclisləri quruluf, sora da böyük hörmətnən yola salınıf gəliflər.

Hüseyn Bozalqanlının daim çuxasının altında beşatılan olarmış. Çuxanın altınnan beşatılanı çiyninə keçirif üstünnən çuxuyu geyinərmiş. Hüseyn Bozalqanlıya "beşatılannı aşıx" deeflər həm də. Yəni, heç vaxt silahsız hərrənmiyif.

**167.**

Aşıq Qədirin söylədiyinə görə, bir gün Aşıq Ələsgərin şagirdi Daşkəndli Aşıq Necəf gəler Touz mahalına, düz gəler Aşıq Söyünün öyünə. Aşıx Söyünün öyünə ələndə Aşıx Söyün deyir ki, Necəf, sən kimin şagirdisən? Deyəndə, deyir, mən Ələsgərin şagirdiyəm. Deyir, çox gözəl. Mənim sənət yoldaşımın, qələm yoldaşımın şagirdisən. Obşim, bunu uzun bir sezon Touz mahalında toylara aparır. Necəfin də gözəl səsi olur. Oxuyullar, pul yığellar xeylax. O vaxt olor ku, Necəfin yoldaşı hamilə olur. Bu Hüseyn kişinin arvadına deyir ki, ay xala, belə bir vəziyyət var, qağamı kirvə tutmaq istiyirəm. Deyir, olar, a bala. Mən Söyünə deyərəm, Söyün görüm razılaşermı? Söyünə dəəndə, Söyün kişi də deyir ki, ə, başnan, göznən mən olaram. Sənin kimi insana hər şey yaraşır.

Nəysə, nə qədər pul yığıflarsa, hələ Söyün kişi, deyir, bunnan bir manat vermiyif Necəfə. Necəf də ürəyində deyir ki, ə, bu maa pul verəjəhmi yol pulu da olsa, varam gedəm. Nəysə elə olor ku, Necəf getməli olur. Deyir, ə, bala, Necəf, getməh istiyirsənmi? Deyir, hə. Atdarı sürerlər, gedellər. Deyir, indi mən səni aparem, qranissadan yola salem. Həə, gedellər Uzuntalada Qazağın o başında pulu çıxarder Aşıx Söyün. Bir ayda qazandıxları pulun hamısını verer Necəfə. Ordan da çıxarder beş yüz manat. Deyir ki, bunu da aparersan mənim sənət yoldaşım Ələsgərə verərsən. Deyərsən ki, bunu sənət yoldaşın Aşıx Söyün sana tənbəki pulu göndərif.

Nəysə, Necəf pulu da götürür, gəler Ələsgərin yanına. Ələsgərnən öpüşör, görüşör. Ələsgər deyir, ə, aran mahalında nə var, nə yox? Belə obşim, yaxşı, belə-elə. Deyir, ay qağa, bir yaxşı şey eləmişəm. Deyir, nətəri? Deyir, Aşıx Söyünü uşağa kirvə tutmuşam. Deyir, doğurdanmı? Deyir, hə. Deyir, a bala, yaxşı eliyifsən. Qohum olmax yaxşı şeydi.

Bir gün Göyçə mahalınnan bir məytuf gəler Aşıx Söynə ki, Aşıx Söyün, filan ayın, filan tarixində biz sizi gözdöörük. Uşağa toy elijeyik. Nəysə, Aşıx Söyün məytufu götürör, düz gəler Kalva Əsədin yanına. Deyir, a Kalva Əsəd, məni kirvə tutuflar, Göyçə mahalına çağırıflar. Mən tək gedəmmərəm oroya. Kalva Əsəd bir az fikirrəşer. Bu ərəfədə Ələsgərin Heydər adında bir dənə şagirdi olor, buruya əler. Əlmərdənnidə Muradov Kərimin qohumunun toyunda olor. Burda deyillər ki, ə, get Aşıx Söyünü çağır, qoy o da gəlsin buruya. Gəlin deyəndə, Söyün deyir ki, mən gedərəm bu şərtə ki, mən qapıdan içəri girəndə mana Aşıx Söyün deməsinnər. Mana desinnər ki, a Kalva Söyün, gəl. Aşıx demək yaxşı olmaz, mən aşığ üstə girerəm. Camaata da elan verellər ki, bax belə deyərsiniz, Heydərin bunnan xavarı olmur. Aşığ çaler, bir də Kalva Söyün içəri girer. A Kalva Söyün, gəl. Kişiyi gətirerlər başda otuzdurullar, yer eliyellər. Aşıx Heydər gəler çala-çala, bunnan zakaz götürör, onnan zakaz götürör, buna gələndə deyir ki, a kalvayı, bir zakaz da sən ver. Deyir, ay bala, nə zakaz verim. Nə bilersən oxu. Deyir, bir zakaz ver dana sən də. Deyir, ayə, ala bir on manat da, ala pul al. Dəəndə deyir ki, bu yekəlihdə kişi zakaz verməк bilmir deyəndə bu bunun qulağına çater. Aşıx Söyün böyründəkinə deyir, nə deyir? Deyir, ay qağa, belə deyir. Bu da qızışdırer bunu. Deyəndə deyir, ə, nə danışersan? Deyir, vallah. Deyir, ayə, bala, buruya əl. Deyir, nədi? Deyir, aşıxlığın qapısınnan gir, bajasınnan çıx. Yanı deyir ki, muxamməsnən başla divaniynən çıx. Deyəndə Heydər məhəttəl qaler ki, ayə, hələ mana belə sual verən olmuyufdu. Bu bədbəxt oğlu bilmer. Biri deyir, evin yıxılsın onu tanıyırsanmı? Deyəndə deyir, yox. Deyir, öyün yıxılsın, Aşıx Söyündü. Deyəndə, deyir, eləmi? Deyir, hə. Sazı da stolun üstündə qoyur, çıxer.

Obşim, bu ərəfədə bu adam gəler deyir ki, Aşığ Ələsgər, mənim sazımı Aşıx Söyün aldı əlimnən, özü də sana belə söz dedi ki, belə filannarın qaçanı gəlir buruya. Bir az bunu burda xodduyur. Deyir, bala, Aşıx Söyün elə söz deməz, elə qabilyətti adam döül. Sən düz danışmırsan. İndi o buruya gələjəy kirvəliyə. Gələndə biz soruşarığ onu.

Nəysə Aşıx Söyün naməni də götürör, geder Kalva Əsədin yanına. Kalva Əsəd deyir, indi oruya yaxşı getməh lazımdı. Rəvayətə görə, bir xurcunun iki gözü qızıl götürör. Telli Əsəd olur, Kalva Əsəd olor, Mayor olor, Mamoy olor, qaçaxlardan da üş-dördünü götürör, bir yeddi-səkkiz olorlar. Kalva Əsəd deyir, pula qaldı mənnihdi, sözə qaldı, Aşıx Söyün, sənnihdi, güllə vurmağa qaldı Telli Əsətdihdi.

Gedellər. Ermənistanda Şişqaya deyilən yerdə buları yağış tutuf. Şişqayanı mən görmüşəm. Gedellər, toy öyünə yaxınnaşanda göröllər ki, yazdı. Üş dəs zurnaçı qəşəh çaler mağarın qavağında. Kalva Əsəd deyir ki, Aşıx Söyün, hərəsinin qavağına bir qızıl onnux atarsan. Ala pulları, as. Ayə, zurnaçılar göröllər ki, hərəsinin başına bir qızıl onnuğ yapışdırdı. Belə baxanda örellər ə, vallah, nətəri kirvədi. Ayə, kirvə gəldi, kirvə gəldi. Obşim, buları qavaxlaşdırıllar. Deyişib qutarandan sora Aşığ Ələsgər eşiyə çıxer. Ələsgərdən soruşollar ki, Söyün nətərdi? Deyir ki, keşkə Aşıx Söyünün o hazırcavablığı məndə olardı. Aşıx Söyün eşiyə çıxanda bunnan soruşullar ki, Ələsgər nətər oxuyurdu, yükü nətər idi? Deyir, keşgə elə oloydu altı ay o kişiyə şagird olardım.

Aşığ Ələsgərnən Aşıx Söynün görüşməyi orda olufdu. Özü də çox səmimi, bir-birini yaxşı qəvul eliyiflər.

## 168. QAYMAQLI KOXA

Xavar tutuflar ki, Qazaxda Qaymaxlı tərəfdə qaçax var. Hər yerə səs salıflar ki, əli-qolu tüfəng tutan gəlsin kömək versin, bu qaçaxları tutax. Noolasıdı, beşi hökümətə xavar verifsə, on beşi də qaçağa xavar verif, qaçaxlar da aradan çıxıflar. O cümlədən bizim bu rayonnan beş nəfər adam gedif: Kalva Əsəd oluf, Telli Əsəd oluf və ilaxır. Beş nəfər başda Kalva Əsəd olmaxla gedifLər Qazağa. O vədə də qonağ evi, qəsdinsə olmuyuf, buna görə qonaxları bölüflər. Bunu sən apar saxla, beş nəfəri sən saxla. Bu beş nəfər də (Qazağın Qaymaxlı kəndində İbrahim koxa adında Koxa oluf), buna veriflər ki, Touzdan gələn qonaxları apar sən bu gejə saxlaginan. Bu da götürüf gəlif evinə. Boz ay vədəsi oluf, yağışdı, çırpanaxlı gündü, deyir. Nəsə, bu İbrahim koxanın

anası var imiş. Anası görör yağış yağer, çırpanax vuror, beş dənə atdı, bir də İbrahim koxanın özü. Anası yaxşı qarşılamıyıf buları. Atdarı içəri addadıflar, özdəri də keçif oturuflar. Oturuflar, bulara çay gəlif. Çay qonax çayı döylü. Onnan sora, deyir, çörək gəldi. Çörək də qonax çörəyi döylü, yanı məqsədəuyğun döylü. Belə olan halatda Kalva Əsəd deyif, ola bilsin öydü də, hazır xörəhləri yoxdu. Yaqın gələr, yaqın gələr. Bunatan eşihdən nökər heyvannarı gətirif, malı, qoyunu qapıya tökəndə... Deyif, ay İbrahim koxa, bu atı-zadı da toluya doldurufsan, heyvan eşihdə qırıler. Nökər belə diyəndə İbrahim koxa deyir ki, ayə, narahat olma, qonaxlarımız çörəh yiyiflər, indijə durub atdanellar. Bir beş dəyqə dözginən. Diyəndə Kalva Əsəd deyir, ə, durun. Bular durullar. Sağ ol, sağ ol. Atdarın minerlər. Darca küçədi, küçöynən atı sürüf gedellər. Göröllər, bir nəfər adam bir dəsmal qavağında malı haylıyıf gəler. Malı ötüröllər. Mal ötənnən sora göröllər, kürk çiynində bir qoja kişidi, mal aparer. Bunu qamçının altına salellar.

– Ayə, a kişi mənim günahım nədi? Məni niyə döyürsünüz?

Deyir:

– Ə, bu kətdə qonaxcıl kimdi, bizi ona təhfil verdin verdin, vermədin səni öldüröjüyüh, – deyəndə deyir:

– Ə, rəhmətdiyin uşağı, məni niyə döyürsünüz? Gəlin, atı bəri sürün.

Gəlhagəl, gəlhagəl. Deyir, o göy darvazıyi görörsənmi? Deyir, hə. O darvaza Molla Musanın evidi. Əgər siz çatanatan darvaza açıldı açıldı, açılmasa qayıdın məni bir də döyün. Bular elə darvazaya yaxınnaşanda görör ikinci mərtəbədən orta yaşda kişidi:

– Ay bala, qonağımız gəler, darvazaları açın.

Darvazalar açıler, hər atın başınnan bir uşax yapışer. Girellər içəri, otağa. Xoş gəlifsiniz, beş gəlifsiniz. Yaxşı buları yidizdirer, içizdirer, gejə də rahat qalellar. Səhər bular yola düşəndə bular üçün azuqə-yeməh də qoyduror xurcunnarına. Gələndə Telli Əsəd deyir ki, ə, bizi niyə belə qarşıladı bu koxa? Kalva Əsəd deyir ki, ə, düz sürün atı Bozalqannıya. Aşıx Söyün də, deyir, qapıda hərrənermiş. Baxanda örör kü, ə, Kalva Əsəd qavaxda əler, əmbə bunun yanında da vuruf-tutan iyid adamlardı. Bədəni üşüyür kü, ola bil-

sin fikrin dəyişif. Onun da silahı həmişə böyründə olarmış. Əlini silahına sarı aparer ki, hazır olsun. Diyəndə diyir, Aşıx Söyün, fikrini dəyişmə, mən sənin qapına dost kimi gələrəm, fikrinnən ayrı şey keşməsin.

– Ay koxa, xoş gəlifsiniz, ay Əsəd, xoş gəlifsiniz.

Gəlellər bular. Deyir, bax bizim başımıza belə bir iş gəlif. Buna bir şeir yaz. Diyəndə deyir, a Kalvayı, axı mən aşığam, ola bilsin Qaymaxlıya da edə billəm, Qazağa da, Şəmkirə də, Touza da və ilaxır. Məni nəyşə düşmən eliyirsən? Mağarda çadırın cırığınnanca tuşdadı, kəlləmə atdı, mən qutardım. Onu bilən də olmujax kim öldürdü. Diyəndə deyir, ə, yox. Sən gəzərgisən. Şeiri yaz, Xəyyat Mirzənin adına bağla. Deyir, vallah, bu da çətin işdi. Deyir, onda, bizim dostduğumuz baş tutmor. Aşıx Söyün də ələjsiz qalır, yazır şeiri. Götürür yazır ki:

Bizdən ona ərzi-salam yetirin,
Qaymaxlı koxası çox-çox var olsun.
Hörməti, izzəti qalmasın bizdə,
Hax fəsilə salsın bir güzar olsun.

Bir kişinin namus-arı olmasa,
Qohumuna, dostuna varı olmasa.
Əyər beş atdı gələndə yeri olmasa,
Nahaxdı o kəndə, ayax diyar olsun.

Cəmdəhdən heyvərə, kəmhünər olar,
Ennənər qulağı, beytəhər olar.
Madər xərdən olan nərrə xar olar,
Maya gərəh doğducağı nər olsun.

Soğannıx, Borçalı, bir yanı İncə,
Qazax-Şəmsəddində kim olar onca.
Ə, al otun kökünnən baş verməz yonca,
Belə öyləd əkən dərbədər olsun.

Şirindi ləhçəsi, şirindi sözü,
Şirin dilə tutdu, danladı bizi.

Hörmətdə, izzətdə yoxdu əvəzi,
O kəntdə də Mola Musa var olsun.

Daldeyda saxlıyır şux gözəlləri,
Ağ bədən, gül yanax, sədri mərməri.
Hərdən eşihdən səslənerdi nökəri,
Qonax getsin, bular yerbəyer olsun.

Xəyyət Mirzə işdən oldu bexəbər,
Deyillər, sərsəyax bir anası var.
Ətrafına qoymaz bir cinni-bəşər,
İsdersən tülüngü[74] canavar olsun.

Noolasıdı, Kalva Əsəd yazılan şeirin kağızın da aler. Uşax nədi, böyüh nədi, ona-buna dağıder. Uşaxlar indi şeiri kööşənnihlərdə oxuyullar. Aşıx Söyün də deyir, ə, sən Allah bunu gizdəginə. Harıya gizdersən? Bir üzünü də qəşəh paketə qoyur, Molla Musuya göndərer. Molla Musa məytufu açer, baxanda örör, ə, başdan yazır ki, bizdən ona ərz-salam yetirin, Qaymaxlı Koxası. Ayə, bu koxıya şeir yazılıb. Başdan ayağa şeiri oxuyur və Koxuya bir adam yolluyur ki, bir əziyət çəh bizə gəl. Deyir, şeiri al oxu. – Ayə, bunu kim verif? Deyir, Touzdan qonaxların oluf e, olar göndəriflər. Deyir, ə, düzdü, olara mən yaxşı hörmət eliyəmmədim, amma bu şeiri kim yazıf? Baxanda örör ayağında Xəyyət Mirzə. Xəyyət Mirzə də Ağstafada dərzi işdiyir. Yaxşı sənətkar kimi həmeşə Qaymaxlı Koxasının paltarını, kəstumunu, şalvarını, köynəyini Xəyyət Mirzə tikərmiş. – Ə, bu Xəyyət Mirzə mənim dostumdu. Bu niyə belə yazsın?

Noolasıdı, bir-iki nəfər də ötürür, atdanerlar. Gələllər, səhərsəhər Ağstafada Xəyyət Mirzənin qapısın döyüllər. Qapıyı açer, görör koxadı, silah da əlində. Deyir, ayə, nağayrırsan, nooluf? Deyir, ala bu şeiri oxu, bu onun cavabıdı. Səni öldürəjəm. Şeiri oxuyur. Deyir, a Koxa, şeiri mən yazmamışam, mənim xavarım yoxdu. Hətta şeirdə də yazer ki, Xəyyat Mirzə işdən oldu bixəbər. Mənim bu işdən xəbərim yoxdu. – Bə kim yazıf bunu? Deyir, bu-

[74] Tülüngü – hiyləgər

nu Aşıx Söyün yazıf. – O nəyə görə yazsın? Deyir, indi orasını mən bilmerəm. Gəl çıxax vağzala, bu saat Bakıdan gələn pouz vağzalda dayanıjax. Hər halda bir-iki nəfər Touzdan adam düşər.

İmamqulu adında bir nəfər poezdən tüşör. Tüşəndə Xəyyət Mirzeynən də bular tanış imiş. Görüşöllər, əl-tamam olollar. Koxa da qulağ aser ha. Deyir, ə, Xəyyət Mirzə, özünü gözdə, Aşıx Söyün belə bir şeir yazıf, özü də Qaymaxlı Koxasına. Söz yarası çətin şeydi. Deyəndə deyir, ə, Koxa, eşitdinmi? Deyir, bəli, eşitdim. Bular bir-birinən sözdəşellər ki, gedəh Touza, Aşıx Söyünnən hesabımızı kəsəh. Deyəndə Xəyyət Mirzə deyir, a Koxa, Touz da böyük məmləkətdi. Getmiyin, gedərsiniz, pisikərsiniz. Ya sən onu vurarsan, ya o səni vurar, arada düşmənçilih yaranar. Lazım döyül, sözün cavabı söz olar. Mən özüm onnan hesabımı çəkərəm. Xəyyət Mirzə götürür yazır ki:

Aşıx Söyün, bu naməni yazıram,
Sənin üçün həqiqətdən, əzizim.
Həm arifsən, həm urafə deyillər,
Tez qanarsan işarətdən, əzizim.

Aşıx Söyünə şeir çatanda götürör cavab yazır ki,

Xoş kəlamın gəldi bizə yetişdi.
Xub yazıfsan ibarətdən, əzizim.
İsmi-şəfahətinə eynim sataşdı,
Feyzim aldı ziyarətdən, əzizim.

Yəni şeirini oxudum, mən səni ziyarət elədim. Xəyyət Mirzə deyir ki:

Görən deyir Söyün elmi-qayıfdı,
Çox ustadı aşıxlara nayıfdı.
Dostdan, müsaifdən, eldən ayıfdı.
Əl çəkginən həcviyyatdan, əzizim.

Aşıx Söyün deyir ki:

Firdovsi dərrakan, loğman kəmalın,
Cavahir kəlməlisən, kövsər zülalın.
Misirdə əyləşif Yusif camalın,
Müntəzirsən həlavətdən, əzizim.

Diyəndə Xəyyət Mirzə deyir ki:

Qaymaxlı Koxası bir oğlandı bir,
Şah Abbas misallı, qapısında qul.
Boz ata minəndə olur möhtədil,
El titrəşir şücaətdən, əzizim.

Diyəndə Aşıx Söyün deyir:

Qaymaxlı Koxası bir oğlan vardı,
Şah Abbas olammaz, toolası dardı.
Ə, qonaxdan qaşmax iyidə ardı,
Kəm görünür səxavətdən, əzizim.

Diyəndə Xəyyət Mirzə deyir ki:

Dağda da bir sözümə cavaf deyifsən,
O səbəbdən çox qəlbimə dəyifsən.
Məni kimin əvəzinə sayıfsan,
Danışıfsan siyasətdən, əzizim.

Xəyyət Mirzə cavan vaxdı bir qızı istiyir. Comaların[75] qavağına fala baxan gəlif. Xəyyət Mirzə bu falçıya deyir ki:

Başına döndüyüm, ay falçı qardaş,
Baxginan baxtımın tasına görüm.
Uçurmuşam əldən bəhrü-tərlanı,
Düşüfdü dağların hansına görüm.

Aşıx Söyün də onun bu şeirinə belə bir cavab yazmışdı:

Falçı qardaşım baxdı baxdıyi-tasına,
Düşüfdü burşdarın nəsinə görüm.
Sənin uçurduğun o bəhri-tərlan,
Keçif lotuların dəsinə, görüm.

Xəyyət Mirzə deyəndə ki, "dağda da sözümə bir cavaf deyifsən" bunu nəzərdə tuturdu. Aşıx Söyün də deyir ki, ə, mən sana nəsihət vermişəm. Yəni, o sevdiyin, istədiyin qızın əsli, nəsli, zatı mənim xoşuma gəlmer. Sənin onnan evlənməyinə razı döyüləm.

Demə, Xəyyət Mirzə, kamalın azdı,
Aşıxlıx dediyin böyüh murazdı.
Bir ustad aşıxsan, əlində sazdı.
Sən bilirsən həqiqətdən, əzizim.

Diyəndə deyir ki:

---

[75] Coma – üstü çır-çırpı ilə örtülü dəyə

Söyün saz götürüf girər məclisə,
Sığallar sozəndi, bələnməz pasa.
Ə, vacifdi don biçəh yaxşıynan pisə,
İcazədi cəm ustaddan, əzizim.

Söhbətin axırı Xəyyət Mirzəynən Aşıx Söyünün deyişməsiynən yekunnaşır.

## 169. NAZİK UZUN KÖZMÜ GƏTİRİM, YOXSA YOĞUN GÖDƏK KÖZ?

Bir aşıx gəler ki, gedif Aşıx Hüsöyn Bozalqanlını bağlıyajam. Sazın da götürür, aşıx paltarında geyiminnən-kejiminnən gəlir ki, içəri girəndə qoy zəhmimdən qorxsun. Aşıxlar o vaxtdı buxara papax, xrom sapox, qəhveyi şalvar, tokqalı-zaddı gəzərmiş. Deyir: "Gedəjəm, Aşıx Hüsöyn mənim geyimimnən qorxajax".

Gəlhagəl, Bozalqanlıya gəler. Onda taxta darvaza hər adamda olmordu. Üççə adamda vardı, onun biri də Aşıx Hüsöyn Bozalqanlıda idi. Taxta darvazayı döyəndə, sən demə, Aşıx Hüsöyn məhlədeymiş, qızı da çay qaynadermiş. Qızı görör ki, bir aşıx gəler. Deyir:

– A qızım, a qızım, olarmı? Yol adamıyam.

Deyir:

– Gəl, ay baba, səfərin harıyadı?

Deyir:

– Bura Aşıx Hüsöyn Bozalqanlının öyüdümü?

Deyir:

– Bəli, düz gəlifsiz.

Deyir:

– Ay bala, baban öydədimi?

Deyir:

– Bir istəkan çay içginən, ikicə dəyqəyə gələr.

Aşıx Hüsöyn Bozalqanlının qızı çay qoyor, süfrə açer. Bir də deyir:

– A qızım, a qızım, dərdin alem sənin. Ordan bir köz gəter, qalyanımı yandırım.

Qız qayıder ki, ay baba, nəzih uzun közmü gətirim, yoxsa gödəh yoğun közmü gətirim? – deyəndə aşıx bir yer, bir göyə baxer ki, ilahi, bu nə deməhdi? Fikirrəşer, tapammer ki, nəzih uzunmu deyim, yoğun gödəh közmü deyim. Deyir:

– A qızım, bağışda, dərdin alem. Ustadım mənə deyif ki, hər öydə qalyan çəkmə, qalyanın iysin hər adam götürəmmer.

Bu sözə görə, heş çayını da işmer, duror kirimişcənə burdan aralaner ki, mən də deyirəm gedib Aşıx Hüsöyn Bozalqanlını bağlıyajam. Qızı məni belə bağlıyanda, gör özü gələndə mənim axırım hara gedəjəh.

Nəysə, bir az gedənnən sora görör, buxara papaxlı bir aşıx Bozalqanlının arasıynan harayasa toya geder.

– Ay usta, salamməlöyküm.

– Əleykimət salam.

– Olarmı sənnən bir söz soruşum?

Deyir:

– Nədi, eşiderəm, ağren alem?

Deyir:

– Bir yerdə, vallah, məni təntidiflər, cavab verəmməmişəm.

Day demir ki, Aşıx Hüsöyn Bozalqanlının öyündə təntidiflər. Deyir:

– Nədi?

Deyir:

– Vallah, istədim bir qalyan yandıram. Dedim, a qızım, a qızım, mana bir köz gətir. O da dedi ki, ay baba, nəzih uzun közmü gətirem, yoğun gödəh közmü gətirem. Baş açammadım ki, bu nə deməhdi, – deyəndə dedi ki, hələ bilmersənmi? Deyir:

– Yox.

Deyir:

– Əgər qalyanını təzə doldurufsansa, ona yoğun yastı köz lazımdı. Əgər qalyanın ortasındandısa, ona nəzih uzun köz lazımdı.

Onnan sora o aşıx eləcənə o qıfılbəndin qarşısında aciz qaler, əstafurullah eliyir ki, mən Şəmşəddin mahalına bir də qayıdıf gəlmərəm.

## 170. AŞIQ HÜSEYNİN GÖYÇƏLİ NƏCƏFƏ NƏZİRƏSİ

Nəcəfin oğluna Aşıx Söyün kirvə duruf. Kirvəlihdən qavax olan söhpətdi bu.

Nəcəfi hardansa sifarişlə gətiriflər Çəmbəriyə, Krasnoselsk rayonuna. Mirzə Bayramov da Aşıx Söyünün yanında şəyirtdi, cavan oğlandı. Bular yaylağa çıxıllar Gözəl Dəriyə. Uşax ajdığı[76] olur. Aşıx Söyünün yoldaşı Zeynaf deyir ki, ay Mirzə, ged aşağıda əminə denən, ajdıx göndərsin yaylağa. Taxıl piçilir. O da gəlir. Çəmbərəyə gələndə örüllər, bazarın içində çayçıdı. O vaxtı çayçıya dıraxtın deyillərmiş. Dıraxtının qabağında iki min adam var. Nəcəf dıraxtında oxuyur.

Qarabağda quş durmaz, anam qurban – deyəndə, tərəhdə mis qablar səs eliyərmiş. Girməh mümkün döy millət əlindən. Millətdən yer yoxdu tərpənməyə. Burda bir Suren olur, bir erməni olur, nəçənnik. Bu da Aşıx Söyünün hesavına Mirzeyi tanıyır onun şəyirdi kimi. Deyir, ə, Mirzəcan, niyə durursan burda? Deyir, mən orya girmək istirəm, o aşığı görməh istirəm. Deyir, gəl. Camahat yarılır, nəçənnik adamdı. Suren yol eliyir, içəri girəndə görür minarə kimi sarıyanız, bığlı, göy ala gözdü bir adamdı. Bülbül kimi oxuyur Mirzə. Deyir, gedən kimi daa bu sazı qırıv tullujam. Aşıx belə olmazmı, ə!

Deməli, o sözü oxuyur ku, Basarkeçərdə bir Avades ağa olur. Ələsgər burdan keçib gedirmiş atdı, qucağında saz haryasa. Avades ağa bunu səsliyir ki, heç kim yoxdu öydə, Ələsgərcan. Plov pişiv öydə, gə bir nahar eliyək. Deyir, ə, tələsirəm.

– Ə, gəl də, mən də ağayam, mənim sözümdən çıxma!

Atdan tüşür, gəlir əyləşir. Əyləşəndə bir ala pişik gəlir stolun üstə çıxır. Kasıv öyün pişiyi aj olar dana. Bu varrı öyün pişiyi nəyşə gələr burya yeməyə. Nə isə, Allahdan olandı. Deyir, bu erməni nə qədər əlinin dalınnan anrı eliyirsə, pişih tüşmür yerə. Bu Nikolay qaşıxları yaman ağır olurdu. Qaşığın birin götürüf pişiyin başına vuran kimi, pişih ölür. Ələsgər deyir, ə, mən namaz qılan adamam. Bilirsən, mən erməni çörəyi yemirəm. Bir

[76] Ajdığ – yeni məhsuldan təcili üyüdülmüş azacıq taxıl

çay işdim, onu da qana döndərdin. Bax onu Allah yaradıf, sən nəyşə vurdun, məni peşman elədin uğura çıxdığım yerdə?

– Ə, Ələsgərcan, ölüp ölüp də, pişihdi!

Orda deyir, sazı götür maa ver. Sazı götürür, deyir:

Xudam səni, onu yoxdan yaradıv,
Sən də bircə milçək yarat, erməni!
Bir qonça pitəydin dostun bağında,
Dilimlə deyəydim yara dər məni.

Tutubdu dəstində gözəl nizamı,
Firdovsi, Füzuli, gözəl Nizami.
Təqdiri-qüdrətin gözəl nizamı,
Dərdi mana verif, yara dərməni.

Ələsgər də dastan etdi dəryaya,
Səfər etsən uğruyarsan dəryaya.
İstərsə kül edif qatar dəryaya,
Yaratmaq istərsə, yaradar məni.

Nəcəf bu sözü oxuyur Çəmbərəhdə, dıraxtında. Mirzə bu sözü eşidif qafiyəni yazer. Arana əler.

– Ayə, a Mirzə, nə var nə yox? Uşaxlar zad, heyvan-filan?

Deyir,

– Hamısı yaxşıdı. Amma bir gözəl işə dücar oldum.

– Ayə, nədi?

Deyir:

– Nəcəfi gördüm.

– Ayə, nə danışırsan? Orda nağayrır?

Deyir:

– Dıraxtında oxuyurdu.

– Bə gedərdin, tanışlıq verərdin.

Dedi:

– Tanışlıq verdim. Dedim, mən Aşıx Söyünün şəyirdiyəm, adım da Mirzədi. Dedi, eşitmişəm. Gə bir hava oxu. Nəğədər elədi oxumadım. Mən Nəcəfin yanında nə oxuyum?

– Bə nə oxudu?

Deyir:

– Bax bu sözü oxudu.

Qafiyəni yazıb Kazbek kutusuna. Aşıx Söyün deyir, indi mən şeir yazajam, apar Çəmbərəhdə oxu. Qoy göyçəlilər, oranın adamı da bilsin ki, şeir at qulağı yaşıyır dünyada. Yəni, gərəh qoşa ola. Söyün deyir, Mirzə də yazır. Haravıya bir yedəh qoşur, bir-iki çual da un üyüdür qoyur. Yanına da nökərdən, nefdən qoyur, Mirzə gəlir Çəmbərəyə çıxır. Başdıyır şeiri oxumağa. Deyir, Aşıx Söyün yazıf:

Həmidim, Məcidim, Əhmədi-Mahmud!
Səndədi dərdimin dürüst dərməni.
Həqiqət bağında açılmış güləm,
İstərəm dərələr dürüsdər məni.

Doğru yolda əyrilərnən yamanam,
Bəxti qara ya dostumdu, ya mənəm.
Sərraf seçər ləli-gövhər, ya mənəm,
Zərgər zərə tutar, dürüst dər məni.

Aşıx Söyün dərsin alıf həyatdan,
Yerdə xəbərdardı ərştə büsatdan.
Uzağam xayınnan, fürqu-fəsatdan[77],
Onlardan yaxşı dürüst erməni.

Məclis dağılır. 1931-ci ildə Səməd Vurğunun sifarişinnən olan məclisdən danışıram, Qazaxda. Özbəkistannan, Qazağıstannan, İrannan, hər yerdən gözəl şairrər Səməd Vurğunun sifarişinnən gəlif. Bir dənə erməni, Eçməzdin kilsəsinin böyüyü camahat dağılanda deyir, Səmədcan, sən, mən, bir də Aşıx Söyün, üşdühdə söhpətim var. Dedi, nədi? Dedi, o şeiri sən niyə elə yazıfsan? Dedi, hancarı yazmışam? Deyirsən, o xainnərdən bir balaca fərqlidi erməni. Aşıx Söyünün bir sukundun içində düzəlişinə bax. Deyir, o aşıx pəltəhdi. Mirzənin şəyirdi vardı Nağı. Keçəl Nağı deyirdilər. O oxuyurdu şeiri. Deyir, o aşıx pəltəhdi, düz oxumuyuf. Dedi, sən nətər yazıfsan? Deyir:

Yazıx Söyün dərsini alıf həyatdan,
Yerdə xəbərdardı ərştə büsatdan.

[77] Fürqu-fəsat – hər iki söz xayin deməkdir, biri ərəb, digəri fars dilindədir.

Uzağam xainnnan, fürqu-fəsatdan,
Bütün el tanıyır dürüst ər məni.

– Söyüncan, bağışda!

Söyün bax belə Söyün olub. Çox aşıxlar bunu bilmir.

## 171. AŞIQ HÜSEYNİN ƏLƏSGƏRƏ İSMARICI

Aşığ Ələsgər rəhmətdih Gəncədən gələndə görör ki, iki aşıx duraxdunda[78] elə gözəl, elə şirin çalıb oxuyullar. O vaxtlar duraxdunda ağalar, bəylər, böyük adamlar oturarmış. Bulardan icazə alır ki, olarmı mən də qulax asım? Bu aşıxlar şirin oxuyuf kutarannan sora, deyir:

– A bala, hansı mahaldansan?

Deyir:

– Şəmşəddin mahalınnan.

– Hansı ustaya qullux eliyirsiz?

Hər ikisi deyir:

– Dədə Hüseyn Bozalqanlıya.

Deyir:

– A bala, ustadınıza bir ismarıcım var, görüm hansınız çatdıra bilərsiniz.

Hər ikisi böyük məmuniyyətnən deyir:

– Mən.

Deyir:

– Yox, bu duraxdunu da boş qoymağ olmaz. Biriniz çalın-oxuyun, biriniz mənim bu kəlamımı ustadınız Dədə Hüsöynə çatdırsın.

Biri tez atı yəhərriyib mindiyinnən deyir:

– Buyurun, nə deməh istiyirsiniz?

Deyir:

– Ged ustadına denən ki, məni Aşığ Ələsgər göndərib. Dedi öküzün bir tayı təhdi, ona bir tay öküz tapsın, rəngi nə ağ olsun, nə qara, nə sarı, nə yaşıl, nə qırmızı, nə mavi...

[78] Draxtun – çayxana

Yeddi irəngin yeddisini də deyif. Şəyirdin Allah öyünü yıxmasın, bilmer bu nə deməkdi. Atı mindiyinnən düz yönünü Şəmşəddin mahalına çöyürür. Gələndə görör, ustadı qara tutun altında dirsəhlənif pürrəngi çay içer. Ustadını görən kimi bərhdən ağlıyır. Dədə Hüsöyn soruşub:

– A bala, niyə ağladın?

Deyir:

– A usta, keşgə bu at məni qayadan uçuroydu, çaya tulluyoydu, yerə vuroydu, bu bəd xəbəri gətirib sənə çatdırmıyeydim, – deyəndə, deyir:

– Ay bala, nə bəd xəbər?

Deyir:

– Ay usta, məni Aşığ Ələsgər göndərdi. Dedi get ustadına denən ki, öküzə bir tay öküz tapsın, rəngi nə ağ olsun, nə qara, nə qırmızı, nə mavi, nə yaşıl. Ona görə gəlmişəm.

– A bala, bunnan ötrümü?

Deyir:

– Elə bunnan ötrü.

Deyir:

– Atını dala sür, get Ələsgər babana deginən ki, çatan kimi ustadım öküzü tapdı. Gəlsin öküzün aparsın, özü də dedi nə birinci gün, nə ikinci gün, nə üçüncü günü, nə dördüncü gün, nə beşinci gün, nə altıncı gün, nə də bazar günü. Bu günlərdə gəlməsin, özgə hansı gün gəler gəlsin, öküzün aparsın.

Bu cavab gedif Aşığ Ələsgərə çatannan sora, Aşığ Ələsgər gördü ki, Şəmşəddin mahalında belə bir ustad sənətkar, Dədə Hüsöyn addı aşıx var.

## 172. SƏNİN KİMİ QOR-QODUĞU ÜÇ MANATA

Günlərin bir günü Bozalqannı Aşıx Söyün Krasnaselskidə, köhnə dilnən desək, Çəmbərəhdə bazar günü bir dostunnan əyləşib söhbət eliyir, həm də əlində qaylan qayırır ki, yandırım çəkim də. Bu yerdə, bu məqamda iki nəfər erməni bulara sarı yaxınnaşır. Bu ermənilərin biri Aşıx Söyünü tanıyır. Tanıyan erməni yoldaşına deyir kin, ə, bax o iki nəfərin balaca boylusu Aşıx Söyünə oxşuyur.

Aşıx Söyündü, Bozalqannı Söyün, yaxşı şeirrəri var. Ona bir söz at, görəh bir şeir dedirdə bilərihmi ona? Gəlillər çatıllar.

– Salamməlöykü.

– Əlöykətsalam.

Aşıx Söyün də əlində çaxmağ çalır ki, alıcıqoy deyillərmiş o vaxdı, qalyanını yandırmağ üçün. Bular da salamı alır.

– Ə, sən Aşıx Söyünsən?

Deyir:

– Hə, Aşıx Söyünəm.

– Ə, bə neçəyə nallersan?

Bunun çaxmağ çalmağını nalbəndə oxşadıb. Aşıx Söyün deyir:

– Qoy çaxmağı çalım, qalyanımı yandırım, sora deyəjəm.

Yandırır qutarır, ağzını ajı tənbəkinin tüstüsünnən doldurur, bu ermənin üzünə üfürer Aşıx Söyün. Bu bərk çəkir, öysürür, gözünnən yaş gəlir, nağayrır, qutarır.

– Ə, neynədin?

Deyir:

– Deyim də cavabını. Neçiyə nallıyırsan deyəndə, deyir ki, sənin kimi qor-qoduğu üş manata, dədən kimi eşşəyi beş manata, – deyəndə, bu erməni duruxur, deyir ki, ə, bə yoldaşıma? Belə baxır Aşıx Söyün, deyir, yoldaşın çox böyühdü, o həmədan cinsidi, onu on manata. Cavabların verir də yola salır.

## 173. AŞIQ MIQIÇ

Aşıx Söyünün Mıqıç adında şagirdi olufdu. Mıqıç erməniymiş. Avac, Mıqıç şagirtdih eliyirlərmiş musulman aşıqlarına. Bir gün Mıqıç Kəlbəcərə gedir. Kəlbəcərdə Aşıx Mikayılla deyişəndə Aşıx Söyünün şeirini öz adına oxuyufdu. Deyif ki:

Bir gün bir heyvanat gördüm,
Zənbur kimi şam verir.
Xörəyi yüklə gəlir,
Nəfəsi duman verir.

Əyləşifdi bir maqamdan,
Nalə verir atmana.

Nə yerdədi, nə göydədi,
Sədrin üstə yan verir.

Bir başı, bir əyağı var,
Gör neçə barmağı var.
İki qolu, bir boğazı,
Təh bircə dodağı var.

Əyləşifdi bir məqamda,
Neçə min oylağı var.
Qoy eşitsin, hamı bilsin,
Hər gələnə nan verir.

Gəl biçarə aşıx Mıqıç,
Qıl sözünü müxtəsər.
Adı onun bol olanda,
Olur dəli dəngəsər.

Eşidənlər, fikir verin,
Bu sözümə sərbəsər.
Əyər ki, ağam olmasa,
Sıtqınan güman verir.

Aşıq Mikayıl bağlamanı aça bilmir. Gəlir Ələsgərin yanına. Ələsgərin də qoja vaxdıymış. Deyir, ay Ələsgər əmi, bu aşıxların xasiyətidi qoja vaxtında dara düşənə köməyə gəlməz. Deyir, nədi, ay bala? Deyir, əmi, bax belə-belə. Ələsgər deyir, ə, üş kəlmə sözdü də, onun cavabın deyə bilmədin? Onun cavabını sənə deyəjəm, gedib onlara deyib bir yəhərri-yüyənni at alarsan olardan. Orda Ələsgər deyir:

Gələndə usta kəlamın,
Köhnə yaram qan verir.
Bolca gəlir bəhri-çeşmə,
Qətreyi-baran verir.

Dananı torpax içində,
Göyərdir kərəm kanı.
Bir mələh müqəvvayı,
Bizlərə ərzan verir.

Şirzandan dən gəlməyəndə,
Tüşər bir qeyri-hala.
Dahanınnan atəş qalxar,
Ah çəkər, eylər nala.

Qəzəbinnən ləngər verir,
Gah qabağa, gah dala.
Hay verəndə alov törər,
Dul qalxar, duman verər.

Anlamaz nadan eşitsə,
Deyər, hədyandı bu söz.
Ali-urfat məclisində,
Ləli-mərcandı bu söz.

Müxtəsəri türki-zaman,
Oğul, bir dəyirmandı bu söz.
Ab səcara, ahang səcər,
Gör neçə cövran verir.

Soruşsalar, Aşığ Ələsgər,
Dərsi kimnən alıfsan?
Nahaq yerə saz götürüf,
Elə qovğa salmısan.
Üç qublet sözdən ötrü,
Oğul sən ki, məətdəl qalmısan.
Nahaq yerdə İran tattarıymış,
Mikalayıla dövran verir.

Burda yazdırır, gedir orda o sözdəri deyənnən sora Mıqıç aça bilmir. Nə bilir nəymiş. Onnan bir yəhərri-yüyənni at senzurlar alıf verir.

## 174. AŞIQ HÜSEYNLƏ AŞIQ AVAK

Bir məclis olur, Aşıx Söyün bu məclisə aşıx yox, qonax kimi çağrılır. Çardaxlıda Aşıx Avak oluf, bu da təsadüfən burda aşıxlığ eliyir. Aşıx Söyün atını bağlıyır, gəlif salam verib oturanda at bir-iki dəfə "buraxır". Buraxanda erməni Avak deyir:

– Ə, bu nalı taxçada qalmış nə eliyir, ə?

Ağacın divində kölgöydə məclis keçermiş. Belə deyəndə, Aşıx Söyün deyir ki, aşıx, sana eşq olsun. Aşığ Avak deyir ki, ə, bu kimdi? Deyillər ki, o, Aşıx Söyündü.

– Aşıxdı?

Deyillər:

– Hə.

Gəlif deyir:

– Deyillər, sən də aşıxsan, gəlsən, deyişək?

Deyir:

– Get hələ mənim atımın quyruğunun altına cavab ver, sora gəlib mənnən deyişərsən.

## 175-176. AŞIQ SƏMƏD

Oğlunun ölümü ona agah oluf. İşdiyirmiş, birdən işi dayandırıf ki, mən evə gedirəm. Deyiflər, niyə? Deyir, nəsə hadisə olojax. Qazıqulu deyilən yerdə üzünü dağlara tutuf bir qəmgin "Dağlar" şeirini yazıf. Sərin meh üzünə vuranda deyif, oh, oğlum öldü.

## 176.

Yaylağa çıxer, Göyçə camaatı da o tərəfdən Murğuza köç eleer malını, qoyununu saxlamax üçün. Aşıx Ələsgərə deyillər, o hansı quşdu ki, qırx gözü var, bir burnu? Aşıq Ələsgər atın sürür düz Səmədin yanına gəler. Deyir, Aşıx Səməd, bir şey üçün yanına gəlmişəm. Bir uşax maa bir qıfılbənd dedi ki, o hansı quşdu qırx gözü var, bir burnu. Deyir, evin yıxılmasın, at minif mənim yanıma gələnə kimi bir ayağına baxmadınmı?

– Əyə, nədi?

Deyir:

– Ayağındakı çarıxdı da. İpi keçirmək üçün qırx qatması var, bir dənə də burnu.

## 177. DANA MƏSƏLƏSİ

Müharibə vaxtı imiş. Kişinin (Aşıq Qəhrəmanın – tərt.) yaşı düşmədiyinə görə müharibəyə aparmellər. Mülkülüdə Hamza kişi var, ferma müdiri imiş, bir nəfər də Qoqa İsgəndər var idi.

Gündə şikat eliyir ki, maa bir çovan verin. Bular fikirrəşer ki, Hajallıda Aşıx Qəhrəman kişi boşdu. Nolar aşıx olanda, əlinə çomax alsın, kartıyı ver, getsin dana otarsın.

Günnərin bir günü bunu çağırellar kənd sovetinə. Qağam gəler. – Eşiderəm sizi. – Bəs müharibənin bu vaxdıdı, səni müharibəyə aparmıyıflar. Səni göndərsəm, gedif çovannıx eliyə bilərsənmi? Deyir, niyə eləmerəm. Saz olmasın, çomağ olsun. Hamza kişini çağırellar ki, bunu apararsan Qoqo İsgəndərin yanına qoşarsan. Deynən itdərnən tanış etsin, bir də bir kartı verin əyninə. Elə birinci gecəsində Qoqo İsgəndər kişini nə itdərnən tanış eliyir, nə də buna kartı verir. Acıx eliyir ki, bu aşıx adam mana nə kömək elijək. Mana cavan adam verin dananın dalınca qaça bilsin.

İtdər də, Allah göstərməsin, əjdaha kimidi. Birdən itdər göröllər qaraltı var, nətər cumollarsa, kişinin qılçasınnan dişdiyillər. Qoqo İsgəndər ismarış göndərir Həmzəyə ki, ay bədbaxtın oğlu, göndərdiyin çovanı itdər yedi. Həmzə kişi bir boyun öküzdən haravayı qoşor, geder, öz öyünə ətirer. Allah rəhmət eləsin arvadına (Əzzət ana deyirdik ona), tez yumurta qayğanağı eliyir, qıçasını sarıyır. Hamza kişi deyir, qəhrəman kişi, səni evə göndərəjəm, qıçanın yarası qutarana qədər çölə çıxma. Səni boş görüf bizim üsdümüzə düşüllər ki, filankəs boşdu, göndərin getsin da. Aparır öküz arabasınnan düşürüllər öz öyünə.

Bir aya, para aya qıçası sağalır. Raykomdan gənə şikat eliyillər ki, dana otaran yoxdu. Əsgərlikdən qalan kim var? Deyillər, Aşıx Qəhrəman. Kolxoz sədri, kənd soveti idarəyə yığılır, iki dənə instruxtor gəler. Buyruxçunu göndərellər, tapşırellar ki, get Aşıx Qəhrəmanın yanına. Olmaya bilmiyə gülərsən. Sifətinnən zəhər tökülsün, denən Aşıx Qəhrəman, rayonnan instuxtor gəlif, səni kənd sovetinə çağırellar. Qağam deyir, nə qədər sifətinə baxdım ki, göröm bunun sifətində bir qımışma varmı? Gördüm yox, kişinin sifətinnən zəhər tökülör. Aşıx paltarını geyiner, papağı qoor, xrom çəkmeyi geyiner, tokqoyu vurur, sazı da götürəndə həmən bu gedən kişi deyir:

– Ay Qəhrəman dayı, səni çalıb-oxumağa çağırmellar, səni müharibəyə göndərəjəhlər. Keçən dəfə gedif özünü itə yedirdif

qaçmaxnan döyül. Kalxozun danasını otaran yoxdu. Saldatdara yağ göndərməliyih, ət göndərməliyih, bunu kim otarmalıdı? Yaşına görə hökümət icazə verib qalıbsan, indi başına görə aparellar.

Deyir, keçən dəfə səyf eləmişəm çomax götürmüşəm, aşığın sazı böyründə olmalıdı.

Bu gələndə (İsayofdu, qalxoz sədridi, ispalkomdu) deyir:

– Aşıx Qəhrəman, səni toya çağırmamışıx.

– Bə nəyə çağırmısız?

Deyir:

– Səni dana otarmağa çağırmışıx.

Deyir:

– Bir dəfə göndərdiniz, mən nə hasil elədim orda özümü itə yedirtməkdən başqa. Deyir danışın, cavabınızı mən saznan deyəjəm, – deyəndə hamı İsayovun üzünə baxer ki, nağarax. Deyir, pərdələri aşağı basın (o vaxdı aynalara qara pərdə tutollardı), görək bu kişi nə deyir. Küçəynən gedən arvad xaylaxları eşitməsin, dejəhlər kefə yığılıflar bura. Sazı köynəyinnən çıxardır, başdıyır, nə başdıyır.

Ay yoldaşdar, çovan olmaz aşıxdan
Suvay dana otarmağı çətindi.
Balası yox, qayıda gələr üsdünə
Dolanmışam solu-sağı, çətindi.

İsayof deyir:

– Adə, qarnı deşir qaymax? Suvay danaya gedir, burda südmü var?

Deyir:

– Onu da deyim, nolar.

Sağmal inək gəlif sağına yığılır,
Piton dolor, ağ əllərnən sağılır.
Bir qismət alınca qaçer dağılır,
Yeyəmmirəm o qaymağı, çətindi.

İsayofa deyillər, bu kəntçi adamdı, danaları var. Deyir, çox yaxşı, ildə bir dənə dana deftora verəjəhsən. Deyir, onu da deyim:

Deftora yazıllar nə vaxt itəndə,
Seçəmmerəm bir yad mala qatanda,

Uzun qiyamətdi böləx tutanda,
"Oxa" deyif qaytarmağı çətindi.

İsayof deyir ki, böləh nədi. Başa salellar ki, göyöyün var, mala iynəsini sancanda quyruğunu tağalaxlıyıf qaçer.

Gejələr soyux olor, günüzlər şaxta.
Dedim baxmadılar hakqa, nahakqa.
Bəxtim yatıf, heç eyləmer taraxka,
Bu qulluğun dolanmağı çətindi.

Deyəndə a Hamza kişi, bə bu dərdini saa danışmıyıfmı? Deyir, qoy onu da saznan deyim.

Əmirovun itdəri sədd açıf faraş,
Gördüyünü buraxmer, eyliyir taraş.
Qəhrəmannan öjdü Boğarnan Qaraş,
Əllərinnən qutarmağı çətindi.

Deyir, gördüm İsayev bir kağız yazdı, verdi qalxoz sədrinə. Qalxoz sədri oxudu, qol çəkif verdi kənd sovetinə. Çağırdılar bunu gətirəni, dedilər, bu kişiyi nətər gətirifsən elə də apar. Öyə gedənətən bu kağızı gösdərmə, öyə çatanda kağızı gösdər ki, səni azad elədilər. Bir də sənnən şikat gəlsə ki, o kişi qapıda-bajada boşdu, pramoy səni Tunduraya basajaxlar. Bunnan da bu kişini azad eliyillər.

## 178. AŞIQ QƏHRƏMAN

Aşıq Qəhrəman çox savatdı aşıx oluf. Ona deyiflər, a Qəhrəman baba, neçə nağıl bilersən? Biri deyif, mən otuz nağıl bilerəm, o biri deyif mən qırx nağıl bilerəm. Qəhrəman kişi deyif:

– A bala, mən saymamışam, amma hardan sual versələr, ordan cavab verərəm.

Ermənistanda Tabakstroy deyilən yerdə bizim camaat işdiyirdi. Orda bir nəfər oğlanı aparıllar prakraturaya. Prakror buna sual verir. Deyir:

– Sənnən üşcə dənə şey isdijəm, onnan sora buraxajam səni, çıx var get. Deyir, mən atamın qızıyam, atam mənim oğlumdur. Bir də ki, babam mənnən alma isdiyir, heyva isdiyir, nar isdiyir,

yox yerdən var isdiyir. Bir də ki, canavarın qarnı qoy tutsun bir qoyun, iki qoyun, amma bir sürünü batırer. Get buları aş gətiginən, səni buraxajam, çıx get.

Düşdüm, deyir, diyarbadiyar, kəndbəkənd. Tovuz rayonunu ələk-fələk elədim, aşıx qalmadı, heş kim buna yaxın durmadı, açammadı. Bir gün, deyir, malı aparırdım (Qəhrəman kişi də yuxarı kənddə olurdu), gördüm gəler.

– A Qəhrəman baba, belə bir azara keşmişəm, bunu aça bilərsənmi?

Gülür. Deyir:

– Ə, burda açmalı nə iş var ki?

Bunu açer. Mən atamın qızıyam, atam mənim oğlumdu. Dəməli, hər tarixin özünün kanustutsiyası oluf da. Vaxt var imiş patcah əmr verir ki, kim günahkar iş gördü qırx gün sal dama. Dözər, burax getsin, dözməz, qoy ölsün. Amma bu şərtə ki, bir damcı su da mümkün döyül ona verilsin.

Bir qızın da atasını patcah tutub salır ora. İndiki görüş kimi onda da türmədə olannara görüş var imiş dana. Qız uşaxlı olor. Atasınnan görüşməyə icazə alır. Atasınnan görüşəndə döşünü verir. İki gündən bir, üç günnən bir görüş adı ilə gedir atasını əmizdirir. Bu midvalnan dədəsi salamat qaler, çıxer. Onçan deyir ki, mən atamın qızıyam, atam mənim oğlumdu. Döşünnən süd verib axı.

Babam mənnən alma isdiyir, heyva isdiyir, nar isdiyir, yox yerdən var isdiyir. Bu saatın özündə də elə gəlin var uşağı olmur dana. Ya gəlinnəndi, ya oğlannadı. Qız demək isdiyir ki, qayınatam mənnən uşaq tələb eliyir, amma düşünmür ki, oğlu xarabdı. Ona görə deyir, babam mənnən alma isdiyir, heyva isdiyir, yəni uşaq isdiyir. Sənin oğlunda nə var ki məndə də uşaq olsun.

Rəvayətə görə, birinci Musa peyğəmbər gedifdi qoyuna. Okqədər qoyunun dalınnan gəzer ki, dizdəri tutulor. Görör, qalxıb gedə bilmer. Qoyun da deyir, dədən də ölsün, anan da ölsün, mənim dalımnan gəl, mən gederəm. Musa peyğəmbər də deyir:

– Ey Allahtaala, bunun bəlasını ver.

Allahtaala canavarı yaradır. Musa peyğəmbər görür, canavar təmiz sürüyü batırdı. Deyir ki, ey Allahtaala, bunun da bəlasını

verginən. Allahtaala iti yaradır. İti yaradan kimi it canavarı sürüdən qovub çıxardır. İndi canavarın ağzında Allahın hökmü ilə tam yoxdu. Bunu yeyir, elə bilir o birindədi tam. O birini yeyir, elə bilir o birindədi tam. Bu şikildə bütün sürüyü batırer. Qəhrəman kişi bunu açer, oğlana verir.

## 179. AŞIQ NƏCƏFİN ÖLÜMÜ

Türkiyədən qaçıf gəlmiş Siriqov addı erməni oluf. Yüz atdıynan gəlif Səməd ağaya deyif ki, bizə kömək eliyin, yaza çıxax. Səməd ağa hər evə bir atı, bir adamı tapşır ki, bunları saxlıyın. Atam deyir, onda mənim on səkgiz yaşım vardı. Qoşun gəlib belə keçəndə dedilər, bu Siriqovun qoşunudu, yüz atdı. Hər öyə saldatın birini verer.

Qaçax Məşədi İsa yatır. Ayılanda, bərk oyanıf çığırır. Arvadı Məşədi Səhnə deyir, ay İsa, niyə belə çığırdın? Deyir, Səməd ağa bizim öyümüzü yıxdı. Dedi, niyə? Dedi, tüşmanın atın Göycənin arpasınnan, qoormasınnan, pilinc-ployunnan saxlıyax, yaza çıxardax, yazda Andranikin qoşunu getsin Azərbaycanı qırsın?

Atı gejeynən minir, geder Səməd ağanı çağırır eşiyə. Səməd ağa deyir, ayə noluf? Deyir, ayə, sənin ağlın yoxdu, bə bizə noolmuşdu? Sən tüşmanı saxlıjaxsan yeməynən, qoormuynan, yazda Andronikin qoşunu Azərbaycanı qırajax.

– Bə nağayrax?

Deyir:

– Hər küşdə öz öyündəkini məhv eləməlidi.

Elə də eliyillər. Siriqov da Səməd ağanın öyünə qonaxdı, atı da, özü də.

Nəcəf gəlif qalağın içini oyub orda gizdənir, tüfəngin lüləsi eşikdə. Orda oluf Aşığ Əsəd, Aşıx Məhəmməd. Əsədin ikinci arvadı atamın doğmaja əmisi qızıdı. Onun səvəvinə kənd qızıl pul yığır Əsədi gəmiynən Göyçədən Ağbulağa keçirir. Aşığ Əsədin qardaşı vardı Məhəmməd, ermənilər onu döyməhdən uşaxlıxdan da kəsildi. Məhəmməd də qaçıb dənizə girir, Göyçə dənizinə. Soyux vurmaxdan bax belə olur.

Gejə Siriqov eşiyə çıxır. Səməd ağa deyir, nə tez ayıldın, ay Siriqov? Nəhəng adam oluf, yanında iki at apararmış, hərəsini bir saat minərmiş. Deyir, niyə belə iş elədin Səməd ağa? Deyir, neylədik? Dedi, niyə qoşunu qırdınız?

– Ə, qoşun nədi, qırmax nədi?

Deyir:

– Hancarı, mən beyjə vəəğəmdə gördüm.

Dedi:

– Nöördün?

Dedi, gördüm qoşunumnan minmişəm paraxoda. Paraxod dənizin ortasında məhv oldu, bir taxta palanın üstündə mən qaldım. Ayə, elə şey olmaz! – deyəndə, Nəcəfin gülləsi açılır, Siriqov yıxılır. Nəcəf yeddi güllə atıf. Hər dəfə güllə açılanda Siriqov yıxılıf, qalxanda bir adamı vurur. Atam danışırdı ki, Siriqovun başını kəsiblər, iyirmi dörd girvənkə gəlib başı. Onun bajısı deyir:

– Pütün Göycə camahatını qırasınız gözümüzün qavağında, qanına qəltan eliyəsiniz, mənim ürəyim soyumaz. Necə Siriqovu ermənilər istiyir, elə də Nəcəfi Azərbaycan istiyir. Bir mənim qardaşıma tay Nəcəfdi. Nəcəf ölməlidi, özü də mənim əlimnən.

Daşnaklar Nəcəfi tutuflar, qırx gün türmədə saxleflar. Qırx gün aj oxuduflar ki, görək səsi kəsilirmi? Qızılvəhdə qaynar sımavarı şalnan dalına bağlıyıflar, aparıflar suyu qurumuş bir quyunun üstə. Siriqovun bajısı onu qıyma-qıyma doğruyuf. Quyunun üstünə gedəndə Nəcəf deyif, sizin də Allahınız var, mənim də. Sizin kilsəniz var, bizim də meçidimiz var. Sizi də, məni də Allah bir qətrədən yaradıf. Məni bilirəm öldürəjəhsiniz, bir sözü mənim millətimə yetir. Deyir, de! Orda bir şeir deyir:

Gedən, getmə, gəlim mən də yetirim,
Siz gedirsiz Kəlbalaya ərzim var.
Çox sitəm olufdu mən binəvaya,
Adı bəlli mürtəcama ərzim var.

Ceyran oluf bir gəzmədim çölləri,
Ördəy oluf yayxanmadım gölləri.
Fərat kənarında tüşən qolları,
Adı bəlli mürtəcama ərzim var.

Nəcəf deyər, bu sözdəri hədəfdən,
Mən doymadım gərdəy bağı sədəfdən.
İstirəm gedəm qalam Nəcəfdə,
Qolu kəsih Ələmdara ərzim var.

Onnan sora, o quyunun üstə qaynar sımavarı dalına bağleflar. Nəcəf orda bir narə çəkib, atdı gedənnərin atı üstəkini götürüv qaçıf ki, dünya dağıldı. Atam deyir, Nəcəf uzun adamıydı. Sarıyanız, göy alagözdü, kürəyi enni. Belə adamıydı deer.

## 180. QAZ ƏHVALATI

Xəyalan qayıdax altmış dördüncü ilə. Məşədilər kəndində Aşıx Əsədulla addı bir kişi varıdı. Müharibə iştirakçısı idi, gözünün biri koruydu. O da vaxtilə Azaflı Mikayılın şagirdi oluf. Altmış dördüncü ildə Azaflı Mikayıl Bakıda məhbus idi. Onda Əsədulla kənddə idi, mən də hələ aşıxlıx eləmirdim. Əsədulla aşıxlıx eliyirdi. Touzda bajanağı Dələh Qaçay varıydı. Əsli Sabirabaddan idi, amma gəlif Touzda yaşıyırmış. Olduğu kimi danışıram ha. Günnərin bir günu Əsədullanın bajanağı Hajıkəndə bir dostuna qonax gedir. Bu dostunun evində yaxşı yeyir-içir, yeriniz məlum, axşam yatır. Savah qalxanda Dələh Qaçay ev yiyəsinnən soruşur ki, bu yorğan-döşəyi, balıncı nədən düzəldirsiniz? Elə gözəl, rahat yatmışam ki. Nolajax, quzunun kababı, Xannarın kanyakı, Hajıkəndin də təmiz havası, öy yiyəsinin də təmiz yorğan-döşəyi qırım[79] yununnan, balıncı da qaz tükünnən. Belə şəraitdə yatır savax saat on birəcən. Ev yiyəsinin oğlu deyir:

– Qaçay, qalxsana, saat on birə işdiyir.

Qalxır, deyir:

– Yerim elə rahat idi, beyjə heç bu üzümdən o üzümə çöyrülməmişəm. Nejə yıxılmışam helə də ayılmışam. Bular nədəndi?

Deyir:

– Nə var, o yundu, balınc da qaz tükünnəndi.

Bu yeyir-içir, avtobusa minir, gəlir. Touza çatan kimi deyir:

– Arvad.

Deyir:

---

[79]Qırım – uzun irtməkli, yumuşaq yunlu ağ qoyun, qoç

– Ha.

Deyir:

– Qardaşdığımın evində belə bir yorğan-döşək, belə bir balış görmüşəm, elə gözəl adama yuxu gətirir ki. Onnan sən də düzəltsən.

Deyir ki, əşi, pulunu ver, gedim bazardan alım də.

– Nə alajaxsan?

Deyir:

– Gedəh görəh qaz tükü varmı?

Gəlir, qaz tükün tapbıllar, qaz alıllar. Deyillər, aparax qapıya bağlıyax, baxax, saxlıyax. İldə iki-üş dəfə yolajeyih, balış düzəldəjeyih. Gətirillər, belə də eliyillər. Qazdar bu dəni yeyir, dimdiyini su qabına döyür çığrışır, kənd yerinnən gəlmiş heyvan. Qonşular deyir:

– Sən Allah, hərəmiz sana bir balınc alax verəh, bunu bu həyətdən aralı elə. Qıyhaqıy bizi gejə sabahatan qoymur yatmağa.

Arvadına deyir:

– Arvad, nağayrax?

Deyir:

– A kişi, gələn bazar qaytarax satax, tapax tükünü alax.

Belə, deyir, evdən çıxır, bazara iş yerinə gəlir. Aşıx Əsədullanan qavaxlaşır. Salamməlöyküm, əlöykətsalam. Əsədulla soruşur ki, a bajanağ, niyə qanın qaradı? Deyəndə deyir kin, bir-iki qaz almışdım tükünnən balış düzəldəh, indi də qonşular narazılığ eliyir. Bilmirəm nağayrım. Yaman xoşuma əlif, istiyirdim balış düzəldəh, qaytarıf satmağ istiyirih. Deyəndə Əsədulla gülür, zarafatyana bunun çiyninə əlinnən vurur, deyir:

– Ayə, bədbaxtoğlu, mən də deyirəm görəm nədi? Bizim yerimiz kənd yeridi, yanımızdan da su axır yaxşı, örüşümüz də çoxdu. Üstü sarımsaxlı, yanı araxlı bir xəngəl qonaxlığı verərsən, mən apararam, baldızın orda saxlıyar. Havaxt lazım oldu tükün də ətirər, özün də.

Razılaşıllar, belə də eliyillər. Bu söhbət olur altmış dördüncü ilin yayında. Payıza dönür, sentyabr, oktyabr ayında qazın tühlənən vaxtıdı, toyun da sezonudu. O vaxdı aşıqlar Qaraçöpə toya edəndə bir həftəyə, on günə gedirdilər. Əsədulla varır buruya toya

edir. Onatan qapıdan bu qazdar itir. Əsədullah gələndə arvad deyir ki, a kişi, biyavır oldux, qazdar itifdi.

– Aaz, nə danışırsan?

Deyir:

– Vallah.

– Aaz, itif cəhənnəmə itsin.

Bu fikirrəşir ki, mən nağayrım? Gedif deyəjəm ki, a Qaçay, qazdar itif qapıdan. Deyəjəh ki, niyə özünün toğlun, qoyunun itmədi, mənim iki amanat qazım itdi sənin qapınnan. Gedif orqana, milisyəyə deyəjəm, mana güləjəhlər ki, devlətin mağazinini yaranı tapbırıx, duruf qaz aparanımı gəzəh sana. İrədd ol burdan eşiyə. Bə mən nağayrım? Yaxşısı budu sənətkaram, sənətkarrıx yoluynan bunu axtarım, tapım. Savah bazara aşıxların yanına çıxanda hamısını çağırır. Aşıx, balabançı, şair, simtərpədən – kim var bu məsələyi danışır ki, mənim qapımnan bax bu Dəlləh Qaçayın qazdarı itifdi, mən nağayrım? Ya Qaçaya deyin ki, o qazdan keşsin, ya da sizə tafşırıram qardaş, başaran mənim qazımı axtarsın. Bir əz gülüşüllər, hərə bir yana edir.

Aşıx Əsədulla üş-dörd gün onnan sora bizim kəndə sünnət toyuna gəlir. Burda çaldılar, oxudular, məclis yaxşı keşdi. Yeriniz məlum, həmişə siz də aşıx məclisində olasınız. Sünnət toyu idi, məclis savaha qalır ki, savah kirvələr gələjəh, aşıxlar gənə oxuyajax. Burda məslahat elədilər ki, aşıxlar getsin İdrisgildə yatsınnar. Mən hələ aşıxlıx eləmirəm, amma şeiriyyətim var. Gəldilər, bax burda axşam söhbət elədih. Azaflının mana göndərdiyi məktuflardan çıxartdıx oxudux. Bulardan soruşdum ki, Qovluyarlı İrəsul var. Deyillər, onun yaxşı şeirləri var. Varsa, onnan birin-ikisin desəniz. Atalar deyif ki, həmişə tamarzıdan al, yeyənə ver. Mən özüm şair olsam da, şeirə bərk həvəskaram. Dedi, hə, İrəsul yaxşı yazandı. Civinnən bir vərəqə çıxartdı, dedi:

– Bax, İrəsul bu şeiri mana yazıf.

Görək indi nə yazır.

Axtardığ hər yanı şair Bimarnan[80],
Gəzdik sənin itən qazını, qardaş.

[80] Bimar İsgəndər

Aldıx sorağını böyüh hünərnən,
Aydın eliyim gözünü, qardaş.

İtiyin tapılar, umudunu üzmə,
Uzaxda satılıf, kəndi çox gəzmə.
Bir adamdan başqa heş kəsə yozma,
İncitmə özgüyü, özünü, qardaş.

Çox gəzdi Tahirnən, Əhməd dayı da,
İtmədi Səlimin haqqı-sayı da.
..............................................[81]
Tafdıx çəhliminin izini, qardaş.

İrəsul deyər itən qaz olsun təki,
Zəhrimara dönsün oğrunun zilləti.
Mən nəzmə çəhdim bu həqiqəti,
Sən də zilə qaldır, çal, oxu, qardaş.

İrəsul kağızı buna verif, bu da cibinə qoyuf. Təsadüfən bizə əlləndə aşdı oxudu. Mən dedim ki, ayə, bu nədi? İndi də aşıxlar qaz gəzdirillər? – deyəndə güldü, dedi:

– Elə bilirsən sən yaddan çıxıfsan? Nə qayırırsan qayır, sənin də şeirin olajax. Mən şairlər arasında bölgü aparmışam. Touzun altı Kürə dəyənətən Şair Həsənnən Fətəlinindi. Touzun üstü Öysüzlü Abbasəli müəllimindi. Quşçu dərəsi Şair Səlimindi. Qoylar Molla Əhmədnən Rəsulundu, Alakollu, Xınna dərəsin də sənə tapşırıram, – deyəndə dedim:

– Mənim sahəm yaman böyük oldu. Olar məni bu söödadan kənar eliyəsən?

Dedi:

– Yox, elə şey yoxdu. Əyər qaza söz yazmasan, savah Touz bazarına çıxıf pütün aşıxları yığıf deyəjəm ki, Alakollu İdrisin beyjə küllüyatın yoxlamışam, bu sənətdə onun qandığı şey yoxdu. Hər kəntdə bunu deyəjəm.

Mən də buna baş üstəsi dedim. Yatdıx, səhərlər hamının üzünə xeyirrihnən açılsın. Hər kəs getdi.

[81] Şeirin bu sətri söyləyicinin yadından çıxıb.

Aradan beş-on gün keçifdi, rayona gedirəm. Heş nə də yazmamışam. Alakolun ayağında aftobusa mindim, Qovluyarda aftobusa bir neçə adam mindi, o cümlədən Aşığ Əsədulla da mindi. Salamlaşdıx. Dedi:

– Ə, yazdınmı?

Dedim:

– Yazmışam.

Dedi:

– Mana ver görüm.

Yalannan əlimi cibimə vurdum, dedim:

– Öydə qalıf.

Dedi:

– Əl çəkmərəm sənnən ha, savah heç, bürsüyün sözü yazıb gətirirsən, bazarda səni gözdüyürəm.

Xülasə, ayrıldıx, axşam dəftər-qələmi qabağıma qoydum yazdım, özü də dörd dildə. Apardım verdim. Aşdı, baxdı, dedi:

– Nə çox yazıfsan?

Dedim:

– A qardaş, sən mənə uçaska verdin. Mənim uçaskam çox böyükdü. Ayağı dəmiryolu, başı Saratovka. Uçaskası böyük olanın sözü də çox olar.

Dedi:

– Mən özgə adamın xəttini oxuyammıram, bir bunu oxu, sözdərə bələdləşim, sora mana çətinnik verməsin.

Əsədulla, mən də yazdım,
Bir bala dəstan qazına.
Gözdən uzax, üzdən irax,
Yazıx beyməkan qazına.
Zalım oğlu o bədnazar
Baxıpbış yaman qazına.
Plan töküf, tədbir çəkib
Oğrular pünhan qazına.
O səbəbdən yoxdu əlaj,
Gəlsə də loğman qazına.

Səfər edib bir gün gedib
Çıxdım o Quşqayasına.
Diqqətnən nəzər saldım
Kəndinizin sayasına.
Endim gəldim, bələd oldum
Qonşunuzun hayasına.
Dedilər, haram qarışıb
O qazdarın mayasına.
Nahaq yerə birdən-birə
Qəsd edif duman qazına.

Addamışam Yanıxlıya,
Lap başı cannan gəzirəm.
Xəbər verif dost-aşnıya
Neçə insannan gəzirəm.
Bir tərəfdən qohum-qardaş
Özüm ağamnan gəzirəm.
Eşidib Aşıx Cəbrayıl,
Deyir pünhannan gəzirəm.
And içillər köməh verə
Neçə qız, oğlan qazına.

Əhmədov addı qohumlarım,
Onlar da biznən axtarır.
Köşdərədə doxtor Oruc
Əlində saznan axtarır.
İsaxanlı, Mehralı var,
Şairdi, söznən axtarır.
Qərifliİər çox arifdi,
Çəhlimnən, iznən axtarır.
Arifdən xata toxunmaz,
Dəyməsə nadan qazına.

Atdıbulax, Qızıltorpax,
Ağbaşlardan keçirəm mən.
Dağa-daşa səs salmışam,
Sal daşdardan keçirəm mən.

Aşxanalardan soruşur,
Xeyir işdərdən keçirəm mən.
Səda salıb Ayrım elinə
Çox işdərdən keçirəm mən.
Görən-bilən yoxdu vallah,
Gəlmir güman qazına.

Saratovka, İvanovka,
İşə saldı şirin dili.
Bir-birinnən xəbər aldı.
– Ey, dve qusi ne videli?
Ay Niqalay, işşi saray,
Mojet bıt eta zaputili.
– Net qavarit, ax parazit,
İx uje davno quşili.
İditi k çort dela, sased,
Dəyməz malağan qazına.

Döndüm geri, gəldim bəri,
Neçə kəntdən xavar aldım.
Almalı taladan keçif,
Çanaxçıda qonax qaldım.
Kimi gördüm həşir təfdim,
Hər dərdimi yada saldım.
Ojaxlara daxil düşdüm,
Sidqi-dilnən səjdə qıldım.
Bu niyyətim hasil olsa,
Kəsərdim qurvan qazına.

Çatanda Sarıtalaya,
Söylədim qohum-qardaşa.
Dayılarım nama yazdılar,
Dost-aşnıya bir başa.
Salğadılar[82] Gədəbəyə,
Nərmanda neçə sirdaşa.

[82] Salğamaq –

Eşidif Aşıx Fəzail,
Söylədi Calal yoldaşa.
Keçidkənddən haray yoxdu,
Dəyməz bir insan qazına.

Endim gəldim Çardaxlıya,
Dedim, barli vayax bercan
Söylədim, Aşıx Yerevan da
Gülüf dedi, vayax bercan.
Ye sureş bər kim güdim
İndi çıxax hayax bercan.
El quvadı coğart sani
Helyevadın ayax bercan.
Kirvəcan arxeyin dinə
Dəyməz bir insan qazına[83].

Zaqafqaziyada kimin nəyi itsə İrmaşdıdan, Mülkülüdən, Gürcüstanda da Qaraçöpdən çıxardı. Bu yerrərdən sağ düş, itiyin mənim boynuma.

İrmaşdıdan sağ düşmüşəm,
Axtardım bir şey qalmadı.
Gəncəbasar, Xaçmaz, Qusar,
Samux, Cığatey qalmadı.
Eldara on iki getdi,
Qaraçöpdə öy qalmadı.
Mollalar kitab aradı,
Gəzdi, əlifbey qalmadı.
Şənbə günü tas da qurdu,
Cindar İmran[84]qazına.

Hər yannan əlaj kəsildi,
Getdim çıxdım Gürcüstana.
Tiflisdə bir tanış tapıb,
Yerbəyer söylədim ona.

---

[83] Mənası: Erməni qaz tutmaz, bu yəqin qonum-qonşu işidir.
[84] Cindar İmran Qoylarda cindarlıq eləyirdi.

Gülüf dedi, mudi, mudi,
Qaçor çemit çuli muvidana
Quşi dizivu bazarşi
Urvu serti tumana.
Zalım oğlu ucuz verif,
Dəyərmiş doxsan qazına[85].

Çox sağ ol, mənim qardaşım,
Mənim işim bitdi daha.
Tükünnən balış basarsan,
Ətinnən sup, xarço daha.
Dedi, Qaxetiz vinostan
Dığe çamo murça daha
Zəhmət çəkif artıx gəzif,
İdris, tüşmə xarca daha.
Görüm versin pis bərəkət
Qadiri-sübhan qazına.

---

[85] Mənası: Bizim arvad bir tümənə bazardan bir cüt qaz alıb. Belə ucuz olmaqda yəqin sizin qazınız onlarmış.

# VI. ŞEİRLƏR

## 181. AŞIQ VALEH

Valeh Qarabağa gedirdi, gördü bir dəstə karvan gəlir. Baxdı kı, dəvə karvanıdı. Karvanın qabağında gələn dedi ki, a kişi, yoldan çıx. Valeh dedi, niyə? Dedi, sən mundarsan. Sənin əlində şeytan var (sazı deyir). Dedi, siz hardan gəlirsiniz? Dedi, biz həcdən gəlirik. Dedi, sən indi burda gözlə, mən harya gedib gəldiyinizi deyim. Sazı götürüb deyir.

Gördünmü səadəti qeyb elə dövran?
Gözəl məkan, xoş məqamı gördünmü?
Ziyarət etdinmi Necəf-Əşrəfi,
Kərbalayı-müəllanı gördünmü?

Orda gördünüzmü xey, mey, dərgah?
Əhli-beyt təşinə çəkib bir günah.
Qan ağlayıb gəzirdi o gül yanax,
Dolanırdı o meydanı, gördünmü?

Həsən-Hüseyni etdinmi ziyarət?
Olan günahı eylədinmi iltimas?
Yolunda fədayam, ya qolsuz Abbas,
Valeh kimi binəvanı gördünmü?

## 182. "ABBAS VƏ GÜLGƏZ" DASTANINDAN

Qadir Allah budur səndən diləyim,
Bu Pərimin ömrü getsin yüz ilə.
Artsın səxavəti, yüzbəyüz olsun,
Səksən dəvə, nər mayalar düzülə.

Gözəl çəkib yenə qaşa bir qələm,
Ağız tavad, göz mürəkkəb, dil qələm.
Yalan desəm, çək gözümə mil qələm.
Qulun ollam, səni ant verrəm yüz ilə.

Abbas deyər, gün cahanda neçədür?
Neçə yaqut, neçə mərcan, neçə dür?
Sanamadım yarın zülfü neçədür.
Qorxum budur şana dəyər, üzülə.

*Söyləyici bu şeri atasından eşidib. "Abbas və Gülgəz" dastanında söylənən bir şeirdir. Göyçəli Aşıq Alışan atasıgilin kəndində dastanı söyləyəndə ondan örgənif. Atası o qədər zehnli şəxs olub ki. Aşıq Alışandan eşitdiyi Abbasın söhbətini səhər gəlib necə var o şəklildə də danışır.*

## 183. AŞIQ HÜSEYNİN MOLLA ƏHMƏDƏ ŞEİRİ

Manşırlı kəndində bir Kosa Əhməd olor. Kosa Əhməd Manşır Həbib kişinin qardaşı olor. Bu, əyyar adam olor. Aşıx Söyünü heç dinməyə qoymor. Aşıx Söyün sazı əlinə aler, deyir:

Kosa Əhməd, gənə tüşdü əngələ,
Palçığa, torpağa, lilə bükülmüş.
Düz söz çıxmaz heç vaxt onun dilindən,
Fitnəyə, fəsada, filə bükülmüş.

Bir söz deyim düşməginən damaxdan,
Məclis əhli bizə baxer qıraxdan.
Təpinəndə yola çıxer bucaxdan,
Öləndə dişdəri dilə bükülmüş.

Fikir eyləyib çox da getmə dərinə,
Canım qurban mərd igidin sərinə.
Axşamnan girər ha ocax yerinə,
Kömürə, kösöyə külə bükülmüş.

Aşıx Söyün hər elimdən halıdı,
Xudam verib ona, xoş kamallıdı,
Bu uzunqulax yaxşı rəvan malıdı,
Noxtala, palanla, çula bükülmüş.

## 184. MƏN

Haqq verən qismətə qail olmuşam,
Bircə tikə haram yeyəmmərəm mən.
Düzgünlük Quranın bir ayəsidi,
Günah edib düzü əyəmmərəm mən.

Yaxşı iş gözdəmə qəlbi xayınnan,
Geri dönməz ox ki çıxdı yayınnan.
Qarın doyuzduruf yetim payınnan,
Soradan başıma döyəmmərəm mən.

Məmmədqulu[86], vermə ömrünü yelə,
Cəhd elə göz yaşın dönməsin selə.
Kürəyimə oddan vursalar şələ,
Heç kimə şər-böhtan deyəmmərəm mən.

## 185. QALMAZ

Yüz il də olasan bir bağa bağban,
Axır sərəncamda bağ sənə qalmaz.
Nə can qalar cəsədiyin içində
Nə də ki cəsədin sağ sana qalmaz.

Mərd olasan, bu meydanda durasan,
Çox pəhlivanları yola salasan,
Yüz əlli minarə sən qurdurasan
Birciyinnən bir otaq, bax, sana qalmaz.

Səməd deyilənə baxmaz, yeri sən
Dağcan olsan qıl can qalmaz, ərirsən.
Daş altında torpaq üstə çürürsən
Axır sümüklərin sağ sana qalmaz.

---

[86] Aşıq Məmmədqulu. Aşıq Hüseyn Bozalqanlının ustadı olub.

## 186. DÜNYADA

Üstündən el keçmiş dağlar görmüşəm,
Dağılmış, talanmış bağlar görmüşəm.
Mənəm deyənnəri ağlar görmüşəm,
Kimsə ağlar, kimsə gülər dünyada.

Yeddi yerir, səkkiz çəkir, beş mələr,
Mənəm deyənnərin yurdu heş mələr?
Qaynar bulax, axan sular, çeşmələr
Necə olacaxdı sular dünyada?

Səməd ki var bir quruca cəsəddi,
Dünyada hamıya ölüm qismətdi.
Qanlı fələk, bəs bu necə mürvətdi
Cavan oğlannar da ölər dünyada.

## 187. SƏNİ[87]

Ay qabax, gül əndamlı gözəl qız,
Sevmişəm bu gözəl zamanda səni.
Mən ovçuyam, sənsən mənim şikarım
Seryaquf görməsin gümanda səni.

Mələklər yağıdı solnan sağda,
Ayrılıx olmasın sevgili çağda.
Murğuz yaylağında, Laləli dağda
Axtarıf tapmışam dumanda səni.

Vətənim Tavuzdu, elim Hajallı,
Dağlar maralısan ağ üzü xallı.
Qəhrəmanın könlü tapar təsəlli,
O qaymax dodaxdan əməndə səni.

---

[87] Aşıq Qəhrəmanın Murğuzlu yaylağında aşiq olduğu qıza yazdığı şeir.

## 188. OLU

Gözəllər göyçəyi, maral balası,
Gözüm gördü, könlüm sevdi səni, qız.
Canımı alır yanaxların lalası,
Könlüm gözləriyin mehribanı, qız.

Buyur gedək bizə sarı yeriynən,
Sərrafıyam ləl mətəhini səriynən.
Yanağınnan bir cüt busa veriynən,
Sən olasan qardaşıyin canı, qız.

Şeyda bülbül qızıl gülə sarışır,
Qan eylədi müjganların baxışı,
Ağ sinəndə cüt məmələr duruşur
Çox incidir Aşıx Qəhrəmanı, qız.

## 189. GÖRMÜŞƏM

Ay yoldaşlar, gəlin sizə söylüyüm,
Bu gün bir gözəli təzə görmüşəm.
Mərdanə yerişli, qıya baxışlı
Çox qəribə oynar saza görmüşəm.

Dilləri şəkərdi, dodağı püstə,
Dərdini çəkməkdən olmuşam xəstə.
Bir mina gərdənli cavan növrəstə,
Oxşuyurdu quba qaza görmüşəm.

Bəzəkli qıravat, xəlvət otaq,
Hərdən qucaxlaşax, qol-boyun yatax.
Qədir deyə sənnən ixtilat qatax,
Qaymax dodağında məzə görmüşəm.

## 190. YAYLIQ

Anam məni dağa aparmışdı. Məni suya göndərdilər ki, bulaxdan bir vedrə su gətirim. Bulaxdan su gətirəndə, çən-çisəh, du-

man, mən yolu azmışam. Küləh başımnan yalığı götürüf haraya apardı özüm də bilmədim. "Ay haray" saldım, çovannar mana hey verdilər. – "Ayə, mən dumannan yolu tapa bilmirəm". Dedilər, səs eliyirik, səsimizə görə bala-bala gəl, qarşına çıxerıx. Mən gəldim, buların yanında ağladım.

– Niyə ağlırsan, ay bala!

Dedim:

– Yetim qızam, mənim bir yaylığım varıydı, onu da külək başımdan apardı.

Hamısı mana yalvardı, yapışdı, dedilər, sana qəşəh yaylıx alajeyıx, lent alajeyıx, bunnan ötrü niyə ağlersan? Çəmbərəh bazarına edəndə hər şey alajeyıx sana. Nə yaylıx gəldi, nə bant gəldi, heş nə görmədim. Ataların bir sözü var, deyir, yetimə umud verən çox olur, əppəy verən az olur. Öz-özümə tərrəndim, dedim: "Ay duman, ay dağlar, ay çiskin, mana yol ver, aman ver, bir-iki qatar yaylığıma söz deyəjəm". Orda götdüm ki,

Gəzdireydim, yaylıx, səni.
Boynu əyri bənövşəylə,
Dolduroydım, yaylıx, səni.

Haca gedən hacılarnan,
Elçi gələn bacılarnan,
Ağzı polat qaçılarnan,
Doğradaydım, yaylıx, səni.

Sarı suyun sarısınnan,
Duru suyun durusunnan,
Üç gözəlin birisinə,
Yüdürdöydüm, yaylıx, səni.

Qələmkərəm, qəm gəzərəm,
Dərdinə dərman gəzərəm.
Qıraxlarına zər düzərəm,
Yel atmasın, yaylıx, səni.

# VII. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Qaraçıya manatı ver, dağa çıxsın.

2. Tamarzı kimdi? – Gündə yeyən.

3. Biri ağayana oturuf duranda, bəyzadə hərəkət eliyəndə deyirlər: Filankəs elə bil Allahyar bəyin bajısı oğludu.

4. Arvad qohumu dörəvə-dörəvə, kişi qohumu dərəvə-dərəvə. Yəni arvad qohumu dövrəmdə olsun, kişi qohumu aralı olsun.

5. Qulu kişi vardı. O qədər də savadı yoxuydu, sovet sədri işdiyirdi. Dedi, a bala, cavan adamsan, arabir çayxanalara çıx. Çayxanıya çıxanda, çalış ağsakqallarnan otur, dur. Olardan həm yaxşı sözdər eşidəjəhsən, həm də oların əhatəsi genişdi. Başqa yerdə də söhbət eliyəjəhlər ki, ə, kəndimizdə belə bir cavan oğlan var. İmkanın olanda çay pullarını da verginan. Kəndində ayıl, kənarda sayıl.

6. Qəhrəman Mirzəyev Təhsil şöbəsində inspektor işləyirdi. Məktəblərə gəlirdi. Təxminən altmışıncı illərin söhpətini elerəm. Gələndə deyirdi, sən Allah bizim gəldiyimizi, Xoxan gəldiyə saymıyın. Biz də, sizin kimi müəllimih.

7. Cavan bir nəfəri məktəb direktoru qoyullar. Bu, cavan olduğuna görə, tez-tez gəlirdilər, məktəbi yoxluyullar, bunu bir az sıxışdırıllar. Ruhu şad olsun, Həsən müəllim cavan direktora dedi ki, yadında qalsın, xoruza salavay atmazlar, beçiyə salavay atallar. Sən hələ cavansan.

8. Qızsız ata-ana, duzsuz xörək.

9. Burnu əzilmiyənin qulağı eşitməz.
10. Əmiyə qaler, dəmyə qaler.

11. Dönük Qırıxlı, Düz Qırıxlı, Aşağı Ayıplı, Gürzan və ilaxır. Aran tərəfdə olan bu kəndlərdə deyirlərmiş ki, kim uşağını oxutmax istiyirsə, Yekallara bir illiyinə nökər versin. Yəni gedif hansısa məktəbi üç il, beş il oxumaxdansa, bir il Yekallarda olsa, ona kifayətdi. Dünyagörüşü o qədər yaxşı inkişaf eliyəjəh.

12. Koroğlu deyif, iyid pullu da olar, pulsuz da.

13. El köçsə, kalafasından bəllidir.

14. Meşə peyəğəmbər ətəyidir.

15. Meşə qaçağın qalasıdır.

16. Bir məsəl var. Deyir ki, pis qonşu adamı hacatdı eliyər. Yəni, alətdi eliyər.

17. Seyid Əziz öz tükünün üstə dolanan adam oluf.

18. Ad bostan tağıdı, kim istəsə qoya bilər.

19. El birdi, nıx ayrı.

20. Qarnımdan çıxıfdı qada, kimə gedim dada?

21. Güz suyu üz suyu. Payızda torpağa verilən su üzü ağardar.

22. Var əli kərəm əli, yox əli vərəm əli.

23. Dədəm həmişə rusdardan narazı idi. Deyirdim, ay dədə, sən nə üçün rusdardan narazısan? Bəlkə dədeyin qoyununu alıf onuncün narazısan? Deyirdi, yox, ay bala, ona yanmıram. Qoyun qığısıynan dooşan qığısını tanımıyan adamlara aldı dədəmin qoyunu verdi, olar da hamısını qırdı. Bax o hala yanıram.

## VIII. BAYATILAR

1. Başına dönüm, dolan gəl,
Dur vətəni dolan gəl.
Arzuların çin olsun,
Sevincinlə dolan, gəl.

2. Əzizim, dağda nə var?
Qış keşdi, dağda nə var?
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var?

3. Aşıx diyər qar qamışa,
Qar yağıf Qarqamışa.
Yüz il alxış neyləsin,
Bir Allah qarğamışa.

4. Əzizinəm, ulu dağlar,
Çeşməli, sulu dağlar.
İmdadıma çatan yox
Gəl yetiş dada, dağlar.
= A dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Çıxaydım uca zirvənə,
Görəydim yarı, dağlar.

5. Əzizim, satma məni,
Qul deyif, satma məni.
Satsan da, mərdə sat,
Namərdə satma məni.

6. Əzizim, aşdı dağı,
Gün keşdi, aşdı dağı.
Cavanlığım getdi əldən,
Qayıdarmı, aşdı dağı?

7. Əzizim, odu keşdi,
Qaylanın odu keşdi.
Qolun qurusun, oyçu,
Marallar odu, keşdi.

8. Əzizinəm, o kəndə,
Yolum düşdü o kəndə.
Belin qırılsın, a pis kişi,
Pis evladı əkəndə.

9. Asan dağlar,
Qar başını basan dağlar.
Güləndə çətin gülləm,
Ağlıyanda hasan ağlar.

10. Elim arxa dolandı,
İpək çarxa dolandı.
Qərib igid yad eldə,
Qorxa-qorxa dolandı.

11. Eləmi, şam bağlar,
Şam bağçada şam bağlar.
Könlüm elə virandı,
Ayrı gəzsə, şam bağlar.

12. Eləmi, sim bağlar,
Sim bağçada sim bağlar.
Köhnə yaralarım qor eylər,
Təzə yaralarım sim bağlar.
= Əzizim, sim bağlar,
Sim bağçalar, sim bağlar.
Könlüm elə virandı,
Qar gəlsə, sim bağlar.

13. Eləmi, Həsəni,
Hax saxlasın Həsəni
Xəstə könlü nar istər,
A Məhəmməd, mənim də könlüm səni.

14. Göydə ulduz gah gedər,
Gah əyləşər, gah gedər,
Qorxma qürbətdə, oğul,
Üstünüzcə Allah gedər.

15. Eləmi, maral azdı,
Oyçu çoxdu, maral azdı.
Ağlamayın, xumar gözlü balalarım,
Dərdim çoxdu, yaram azdı.

16. Eləmi, dolu gözlər,
Dağların başını dolu gözlər.
Sağ gözüm sizə qurban,
A Məhəmməd, sol gözüm yolu gözlər.

17. Əzizinəm, ay səni
Nazik yuxa yay səni.
Qışda dişin ağrısın,
Dolu döysün yay səni.

18. Əzizim, kəsə mənnən,
Yol gedər Kəsəmənnən.
Ölən Poyludan olsun,
Ağlıyan Kəsəmənnən.

19. Əzizinəm, arabanı,
Ərbab, asta sür arabanı.
Həmişə bədöylər minən canım
İndi minmişəm arabanı.

20. *Sarı Aşığın yanında bir uyarsız adam olor. İçi, qəlbi gözəldi, amma qadın bir az çirkindi. Yol yoldaşıdı, gedellər. Biri qarşıdan gəler. Bu bayatını Sarı aşığa tulluyur.*
Daş daşı,
Alvızdan daş daşı.
Çirkinnən bal yeyincə,
Gözəlnən daş daşı.
*Belə deyəndə Sarı Aşıq ayağını saxlıyır ki, dayan, dayan, cavabı var onun. Deyir ki:*
Gözəl alma,
Baxçada gözəl alma.
Çirkin olsun, əsil olsun,
Bedasıl gözəl alma.

21. Oyun oylar,
Oyçular oyun oylar.
Alvızdan qalxan tərlan
Murğuzda oyun oylar.

22. Qurum saxlar,
Buxarımız qurum saxlar.
Azalıfdı mərd kişilər,
Çoxalıfdı qurumsaxlar.

23. Mərdəkana,
Yolum düşüf Mərdəkana.
Namərdə ölüm olsun,
Halal olsun mərd əkənə.

24. *Rəhmətdik Zəhra arvad ağlıya-ağlıya bu bayatıyı çəkərdi. Deyirdi:*

Sağalmaz,
Döşənifdi sağ almaz.
Yarım bizə gəlməsə,
Yaralarım sağalmaz.

*Deyirdim, a xala, "döşənifdi sağ almaz" nə deməkdi? Deyirdi, yol kəsilifdi. Yarımın ayağımın altına da kilim, gəvə salınıf, amma altına zəhərli almaz qoyuflar. Keşsə zəhərriyif öldürəjək. Deməli, yollar zəhərlidir, bunun yarı gəlsə, öləjək, gəlməsə də, bu ölür.*

25. Dünyadı,
Özü qalan dünyadı.
Dünən verdiklərini
Bu gün alan dünyadı.

26. Əzizinəm, de gəlsin,
Oxu bülbül, yaz gəlsin.
Oxudun məytufumu
Cavabını, qolun qurusun,
yaz, gəlsin.

27. Əzizinəm, çimən yerdə,
Ördəklə qaz çimən yerdə.
O yara köynək oloydum
O yar soyunuf çimən yerdə.

28. Gülə nəm,
Şehdən düşdü gülə nəm.
Quran gətir and içim,
Təkcə sənnən gülənəm.

29. Arxa var,
Belin götür arxa var.
Qəm çəkmə, dəli könül,
= Dərd çəkmə, qəmli könül,
Əli kimi arxa var.

30. Əzizinəm, ağla qandı,
Gözlərin ağlağandı.
Gedəh dərd bilən yanına,
Görəh kim ağlağandı.

31. Mən aşığ, qocalmışam,
Gədihlərdə bac almışam.
Gözdüyün, mən də gəlim,
Görürsünüz qocalmışam.

32. Əzizinəm, gözüm qaldı,
Qocalıxda gözüm qaldı.
Gözə qadağa yoxdu,
Gözdərim gözəllərdə qaldı.

33. Əziziyəm, nə gəli,
İyidin min əngəli.
Düşsəm dara, harayıma
Düldülü minən gəli.

34. Əzizinəm, gündə gələr,
Həftədə yox, gündə gələr.
Mənə canı yanan olsa,
Məni anar, gündə gələr.

35. Əzizinəm, dağım var,
Aranım var, dağım var.
Loğman gəlsə, əlac etməz,
Bu sinəmdə dağım var.

36. Əzizinəm, dadıma gəl,
Ünümə gəl, dadıma gəl.
Əgər düşsəm mən dara,
Ya Əli, dadıma gəl.

37. Əzizinəm, binə gəlləm,
Yaylağa binə gəlləm.
Gedif görsəm Qarabağı,
Dinə, imana gəlləm.

38. Əzizinəm, dərdə kərəm,
Dərmənsiz dərd əkərəm.
Qoşaram qəm kotanı,
Özüm üçün dərd əkərəm.

39. Əzizinəm, binələdi,
El köşdü, binələdi.
Dəərmənə gedən gəlmədi,
Bu dərd məndə binələdi.

40. Əziziyəm, Əli dedim,
Dara düşdüm, Əli dedim.
Qılanda süp namazı,
Ya Məhəmməd, Əli dedim.

41. Mən aşığam, bəndəyəm,
Yaradıfsan, bəndəyəm.
Günahım çox, suvabım yox,
Yanında sərvəndəyəm.

42. Əzizinəm, ağlar gedər,
Çaylar kimi çağlar gedər.
Bu dünya bir pəncərədi,
Hər gələn ağlar gedər.

43. Əzizinəm, harayıma gəl,
Hayıma, harayıma gəl.
Şəmşir baba, mən dağdayam,
Əldə qılış harayıma gəl.

44. Əzizinəm, Qarabağlar,
Baba yurdum qara bağlar.
Oğlu itgin düşən ana,
Başına qara bağlar.

45. Əzizinəm, elim vardı,
Vətənim, elim vardı.
Qaldı düşmən əlində,
Göyçə kimi elim vardı.

46. Əzizinəm, daldalandı,
Gün getdi, daldalandı.
Kül o mərdin başına,
Namərdə daldalandı.

47. Əzizinəm, köçüm var,
Səfərim var, köçüm var.
Yarananlar bir gün köçür,
Mənim də bir gün köçüm var.

48. Əzizinəm, dəyə-dəyə,
Qurulufdu dəyə-dəyə.
Qapına dərmənə gəldim,
Daşdara dəyə-dəyə.

49. Əzizinəm, bala dərdi,
Ananın bala dərdi.
Ana cavan ölər, gedər,
Varsa bala dərdi.

50. Tüfəng oluf atana,
Güllə oluf batana.
Əsgərə gedən oğlum
Nə vaxt gələr vatana?

51. Ağaj başında qora,
Nə düşdüm birdən tora.
Səni tora salanı,
İmansız getsin gora.

52. Çay daşı, çaylax daşı,
Çayda vurallar quşu.
Getmişdim iməjliyə,
Verdilər looca çaşı.

53. Talada sazım qaldı,
Üstə qotazım qaldı.
Talıya gedən qızın
Dalınca gözüm qaldı.

54. Damburum taxta, taxta
Yüdüm sərdim otaxda.
Ağlamaxdan nə çıxar,
Allah vermiyən baxta.

55. Dambur çalan beş barmax
Beşi də, qızıl qarmax.
Hər iyidin həddi döyül,
Dosduğu başa vurmax.

56. Şofir mindi maşına,
Sürdü dağın başına.
Oğlannar əsgər gedif,
Kül qızdarın başına.

57. Gəlinə bax, gəlinə,
Gəlin baxer əlinə.
Gəlinin incə beli,
Düşər oğlan əlinə.

58. Ay qız, bizə gəlsənə,
Alma verim, yesənə.
Atan, anan dalaşsa,
İynəm itif desənə.

59. Ay qız, adın var sənin,
Alma dadın var sənin.
Çaya töküf işməyə,
Limon dadın var sənin.

60. Mən aşıq, natarazı,
Hər şeyin natarazı.
Kişinin öyünü yıxar,
Arvadın natarazı.

61. Əzizim, arsız dağlar,
Bağçasız, barsız dağlar.
Enliykən ensiz olan,
Varliykən varsız dağlar.

62. Şanə tirə dəydi, gəl,
Güllər boynun əydi, gəl.
Sənsiz ömür sarayım,
Qəm libasın geydi, gəl.

63. Əzizim, ellər məni,
Qınayır ellər məni.
Eşqinnən sərgərdanam,
Yordu bu yollar məni.

64. Əzizim, inci mənəm,
Dürr mənəm, inci mənəm.
Cannan can diləsən də,
Verərəm, incimənəm.

65. Əzizim, yalan dünya,
Qəm dünya, nalan dünya.
Sərvətinnən oldumu,
Kiməsə qalan, dünya?

66. Dağların başına bax,
Divinin daşına bax.
Anadan olanda ahu-zarrı oldum,
Fələyin işinə bax.

67. Günəş vurdu, xal-xal oldu,
Dağlar qarınnan ayrıldı.
Dünyədə mənəm deyən cannar,
Gözəl yarınnan ayrıldı.

68. A bu dərə, uzun dərə,
Getdiycən uzun dərə.
Xoş o kəsin halına,
Saldığı bağdan üzüm dərə.

69. Dağların başı qardı,
Divi anbar-anbardı.
Əzəli şirin dünyanın,
Axırı zəhirmardı.
= Dağlar başı qardı,
Divi barhambardı.
Əvvəli şirin dünyanın
Axırı zəhirmardı.

70. Qarabağın meşəsi,
Elə gözəldi bənövşəsi.
Qardaş deyən bajının,
= Oğul deyən ananın,
Ağlamaxdı peşəsi.

71. Deyir, eləmi bənd oloydum,
Atına kəmənd oloydum.
Qanınız o çöllərə dağılanda,
Ay qardaş, ay bajı,
Yanızda mən də oloydum.

72. Eləmi, gejədən gedər,
Karvanım gejədən gedər.
Gejələr uzun, yuxum yox,
Zəhləm bu gejədən gedər.

73. Şəccarə çəkər,
Xalların şəccarə çəkər,
Mən çəkəni fil çəhməz,
Çəksə də şəccarə çəkər.

74. Əzizinəm, kimi gözdər,
Tar çalar, simi gözdər.
Qaşın kimi qaş olmaz,
Bəs gözdərin kimi gözdər?

75. Bu gecə uymamışam,
Yerə baş qoymamışam.
Sən mənnən doyufsansa,
Mən sənnən doymamışam.

76. Boz at minsəm, boz olar,
Yorğa minsəm, söz olar.
Çox bizə gəlif-getmə,
Aralıxda söz olar.

77. Su səni, su da səni,
Saxlasın xuda səni.
Bir öpüf, beş qucaydım,
Şirin yuxuda səni.

78. Şirəgin şirin narı,
Xəlvət göröydüm yarı.
Dineydim, dindireydim,
Tököydüm ahu-zarı.

79. O qüzoylar,
O günöylar, o qüzoylar,

Dost dostnan görüşəndə,
Bayramın o gün eylər.

80. Eləmi, yatan qarı,
Axşamnan yatan qarı.
Ərini tez qocaldar,
Axşamnan yatan qarı.

81. *Gəncədən anrı Zazalı kəndi var. Bir dəfə Mikayıl Azaflıynan Zazalı kəndinə toya getmişih. Məclis gözəl keşdi, şən keşdi. Bir ağsakqal kişi durdu ku, ay Azaflı. Dedi: – "Bəli". Dedi: – "Siz, burdan xeyir aparersiniz, məclisimiz də gözəl keşdi. Allah canınızı sağ eləsin, əmbə bu Zazalı haqda heş nə demədin axı, sən", – deyəndə, Mikayıl Azaflı dedi:*
*– Ay qağa, deməmişəm deyərəm də.*
*Başdadı sazını çaldı və bayatı üstə oxudu:*
Bu Zazalı,
O Gəncə, bu Zazalı,
Neynəyirsən bir ah çəkəm,
Dağlardan buz azalı.

82. *Böyük məclisdi, iki həmsöhbət, işarədən bir-birini başa tüşən, biri məclisin əyağında əyləşif, biri başında. Əyağ tərəfdə əyləşən birdən başdadı hündürdən qəhqəhə çəhdi güldü. Güləndə başda oturan ona fikir verirdi. Dedi:*
Gül üşüdü,
Şeh düşdü, gül üşüdü,
Ə, güldün ağlım apardın,
O gülüş, nə gülüşüdü?
*– Deyəndə, həmin adam qayıder buna cavaf verer ki:*
Gül məkanda,
Gül əkdim gül məkanda.
Əyə, düşməni gördüm güldüm,
Mən handa, gülmək handa.

83. Qan durunca,
Qan axar, qan durunca,
Qananı candan eliyər,
Qanmazı qandıranca.

84. Ağlağandı,
Qaraxaç ağlağandı,
Gedəh dərt bilən yanına,
Görək kim ağlağandı.

85. *Göyçənin Zod kəndində bir qadın vardı. Dedi, a Çodaroğlu, bir bayatı var, ölüb gedəjəm, yadında saxla. Dedim, ay nənə, nədi? Dedi:*
Eləmi, şad arası,
Xəlbirin şadarası[88].
Gəlinnən qaynananın
Heç olmaz şad arası.

---
[88] Şadara – iri deşikli süzgəc

86. Dəryadakı balıxdı,
Balıx döylü, Xalıxdı.
Yar dediyin əvvəlkidi,
Sonrakı yamalıxdı.

87. Əlini ver əlimə,
Çıxax dağın belinə.
Əhdi-peyman özümü
Atım dağın dibinə.

88. *Nəsib Sultan 1835-ci ildə sürgün olunub. Sürgündən bura məktub yazıb ki:*
Ala çək,
Doldur qəlyan, ala, çək.
Orda bəy olan canım,
Canın çıxsın, ala çək.

89. Mən aşığam, ay qardaş,
Kipriyinin uju yaş qardaş.
Ölsə bajılar ölsün,
Deməsin heç vay qardaş.

90. O tayda sarı taya,
Kölgəsi bəri taya.
Ürəyim səni istiyir,
Atdan gəl bəri taya[89].

91. Mən öldüm ağlamaxdan,
Yaylığa gül bağlamaxdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaxdan.

92. Göynən gedən quşa bax,
Qanadı gümüşə bax.
Ellərimə yaz gəlsə,
Mana gələn qışa bax.

93. Dəryadan gəmi gəldi,
Gəmidən hamı gəldi.
Ağla, gözlərim, ağla
Ağlamağın dəmi gəldi.

94. Axan sular axmasın,
Quş qənədini çaxmasın.
Gedin deyin balalarıma,
Mən öldüm daha yola baxmasın.

95. Qalalar, ha qalalar,
Qalalara yol salalar.
Laçın verməz balasın,
Bəlkə zora salıb alarlar.

96. Bülbüləm, dağ gəzerəm,
Bağda gül gəzerəm.
Əlli yerdə yaram var,
Elə bilersiz sağ gəzerəm.

97. Eləmi, ana yeri.
Dur sallam yana yeri,
Yüz min aləm yığılsa,
Verməz ana yeri.

98. Baxça könlüm, var könlüm,
Heyva könlüm, nar könlüm.
Gülməyə yoxdu üzüm,
Ağlamağa var könlüm.

[89] *Söyləyicinin dediyinə görə, ağlayanda ona təb gəlir, üz-üzə oturub deyəndə yada düşmür.*

# IX. TAPMACALAR, BAĞLAMALAR

1. Zər zərə yapışdı,
Zər duhara yapışdı.
Zərgər oğlan getdi,
Zər duhardan ənmədi.

***(Qıfil və açar. Zərgər oğlan qapını qıfilladı, açarı da qapının üstündə qoyub getdi).***

2. Əzizinəm, qaz mələr,
Ördəy mələr, qaz mələr.
Qurşaxdan aşağı qandalaxda,
Çual qulpu qazmələr.

***(Toyuq və cücələr. Toyuğu çuvalın dibində kürt basdırıblar. Cücələr yumurtadan başını çıxardıb çuvalın dibini dimdikləyirlər.)***

3. Ağ atım, Abbas atım,
Qayaları çapbaz atım.
Yük yüklərəm, yük götürməz,
Sataram, baha gətirər.

***(Dəyirman)***

4. Meşədə, ha meşədə,
Gəl meşəgülü meşədə.
Nə oğlu var, nə qızı,
Hamısı da bir peşədə.

***(Darı)***

5. O tayda bir ağaş
Yıxılıfdı pulsuz, putaxsız.
Onu bir quş yeyir
Dilsiz-damaxsız.

***(Yıxılan ağac qardı, onu da əridən gündü).***

6. O toyda bir quş durur,
Boynunu burmuş durur.
Sarı sandığ içində
Saman addı quş durur.

***(Sənək, su)***

7. Bulut bulud içində,
Ay da bulud içində.
Göydən yerə nur yağdı,
Biz də yandığ içində.

***(Günəş)***

8. Yer üzünün qarası, ağacların anası.

***(Torpaq)***

9. Zon kilim, zindan kilim,
Çırparam, zindanı düşər.

***(Toz)***

10. Əzizim, qara nədi?
Qaş üstə qara nədi?
Gönü göy, əti qırmızı
Sümüyü qara nədi?

***(Qarpız)***

11. Qara qartal küşdə yatar.

***(Süpürgə)***

12. Yağış yağar, yer yaş olar,
Dartanda qırılar, dört baş olar.
***(Kəndir)***

13. Bir toyuğum var,
Yer altında yumurtdar.
***(Kartof)***

14. Yer altınnan qaz gedər,
Qakqıldar qaz gedər.
Yeddi il buğaya gələr,
Bir il boğaz gedər.
***(Fil)***

15. A gedən kişi, a gələn kişi,
Papağı yekə, əyağı təkə.
***(Köbələk)***

16. Axşam səpdim noxudu,
Səhər durdum, yox idi.
***(Ulduzlar)***

17. Baxaram, cümlə-cahanı yıxaram.
***(Tüfəng)***

18. Ağac başında hovuz,
Onu bilməyən olsun donuz.
***(Əzgil səbəti)***

19. Açaram yatar, bağlaram qaçar.
***(Ayaqqabı)***

20. Hasan ağa hastadı,
Zincirri qəfəsdədi.
Nə yerdədi, nə göydə
Ərşi-fələk üstədi.
***(Baca)***

21. On inəyim var, onu da təpəldi.
***(Əl dırnaqları)***

22. Tərəzidə çəkilməz,
Bazarlarda satılmaz.
Baldan şirin dadı var,
Yeməh olmaz, adı var.
***(Uşaq)***

23. Balaca bakqal,
Nə versən, udar.
***(Ağız)***

24. Ağ nəzər, qapıları gəzər.
***(Süd)***

25. Bir bardaqda iki irəngli su var.
***(Yumurta)***

30. O nədi ki, daşdan köynək geyinif?
***(Tısbağa)***

26. O nədir ki, kök atar, yarpağ bitirməz?
***(Göbələk)***

27. At baba ha, at baba,
Dolan evi, yat baba.
***(Süpürgə)***

28. Sarı təpə, qara meşə.

***(Baş)***

29. Hap-hapı, qızıl qapı,
Şah ölkəni, şirvan bağı
Keçi qılı, adam fili,
Qatarlaşıb gedən nədi?

***(Dəvə karvanı və dəvənin ovsarı. Dəvənin ovsarı keçi qılından hazırlanır).***

30. Səkgizi san dirəyi,
Dokquzu don dirəyi.
İkisi xaç qırmızı,
Dördü mazan dirəyi.

***(Əmcək. Səkkiz qancığın, doqquz donuzun, dörd inəyin, iki də qoyunun əmcəyi)***

31. Ay doğuf Alıstandan,
Gün doğuf Gülüstannan.
Şəhərə bir şamba çıxdı,
Dokquz ayın bostanınnan.

***(Uşaq)***

32. Meşədə, hə meşədə,
Gərməşöylü meşədə.
Nə atası var, nə anası,
Hamısı da bir peşədə.

***(Arı)***

33. O nədir ki, altı qoyun, üstü keçi, başı fındıq, arxa qaçı?

***(Qaranquş)***

34. Dört söyüd bir quyuya yaş tökər.

***(İnəyin əmcəyi)***

35. Ahəng nədi, hicran nədi, səngi nə?
Hicran qoymur mənim dərdim səngiyə.
Ahəng vurdu, çarx devr eylədi səngin ə,
Qurğu uşdu, sərəncamı qurudu.

***(Su dəyirmanı. Ahəng novdan çıxan sudur, çarxa vurur. Səng də daşdı, hərlənir)***

36. Gələn yaz,
Gələn payız, gələn yaz.
Payız bir aş pişirdi,
Yağını töhdü gələn Yaz

***(Payızla Yaz iki bacının adıdır. Payız aş bişirir, bacısı Yaz da onun yağını tökür).***

37. Eləmi, bir dənə gördüm,
Əcəb mərdanə gördüm.
Otuz oğul, bir ata,
Yüz əlli ana gördüm.

***(Yəni, oğul atasının qabağında oturub. Deyir, mənim başımı qırx, ata. Yüz əlli ana gördüm. Yəni əlini üzünə qoymuş ana gördüm).***

38. Ərəbəm, türkəm, tatam,
Mən o işdərə matam.
Arvadındı qız qardaşım,
Oğlumdu qaynatam.

***(Deməli, bir neçə adam oya çıxır. Sual verir ki, o atan kimdi? Deyir, o atan mənim oğlumdu. Mən də o biri atanın oğluyam).***

39. Elləmi təpəsinə,
Yol gedər təpəsinə.
De görüm kim idi
Çıxdı Allahın təpəsinə?

***(………….)***

40. Annamazam,
Tifiləm, annamazam,
Namaz qılsam, kafərəm,
Qılmasam, annamazam.

***(Yəni uşağam, heç nə anal-mıram. Dəstəmaz almadığım üçün namaz qılmağa ixtiyarım yoxdu. Namaz qılmasa, kafir olur).***

41. Əli kişi,
Heş kimnən yoxdu işi.
Sənnən bir at istiyirəm,
Nə erkək olsun, nə də dişi.

***(Düldül)***

42. O nədir birdi?
Birdə ikidi,
İkidən biri beşdi,
Beşdən dördü üşdü,
Biri də ikidi.

***(Bir – qoldur, qolun yarısı dirsəkdir, bilək və barmaqlar, barmaqdakı buğumlar (dörd barmaqda üç buğum olur, baş barmaqda iki)***

43. Uzun çinar qıyğacı,
Bir məhlədə cüt bajı.
Böyüyü mənim yarım,
Kiçiyi əxrət bajım.

***(................)***

44. *Biri bir bayatı deyir Aşıq Hüseyn Bozalqanlıya.*
Eləmi, Ay doğdu,
Gün batdı, Ay doğdu.
Aşıq qardaş, o nədi ki,
İkisi çöldə qaldı, biri içəri düşdü.

***(İçəri düşən cəsəddir, çöldə qalan əməlləri, etdiyi yaxşılıq).***

45. Eləmi, Gün batdı,
Ay doğdu, Gün batdı.
Anası Beşikdə olarkən
Qızı bir oğlan yaratdı.

***(Beşik kəndin adıdır. Ana Beşik kəndində olanda qız da uşağa yatır).***

46. Beş, beş, beş on beş
Üç on səkkiz, iki iyirmi.

***(Beş)***

47. Yağış yağar, yer yaş olar,
İp qırılar, dörd baş olar.
Dəvədən olan köşək olar,
Onu tapmayan eşşək olar.

***(Tapmacanın açması özündədir)***

48. Maral, maral inəyim,
Qarnı xaral inəyim.
At poxundan addamaz,
Çəpəri yarar inəyim.

***(Kirpi)***

49. Əzizinəm, qar daşı,
Qarrı günöydən qar daşı.
Oğlumun oğlusan,
Ərimin qardaşı?

*Nətər izah eləmək olar bunu? Biri atalıdı. Atasının atmış yaşı var, bunun da otuz yaşı. Atası deyir, oğul, biz səfərə çıxerıx. Mənim atmış yaşım var, innən sora nə tapsax, azı mənimdi, çoxu sənindi. Obşim, bir müddət gedellər, bir ana-balaya rast olollar. İndi burda məsləhət oluf, bala atanın olor, ana da oğlanın. Buların hərəsinin bir oğlu olor. Bu körpə uşaxlar bir-birinin nəyi düşör?*

50. O nədi ki, peyğəmbər bildi, Allah bilmədi? Peyğəmbər bildi ki, özünnən böyük Allah var, amma Allah bilmədi ki, özünnən böyük kim var.

51. Qara qayış qatdandı,
Qara quş atdandı.
Qum ələndi,
Quyruğ bulandı.

***(Ələk, tavaq, sac, oxlov)***

52. O nədi baldan şirin,
Dövlətdən, maldan, şirin?
De görüm nə ola bilər, ay bala,
Dodaxdan, dildən şirin?

***(.........)***

53. O nədir ki, hər şeydə var?

***(Ad)***

# X. DÜZGÜLƏR, MAHNILAR, ƏZİZLƏMƏLƏR

1. Huara, huara, huara bəy,
Huara bəyin nə peşəsi?
Gələr-gedər hə peşəsi.
Hə peşə bədəl-bədəl.
Bədəli öldürdülər,
Ağ donu geydirdilər.
Ağ don bizim oloydu,
Kətan-köynək oloydu.
Kətan köynək fil-fili,
Gəl öyrən bizim dili.
Bizim dil alabaxta,
Yuası var Qonaxda.
Getdilər uçurmağa,
Dəryadan keçirməyə.
Dəryadan keçən atdar,
Ağzında ürəyin çatdar.
Biri Hürü, biri Pəri
Heyva çiçəyin otdar,
Narın göyçəyin otdar.

2. *Qızlar deyərdilər:*
Öydən öyə toz gedər,
İçində bir qız gedər.
O qızın əl yaylığı,
Ortası zər yaylığı.
Hərə bir alqış desin
Qardaşa can sağlığı.

3. Pişiyim, pişiyim, piş başı,
Yağlıcadı döş-başı.
Almışam ağ axçaya,
Qoymuşam tavaxçaya,
Götdü qaşdı baxçaya.
Ay səni yanasan, pişik
Ay səni öləsən, pişik.

4. Bajadan baxan hidirə göz,
Birisi kəhər, birisi boz.
Mindim bozun boynuna,
Getdim Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymunu ürkütdüm,
Qulaxlarını qırpıtdım.
Dağda gəzən hajılar,
Vurdu qolumu qırdı.
Qolum qazanda qaynadı,
Oğlax yanımda oynadı.
Oğlağı yerə vurdum,
Yer mana yemlih verdi.
Yemliyi tata verdim,
Tat mana darı verdi.
Darıyı qoça verdim,
Qoç mana qanad verdi.
Qanatdandım uşmağa,
Haqq qapısını aşmağa.
Haqq qapısı açığ idi,
İçi dolu palçığ idi.
Qapıdan qapıya toz gedir,
İçində hincələ qız gedir.
Saç bağım qatar-qatar
Üstündə qardaş yatar.
Qardaşın əl yaylığı,
Üstündə zər yaylığı

A keşdi, keşdi, nə keşdi?
İki xoruz dalaşdı
Biri qana bulaşdı.
Qan eylər qaşım üstə
Qarğa getdi oduna
Qamış batdı buduna.

5. Biri birək,
İkisi irək,
Üçü ürək,
Dördü döşək,
Beşi beşək,
Altısı alma,
Yeddisi yemiş,
Səkkizi sərçə,
Doqquzu donuz,
Onu orax.
Gedək Xəccə xanımın damını yarax,
Qızını götürək qaçax.

6. *Uşax vaxtı öz aramızda bir-birimiznən zarafat elerdik.*
Eqidi, biqidi bilmerəm,
Mən Ləmanı dindirmerəm.
Ləman yaman forsdudu,
Özü də Minişin dostudu.
Eqidi, biqidi bilmerəm,
Moskiviçə minmerəm.
Qızıl saat olmasa,
Mən o oğlanı sevmerəm.
7. *Uşax vaxtı bir-birmizə belə də oxurdux:*
Zəhrə, Ziveydə, ikisi bir öydə
Zəhrə dalaşdı,
Ziveydə qaçdı.
Təpədən aşdı.
Əyağı sürüşdü
Böyrü üstə tüşdü
İtdər hürüşdü
Kişilər gülüşdü.

8. Hop-hopun aldatdı məni,
Gül topun aldatdı məni.
Buxara papax, xrom çəhmə
Lopa bığın aldatdı məni.
Dınqır ələh, dınqır saj,
Lopa bığın aldatdı məni.
Əlim xamır, qarnım aj
Şirin dilin aldatdı məni.

9. *Analarımız balaca uşaxları qucaxlarına aler, əzizlerdilər:*
Dərdin alım dərdidən,
Səni saldırem oğrudan.
Oğru desin mənimdi,
Mən də deyim, a köpoğlunun oğrusu, özümündü.

10. Başına dönüm baş alanda
Əyilib qazannan aş alanda
A bunu verən birini də ver.
Birini səvət hörən ver,
Birini qora dərən ver,
Birini könül görən ver.
A bunu verən at da ver,
Altına arvad da ver,

Çiyninə bir kürk də ver.
Dımbıdı balam, dımbıdı
balam.

11. Qız anası ilə oğlan anasının deyişməsi

Oğlan anası deyir:
Ay gözəl oğlan,
Aynadan boylan.
Qoy qızdar görsün,
Dərdinnən ölsün.

Qız anası deyir:
Qızım qızdı,
Min tümən azdı.
Qızılı gəti,
Qızımı götü.

Oğlan anası der:
Qız anasısan,
Hər şeydən halısan.
Oğlannar talonnandı,
Qızdar eşalonnan.

Qız anası der:
Oğlun oxdu,
Bir kürəy p..du.
Kürəyi gəti,
P..unu götü.


Əlibəyli kəndinin ağsaqqalları ilə görüş zamanı


Nəbiyev Valeh Şəmşəd oğlu (soldakı), Əlibəyli kəndi


**Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi**


**Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi**



**Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi**



**Nəsib bəyin evi. Öysüzlü kəndi**

## MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ

1. **Kəkliyin ayağı niyə qırmızıdır?** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
2. **Gəlinboğan.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
3. **Qızı udan əjdaha**. Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
4. **Hal.** Məstanova Mahizər İsrafil qızı, Abulbəyli kəndi.
5. **Cin.** Məmmədova Zəhra Mansır qızı, Bozalqanlı kəndi.
6. Məmmədova Zəhra Mansır qızı, Bozalqanlı kəndi.
7. Məstanova Mahizər İsrafil qızı, Abulbəyli kəndi.
8. **Ovçu Pirim.** Söyləyicisi haqqında məlumat yoxdur.
9. **Koroğlu.** Alıyev Məzahir Şahniyar oğlu.
10. **Haqq qan.** Məmmədov Cəmil Həsənəli oğlu, Yuxarı Öysüzlü kəndi.
11. Qumaşov Niftalı Vəli oğlu, Əlibəyli kəndi.
12. **Süleyman peyğəmbər.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
13. **Peyğəmbər ağ günü kimə verdi?** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
14. **"Ərrahman" səsinin yaranması.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
15. **Peyğəmbərin möcüzəsi.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
16. **Peyğəmbər və Avdal.** Məmmədova Sədaqət Cəlal qızı, Qaradaş kəndi.
17. **Həzrət Əli və Xızır peyğəmbər.** Məmmədov Mahmud Qasım oğlu, Bozalqanlı kəndi.
18. **Hatəm.** Məmmədov Mahmud Qasım oğlu, Bozalqanlı kəndi.
19. **Bozalqanlı.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
20. **Hətəmalılar.** Pənahov Bəhram Məhəmməd oğul, Xatınlı kəndi.
21. **Yekallar nəsli.** Rüstəmov Talıb Talıb oğlu, Yekallar (indiki Vahidli) kəndi.
22. **Əlibəyli kəndi.** Rüstəmov Bəhlul Tanrıverdi oğlu, Əlibəyli kəndi.

**23. Öysüzlü kəndi.** Hüseynov İsa Həmid oğlu, Öysüzlü kəndi.
**24. Xınnalı.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**25. Çoban dağı.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**26.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**27. Tək saqqız.** Abdullayev Sakit Qara oğlu, Vahidli kəndi.
**28. Başmaqçıxan.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**29. Mutu dərə.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**30. Sofu dağdağan.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**31. Torpaqqala.** Məmmədov Məhəmməd Qasım oğlu, Qədirli kəndi.
**32. Vəlayaq öysüzlü.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.
**33. İt yalağı.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.
**34. Murğuz ocağı.** Məmmədova Zəhra Mansır qızı, Bozalqanlı kəndi.
**35.** Əliyev Cəlil Mirzə oğlu, Qaradaş kəndi.
**36. Haçaqaya.** Quliyev Mədət Allahverdi oğlu, Ağbaşlar kəndi.
**37.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**38. Soltan körpüsü.** Səmədov Telman Kamal oğlu, Vahidli kəndi.
**39.** Axundov Nəriman Avıl oğlu, Vahidli kəndi.
**40. Nəsib Sultan.** Hüseynov İsa Həmid oğlu, Yuxarı Öysüzlü kəndi.
**41.** Rüstəmov Bəhlul Tanrıverdi oğlu, Əlibəyli kəndi.
**42.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**43.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**44.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**45. Allahyar bəy.** Pənahov Bəhram Məhəmməd oğul, Xatınlı kəndi.
**46.** İsayev İsa Cavad oğlu, Aşağı Əyyublu kəndi.
**47.** Rüstəmov Talıb Talıb oğlu, Vahidli kəndi.
**48. Kalva Əsəd.** Axundov Nəriman Avıl oğlu, Vahidli kəndi.
**49.** Həsənov Əsgər Nəcəf oğlu, Bozalqanlı kəndi.
**50.** Həsənov Əsgər Nəcəf oğlu, Bozalqanlı kəndi.
**51.** Qasımoğlu Məhəmməd, Bozalqanlı kəndi.
**52.** Qasımoğlu Məhəmməd, Bozalqanlı kəndi.
**53. Kal.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**54.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**55.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.

**56.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.
**57. Cahangir ağa.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**58. Hacı Bağır.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**59. Maşa Murad.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
**60. Qara Tanrıverdi.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**61.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**62.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**63.** Söyləyicisi haqqında məlumat yoxdur.
**64. Telli Əsəd.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi
**65.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**66.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**67.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**68.** Həsənov Bayram Qurban oğlu, Bozalqanlı kəndi.
**69.** Musayev Yunus Qara oğlu, Bozalqanlı kəndi.
**70.** Axundov Nəriman Avıl oğlu, Vahidli kəndi.
**71. Qaçaq Kərəm.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**72.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**73.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**74.** Hüseynov Arif, Qazax şəhəri.
**75.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.
**76.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.
**77.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.
**78.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.
**79.** Məmmədov Əli Kavı oğlu, Bayramlı kəndi.
**80. Qaçaq Nəbi.** Rüstəmov Aydın Oruc oğlu, Göyəbaxan kəndi.
**81. İsrafil ağa.** Rüstəmov Bəhruzər Qaybalı oğlu, Əlibəyli kəndi.
**82. Əşrəf Çobanoğlu.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**83. Əyyar İsrafil.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.

**84.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**85. Abuzər oğlu Məhəmməd.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**86. Dəli Sadıq.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**87. Pəhləvan Nağı.** Rüstəmov Talıb Talıb oğlu, Vahidli kəndi.
**88. Məcidi Məcid vuracaq.** Əliyev Cəlil Mirzə oğlu, Qaradaş kəndi.
**89. Mirəli ağa.** Hacıyev Qasım Fərrux oğlu, Ağdam kəndi.
**90.** Hacıyev Qasım Fərrux oğlu, Ağdam kəndi.
**91.** Səmədov Telman Kamal oğlu, Vahidli kəndi.
**92.** Rüstəmov Talıb Talıb oğlu, Vahidli kəndi.
**93.** Rüstəmov Talıb Talıb oğlu, Vahidli kəndi.
**94.** Əliyev İsa Ziyad oğlu, Ağdam kəndi.
**95.** Əliyev İsa Ziyad oğlu, Ağdam kəndi.
**96.** Əliyev İsa Ziyad oğlu, Ağdam kəndi.
**97.** Kazımov Mamoy Əli oğlu, Tovuz şəhəri.
**98.** Axundov Nəriman Avıl oğlu, Vahidli kəndi.
**99. Ağbaş Axund.** Kazımov Mamoy Əli oğlu, Tovuz şəhəri.
**100. Şıx Sədi.** Axundov Qayıf Molla Əşrəf oğlu, Bozalqanlı kəndi.
**101. Seyid Əziz.** Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
**102. Ocaq bağı.** Mehparə, Yuxarı Öysüzlü kəndi.
**103. Hacı baba.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
**104. Torpağın tavazası**. Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi.
**105. Aç qapını, ört qapını.** Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi.
**106. Anası gəzən ağacı qızı budaq-budaq gəzər.** Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi.
**107. O günə də, bu günə də şükür.** Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.
**108. Bəxtini sınayan arvad**. İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
**109. Padşahın şübhəsi**. Musayev Fərman Binnət oğlu, Göyəbaxan kəndi.
**110. Atanın yalan andı**. Musayeva Sərvinaz Famil qızı, Göyəbaxan kəndi.

**111. Qatırın nallanması**. Niftalıyev Əlixan Abbasqulu oğlu, Məşədivəllər kəndi.

**112. Hansımız gözəlik?** Əliyev İsa Ziyad oğlu, Ağdam kəndi.

**113. Vətənə gəldim, imana gəldim.** Aşıq Məhəmməd Qasımoğlu, Bozalqanlı kəndi.

**114. Atam, oğul, can qardaş.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.

**115. Dəlləklə qəssabın bəhsi.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.

**116. Halallıq.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.

**117. Buna da şükür.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.

**ETNOQRAFİK MƏTNLƏR**

**118. Xıdır Nəbi.** Məmmədova Sədaqət Cəlal qızı, Qaradaş kəndi.

**119.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.

**120.** Məmmədov Cəmil Həsənəli oğlu, Yuxarı Öysüzlü kəndi.

**121.** Alıyev Nurəddin Vəli oğlu, Bayramlı kəndi.

**122.** Alıyev Nurəddin Vəli oğlu, Bayramlı kəndi.

**123. Novruz.** Alıyev Nurəddin Vəli oğlu, Bayramlı kəndi.

**124. Saya bayramı.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.

**125.** Alıyev Nurəddin Vəli oğlu, Bayramlı kəndi.

**126. Müsəlləyə çıxmaq.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.

**127. Cadügərlər haqqında.** Quliyev Mədət Allahverdi oğlu, Ağbaşlar kəndi.

**128. Vergili insanlar.** Quliyev Mədət Allahverdi oğlu, Ağbaşlar kəndi.

**129. Yağış yağdırmaq.** Toplayan: Zəfər Fərhadov

**NAĞILLAR**

**130. İki qardaş.** Musayev Yunus Qara oğlu, Bozalqanlı kəndi.

**131. Yazıya pozu yoxdur**. Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi.

**132. Keçəçi Şah Abbas.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.

**133. Ağıllı qız.** Quliyev Mədət Allahverdi oğlu, Ağbaşlar kəndi.
**134. Ağılla Bəxtin mübahisəsi.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**135. Qismətdən qaçmaq olmaz.** Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi.
**136. Allah versin.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**137. Anasını cütə qoşan Keçəl.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**138. Keçəllə kosa**. Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**139. Dıbırın qeyrəti**.Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**140. Molla Nəsrədin və qırx lotu.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
**141. Fərsiz kişi.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
**142. Küpənin nağılı.** İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.

**LƏTİFƏLƏR**
**143. Dünənki sənətimdir, bugünkü səxavətim.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**144. Sənin atını alan bu putulkoydu.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**145. Qəpiyimi ver.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**146. İkinizin də yükünü mən çəkirəm.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**147. Mən də sizin biriniz.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**148. Qızım günümdür, oğlum ərim.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**149. Çıt**. Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**150. Eşşək səndən mərifətli düşüb.** Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
**151. Şot, raşot.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**152. Buraya sənmi baxırsan?** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**153. Qarı və qızı.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**154. Fit çalmaq.** Aşıq Məhəmməd Qasımoğlu, Bozalqanlı kəndi.

**AŞIQ RƏVAYƏTLƏRİ**

**155. Aşıq Ələsgərlə Molla Cümə.** Hüseynov İqbal Cəmil oğlu, Ağdam kəndi.

**156. Aşıq Ələsgərlə Aşıq Alının deyişməsi.** Məhəmməd Qasımoğlu, Bozalqanlı kəndi.

**157.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.

**158. Aşıq Alının Ələsgərdən incikliyi.** Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.

**159. Aşıq Ələsgərlə Abbasın əhvalatı.** Məhəmməd Qasımoğlu, Bozalqanlı kəndi.

**160. Qulaqkəsən qız**. Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi.

**161. Aşıq Ələsgərin Anaxanıma şeir qoşması.** Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.

**162. Aşıq Ələsgərin Dərələyəz əhvalatı.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.

**163. Onun papağı mənimkindən yekədir.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.

**164. Həm bilirəm, həm də bilmirəm.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.

**165. Aşıq Hüseynin Göyçə səfəri.** Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.

**166.** Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi.

**167.** Həsənov Bayram Qurban oğlu, Bozalqanlı kəndi.

**168. Qaymaqlı koxa.** Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.

**169. Nazik uzun közmü gətirim, yoxsa yoğun gödək köz?** Hüseynov Rəşid Xankişi oğlu, Azaflı kəndi.

**170. Aşıq Hüseynin Göyçəli Nəcəfə nəzirəsi.** Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.

**171. Aşıq Hüseynin Ələsgərə ismarıcı.** Hüseynov Rəşid Xankişi oğlu, Azaflı kəndi.

**172. Sənin kimi qor-qoduğu üç manata.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.

**173. Aşıq Mıqıç.** Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.
**174. Aşıq Hüseynlə Aşıq Avak.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
**175. Aşıq Səməd.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**176.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**177. Dana məsələsi.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**178. Aşıq Qəhrəman.** Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi.
**179. Aşıq Nəcəfin ölümü.** Aşıq Məhəmməd, Bozalqanlı kəndi.
**180. Qaz əhvalatı.** Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.

**ŞEİRLƏR**
**181. Aşıq Valeh.** Aşıq Məhəmməd, Öysüzlü kəndi.
**182. Aşıq Abbas dastanından.** Aşıq Məhəmməd, Bozalqanlı kəndi.
**183. Aşıq Hüseynin Molla Əhmədə şeiri.** Axundov Qayıb Əşrəf oğlu, Bozalqanlı kəndi.
**184. Mən.** Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.
**185. Qalmaz.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**186. Dünyada.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**187. Səni.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**188. Olu.** Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi.
**189. Görmüşəm.** Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi.
**190. Yaylıq.** Quliyeva Qələmkər Ədil qızı, Qaradaş kəndi.

**ATALAR SÖZÜ**
1. Abdullayev İdris Hüseyn oğlu: 1, 2, 3, 4
2. İsayev İsa Cavad oğlu: 5, 6, 7, 8
3. Səmədov Telman Kamal oğlu: 11
4. Əsgərov İbrahim Qəhrəman oğlu: 21
5. Qasımov Məhərrəm Xansuvar oğlu: 23

**BAYATILAR**
1. Xəlilov Cavanşir Məcid oğlu: 10, 11, 12, 13, 14, 15, 16
2. Yusifli Qoşqar Aslan oğlu: 17
3. Cəlil Mirzə oğlu: 18, 19
4. Quliyev Əli Abuzər oğlu: 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30

5. Tağıyev Ələsgər Mikayıl oğlu: 50, 51, 52, 53, 54, 55, 56, 57, 58, 59
6. Xəlilov Məcid Qulu oğlu: 60
7. Quliyeva Qələmkar Ədil qızı: 61, 62, 63, 64, 65, 66, 67, 68, 69, 70, 71, 72
8. Həsənov Əsgər Nəcəf oğlu: 73
9. Niftəliyev Əlixan Abbasqulu oğlu: 81, 82, 83, 84
10. Məhəmmədov Məhəmməd Çodar oğlu: 85
11. İsmayılova Məlahət Cəlal qızı: 86, 87
12. Gilə arvad, Əlibəyli kəndi: 89, 90
13. Nəbiyeva Nabat Ağca qızı: 91, 92, 93, 94, 95, 96, 97, 98

**TAPMACA VƏ BAĞLAMALAR**

1. Xəlilov Məcid Qulu oğlu: 1, 2, 3, 4, 5, 6. 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 10, 21, 22, 23, 24, 25, 26, 27, 28
2. Seyidov İsa Həmid oğlu: 29, 30, 31
3. Məmmədov Dövlət Məhəmməd oğlu: 32, 33
4. Tağıyev Ələsgər Mikayıl oğlu: 34, 35, 36, 37, 38, 39
5. Həsənov Əsgər Nəcəf oğlu: 40
6. Mahmudov Rüstəm Misir oğlu: 41, 42
7. Məhəmmədov Məhəmməd Çodar oğlu: 43, 44, 45
8. İsmayılova Məlahət Cəlal qızı: 46, 47, 48
9. Qumaşov Niftalı Vəli oğlu: 49, 50, 51, 52, 53

**DÜZGÜLƏR, MAHNILAR, ƏZİZLƏMƏLƏR**

Rüstəmov Bəhruzər Qaybalı oğlu: 1, 2
Quliyeva Bənövşə Namaz qızı: 3
İsmayılova Məlahət Cəlal qızı: 4, 5, 6, 7
Məmmədova Sədaqət Cəlal qızı:

## SÖYLƏYİCİLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

1. Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1952, ali təhsilli mühəndis. **Söylədiyi mətn:** 131, 189. Toplayan: İlkin Rüstəmzadə

2. Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi, təvəllüdü 1934, Azaflı Mikayılın şagirdi. **Söylədiyi mətnlər:** 24, 26, 71, 72, 73, 163, 163, 172, 174, 177, 180. Atalar sözü: 1, 2, 3, 4. Toplayanlar: Səyyarə Qasımova, Əfzələddin Əsgər.

3. Abdullayev Sakit Qara oğlu, Vahidli kəndi, təvəllüdü 1947, ali təhsilli müəllim. **Söylədiyi mətn:** 27. Toplayan: Səyyarə Qasımova.

4. Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi, təvəllüdü 1954, orta təhsilli, dülgər. **Söylədiyi mətn:** 101. Toplayan: Səyyarə Qasımova.

5. Axundov Qayıb Molla Əşrəf oğlu, Aşağı Bozalqanlı kəndi, təvəllüdü 1920, yeddiillik təhsil, traktorçu. **Söylədiyi mətn:** 100, 183. Toplayan: Səyyarə Qasımova

6. Axundov Nəriman Avıl oğlu, Vahidli kəndi, təvəllüdü 1935, ali təhsilli. **Söylədiyi mətnlər:** 39, 48, 70, 98. Toplayan: İlkin Rüstəmzadə

7. Alıyev Məzahir Şahnigar oğlu. **Söylədiyi mətn:** 9. Toplayan: Səyyarə Qasımova

8. Alıyev Nurəddin Vəli oğlu, Bayramlı kəndi, təvəllüdü 1940, aqranom. **Söylədiyi mətnlər:** 121, 122, 123, 125, 126. Toplayan: İlkin Rüstəmzadə.

9. Aslanov Tacəddin Tağı oğlu, Aşağı Öysüzlü kəndi, təvəllüdü 1958, ali təhsilli. **Söylədiyi mətnlər:** 32, 33, 56, 116, 119, 124, 166. Toplayan: İlkin Rüstəmzadə.

10. Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi, təvəllüdü 1934. **Söylədiyi mətnlər:** 104, 105, 106. Toplayan: Səyyarə Qasımova

11. Əliyev Cəlil Mirzə oğlu, Qaradaş kəndi, təvəllüdü 1942, orta-ixtisas təhsilli, elektrik. **Söylədiyi mətnlər:** 35, 88. Bayatılar: 18, 19. Toplayan: Səyyarə Qasımova.

12. Əliyev İsa Ziyad oğlu, Ağdam kəndi, təvəllüdü 1950. **Söylədiyi mətnlər:** 94, 95, 96, 112. Toplayan: Səyyarə Qasımova

13. Əsgərov İbrahim Qəhrəman oğlu, Hacallı kəndi, təvəllüdü 1945, təhsili orta ixtisas. **Söylədiyi mətnlər:** 139, 153, 164, 175, 176, 185, 186, 187, 188. Atalar sözü: 21. Toplayan: İlkin Rüstəmzadə.

14. Gülməmmədov Şəhadət Nəsib oğlu, Ağstafa rayonu Dağkəsəmən kəndi, təvəllüdü 1929, sənəti aşıq. **Söylədiyi mətnlər:** 76, 77, 78, 157, 158, 160. Toplayan: Əfzələddin Əsgər.

15. Hacıyev Qasım Fərrux oğlu, Ağdam kəndi, təvəllüdü 1965, orta ixtisas təhsilli. **Söylədiyi mətnlər:** 89, 90. Toplayan: İlkin Rüstəmzadə.

16. Həsənov Bayram Qurban oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1939, balabançı. Aşıq Əkbərlə, İmranla sənət yoldaşı olub, onların dəstəsində balaban ifa edib. **Söylədiyi mətnlər:** 68, 167. Toplayan: İlkin Rüstəmzadə.

17. Həsənov Cəbrayıl Həsən oğlu, Hacallı kəndi. yaşı 73, natamam orta təhsilli. **Söylədiyi mətn:** 129. Toplayan: Z.Fərhadov

18. Həsənov Əsgər Nəcəf oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1920, orta təhsilli, sənəti arıçı. **Söylədiyi mətnlər:** 49, 50. Bayatı: 74. Tapmaca: 40. Toplayan: İlkin Rüstəmzadə

19. Hüseynov Arif, Qazax şəhəri, 79 yaş. **Söylədiyi mətn:** 74. Toplayan: Əfzələddin Əsgər.

20. Hüseynov İqbal Cəmil oğlu, Ağdam kəndi, 1971-ci il, orta təhsilli. **Söylədiyi mətn:** 155. Toplayan: Səyyarə Qasımova

21. Hüseynov İsa Həmid oğlu, Yuxarı Öysüzlü kəndi, təvəllüdü 1957. **Söylədiyi mətnlər:** 23. 29. Tapmaca: 30, 31, 40. Toplayan: Səyyarə Qasımova.

22. Hüseynov Rəşid Xankişi oğlu, Azaflı kəndi, təvəllüdü 1962, orta təhsilli, sənəti aşıq. **Söylədiyi mətnlər:** 169, 171. Toplayan: Səyyarə Qasımova.

23. Xəlilov Cavanşir Məcid oğlu, Şamlıq kəndi, təvəllüdü 1961, orta təhsilli. **Söyləydiyi bayatılar:** 10, 11, 12, 13, 14, 15, 16. Toplayan: Səyyarə Qasımova

24. Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi, təvəllüdü 1930, ibtidai təhsilli, sürücü. Söylədiyi bayatı: 61. Tapmaca: 1, 2, 3, 4, 5, 6. 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 10, 21, 22, 23, 24, 25, 26, 27, 28. Toplayan: Səyyarə Qasımova.

25. İsayev İsa Cavad oğlu, Aşağı Əyyublu kəndi, təvəllüdü 1931, ali təhsilli müəllim. **Söylədiyi mətnlər:** 46. Atalar sözü: 5, 6, 7, 8. Toplayan: İlkin Rüstəmzadə.

26. İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi, təvəllüdü 1948, 8 illik təhsil. **Söylədiyi mətnlər:** 1, 12, 13, 14, 59, 103, 108, 114, 115, 140, 141, 142. Toplayan: Səyyarə Qasımova.

27. İsmayılova Məlahət Cəlal qızı. **Söylədiyi bayatılar:** 87, 88. Tapmaca: 46, 47, 48. Düzgülər: 4, 5, 6, 7.Toplayan: Səyyarə Qasımova.

28. Kazımov Mamoy Əli oğlu, Tovuz şəhəri, təvəllüdü 1949, ali təhsilli. **Söylədiyi mətnlər:** 97, 99. Toplayan: Səyyarə Qasımova.

29. Qasımoğlu Məhəmməd, Bozalqanlı kəndi. **Söylədiyi mətnlər:** 51, 52, 113, 154, 156, 159, 179, 181, 182. Toplayan: Əfzələddin Əsgər.

30. Qasımov Məhərrəm Xansuvar oğlu, Hacallı kəndi, təvəllüdü 1948, ali təhsilli, riyaziyyat müəllimi. **Söylədiyi mətnlər:** 29, 30, 62, 85, 86, 135. Atalar sözü: 23. Toplayan: İlkin Rüstəmzadə.

31. Quliyev Əli Abuzər oğlu, Əlimərdanlı kəndi, təvəllüdü 1950, ali təhsilli, sənəti aşıq. **Söylədiyi bayatılar:** 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30. Toplayan: Səyyarə Qasımova.

32. Quliyev Mədət Allahverdi oğlu, Ağbaşlar kəndi, təvəllüdü 1936, orta təhsilli, dəmirçi. **Söylədiyi mətnlər:** 36, 127, 133. Toplayan: İlkin Rüstəmzadə.

33. Quliyeva Bənövşə Namaz qızı, Göyəbaxan kəndi, təvəllüdü 1928, ibtidai təhsilli. **Düzgü:** 3. Toplayan: Səyyarə Qasımova.

34. Quliyeva Qələmkar Ədil qızı, Qaradaş kəndi, təvəllüdü 1936, təhsilsiz. **Söylədiyi bayatılar:** 62, 63, 64, 65, 66, 67, 68, 69, 70, 71, 72, 73, 190. Toplayan: Səyyarə Qasımova

35. Qumaşov Niftalı Vəli oğlu, Əlibəyli kəndi, təvəllüdü 1945, orta ixtisas təhsilli, tibb işcisi. **Söylədiyi mətnlər:** 11. Tapmaca: 49, 50, 51, 52, 53. Toplayan: İlkin Rüstəmzadə.

36. Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1950, ali təhsilli, müəllim. **Söylədiyi mətnlər:** 19, 53, 54, 55, 60, 61, 64, 65, 66, 67, 82, 83, 84. Toplayan: Səyyarə Qasımova.

37. Mahmudov Rüstəm Misir oğlu, Gədəbəy rayonu Hacıqasımlı kəndi, təvəllüdü 1964. Tapmaca: 41, 42, 184. Toplayan: Səyyarə Qasımova.

38. Mehparə, Yuxarı Öysüzlü kəndi, 53 yaş, orta təhsili. **Söylədiyi mətn:** 102. Toplayan: Zəfər Fərhadov

39. Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi, təvəllüdü 1923. Aşıq Əsəd Rzayevin şəyirdi olub. **Söylədiyi mətnlər:** 107, 161, 170, 173. Bayatı: 86. Tapmaca: 43, 44, 45. Toplayanlar: Səyyarə Qasımova, Əfzələddin Əsgər.

40. Məmmədov Cəmil Həsənəli oğlu, Yuxarı Öysüzlü kəndi, təvəllüdü 1958, müəllim. **Söylədiyi mətnlər:** 10, 120. Toplayan: İlkin Rüstəmzadə.

41. Məmmədov Dövlət Məhəmməd oğlu, Ağdam kəndi, təvəllüdü 1959, orta təhsilli. Tapmaca: 32, 33. Toplayan: Səyyarə Qasımova.

42. Məmmədov Əli Kavı oğlu, Bayramlı kəndi, təvəllüdü 1940, orta təhsilli, aşıq. Azaflı Mikayılın şəyirdi. **Söylədiyi mətn:** 79. Toplayan: İlkin Rüstəmzadə.

43. Məmmədov Mahmud Qasım oğlu. Əsli Göyçə mahalındandır. Tovuzun Bozalqanlı kəndində yaşayıb, təvəllüdü 1935. Yeddiillik təhsili var. Aşıq Vəlinin şəyirdi olub. **Söylədiyi mətnlər:** 17, 18. Toplayan: İlkin Rüstəmzadə.

44. Məmmədov Məhəmməd Qasım oğlu, Qədirli kəndi, təvəllüdü 1921, natamam orta təhsilli. **Söylədiyi mətn: 31.** Toplayan: Səyyarə Qasımova.

45. Məmmədova Sədaqət Cəlal qızı, Qaradaş kəndi, təvəllüdü 1959, səkkizillik təhsil. **Söylədiyi mətnlər:** 16, 118. Toplayan: Səyyarə Qasımova.

46. Məmmədova Zəhra Mansır qızı, Bozalqanlı kəndi. təvəllüdü 1931, orta təhsilli, təqaüdçü. **Söylədiyi mətnlər:** 56, 34. Toplayan: Nigar Həsənova.

47. Məstanova Mahizər İsrafil qızı, Abulbəyli kəndi, təvəllüd 1953, müəllim. **Söylədiyi mətnlər:** 4, 7. Toplayan: Nigar Həsənova

48.Musayev Fərman Binnət oğlu, Göyəbaxan kəndi, təvəllüdü 1953, orta təhsilli. **Söylədiyi mətn: 109.** Toplayan: Səyyarə Qasımova.

49. Musayev Yunus Qara oğlu, Bozalqanlı kəndi, 1940-cı il, təhsili orta-ixtisas. **Söylədiyi mətnlər:** 69, 130. Toplayan: İlkin Rüstəmzadə.

50. Musayeva Sərvinaz Famil qızı, Göyəbaxan kəndi, təvəllüdü 1962, natamam orta təhsilli. **Söylədiyi mətn:** 110. Toplayan: Səyyarə Qasımova.

51. Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi, təvəllüdü 1937, orta təhsilli. **Söylədiyi mətnlər:** 15, 43, 44, 132, 134, 136, 137, 138, 151, 152, 178. Toplayan: İlkin Rüstəmzadə.

52.Nəbiyeva Nabat Ağca qızı, Böyük Qışlaq kəndi. **Söylədiyi bayatılar:** 92,93,94,95,96,97,98,99. Toplayan: Səyyarə Qasımova.

53. Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəllər kəndi, təvəllüdü 1942, orta təhsilli, sənəti aşıq. **Söylədiyi mətnlər:** 111,165,168. Bayatılar:82,83,84,85. Toplayanlar: Səyyarə Qasımova, İlkin Rüstəmzadə.

54. Pənahov Bəhram Məhəmməd oğul, Xatınlı kəndi, təvəllüdü 1952, ali təhsilli. **Söylədiyi mətnlər:** 20,45. Toplayan: Səyyarə Qasımova.

55.Rüstəmov Aydın Oruc oğlu, Göyəbaxan kəndi, təvəllüdü 1935, orta təhsilli. **Söylədiyi mətn:** 80. Toplayan: Səyyarə Qasımova.

56. Rüstəmov Bəhlul Tanrıverdi oğlu, Əlibəyli kəndi, təvəllüdü 1933. **Söylədiyi mətn:** 41. Toplayan: Səyyarə Qasımova.

57. Rüstəmov Bəhruzər Qayıbalı oğlu, Mülkülü kəndi, təvəllüdü 1956-cı il, təhsili ali. **Söylədiyi mətnlər:** 2, 3, 25, 28, 37, 57, 58, 81. Düzgülər: 1, 2. Toplayan: Səyyarə Qasımova.

58. Rüstəmov Talıb Talıb oğlu, Vahidli kəndi, təvəllüdü 1931, ali təhsilli. **Söylədiyi mətnlər:** 21, 22, 47, 87, 92, 93. Toplayan: Səyyarə Qasımova.

59. Səmədov Telman Kamal oğlu, Vahidli kəndi, təvəllüdü 1951, orta ixtisas təhsilli. **Söylədiyi mətnlər:** 38, 91. Atalar sözü: 11. Toplayan: İlkin Rüstəmzadə.

60. Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1931, orta təhsilli, aşıq. **Söylədiyi bayatılar:** 51, 52, 53, 54, 55, 56, 57, 58, 59, 60. Tapmaca: 34, 35, 36, 37, 38, 39. Toplayan: Səyyarə Qasımova.

61. Yusifli Qoşqar Aslan oğlu, Böyük Qışlaq kəndi, təvəllüdü 1942, orta-ixtisas təhsilli. **Söyləydiyi bayatı:** 17. Toplayan: Səyyarə Qasımova

62. Yusifov Mahal İman oğlu, Qayadibi kəndi, təvəllüdü 1951, ali təhsilli, sahibkar. **Söylədiyi mətnlər:** 117, 143, 144, 145, 146, 147, 148, 149, 150. Toplayan: Səyyarə Qasımova.

## BAŞLIQLAR

**Tərtibçidən ........................................................................ 3**

**I. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Kəkliyin ayağı niyə qırmızıdır?........................................... 7
Gəlinboğan ............................................................................ 8
Qızı udan əjdaha .................................................................. 8
Hal........................................................................................ 9
Cin........................................................................................ 10
Ovçu Pirim .......................................................................... 11
Koroğlu ................................................................................ 12
Haqq qan .............................................................................. 12
Süleyman peyğəmbər.......................................................... 15
Peyğəmbər ağ günü kimə verdi?......................................... 16
"Ərrahman" surəsinin yaranması........................................ 18
Peyğəmbərin möcüzəsi........................................................ 19
Peyğəmbər və Avdal ........................................................... 20
Həzrət Əli və Xızır peyğəmbər........................................... 21
Hatəm................................................................................... 22
Bozalqanlı............................................................................. 26
Hətəmalılar .......................................................................... 26
Yekallar ................................................................................ 27
Əlibəyli................................................................................. 28
Öysüzlü ................................................................................ 29
Xınnalı.................................................................................. 29
Çoban dağı............................................................................ 30
Tək saqqız............................................................................ 39
Başmaqçıxan........................................................................ 41
Mutu dərə ............................................................................. 42
Sofu dağdağan ..................................................................... 42
Torpaqqala............................................................................ 43
Vəlayaq öysüzlü................................................................... 44
İt yalağı................................................................................. 44
Murğuz ocağı....................................................................... 44
Haçaqaya ............................................................................. 46

Soltan körpüsü ........................................................................ 49
Nəsib sultan ........................................................................... 51
Allahyar bəy ........................................................................... 57
Kalva Əsəd ............................................................................. 60
Kal ........................................................................................ 66
Cahangir ağa ........................................................................... 70
Hacı Bağır............................................................................... 71
Maşa Murad............................................................................ 73
Qara Tanrıverdi....................................................................... 76
Telli Əsəd ............................................................................... 81
Qaçaq Kərəm .......................................................................... 92
Qaçaq Nəbi ............................................................................. 110
İsrafil ağa ............................................................................... 110
Əşrəf Çobanoğlu ..................................................................... 111
Əyyar İsrafil............................................................................ 112
Abuzər oğlu Məhəmməd......................................................... 114
Dəli Sadıq ............................................................................... 115
Pəhləvan Nağı......................................................................... 116
Məcidi Məcid vuracaq ............................................................ 117
Mirəli ağa ............................................................................... 118
Ağbaş axund ........................................................................... 130
Şıx Sədi .................................................................................. 131
Seyid Əziz .............................................................................. 133
Ocaq bağı................................................................................ 134
Hacı baba................................................................................ 135
Torpağın tavazası.................................................................... 135
Aç qapını, ört qapını ............................................................... 137
Anası gəzən ağacı qızı budaq-budaq gəzər ............................ 138
O günə də, bu günə də şükür ................................................. 138
Bəxtini sınayan arvad............................................................. 140
Padşahın şübhəsi.................................................................... 142
Atanın yalan andı.................................................................... 143
Qatırın nallanması.................................................................. 144
Hansımız gözəlik?.................................................................. 145
Vətənə gəldim, imana gəldim................................................ 147

Atam, oğul, can qardaş ........................................................ 147
Dəlləklə qəssabin bəhsi ........................................................ 148
Halallıq ........................................................ 149
Buna da şükür ........................................................ 150

**II. ETNOQRAFİK MƏTNLƏR**

Xıdır Nəbi ........................................................ 151
Novruz ........................................................ 154
Saya bayramı ........................................................ 155
Müsəlləyə çıxmaq ........................................................ 156
Cadügərlər haqqında ........................................................ 157
Vergili insanlar ........................................................ 158
Yağış yağdırmaq ........................................................ 159

**III. NAĞILLAR**

İki qardaş ........................................................ 160
Yazıya pozu yoxdur ........................................................ 170
Keçəçi Şah Abbas ........................................................ 175
Ağıllı qız ........................................................ 180
Ağılla Bəxtin mübahisəsi ........................................................ 182
Qismətdən qaçmaq olmaz ........................................................ 185
Allah versin ........................................................ 187
Anasını cütə qoşan Keçəl ........................................................ 192
Keçəllə Kosa ........................................................ 195
Dıbırın qeyrəti ........................................................ 198
Molla Nəsrəddin və qırx lotu ........................................................ 201
Fərsiz kişi ........................................................ 209
Küpənin nağılı ........................................................ 213

**IV. LƏTİFƏLƏR**

Dünənki sənətimdi, bugünkü səxavətim ........................................................ 216
Sənin atını alan bu putulkoydu ........................................................ 217
Qəpiyimi ver ........................................................ 218
İkinizin də yükünü mən çəkirəm ........................................................ 219
Mən də sizin biriniz ........................................................ 220

Qızım günümdür, oğlum ərim ........................................................ 220
Çıt......................................................................................................... 220
Eşşək səndən mərifətli düşüb ...................................................... 221
Şot, raşot.............................................................................................. 221
Buraya da sən baxırsan?.................................................................. 222
Qarı və qızı ......................................................................................... 222
Fit çalmaq ........................................................................................... 224

## V. AŞIQ RƏVAYƏTLƏRİ

Aşıq Ələsgərlə Molla Cümə .......................................................... 225
Aşıq Ələsgərlə Aşıq Alının deyişməsi ......................................... 226
Aşıq Alının Ələsgərdən incikliyi .................................................... 230
Aşıq Ələsgərlə Abbasın əhvalatı .................................................... 230
Qulaqkəsən qız .....................................................................................232
Aşıq Ələsgərin Anaxanıma şeir qoşması ..................................... 233
Aşıq Ələsgərin Dərələyəz əhvalatı................................................. 234
Onun papağı mənimkindən yekədir .............................................. 235
Həm bilirəm, həm də bilmirəm....................................................... 235
Aşıq Hüseynin Göyçə səfəri ........................................................... 236
Qaymaqlı koxa .................................................................................... 250
Nazik uzun közmü gətirim, yoxsa yoğun gödək köz? .......... 256
Aşıq Hüseynin Göyçəli Nəcəfə nəzirəsi ..................................... 258
Aşıq Hüseynin Ələsgərə ismarıcı ......................................................261
Sənin kimi qor-qoduğu üç manata .................................................. 262
Aşıq Mıqıç ............................................................................................ 263
Aşıq Hüseynlə Aşıq Avak ................................................................ 265
Aşıq Səməd ......................................................................................... 266
Dana məsələsi ...................................................................................... 266
Aşıq Qəhrəman .................................................................................... 269
Aşıq Nəcəfin ölümü ........................................................................... 271
Qaz əhvalatı ......................................................................................... 273

## VI. ŞEİRLƏR

Aşıq Valeh ........................................................................................... 282
Aşıq Abbas dastanından ................................................................... 282

Aşıq Hüseynin Molla Əhmədə şeiri.................................... 283
Mən .......................................................................... 284
Qalmaz ...................................................................... 284
Dünyada .................................................................... 285
Səni .......................................................................... 285
Olu............................................................................ 286
Görmüşəm ................................................................. 286
Yaylıq........................................................................ 286

**VII. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR .......................... 288**

**VIII. BAYATILAR .......................................................... 290**

**IX. TAPMACALAR VƏ BAĞLAMALAR...................... 298**

**X. DÜZGÜLƏR, MAHNILAR, ƏZİZLƏMƏLƏR ......... 303**

**Mətnlərin söyləyiciləri ...................................................... 309**
**Söyləyicilər haqqında ümumi məlumat........................... 318**

**Tovuz folklor örnəkləri**, **II kitab**
Bakı, "Elm və təhsil", 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığan:
**Səfa Əliyeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 20,5 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.